**BAĞIŞLAYAN VƏ MEHRİBAN ALLAHIN ADI İLƏ**

# QƏRB ÖLKƏLƏRİNDƏ MƏSKUNLAŞANLAR ÜÇÜN FİQH TƏLİMİ

**Ayətullah əl-üzma Seyid Əli Sistani**
**Tərcümə: Bəxtiyr Hüseynov**

## ÖN SÖZ

Həzrət Ayətullah əl-üzma Seyid Əli Sistaninin fətvalarına müvafiq olaraq tərtib edilən "Qərb ölkələrində məskunlaşanlar üçün fiqh təlimi" əsərini əziz oxucuların istifadəsinə təqdim etdiyimə görə özümü xoşbəxt hiss edirəm.

Əlinizdəki əsər bu və ya digər səbəblə öz vətənini tərk edərək doğma yurdlarından ayrılmalı və qeyri-müsəlman ölkələrindən birində, müsəlman ölkələrində mövcud olan həyat tərzindən köklü surətdə fərqlənən qanunların, adət-ənənələrin hökm sürdüyü bir cəmiyyətdə yaşamalı olan, bunun nəticəsində həllini gözləyən bir sıra özünəməxsus problemlərlə üzləşən insanlar üçün bir qisim şəriət hökmlərinin aydınlaşdırılması istiqamətində atılan ilk addımdır.

Bu proses qərb ölkələrinə mühacirət edən müsəlmanların həyati önəm kəsb edən probləmlərinin həllinə işıq tutan bir əsərin qələmə alınmasını zəruri edirdi. Beləliklə, qeyd etmək lazımdır ki, qarşınızdakı risalə özünəməxsus üslubu ilə seçilir və öz məqsədini bir giriş və iki fəsil çərçivəsində gerçəkləşdirərək əsasən, ənənəvi fiqh mənbələrində, risalələrində olduqca az bir qisminin öz əksini tapdığı tamamilə yeni mövzuları əhatə edir.

Əsərin mövzuları oxucuların problemlərinin həllinə çalışmaqla yanaşı yeni-yeni sualların ortaya çıxmasına da yol aça bilər. Bildirmək istəyirik ki, dəyərli oxucularımızın belə sualları əsərin növbəti nəşrlərində cavablandırılması üçün bizə ünvanlaması bizi sevindirərdi.

Bu əsər müəllifin "Asanlaşdırılmış şəriət hökmləri" və "Seçilmiş şəriət məsələləri" adı ilə işıq üzü görən ilk iki işinin davamı sayılan üçüncü əsəridir. Müəllif sözügedən üç əsərin hər birində oxucu auditoriyasının fiqh və İslam şəriətinə bağlılığını gücləndirməyə, bu bilikləri həmin sahənin mütəxəssisi olmayan oxuculara sevdirərək aşılamağa çalışmışdır. Bu məqsədə nail olduğumuz halda uca Allaha minnətdarlığımızı bildiririk. Əks təqdirdə də görülən işi

üzərimizə düşən vəzifənin icrası istiqamətində atılan bir addım hesab edirik və inanırıq ki, müvəffəqiyyət yalnız və yalnız Allahdandır.

Müəllif nəşrdən öncə müalicə məqsədilə bir müddət Londonda məskunlaşmalı olan ilahiyyatçı atasını da bu əsərin bir sıra fəsilləri ilə tanış etmiş və onun da rəy və tövsiyələrindən faydalanmışdır. Uca Rəbbimizin bu faydalı işi bizdən qəbul etməsini diləyirik!

Fürsətdən istifadə edərək əlinizdəki əsərin ərsəyə gəlməsinə yardım edən hər kəsə, xüsusən, dəyərli vaxtını ayıraraq bir sıra suallarla şəxsən maraqlanan Həzrət Ayətullah əl-üzma Sistaniyə və eləcə də onun yardımını bizdən əsirgəməyən, səmimi munasibətlərini ortaya qoyaraq fətvaların onun rəyi ilə uyğunlaşdırılmasına çalışan Nəcəfi-Əşrəf, Qum və London şəhərlərindəki nümayəndələrinə sonsuz minnətdarlığımızı bildirmək istəyirik.

Allah (c.c.) hamımızı razılığı olan işlərə doğru istiqamətləndirsin və bəyəndiyi işlərdə bizə müvəffəqiyyət bəxş etsin! Amin!

**“... Ey Rəbbimiz, (bəzi tapşırıqlarını) unutduqda və ya yanıldıqda bizi cəzalandırma! Ey Rəbbimiz, bizdən əvvəlkiləri yüklədiyin kimi, bizi ağır yükləmə! Ey Rəbbimiz, gücümüz çatmayan şeyə bizi mükəlləf etmə! Bizi əfv edib bağışla, bizə rəhm et! Sən bizim ixtiyar sahibimizsən (mövlamızsan). Kafirlərə qələbə çalmaqda bizə kömək et!”** *(Bəqərə surəsi, 286-cı ayə)*

Əbdülhadi Məhəmmədtəqi Həkim

27 ramazan 1418-ci h.q. ili

## KİTABIN HEKAYƏSİ

Hicri-qəməri təqvimlə 1416-cı ilin rəcəb ayına təsadüf edən (dekabr, 1995) günəşli bir qış günü səhər saatlarında Böyük Britaniyanın paytaxtı Londona uçan təyyarə havalandı.

Təyyarə şərqdən qərbə, günəşli ölkədən buludlar paytaxtına doğru istiqamət götürmüşdü. Pəncərələrdən içəri daxil olan qızmar günəş şüaları ilə vidalaşırdım. Eynilə dərin mənalı bir hərarətlə tərk etdiyim doğma vətənim kimi.

Təyyarə səmada sabit bir nöqtədə qərar tutmuş kimi hərəkətini tənzimləyərək səssiz və həzin uçuşuna davam edərkən mən də uşaqlıqdan yanımdan ayırmadığım kiçik həcmli Qurani-Kərim nüsxəsindən bir neçə surə oxumaqla boş vaxtımı səmərəli keçirməyi məqsədəuyğun hesab etdim.

Mən Nəcəfi-Əşrəfdəki geniş evimizdə dünyaya gəlmişdim. Uşaqlıqdan babamın hər sabah, günorta namazlarından sonra, eləcə də səfər əsnasında və digər əlverişli vaxtlarda Quran oxuduğuna, həmçinin atamın həmişə cibində Allah kitabının bir nüsxəsini daşıdığına və onu heç zaman, istər evdə, istərsə də səfərdə olduqda yanından ayırmadığına şahid olmuşdum. Bu xatirələrlə müqəddəs kitabı açdım, ruhumu, mənəvi aləmimi, damarlarımdakı qanımı yumaq, dilimi maddi dünyanın nöqsanlarından, çirkinliklərindən təmizləmək, habelə uca Allahdan göylə yer arasında havada qalan bu dəmir parçasını bədbəxt hadisələrdən qoruması üçün yardım diləmək məqsədilə seçdiyim ayələri ahəstə səslə oxumağa başladım.

Artıq günorta idi və namazın vaxtı çatırdı. Oturduğum oturacaqdan qalxaraq ayaq yoluna getdim, dəstəmazımı təzələyərək cibimdən çıxardığım daraqla saçımı, saqqalımı səliqəyə saldım və üstümdəki kiçik ətir şüşəsindəki xoş ətirdən istifadə etdim. Belə adət etmişdim, çünki ətirlənməyin bəyənilən bir iş olduğunu və sevimli Peyğəmbərimiz Həzrət Məhəmmədin (s) ətiri sevdiyini oxumuşdum. Həmçinin kitablarda oxumuşdum ki, ətirlənmiş halda qılınan namazın dəyər və mükafatı yetmiş dəfə artar. Dəstamaz alaraq saçımı daradıqdan və ətirləndikdən sonra ayaqyolu kabinəsinin qapısını açdım və sərnişin salonuna çıxaraq oturacağıma doğru yönəldim.

Yerimə oturan kimi uşaqlıqdan əzbərlədiyim ayələri oxumağa başladım. Bir tərəfdən isə harada namaz qılacağımı, qiblənin istiqamətini necə təyin edəcəyimi, ayaq üstə, yoxsa oturaq halda namaz qılmalı olduğumu fikirləşirdim. Bu suallar məni bir qədər məşğul etdi.

Dərhal hafizəmə müraciət etdim və dini biliklərimdən yardım almağa çalışdım. Fəqihlərin sözlərini xatırladım. İnsan bacardıqca ayaq üstə, yalnız bacarmadığı, əlverişli şərait olmadığı təqdirdə oturaraq namaz qılmalıdır. Beləliklə, bir hökmdən başqa bir hökmə yönələrək gücüm, məlumatım yetən qədər addım-addım həqiqətə yaxınlaşırdım. Axı bilirdim ki, namaz qılmaqdan heç bir vəchlə imtina etmək olmaz. Hər zaman bir yolu vardır.

Bu nəticəyə gəldikdə ayaq üstə namaz qıla biləcəyim bir yer tapmaq məqsədilə təyyarənin göyərtəsinə göz gəzdirdim. Salonun bir ucunda namaz qılına biləcək boş bir yer gördüm. "Yer hazırdır" – dedim öz-özümə, - "indi isə gərək qiblə istiqamətini təyin edim və təyyarə sabit hərəkətdə ikən vacib namazımı qılım". Birdən yadıma düşdü ki, təyyarə personalından qiblənin istiqamətini öyrənə bilərəm.

Elə bu zaman sərnişinlərə çay gətirən stüardessanın yaxınlaşmasından istifadə edərək nöqsanlı bir ingiliscə ilə dedim:

- Sizdən bir məlumat almaq istəyirəm.

- Buyurun.

- Zəhmət olmazsa, deyin, qiblə hansı istiqamətdədir?

- Qiblə? Yəni müqəddəs Məkkə?

- Bəli! Günorta namazını qılmaq istəyirəm.

- İcazə verin pilotdan soruşum.

Stüardessa pilotlardan qiblənin istiqamətini öyrənmək məqsədilə pilot kabinəsinə doğru yönəldi. Həmin əsnada namaz qılmaq üçün təmiz bir döşəmə örtüyünə də ehtiyacım olduğunu xatırladım. Geri dönərək sualıma cavab verən stüardessadan üzərində namaz qıla biləcəyim bir parça, yaxud iri qəzet vərəqi gətirməsini də xahiş etdim.

Onun gətirdiyi mələfəni göyərtənin boş və əlverişli bir yerində döşəməyə sərərək üstündə zöhr və əsr namazlarını müsafir qaydası ilə iki rəkətlik qılaraq ardınca Həzrət Fatimə (s.ə.) təsbihatını zikr etdim, sonra Rəbbimə şükür edərək yenidən oturacağıma qayıtdım. Vəziyyətim dəyişmişdi, özümü daha rahat hiss edirdim. O günədək belə düşünürdüm ki, təyyarədə namaz qılmaq olduqca çətin və

yorucu bir işdir və məni əziyyətə salaraq insanlar tərəfindən barmaqla göstərilməyimə səbəb olacaqdır. Ancaq yanılmışdım. Aydın oldu ki, namaz mənə xüsusi bir ehtiram, insanların, hətta birlikdə səfər etdiyim müsəlman olmayan sərnişinlərin, eləcə də uçuş personalının nəzərində özünəməxsus bir görkəm qazandırmışdı.

Elə bu düşüncələrə dalmışdım ki, birdən səsucaldıcıdan elan olundu ki, sərnişinlərə nahar verilir. Stüardessalar dərhal yaxınlaşaraq sərnişinlərdən mövcud menyudan istədikləri yeməkləri sifariş etmələrini xahiş etdilər. Növbə mənə çatdıqda stüardessalardan biri soruşdu: "Hansı yeməyi xoşlayırsınız: balıq, yoxsa toyuq əti?"

Balığı tərcih etdim. Ancaq ona görə yox ki, balığı toyuq ətindən daha çox xoşlayırdım, sadəcə bu səbəblə ki, toyuq qeyri-müsəlmanlardan alınmışdı və onun şəriət qaydalarına müvafiq şəkildə kəsildiyinə əmin deyildim. Bu, qərb ölkələrinə gerçəkləşdirdiyim hər səfərimdə qarşılaşdığım bir problem idi.

Mən bir müsəlman ölkəsində dünyaya gəlmiş, böyümüşəm. Nə zaman ətindən yediyim inək, qoyun, yaxud toyuğun doğru qaydada kəsildiyinə şəkk etsəm, yaxud bazardan aldığım balığın halal olub-olmamasına şübhə etsəm, bu şəkk-şübhələrə etina etməzdim. Çünki onlar müsəlman bazarından alınırdı və arxayınlıqla, tərəddüdü bir kənara qoyaraq yeyə bilirdim. Lakin qərb ölkələrində vəziyyət tamamilə fərqlidir. Müsəlman olmayanlardan aldığım ət və ət məhsullarını İslam şəriətinə, fiqh qaydalarına uyğun şəkildə kəsildiyinə əmin olmadan yeyə bilmərəm və bu xüsusda arxayınlıq hasil etmək o qədər də asan bir iş deyil.

Beləliklə, stüardessa yeməkləri gətirdi. Naharım olduqca ləziz və iştahagətirici bir yemək idi. Qarşıma günəbaxan yağı ilə qızardılmış balıq və kartof, az miqdarda düyü, salad və göyərti, iki yaşıl zeytun dənəsi, bir qədər qara üzüm və əncir, şirniyyat, tək istifadəlik qablaşdırmada su, duz, qənd və bir sıra ədviyyələr, iki dilim çörək, həmçinin qaşıq, çəngəl, bıçaq və salfet qoyulmuşdu.

Kifayət qədər aclıq hiss edirdim. Ona görə də ilk növbədə Allaha həmd-səna edərək dərhal çəngəli balığa batırdım ki, onunla balığı tutaraq digər əlimdəki

bıçaqla onu xırda tikələrə bölüm. Ancaq balığın dadına baxmamış daha bir tərəddüd məni bürüdü.

Görəsən, yeməyə hazırlaşdığım pulcuqlu balıqdır, yoxsa deyil? Onu sudan diri halda tutublar? Balıqçının torunda ölüb, ya yox? Onu ovlayan balıqçı müsəlman olub, yoxsa kafir? Ov əsnasında Allahın adı çəkilib, yoxsa yox? Balığın qızardıldığı yağ necə, təmiz olub, yoxsa yox? Nəhayət, balığı qızardan, görəsən, müsəlmandır?

O an düşüncəmi məşğul edən bu suallar olduqca yorucu gəlmiş və bir anlığına məni aclıq hiss etməyimə baxmayaraq həmin ləziz və isti balığın dadına baxmaqdan çəkindirmişdi. Ancaq bu o qədər də önəmli deyildi. Çünki balığın pulcuqlulardan olduğuna, sudan diri halda tutulduğuna, yaxud balıqçının torunda öldüyünə əmin olduqdan sonra onu ovlayanın müsəlman olub-olmamasından və ya ovlayarkən bismillah deyib-demədiyindən asılı olmayaraq yeyə bilərdim. Çəngəllə balıqdan bir qədər götürərək boşqabıma qoydum və bir daha beynimi məşğul edən şəriət məsələlərini hafizəmin süzgəcindən keçirdim. Yola çıxmazdan öncə təqlid etdiyim müctəhidin əməliyyə risaləsini mütaliə etdiyimi xatırladım. Balıqla bağlı heç bir problem qalmamışdı. Bu dəfə isə günəbaxan yağını düşündüm. Görəsən, pakdır, halaldır? Cavab özünü çox gözlətmədi. Əlbəttə! Nəcis olduğuna, murdar sayılan bir şeyə toxunduğuna əmin olmadıqca hər şey sənin üçün pakdır. Bu yağın da nəcis olduğuna dair məlumatım olmadığına görə deməli pakdır. Yağ da təmiz olduğuna görə, demək ki, onunla bişirilən balıq da təmiz və halaldır. Beləliklə, qida məhsulları ilə bağlı hər şey qaydasındadır. Bircə qalır onu bişirən. Görəsən, müsəlmandırmı, yaxud pak hesab olunan kitab əhlindəndirmi? Əlbəttə, bu önəmli bir məqamdır. Ancaq mən bilmirəm ki, aşpazın qarşımdakı yeməyə əli toxunub, yoxsa toxunmayıb. O zaman yenə də fiqhin “nəcis olduğuna (nəcisə bulaşdığına) əmin olmadıqca hər şey sənin üçün pakdır” qaydasını xatırladım. Həmin qaydaya müraciət nəticəsində bu nəticəyə gəlmək olur ki, təyyarədə verilən balıq mənşəli qida təmizdir və mən onu halallıqla yeyə bilərəm. Bu nəticəyə gələr-gəlməz dərindən nəfəs aldım və arxayınlıqla çəngəlimi əlimə alaraq xırda hissələrə böldüyüm balıq tikələrinin dadına baxdım. Sonra yağda qızardılmış və nəcis

olduğuna dair məlumatım olmayan kartof qızartmasını, eləcə də halal və pak bildiyim çörək, salad, meyvə və şirniyyatı da yedim. Ardınca isə bir istəkan su və bir fincan çay qəbul etdim. Bütün bu qida məhsulları ilə bağlı İslam şəriətinin hökmü birmənalı idi.

Allaha həmd-səna edərək nemətlərinə görə şükür etdim. Sonra bir qədər dincəlmək üçün gözlərimi yumdum. Lakin çox keçmədən gözlərimi açdım və təyyarənin pəncərəsindən səmaya göy gəzdirdim, açıq mavi rəngə bürünmüş sonsuzluq görürdüm. Ardınca aşağıya boylandım, bir qədər mavi sulara tamaşa etdim. Bu rəng hər tərəfdən məni əhatə etmişdi, sanki sonsuz bir fəza boşluğunda üzürdüm.

Təyyarə yerdən otuz min foot hündürlükdə uçurdu və Londonun Hitrou havalimanına enməsinə daha 2,5 saat var idi.

Göyərtəyə göz gəzdirdikdə gördüm ki, sərnişinlərdən bəziləri stüardessaların onlara gətirdiyi qəzetləri oxumaqla məşğuldur, bir qismi isə dərin yuxuya dalmışdır. Sakitcə əlimi uzadaraq sabah qəzetlərindən bir nüsxə götürdüm. Başlıqlar oxucuların diqqətini cəlb etməsi üçün tünd qara və eləcə də rəngli hərflərlə dərc olunmuşdu. Sərlövhələrə göz gəzdirərkən diqqətimi toplaya bilmirdim. O an həmin günlərdə düşüncələrimi davamlı olaraq məşğul edən bir fikir yenidən beynimi qurcalamağa başlamışdı: “Mən əcnəbi bir ölkədə öz mədəni kimliyimi necə qorumalıyam?!”

Avropaya səfərimi necə keçirməliyəm sualı uzun müddət idi ki, zehnimi məşğul edirdi. Yola çıxdığım andan etibarən bu fikir məni narahat edirdi. Hal-hazırda da ən önəmli qayğılarımdan birini təşkil edən bu problemi hər an düşünməkdəyəm. Yatanda da, yuxudan oyananda da, sabah da, axşam da qeyri-ixtiyari olaraq bu fikir məni özünə məşğul etməkdədir.

Bir dəfə məndən öncə Londona səfər edən bir dostum telefon əlaqəsi vasitəsi ilə mənə bir sıra tövsiyələr etmişdi. Bir dəfə isə kitabxanada bu mövzu ilə əlaqədar oxuduğum bir kitab diqqətimi cəlb etmişdi. Həm o kitab, həm də dostum məni məzmununu qısaca belə ifadə edə biləcəyim bir məsələyə diqqət yetirməyə sövq etmişdi: Qərbə mühacirətin mənfi nəticələri insanın İslam dünyasından fiziki

anlamda tamamilə uzaqlaşması, dini bilik və məlumatlarının zəifləməsi ilə yekunlaşmır, hətta bəzən bundan qat-qat daha önəmli olan məqamlar da qarşıya çıxır. O da bundan ibarətdir ki, müsəlman fərd belə mühitlərdə öz mənəvi və ictimai kimliyindən uzaqlaşır və İslam əxlaqından, adət-ənənələrindən ayrı düşür.

Həmin əsərin müəllifi sözlərinə belə əlavə etmişdir: "Qərb ölkələrinə mühacirət etmək məcburiyyətində qalan müsəlman həmin cəmiyyətlərdə rastlaşmayacağı, sağlam dini dəyərlərin qorunduğu bir mühiti özü üçün yaratmalıdır. Doğrudur, o mövcud cəmiyyəti tamamilə dəyişdirə bilməz, ancaq öz ətrafında özünəməxsus bir sağlam mühit yarada bilər.

Belə bir şəraitdə İslami dəyərlərin özünü göstərdiyi əlverişli bir mühit yaratmaq cəhdi insanın yoluxmamaq və ya şüurlu tədbirlər sayəsində qarşısını almaq istədiyi bir epidemiyaya qarşı vaksinasiya olunmasına bənzəyir. Buna asanlıqla nail oluna biləcəyini iddia etmirik. Belə primitiv təşbihlərlə də bu önəmli məsələni həll olunmuş saymaq olmaz. Digər tərəfdən isə bütün bu çətinliklər də inanclı bir insanın kimliyinin, şəxsiyyətinin özülünü təşkil edən dini öhdəliklərinə dəyə biləcək zərərin önəmini azaltmır. Buna görə də belə cəhd və tədbirlərin həyatın digər sferalarında (məişət, sosial, iş həyatı və s.) qarşıya çıxara biləcəyi çətinliklərə, problemlərə rəğmən, bu məsələyə həssas yanaşmağımız daha məqsədəuyğun olardı.

Bu səfərlərin mənfi nəticələrini nəzərə aldığımız ölçüdə həmin problemlərdən azad olmaq üçün də tədbirlər görməyə çalışmalıyıq.

Qərb ölkələrində dünyəvi işlərində, təhsilində, karyerasında və həyatının digər sferalarında uğur qazanmağa çalışan müsəlman bu uğurda axirət həyatını, mənəviyyatını unutmamalıdır. Hər bir tacir (iş adamı) kimi öz şərəf və ləyaqətini hansısa məbləğ müqabilində zədələməməyə çalışmalıdır. Hər bir xəstə kimi sağlamlığına qovuşmaq üçün dərmanın acılığına, iynənin, cərrahi müdaxilənin ağrısına və digər müalicəvi tədbirlərin çətinliklərinə dözməlidir ki, xəstəlik ona qalib gəlməsin.

Beləliklə, sözügedən mənəvi problemlərin mövcud olduğu mühitlərdə yaşayan hər bir müsəlman özünü belə xoşagəlməz maneələrdən, təhlükələrdən

qorumalı və onların qarşısını almaq məqsədilə özü üçün dini dəyərlərini yaşada biləcəyi əlverişli bir atmosfer yaratmalıdır”.[1]

O, özü, ailəsi, övladları və hətta din qardaşları üçün belə sağlam ictimai mühitin yaranmasına çalışaraq Rəbbinin göstərişinə əməl etməlidir:

***“Ey iman gətirənlər! Özünüzü və əhli-əyalınızı elə bir oddan qoruyun ki, onun yanacağı insanlar və daşlar (daşdan düzəlmiş bütlər), xidmətçiləri isə Allahın onlara verdiyi əmrlərə asi olmayan, buyurulduqlarını yerinə yetirən daş qəlbli (heç kəsə zərrəcə rəhm etməyən) və çox sərt təbiətli mələklərdir (zəbanilərdir)”.*[2]**

Ən ali kəlamın sahibi başqa bir ayədə buyurur: ***“Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər...”*[3]**

Sevimli Peyğəmbərimiz (s) isə belə buyururdu: “Hər biriniz (bir-birinizə) nəzarətçisiniz və hər biriniz öz rəiyyətiniz (burada: bir-biriniz) haqqında sorğu-suala çəkiləcəksiniz”. Beləliklə, yaxşı işlərə sövq etmək və pis əməllərdən çəkindirmək vəzifəsinin icrası bir zərurətdir. Uzun sözün qısası belə bir qorunma və nəzarət aşağıdakı amillər zəminində realizə oluna bilər:

1) Müsəlman hər gün imkan çərçivəsində ayələri imanlı insanlar üçün ilahi bəsirət, hidayət və rəhmət sayılan Qurani-Kərimdən bəzi surələri oxumalı, yaxud dinləməlidir:

***“... Bu (Quran, vəhylər) Rəbbiniz tərəfindən (göndərilmiş) aşkar dəlillərdir, həm də iman gətirən bir tayfa üçün hidayət və mərhəmətdir”.*[4]**

***“Quran oxunan zaman onu dinləyin və susun ki, (onun sayəsində) sizə rəhm olunsun!”*[5]**

---

[1] Dəlil əl-muslim fi bilad əl-ğurbə, səh.27-37.

[2] Təhrim surəsi, 6-cı ayə.

[3] Tövbə surəsi, 71-ci ayə.

[4] Əraf surəsi, 203-cü ayə.

[5] Əraf surəsi, 204-cü ayə.

Qurani-Məcidlə yaxından ünsiyyətdə olan insanın həyatında bu ünsiyyət nəticəsində nələrinsə artması və azalması labüddür, o cümlədən, hidayət nurunun, haqq yolda sabitqədəmliyin artması və mənəvi korluğun və azğınlığın azalması.[1]

Əmin olun ki, Qurani-Kərimin dəyərlərinə sahib olanlar əsla mənəvi yoxsulluq və acizliklə üzləşməz, sahib çıxmayanlar isə heç bir vəchlə mənəvi zənginliyə nail ola bilməzlər. Ondan xəstəliklərinizə şəfa tapmaq üçün yardım alın və çətinliklərlə üzləşdikdə ondan mədəd umun. Qurani-Kərimdə ən böyük mənəvi xəstəlik olan küfr (allahsızlıq), azğınlıq, mənəviyyatsızlıq probleminin həlli yolları öz əksini tapmışdır. Diləklərinizi Allahdan Onun kitabının vasitəçiliyi ilə diləyin, onun sevgisi ilə Rəbbinizə üz tutun və onu insanlardan istədiklərinizi əldə etmək üçün alətə çevirməyin. Bəndələrin Allaha qovuşmaq yolunda ona bərabər başqa bir vasitəçisi yoxdur. Bilin ki, bu ilahi kitab, şübhəsiz, vəsatəti qəbul olunan bir şəfaətçi, təlimləri təsdiqlənmiş bir kəlamdır. Qurani-Kərim qiyamət günü kimə şəfaətçilik etsə, onun şəfaəti mütləq qəbul ediləcəkdir.[2]

Kim gəncliyindən Qurani-Məcidlə ünsiyyətə nail olarsa, bu ali ilahi kəlam onun ruhuna nüfuz edər, Allah (c.c.) da onu müqərrəb mələklərinə yoldaş edər və qiyamət günü Quran onu cəhənnəm əzabından qoruyar.[3]

Daha yaxşı olar ki, müsəlman səfərlərində faydalı və daşınması asan olan qısahəcmli təfsir əsərlərini də özü ilə götürsün.

2) Vacib namazlarını vaxtlı-vaxtında qılmalı, imkan daxilində nafilə (müstəhəb) namazları da qılmağa çalışmalıdır. Sevimli Peyğəmbərimiz (s) Mutə döyüşünə yollanan Abdullah ibn Rəvahəyə Mədinəni tərk edərkən tapşırıqlarını verdikdə buyurmuşdu: “Sən elə bir diyara yollanırsan ki, oranın sakinləri Allaha (c.c.) olduqca az səcdə edirlər. Buna görə də, sən orada Allaha bacardığın qədər çox səcdə et!”[4]

---

[1] Bax: Nəhc əl-bəlağə (Sübhi Salehin redaktəsi ilə), səh.252.

[2] Bax: öncəki mənbə.

[3] Usul əl-kafi, c.2, səh.603.

[4] Vəsail əş-şiə, c.4, səh.87-105.

Zeyd Şəhham İmam Sadiqə (ə) istinadən Allahın elçisinin (s) belə buyurduğunu nəql edir: “Allah yanında ən sevimli əməl namazdır. Namaz peyğəmbərlərin vəsiyyətlərində öz əksini tapan son tapşırıqdır”.[1]

Möminlərin əmiri (ə) də namazla bağlı tövsiyələrini açıqlayaraq buyurmuşdur: “Namaza qarşı intizamlı, diqqətli olun, bacardığınız qədər çox namaz qılın və namaz vasitəsilə Allaha yaxınlaşmağa çalışın. Namaz möminlər üçün müəyyən vaxtlarda vacib edilmiş ibadətdir. Məgər cəhənnəm sakinlərindən, “sizi cəhənnəmə gətirən nə oldu?” – deyə soruşulduqda onların verəcəkləri cavabı eşitməmisinizmi? Onlar: “Biz namaz qılanlardan deyildik”, – deyəcəklər.

Həqiqətən, namaz günahları ağac yarpaqları tək insan ruhundan qopararaq üzərindən tökür, itaətsizlik zəncirlərini çürümüş ip kimi doğrayır. Allahın elçisi (s) namazı insanın qapısının önündəki xəyali bir hamama və onun isti suyuna bənzədərək soruşardı ki, məgər bir insan gündə beş dəfə həmin hamamda çimərsə, bu təmizlikdən sonra onda hansı çirkdən, çirkinlikdən əsər-əlamət qala bilər?!”[2]

3) İmkan daxilində bir sıra duaları, münacatları və zikrləri də oxumalıdır. Dua və zikr insana günahlarını, nöqsanlarını xatırladır, onu tövbəyə sövq edir, xoşagəlməz işlərdən uzaq durmağa çağırır və onun üçün yaxşı əməllərtək axirət azuqəsinə çevrilir. İmam Səccada mənsub olan “Səhifeyi-Səccadiyyə”dəki dualar, Kumeyl ibn Ziyadın duası, Ramazan ayının duaları, o cümlədən Əbu Həmzə Somalinin duası, səhər duası, həftənin günlərinin özünəməxsus duaları və digər dua və zikrlər məhz bu keyfiyyətlərə malikdir. Hər bir müsəlmanın özünüislah yolunda belə dua və zikrlərə ehtiyacı vardır, xüsusilə də, qeyri-müsəlman ölkələrində məskunlaşdıqda.

4) Yaşadığı ölkədə fəaliyyət göstərən müsəlman ictimai təşkilatları ilə sıx əlaqələr qurmalı, onların fəaliyyətində yaxından iştirak etməlidir. Adətən, mübarək Ramazan ayında, dini bayram və əlamətdar günlərdə həmin təşkilatlar tərəfindən dini maarifləndirmə xarakteri daşıyan yığıncaqlar təşkil olunur. Digər tərəfdən

[1] Öncəki mənbə, səh.38.

[2] Nəhc əl-bəlağə, səh.317.

müsəlmanlar belə əlamətdar günləri öz evlərində də qeyd etməli, yaşatmalıdırlar, xüsusilə də, müsəlman ictimai təşkilat, müəssisə və mərkəzlərinin mövcud olmadığı cəmiyyətlərdə.

5) Qərb ölkələrində İslam araşdırmaları mövzusunda keçirilən tədbirlərdə, konfranslarda, simpoziumlarda iştirak etməlidir.

6) İslami biliklərin öz əksini tapdığı əsərləri, dövri nəşrləri müntəzəm olaraq əldə edərək oxumalı və mənimsədiyi biliklərdən başqalarını da faydalandırmağa çalışmalıdır.

7) İlahiyyatçı alimlərin, ruhanilərin min bir zəhmətlə, bəzən yuxusuz qalaraq hazırladığı, onların dəyərli və önəmli nəsihətlərini özündə ehtiva edən çıxışlarının audio və video lentlərini (habelə, günümüzdə CD, VCD, DVD və digər resursları *tərc.*) diqqətlə dinləməli, izləməlidir.

8) Mənəviyyatsızlığın hökm sürdüyü yasaq əyləncə məkanlarına getməkdən, mənfi təsirləri olan televiziya proqramlarına baxmaqdan, xüsusilə də, proqramları İslam mədəniyyəti və dəyərləri ilə uzlaşmayan televiziya kanallarını izləməkdən imtina etməlidir.

9) Allah yolunda qarşılıqlı hidayətə nail ola biləcəyi dostlar qazanmalıdır. O, dostlarını, dostları da onu haqq yoldan sapmaqdan qorumalıdır. Boş vaxtlarını həmin dostları ilə faydalı şəkildə dəyərləndirməlidir ki, bununla həm nalayiq dostluqların, həm də təcrid və izolyasiyanın mənfi nəticələrindən qorunmuş olsun.

İmam Sadiq (ə) ata-babalarına istinadən İslam Peyğəmbərinin (s) belə buyurduğunu nəql edir: “Müsəlman üçün İslamdan sonra ilahi dəyərlərə əsaslanan dostluq münasibətləri qurduğu din qardaşına bərabər ikinci bir nailiyyət tanımıram”.

Müyəssər adlı bir ravi nəql edir ki, İmam Sadiqlə (ə) görüşlərimizdən birində məndən soruşdu: “Dostlarınızla xəlvətə çəkilərək müxtəlif məsələləri müzakirə edirsinizmi?” “Bəli, biz tez-tez bir araya gələrək söhbətləşir və müzakirə olunası mövzuları müzakirə edirik” – deyə cavab verdim. İmam (ə) isə buyurdu: “And olsun Allaha ki, mən də sizin bəzi söhbətlərinizdə, müzakirələrinizdə iştirak etmək istəyirəm. Allaha and olsun ki, mən sizi, ruhunuzu sevirəm. Siz Allahın və

Onun mələklərinin dinindəsiniz. Beləliklə, təqva və səylərinizlə bizə yardımçı olun!”[1]

10) Hər gün özünü sorğuya çəkməli, hər həftə gördüyü işləri xatırlamalıdır. Yaxşı işlər gördüyü halda Allaha şükr etməli və yaxşı əməllərinin sayını artırmağa çalışmalı, gördüyü işlər, xoşagəlməz əməllərə rast gəldiyi halda isə Allahdan bağışlanma diləyərək tövbə etməli və həmin hərəkətlərin bir daha təkrarlanmayacağına dair özünə söz verməlidir.

Əziz Peyğəmbərimiz (s) Əbuzərə tövsiyələrindən birində buyururdu: “Əbuzər, sorğuya çəkilməzdən öncə özün özünü sorğuya cəlb et. Bu, sabahın (qiyamətin) sorğu-sualı üçün yaxşı bir hazırlıqdır. Əməllərini tərəziyə qoyulmamış özün ölç və uca Allahdan heç nəyin gizli qalmayacağı günün təqdimatına hazır ol. Əbuzər, kimsə özünü şərikin öz şəriki ilə mühasibəsi kimi sorğuya çəkərək əməllərini incələmədikcə təqvalı ola bilməz. İnsan qidasının, geyiminin haradan gəldiyini, halal, yoxsa haram olduğunu bilməlidir”.[2]

İmam Kazim (ə) bu məsələnin önəminə toxunaraq buyurmuşdur: “Hər gün nəfsini sorğuya çəkərək əməllərinin hesabını tutmayan, yaxşı işlər gördüyü halda uca Allahdan belə əməllərinin artırmasını istəməyən, pis işlər gördükdə isə Allahdan (c.c.) bağışlanmaq diləməyən, tövbə etməyən şəxs bizdən deyil”.[3]

11) Qurani-Kərimin və eləcə də İslam şəriətinin əksər orijinal mənbələrinin dili olan ərəb dilini öyrənməyə çalışmalıdır. Bununla yanaşı, ərəb dili milyonlarla müsəlmanın və eləcə də bir çox böyük din xadimlərinin ana dilidir. Qeyri-müsəlman ölkələrində təhsil alan tələbələr öyrəndikləri başqa əcnəbi dillərlə yanaşı öz dinlərini, dini dəyərlərini, tarixlərini və mədəniyyətlərini yaxından tanımaq üçün ərəb dilini də mənimsəməyə çalışmalıdır.

12) Gənc nəslin təlim-tərbiyəsinə həssas yanaşmalıdır. Müsəlmanlar öz övladlarını, həm oğlanlarını, həm də qızlarını Quran sevgisi ilə böyüdərək qiraət

---

[1] Usul əl-kafi, c.2, səh.187.

[2] Şeyx Tusi, Əmali, c.2, səh.19.

[3] Cami əs-səadat, c.3, səh.94.

müsabiqələrin təşkili və müxtəlif istiqamətli mədəni fəaliyyətlərlə bu məqsədə nail ola bilərlər.

Mühacirətdə yaşayan müsəlmanlar öz övladlarını kiçik yaşlarından ibadətə adət etdirməklə, yüksək əxlaqi keyfiyyətlərə (dürüstlük, şücaət, əhdə vəfa, humanizm və s.) yiyələndirməklə həyata hazırlamalı və onları özləri ilə dini tədbirlərə və dini-araşdırma mərkəzlərinə aparmalıdırlar. İslamın, müsəlmanların düşmənlərini onlara tanıtdırmalı, azyaşlı və gənc müsəlman övladları arasında dostluq və qardaşlıq münasibətlərinin güclənməsinə çalışmalı və dini-ictimai tədbirlərin təşkilində maddi və mənəvi yardımlarını onlardan əsirgəməmlidirlər.

Əmək və çalışqanlığını onlara sevdirməlidirlər ki, onlar da öz növbəsində İslamı daha yaxından tanıyaraq gələcəkdə müstəqil həyatlarını dini dəyərlər üzərində qura bilsinlər.

Bu yerdə düşüncələrimə bir az ara verərək pəncərədən səmaya boylandım. Hər tərəfdən bir-birinə yaxınlaşaraq yaşıl məxmərin üzərinə hörülmüş təmiz, lifi didilmiş panbığa bənzəyən ağ buludlar görürdüm. Olduqca gözoxşayan bir mənzərə idi. Gözlərim doyanadək tamaşa etdim. Bulud parçaları hərəkətdə idilər, bir-birinə yaxınlaşır, qarışır, sonra ayrılaraq bir-birlərinə yol verir, daha sonra uzaqlaşaraq gözdən itirdilər.

Sonra yenidən "Qərb ölkələrində necə yaşamalıyam?" sualı zehnimdə canlanmağa başladı. Dini-etiqadi mənsubiyyətimi qoruyaraq əcnəbi mədəniyyətə assimilyasiya olunmamaq üçün, digər tərəfdən isə sosial həyatımda çıxılmaz vəziyyətlərə düşməmək üçün nə etməliyəm? Sonra özümə başqa bir sualla müraciət etdim: Aralarına yeni qoşulduğum cəmiyyətin üzvləri mənim haqqımda nəyə əsaslanaraq mühakimə yürüdəcəklər?

Mən daima müxtəlif millətlərdən olan turistlərin baş çəkdiyi öz doğma vətənimdə, şəhərimdə bir qayda olaraq turistlərin davranışlarına əsaslanaraq onların milli mədəniyyəti haqqında özümdə təsəvvür formalaşdırırdım. Bir turist xoş əxlaq nümayiş etdirərdisə, onun həmvətənlərinin yaxşı insanlar olduğunu, xoşagəlməz hərəkətlərini gördüyüm müsafir və turistlərin soydaşlarının da onlara bənzədiklərini düşünürdüm. Beləliklə, bu yanaşma prinsipinə əsasən, qərblilər də

mənim davranışlarım əsasında müsəlman və İslam mədəniyyəti haqqında mühakimə yürüdəcək və həmin davranışları bütün müsəlmanlara aid edəcəklər. Mən sözündə və əməlində dürüst, əhdinə sadiq, əmanətə xəyanət etməyən bir insan olsam, nümunəvi əxlaq nümayiş etdirsəm və qanunvericiliyə, ictimai əxlaq qaydalarına riayət etsəm, ehtiyac sahiblərinə yardım etsəm, qonşularla xoş davransam və bir sözlə öz davranışlarımda Həzrət Məhəmmədi (s) örnək götürərək onun təlim və göstərişlərini həyata keçirsəm (onun əxlaq təliminə əsasən, dinin özəyi xoş əxlaqdır), müsəlman olmayan insanlarla münasibətlərimi məhz bu qaydada tənzimləsəm, onların mühakiməsi belə olacaqdır: İslam əxlaqi kamilliklər dinidir.

Lakin onlara yalan danışsam, sözümün üstündə durmasam, xoşagəlməz davranışlarımla ətrafımdakı insanları qorxuya düşürsəm, cəmiyyətdə sabitliyi pozsam, qonşulara pislik etsəm, ticarətdə qarşı tərəfi aldatsam, əmanətə xəyanət etsəm, bu münasibətlə üzləşən insanlar deyəcəklər ki, İslam ardıcıllarına gözəl xislətlər öyrədə bilməyən bir dindir.

Elə bu məqamda pilotun elanı məni dərin fikirdən ayırdı: “Hal-hazırda Almaniya hava məkanındayıq və Londona doğru hərəkət etməkdəyik”. Elanı dinlədikdən sonra çantamı açdım, yarımçıq qalan fikirlərimi tamamlamaq, cavabını gözləyən suallarıma cavab tapmaq üçün əlimə keçən bir kitabdan yardım almaq qərarına gəldim. Həmin kitabda İmam Sadiqin (ə) buyurduğu beş hədis diqqətimi cəlb etdi:

1) İmam (ə) öz ardıcıllarına buyururdu: “Bizim (Əhli-beyt) üçün zinət olun (insanlar içində üzümü ağardın), üzqarası olmayın (adımıza ləkə gətirməyin)! Bizi insanlara sevdirin, onları (xoşagəlməz əməllərinizlə) bizə düşmən etməyin!”

2) Başqa bir dəyərli kəlamında isə buyururdu: “Xeyirli, faydalı işlərdə bir-biri ilə yarışanlardan olun. Tikansız budaq kimi olun. Sələfləriniz iman ağacının tikansız budaqları, yarpaqları olmuşdur. Mən budaqsız, yarpaqsız tikan olmaqdan qorxuram. Rəbbinizə doğru səsləyin, insanları İslama gətirin, İslamdan uzaqlaşdırmayın. Sələfləriniz insanları İslama rəğbətləndirir, müsəlman edirdilər, onları İslamdan bezdirərək uzaqlaşdırmırdılar”.

3) Bir hədisində isə sözünü dinləyən, əməl edən ardıcıllarına salam göndədikdən sonra buyururdu: "Sizə Allah qarşısında təqvalı olmağı, dininiz xüsusunda xətalardan, günahlardan çəkinməyi, Allah yolunda çalışmağı, sözündə dürüst, əmanətə sadiq olmağı, səcdələrinizi artırmağı, uzatmağı, yaxşı qonşu olmağı tövsiyə edirəm. Məhəmməd (s) məhz belə bir ayin gətirmişdir. Sizə əmanət edənin əmanətinə, əməlisaleh və ya əxlaqsız olmasından asılı olmayaraq xəyanət etməyin. Allahın elçisi (s): "hətta əmanət iynə və sap belə olsa, onu qoruyaraq sahibinə qaytarın" – deyə əmr edərdi. Qohumlarınızla əlaqə saxlayın, onların dəfnindən iştirak edin, xəstələrinə baş çəkin və onların qarşısındakı vəzifələrinizə əməl edin. Aranızdan biri dinində təqvalı, sözündə dürüst, əmanətə vəfalı olarsa, insanlara xoş davranarsa, insanlar da "bu cəfəridir (Cəfər Sadiqin (ə) ardıcılıdır)" deyərsə, bu məni sevindirər. İnsanların onun xoş əxlaqını "bu Cəfərin tərbiyəsidir" – deyə qiymətləndirməsi məni məmnun edər. Əks təqdirdə isə hər hansı birinizin hər bir xoşagəlməz hərəkəti mənim adıma xələl gətirəcək və insanlar deyəcəklər: "budur Cəfərin tərbiyəsi!" Atam danışardı ki, hətta bəzi qəbilələrdə Əlinin (ə) ardıcılları qəbilənin gözbəbəyi sayılaraq aralarında əmanətə ən vəfalı, hüquqlara ən düzgün qaydada riayət edən, sözündə ən dürüst insanlar kimi tanınmışlar. İnsanlar ona vəsiyyət edərək, əmanətlərini ona tapşırardılar. Qəbilə üzvlərindən həmin şəxs barəsində soruşulduqda deyərdilər: "Onun tayı-bərabəri yoxdur, o əmanətə ən sadiq, sözündə ən dürüst insandır".

4) Başqa bir hədisdə isə İmam Sadiq (ə) belə buyurur: "Namazlarınızı məsciddə qılmalı, qonşularınızla xoş davranmalı, düzgün şahidlik etməli, dəfn mərasimlərində iştirak etməlisiniz. İnsanlarla ünsiyyətdə olmaq labüddür. Bəşər cəmiyyətinin heç bir üzvü təcrid həyatı yaşaya bilməz və Adəm oğullarının həyatı bir-birindən asılıdır".

5) Müaviyə ibn Vəhəbin, "öz yaxınlarımızla, eləcə də yadlarla necə davransaq, təqdirəlayiq hesab olunardı?" – sualına cavab olaraq İmam Sadiq (ə) buyurmuşdu: "Ardıcılı olduğunuz imamların davranışlarına baxın. Onlar xəstə insanlara baş çəkər, dünyasını dəyişənlərin dəfnində iştirak edər, ehtiyac olduqda

onların lehinə və əleyhinə doğru şahidlik edər, özlərinə əmanət edilənləri qoruyaraq sahiblərinə qaytarardılar”.[1]

Bu beş hədisi diqqətlə oxuduqdan sonra özümü bir qədər rahat hiss etdim. İmam Cəfər Sadiqin (ə) ardıcıllarına vəsiyyət və tövsiyə məzmunu ehtiva edən bu hədisləri yükümü bir qədər yüngülləşdirmiş, real bir sosial həyat proqramı təqdim etmiş və ictimai davranışın təməl prinsip və qaydalarını müəyyənləşdirmişdi. O an qərara aldım ki, qürbət ölkədə qarşıma çıxan önəmli hadisələri, aktual məsələləri qeydlər dəftərimdə qeyd edərək ilk fürsətdə fiqh ədəbiyyatının və mövcud mənbələrin yardımı ilə həmin problemləri həll edim. Cavab və çıxış yolu tapa bilmədiyim sual və problemlərlə bağlı isə təqlid etdiyim müctəhidə müraciət edərək onun fətvasını öyrənim. Beləliklə, Allahın (c.c.) yardımı ilə bu və ya digər bir qərb ölkəsində nə əxlaq, nə də fiqh (şəriət) sahəsində mənim üçün həll olunmamış heç bir problem qalmayacaqdı.

Bu minvalla qarşıma çıxan məsələlərlə bağlı şəriət hökmlərini bir-bir qeyd edir, mövcud yazılı mənbələrdə, o cümlədən əməliyyə risaləsində cavabını tapa bilmədiyim sualları isə müctəhidə ünvanlayırdım.

Qeydlərin əsasında hazırladığım kitab iki hissədən ibarətdir: ibadətlər və müamilələr. “İbadətlər” hissəsində qərb ölkələrində məskunlaşan müsəlmanlar üçün daha aktual olan məsələləri özündə ehtiva edən şəriət hökmləri və sual-cavablar yeddi fəsildə öz əksini tapmışdır:

1) Qeyri-müsəlman ölkələrinə mühacirət və həmin ölkələrdə məskunlaşmaq;

2) Təqlid;

3) Təharət və nəcasət;

4) Namaz;

5) Oruc;

6) Həcc;

7) Cənazə və dəfn.

[1] Vəsail əş-şiə, c.12, səh.6; Usul əl-kafi, c.2, səh.636.

Hər fəsil əhatə etdiyi mövzu ilə bağlı qısa bir giriş, qürbət ölkədə yaşayan müsəlmanların ən çox ehtiyac duyduğu şəriət hökmləri və ən aktual sual-cavabları özündə ehtiva edir.

"Müamilələr" adlanan ikinci hissə aşağıdakı fəsillərdən ibarətdir:

1) Qidalar

2) Geyimlər

3) Müsəlman immiqrant və yaşadiği ölkənin qanunverciliyi

4) Biznes və sərmayə

5) İctimai əlaqələr və sosial münasibətlər

6) Səhiyyə və tibb

7) Ailə həyati və nikah

8) Gəncləri maraqlandiran məsələlər

9) Qadinlari maraqlandiran məsələlər

10) Musiqi, müğənnilik və rəqs

11) Müxtəlif mövzular.

İkinci hissədə də hər fəsil qısa bir giriş, həmin fəslin əhatə etdiyi mövzu ilə əlaqədar ən önəmli şəriət hökmləri və ən aktual suallara Həzrət Ayətullah əl-uzma Sistaninin fətvaları əsasında verilən cavabları əhatə edir.

Əsərin sonunda isə iki əlavəyə[1] yer verilmişdir:

1) Yeyinti sənayesində istifadə olunan başlica haram qida maddələri

2) Yeyilməsi halal olan bəzi pulcuqlu balıqlar.

Kitab istifadə olunan mənbələrin siyahısı və mündəricat ilə başa çatır.

## MÜXTƏSƏR FİQH TERMİNLƏRİ LÜĞƏTİ

Həzrət Ayətullah əl-üzma Sistaninin cavablarında öz əksini tapan bir sıra fiqhi istilahların izahı aşağıdakı kimidir:[1]

---

[1] Əsərin orijinalında üç əlavə mövcuddur. I əlavə istiftaların (Həzrət Ayətullah əl-uzma Sistaniyə ünvanlanan suallar və onlara cavab olaraq verilən fətvaların) əlyazma nüsxəsinin fotokopiyasını əhatə edir. Ərəb dilində olan həmin sual-cavablar kitabın müxtəlif fəsillərində də öz əkini tapdığından oxucularımız üçün bu əlavənin lüzumsuz olduğunu düşündük və əsərin "Əlavələr" hissəsində digər iki əlavənin tərcüməsi ilə kifayətləndik. *Tərc.*

1 – istihbabi (müstəhəb) ehtiyat: mükəlləfin icrasından imtina edə biləcəyi ehtiyat hökmü.

2 – vücubi (vacib) ehtiyat: mükəlləf üçün icra etmək (ehtiyatın tələbinə riayət etmək) və ya ələmlik[2] xüsusunda ardıcıllığa riayət etməklə başqa bir müctəhidə müraciət etmək arasında seçim imkanı tanıyan ehtiyat hökmü.

3 – nəzirlə ehram: Həcc ayinini icra etmək üçün yalnız Miqat və ona paralel olan məntəqələrdə ehram bağlamaq olar. Mükəlləf Miqata çatmamış ehram bağlamaq istəyirsə, şəriət qaydası ilə nəzir edə, məsələn, "Allah yolunda (Allaha yaxınlaşmaq, Onun razılığını qazanmaq üçün) filan yerdə ehram bağlayacağam" deyə bilər. Beləliklə, həmin yer Miqat və onun ərazisi sayılmasa da, orada mührim ola (ehram libasını geyinə) bilər.

4 – övla əhvət=istihbabi ehtiyat.

5 – lüzumi əhvət=vücubi ehtiyat.

6 – istihalə (bir haldan başqa hala keçmə): bir əşyanın ürfən (insanların nəzərində) əvvəlki əşya hesab edilməyəcək dərəcədə dəyişərək başqa bir şeyə çevrilməsi; məsələn: ətin çürüyərək torpağa qarışması.[3]

7 – istishab: öncəki mühakimə və statusun sonradan yaranan şəkkə, şübhəyə rəğmən mötəbər hesab edilməsi (öz qüvvəsində qalması); məsələn: öncədən adil[4] şəxs kimi tanıdığımız bir nəfərin sonradan onun adilliyinə xələl gətirib-gətirmədiyi

---

[1] Hər bir elmdə olduğu kimi fiqh elmində də terminologiya ilə bağlı problemlər mövcuddur. Müxtəlif fiqhi terminlərə ixtisas ədəbiyyatında və eləcə də lüğətlərdə verilən izahlar bir çox hallarda terminoqrafiyanın tələblərinə cavab vermir. Ana dilimizdə isə fiqh terminləri lüğətinin mövcud olmaması fiqh ədəbiyyatının lazımı səviyyədə başa düşülməsində bir sıra əngəllər yaratmaqdadır. Bu əsərdə də verilən fiqhi terminlərin bir çoxu üçün azərbaycan dilində ekvivalent termin olmadığından biz də əsasən həmin terminlərin daha öncə fiqh ədəbiyyatında, risalələrdə öz əksini tapan və dindar oxucular üçün mənası aydın olanlarını (nəcasət, təharət, müstəhəb, ehtiyat və s.) olduğu kimi saxlamış, ana dilimizdə nəşr olunan fiqh ədəbiyyatında ekivalentinə rast gəlmədiyimiz terminlərin tərcüməsində isə təsviri üsuldan istifadə etmişik. *Tərc.*

[2] "Ələm" istilahının izahı üçün fiqh ədəbiyyatına, o cümlədən əməliyyə risalələrinə müraciət edə bilərsiniz. *(Tərcüməçi)*

[3] Qarşılığı metamorfoza, transformasiya kimi terminlərlə öz ifadəsini tapan bu məsələ ilə bağlı daha ətraflı məlumat almaq üçün müfəssəl fiqh ədəbiyyatına müraciət edin. *(Tərcüməçi)*

[4] "Adil" və "ədalət" terminlərinin şərhi üçün fiqhi əsərlərin əlaqədar bölmələrinə (o cümlədən, ictihad və təqlid, camaat namazı və s.) müraciət edə bilərsiniz. (*Tərcüməçi)*

sual altında olan hansısa bir hərəkəti nəticəsində həmin şəxsin adilliyi ilə bağlı tərəddüdə düşdükdə (əksinə əmin olmayınca) onu əvvəlki kimi adil şəxs olaraq tanımalıyıq.

8 – istehlak: bir maddənin (və ya cismin) əvvəlki vəziyyətindən əsər-əlamət qalmayacaq şəkildə başqa bir maddənin (və ya cismin) tərkibində əriməsi.

9 – ələmliyin ehtimal variantları: aralarından birinin ələm olduğuna əmin olduğumuz, ələm müctəhidin məhz onlardan biri olduğunu bildiyimiz bir dəstə müctəhid.

10 – itminan (arxayınlıq): əksi aqil insanlar tərəfindən həyatlarında nəzərə alınmayacaq dərəcədə zəif olan güclü zənn (yüksək ehtimal).

11 – ləhv alətləri: insan tərəfindən məhz haram əyləncələrdə istifadə olunmaq məqsədilə icad (istehsal) edilən alətlər, avadanlıqlar.

12 – tədlis: bir şəxsi və ya əşyanı müştəri cəlb etmək və ya elçini nikaha təşviq etmək məqsədilə olduğundan fərqli şəkildə təqdim etmək.

13 – təzkiyə: əti yeyilə bilən heyvanların ətini (qida məqsədləri üçün qəbulunu) halallaşdıran və paklaşdıran, əti yeyilməməli heyvaların isə ətini və dərisini paklaşdıran (geyim və s. məqsədlərlə istifadə üçün) şəriətlə müəyyən edilmiş qaydalar; o cümlədən: balığın sudan diri tutulması, torda və ya ov alətinin üstündə can verməsi; habelə, inək, qoyun, toyuq və s. ev heyvanlarının boynundakı dörd damarının birdən kəsilməsi ilə başının üzülməsi.

14 – namazın qısaldılması: dördrəkətli namazların iki rəkət qılması.

15 – fitri həzzalma: bəşər övladının yaradılış etibarilə könlünü oxşayan şeylərdən (cinsi istəklərlə deyil, saf duyğularla) həzz alması.

16 – qasir cahil: hansısa bir şəri dəlilə istinad edərək hərəkət edən və sonradan səhv etdiyini anlayan, beləliklə vəzifəsini bilməməsi üzürlü hal hesab edilən şəxs.

17 – müqəssir cahil: vəzifəsini bilməməsi üzürlü hal hesab edilməyən şəxs; məsələn: şəriət hökmlərini öyrənməkdə səhlənkarlıq edən insan.

18 – hökmü bilməyən və mövzunu (hökmün tətbiq olunduğu məqamı) bilməyən: hökmü bilməyən – şəriətin müəyyən bir məsələ ilə əlaqədar ümumi

hökmünü bilməyən şəxs; mövzunu (hökmün tətbiq olunduğu məqamı) bilməyən – şəriətin hökmünün müəyyən bir məsələyə (əşyaya, vəziyyətə və s.) tətbiq olunub-olmadığını bilməyən şəxs. İkinci hal özü də iki qismə bölünür. Bəzən mükəlləf qarşılaşdığı mövzunun mahiyyətini və əhatə dairəsini anlamır, məsələn: mükəlləf "ğina" deyərkən nəyin nəzərdə tutulduğunu dəqiqliklə bilmir. Buna "məfhum qeyri-müəyyənliyi" deyilir. Bəzən isə müəyyən bir əşyanın fiziki xüsusiyyətlərini bilmir, məsələn: qarşısındakı mayenin şərab (məstedici içki) olub-olmadığını ayırd edə bilmir. Buna isə "misdaq (predmet) qeyri-müəyyənliyi" deyilir.

19 – həcmli əngəl: suyun dəri ilə təmasına mane olan həcmli cism, yaxud maddə (dəstəmaz və ya qüsldə).

20 – hərəc (məşəqqət): adətən (normal vəziyyətlərdə) dözülməz hesab edilən hal.

21 – ixtisas (istifadə) hüququ: subyektin Müqəddəs Şəriət Sahibinin üzərində heç bir şəxs üçün mülkiyyət hüququ tanımadığı obyektlərdən istifadə etmək hüququ.

22 – diyə: cinayət törədənin zərərçəkən tərəfə (yaxud onun varisinə) ödəməli olduğu kompensasiya.

23 – rəddi-məzalim: borclunun qaytarmalı olduğu, lakin haqq sahibi (borc aldığı, yaxud əmlakını mənimsədiyi şəxs, yaxud onun varisi) ilə əlaqə saxlamaq imkanı olmadığından qaytara bilmədiyi borcu məbləğində niyabətən (onun əvəzinə) sədəqə verməsi.

24 – zəval: günortanın başlanğıcı.

25 – məfhumda şübhə: bu və ya digər bir məfhumun əhatə dairəsinin qeyri-müəyyənliyi səbəbilə onunla adlandırılan konkret varlığı (əşya, iş, hal, hərəkət, xüsusiyyət və s.) əhatə edib-etməməsi xüsusunda yaranan şübhə. Məsələn, "ğina" anlayışının əhatə dairəsinin qeyri-müəyyənliyi səbəbindən bu və ya digər bir musiqinin "ğina" olub-olmaması xüsusunda şübhəyə düşmək.

26 – zimni (nəzərdə tutulan) şərt və ya öhdəlik: müqavilənin mətnində (yazılı və ya şifahi olmasından asılı olmayaraq) ifadə olunmasa da, ürfən nəzərdə tutulan şərt və ya öhdəlik. Məsələn, alqı-satqı müqaviləsində alqı-satqı obyektinin

real dəyəri ilə satış dəyəri arasında ciddi fərqin olmaması. Belə ki, bu halda müqavilənin icrasından sonra satıcı satdığı əmlakın real dəyərinin müqavilə əsasında ödənilən məbləğdən yüksək olduğunu, yaxud müştəri aldığı əmlakın real dəyərinin ödədiyi məbləğdən aşağı olduğunu başa düşərsə, qeyd olunan zimni (nəzərdə tutulan) şərtin pozulduğuna görə "ğəbn" (fırıldaqçılığa məruz qalma) iddiası əsasında müqaviləni birtərəfli qaydada ləğv edə bilər.

27 – şəkk: bir məsələdə üqəlanın (sağlam ağıl sahiblərinin) hər ikisini nəzərə aldığı (doğru ola biləcəyini düşündüyü) iki ehtimal arasında tərəddüdə düşmək.

28 – mala ticari dəyər qazandıran istehlak keyfiyyəti: istehlakçının malı alarkən nəzərdə tutduğu keyfiyyət.

29 – etina edilən zərər: ürfün (insanların) nəzərində ciddi hesab edilən zərər.

30 – mükəlləfiyyəti ləğv edən zərurət: nəzərə alınmadığı halda insanın həyatına, əmlakına, yaxud şərəf və ləyaqətinə ciddi zərər törədə biləcək zərurət halı.

31 – iddə: boşandıqdan, həyat yoldaşı vəfat etdikdən, nikah müqaviləsinin (müvəqqəti nikahda) müddəti başa çatdıqdan, "vəty əş-şübhə"dən və s. sonra qadına evlənməyin qadağan olunduğu müddət.

32 – ictimai fitnə: insanları harama (günaha) cəlb edən fitnə.

33 – fəsx: əqdin (müqavilənin) ləğv edilməsi.

34 – zati həddində (öz-özlüyündə): fərqli bir hökmün tətbiq edildiyi əlavə şərtlər, yaxud sıradankənar hallar nəzərə alınmamaqla şəriətin bu və ya digər xüsusda verdiyi hökm.

35 – işkal mövcuddur: hökm vacib ehtiyata əsaslanır.

36 – təəmmül mövcuddur: hökm vacib ehtiyata əsaslanır.

37 - əvəzetmə niyyəti: bir şeyin başqa bir şeylə əvəz edilməsi məqsədi.

38 – deyilənlərə əsasən: hökm vacib ehtiyata əsaslanır.

39 – zimmi kafir: müsəlmanların vəlisi (imamı) ilə zimmə anlaşması (cizyə adlanan müəyyən vergi və rüsumlar müqabilində İslamı qəbul etmədən müsəlman dövlətinin ərazisində yaşamağa və şəriətdə nəzərdə tutulan hüquqlardan

yararlanmağa imkan verən anlaşma *tərc.*) bağlayan kafir; dövrümüzdə örnəyi mövcud deyil.

40 – müahid kafir: müsəlmanlarla, yaxud müsəlmanların bir qismi ilə hücum etməməklə bağlı anlaşma (pakt) imzalayan kafir toplumu.

41 - əmlakı toxunulmaz olan kafir: zimmi kafir, müahid kafir, habelə müsəlmanlardan sığınacaq istəyən kafir.

42 – çənə: saqqal tükünün bitdiyi alt çənə sümükləri (buxaq, boyun və almacıq sümükləri nahiyəsində bitən tüklər saqqal sayılmır *tərc.*).

43 - ərin sosial statusuna müvafiq təminat: qadının yaşayış ehtiyaclarının ərinin sosial vəziyyətinə (gəliri, rifah səviyyəsi, ictimai həyatdakı sosial statusu nəzərə alınmaqla) uyğun səviyədə təmin edilməsi.

44 – qüsalə (yaxantı) suyu: nəcisə bulaşmış (yaş halda toxunmuş) əşyanı yuduqdan sonra ondan öz-özünə və ya sıxmaqla tökülən su.

45 – şəninə layiq illik məunə (sosial statusuna uyğun illik yaşayış təminatı): insanın il ərzində ehtiyaclarını və sosial (rifah səviyyəsi, gəlir və s.) vəziyyətini nəzərə alaraq yaşayış təminatı üçün xərclədiyi orta illik məsrəf meyarı.

46 – seyrəfi (sərraf) misqalı: qızıl bazarında "misqal" adlandırılan və miqdarı qızıl satıcılarına məlum olan qızıl ölçü vahidi.

47 – məchul əl-malik: sahibi məlum olmayan, lakin üzərində mülkiyyət hüququnu itirmədiyi (buna görə də mənimsənilməsinə icazə verilməyən) əmlak predmeti.

48 – miqata paralel ərazi: biri Məkkədən, digəri isə miqatlardan hər hansı birində keçən düz bucaq (90 dərəcə) altında kəsişən iki düz xətt fərz edildikdə hacı həmin düz xətlərin kəsişmə nöqtəsində üzü qibləyə doğru dayandıqda "miqata paralel ərazi"də dayanmış sayılır. Burada meyar ürfün həmin ərazini miqata paralel hesab etməsidir və dəqiq hesablama aparmağa ehtiyac yoxdur.

49 – məşhur: hökm vacib ehtiyata əsaslanır.

50 – meyar: şəriət hökmünün əsaslandığı məqsədəuyğunluğu və ya fəsadtörədiciliyi müəyyən edən məqamlar.

51 – ləhv məclislərinə uyğun musiqi: eyş-işrət məclislərində, haram əyləncə yığıncaqlarında ifa olunan və dinlənilən musiqi.

52 – nüşuz: qarşı tərəfin hüquqlarına riayət etməmək (bir qayda olaraq nikahın tərəfləri – ər-arvad arasındakı münasibətlərdə müşahidə olunan hüquq pozuntularına şamil olunur).

53 – mütləq qürbət niyyəti: bu və ya digər cəhətini, keyfiyyətini nəzərə almadan bir işi Allaha yaxınlaşmaq niyyətilə icra etmək (məsələn, namazı qəza və ya əda niyyəti ilə deyil, mütləq qürbət niyyəti ilə icra etmək kimi).

54 – vəty əş-şübhə: qəsdən deyil, bilmədən, haram olduğu halda halal hesab edərək, başqa sözlə şəriət tərəfindən doğru, məqbul hesab edilməyən nikahı doğru hesab edərək cinsi əlaqədə olmaq.

55 – vəli: İslam şəriətinə müvafiq olaraq azyaşlılara, əqli çatışmazlıqdan əziyyət çəkənlərə, yaxud bütövlükdə müsəlman cəmiyyətinə qəyyumluq səlahiyyətinə malik olan şəxs.

56 – işkala rəğmən vacibdir: mükəlləf bu və ya digər bir işin icrasının vacibliyini göstərən bu fətvanı yerinə yetirməlidir.

57 – təəmmülə rəğmən vacibdir: mükəlləf bu və ya digər bir işin icrasının vacibliyini göstərən bu fətvanı yerinə yetirməlidir.

58 – kifayi vacib: başlanğıcda icrası hər kəsə vacib olan, lakin bir və ya bir neçə şəxsin icra etməsilə başqalarının öhdəsindən götürülən, bununla belə hamı tərəfindən icrasından imtina edildiyi halda hamının əzaba layiq görüldüyü bir iş.

59 – işkala rəğmən icazə verilir: bu və ya digər bir işin icrasına icazə verilir, lakin istihbabi (müstəhəb) ehtiyat çəkinməyi tələb edir.

60 – təəmmülə rəğmən icazə verilir: bu və ya digər bir işin icrasına icazə verilir, lakin istihbabi (müstəhəb) ehtiyat çəkinməyi tələb edir.

# I HİSSƏ
# İBADƏTLƏR

## BİRİNCİ FƏSİL

## QEYRİ-MÜSƏLMAN ÖLKƏLƏRİNƏ MÜHACİRƏT VƏ HƏMİN ÖLKƏLƏRDƏ MƏSKUNLAŞMAQ

Bir müsəlman adətən öz vətənində dünyaya gələrək, orada böyüyüb boya-başa çatır, ixtiyari və ya qeyri-ixtiyari surətdə İslamın göstərişlərini, dəyər və təlimlərini mənimsəyir, gənclik dövrünə də dininin əxlaq təlimini özünə həyat tərzi seçərək, onun göstərdiyi yolu gedərək, bələdçiliyini qəbul edərək qədəm qoyur. Əgər ilahi təqdir əsasında həmin müsəlman qeyri-müsəlman ölkələrindən birində dünyaya gələrək həmin mühitdə böyüsəydi, Rəbbimizin qoruduğu hallar istisna olmaqla, mühitin təsirləri onun düşüncələrində, həyat tərzində, əxlaqında və mənimsədiyi dəyərlərdə aşkar surətdə öz əksini tapardı.

Belə qeyri-müəlman ictimai mühitin təsirləri özünü ikinci nəsildə, yəni mühacirlərin övladlarında daha çox büruzə verir.

Məhz bunu nəzərə alaraq İslam dini hicrətdən sonrakı qayıdışa[1] xüsusi bir mövqedən yanaşmışdır. Bu məsələyə bir sıra hədislərdə toxunulmuş, onlardan bəziləri bunu böyük günahlardan, bəziləri isə hətta səkkiz ən böyük günahdan biri olaraq göstərmişdir.

İmam Sadiqin (ə) müasirlərindən biri olan Əbu Bəsir ondan belə eşitdiyini nəql edir: “Böyük günahların sayı yeddidir: qəsdən adam öldürmək, uca Allaha şərik qoşmaq, iffətli qadını zinakarlıqda ittiham etmək, aşkar dəlildən (yasaq olduğundan və xoşagəlməz aqibətindən xəbərdar olduqdan *tərc.*) sonra sələmçilik, döyüş meydanından qaçmaq, hicrətdən sonrakı təərrüb (geri dönmək), valideynlərin üzünə ağ olmaq və haqsızlıqla yetimlərin malını mənimsəmək. Təərrüblə şirk eyni mahiyyəti daşıyır”.[2]

İbn Məhbub adlı bir ravi də bir dəstə dostu ilə birlikdə İmam Həsənə (ə) məktub yazaraq ondan böyük günahların sayı və nələrdən ibarət olduğunu soruşduqlarını, Həzrət Həsənin (ə) isə cavab məktubunda belə yazdığını nəql edir:

---

[1] Çoxsaylı hədislərdə öz əksini tapan “ət-təərrüb bəd əl-hicrə” (hicrətdən sonrakı qayıdış) istilahı müsəlmanın İslamı özünə din seçərək haqq olan təkallahlılıq dinini mənimsədikdən sonra yenidən fərqli, müşrik dünyagörüşünün hakim olduğu bir mühitə dönməsini “küfrdən mühacirətdən (burada: uzaqlaşdıqdan) sonra yenidən ona üz tutması” kimi ifadə edir.

[2] Usul əl-kafi, c.2, səh.281.

“Kim Allahın icrasına görə cəhənnəm əzabı vəd etdiyi əməllərdən çəkinərsə, mömin (inanclı və əməlisaleh) olduğu halda günahları bağışlanar. İnsanı cəhənnəmə sürükləyən yeddi günah isə bunlardır: yaşamaq hüququ olan insanın qətli, valideynlərin üzünə ağ olmaq, sələmçilik, hicrətdən sonrakı dönüş, iffətli qadınları zinakarlıqda ittiham etmək, yetimlərin əmlakını mənimsəmək və döyüş meydanından qaçmaq”.[1]

Ravi Məhəmməd ibn Müslim də İmam Sadiqdən (ə) böyük günahların yeddi əməldən ibarət olduğunu nəql edir: “inanclı bir insanı qəsdən öldürmək, namuslu qadına şər atmaq, döyüş meydanından qaçmaq, hicrətdən sonrakı qayıdış, yetimin əmlakını qəsb etmək, aşkar dəlildən (yasaq, yolverilməz olduğunu bildikdən) sonra da sələmçilik etmək və Allahın cəhənnəm əzabı vəd etdiyi hər hansı bir iş”.[2]

Übeyd ibn Zürarə İmam Sadiqdən (ə) böyük günahlar barədə soruşduqda onun belə buyurduğunu nəql edir: “Əlinin (ə) kitabında onların sayı yeddi olaraq göstərilir: küfr, qətl, valideynlərin üzünə ağ olmaq, aşkar dəlildən sonrakı sələmçilik, haqsızlıqla yetimin malını mənimsəmək, döyüş meydanından qaçmaq və hicrətdən sonrakı dönüş”. Ravi bu cavabdan sonra bir daha böyük günahların məhz bunlardanmı ibarət olduğunu soruşduğunu, İmam Sadiqin (ə) də cavabını bir daha təsdiqlədiyini söyləyir.[3]

İmam Riza (ə) bir kəlamında “təərrüb”ün yasaq edilməsinin səbəbini belə izah etmişdir: “Bu halla üzləşən bir insan öz biliklərindən (İslam təlimlərindən) uzaqlaşmaq, cəhalətə (burada: dinsizliyə, imansızlığa) üz tutmaq və həmin mühitə qoşulmaqdan sığortalanmamışdır”.[4]

Lakin bu o demək deyildir ki, qeyri-müsəlman ölkələrinə getmək tamamilə haram (yasaq) edilmişdir. Əksinə, bəzi hədislərdə müsəlmanların orada bir sıra

---

[1] Usul əl-kafi, c.2, səh.277.

[2] Usul əl-kafi, c.2, səh.277.

[3] Usul əl-kafi, c.2, səh.278.

[4] Vəsail əş-şiə, c.15, səh.100.

ideyalarını gerçəkləşdirə biləcəkləri nəzərə alınaraq onların bu səfər və mühacirətlərlə mükafata nail ola biləcəkləri öz əksini tapmışdır.

Həmmad Sindi deyir: “İmam Sadiqə (ə) müşriklərin yaşadığı ölkələrə səfər etdiyimi söylədim. Habelə bəzi dostlarımın isə orada dünyadan köçəcəyim təqdirdə Qiyamət günü onlarla birgə qəbirdən qaldırılacağımı söylədiklərini açıqladım. İmam (ə) buyurdu: “Həmmad, orada yaşayarkən bizim məramımızı insanlara aydınlaşdıraraq onları bu haqq yola dəvət edirsənmi?”

- Bəli.

- Bəs müsəlmanların yaşadığı şəhərlərdə necə?

- Xeyr.

Elə isə orada yaşayaraq dünyadan köçəcəyin halda təkbaşına bütöv bir ümmət kimi qiyamət səhnəsinə gətiriləcəksən və nurun hər yeri bürüyəcək”.[1]

**Fətvalar:**

Beləliklə, bu və bənzər hədislər, eləcə də digər şəri dəlillər əsasında fəqihlər sözügedən mövzu ilə bağlı aşağıdakı fətvaları vermişlər:

Məsələ 1. Özünün və azyaşlı övladlarının dininə bağlılığını ehtimal olunan nöqsanlardan qoruya biləcəyinə arxayın olduğu surətdə inanclı müsəlmanın öz dinini, onun göstərişlərini yaymaq, təbliğ etmək məqsədilə qeyri-müsəlman ölkələrinə səfər etməsi təqdirəlayiq bir haldır. Həzrət Məhəmməd (s) İmam Əliyə (ə) tövsiyələrindən birində belə buyururdu: “Allahın öz bəndələrindən birini sənin əlinlə hidayət etməsi (doğru yola yönəltməsi) məşriqdən məğribədək günəşin üzərinə nur saçdığı hər şeyin sənə verilməsindən daha xeyirlidir”.[2] Həmçinin, başqa bir hədisdə bir şəxsin İslam Peyğəmbərindən (s) ona nəsihət etməsini istəyərkən belə buyurduğunu oxuyuruq: “Sənə heç bir varlığı Allaha şərik qoşmamağı, ... habelə insanları İslama çağırmağı tövsiyə edirəm. Bil ki, bu çağırışını qəbul edən hər insanın müqabilində səni Yəqubun (ə) övladlarından bir qul azad etməyə bərabər mükafatlar gözləyir”.

---

[1] Vəsail əş-şiə, c.16, səh. 188.

[2] Vəsail əş-şiə, c.16, səh. 188.

Məsələ 2. Hər bir inanclı müsəlman özünün və ailə üzvlərinin (habelə, qəyyumluğundakı şəxslərin) dindarlığına mənfi təsir buraxmayacağına əmin olduğu, arxayınlıq hasil etdiyi halda qeyri-müsəlman ölkələrinə səfər edə bilər.

Məsələ 3. Həmçinin, özünün və ailəsinin şəri məsuliyyətlərini (ibadət və digər dini öhdəliklərini) yerinə yetirməsinə heç bir əngəl törətmədiyi surətdə müsəlman qeyri-müsəlman ölkələrində məskunlaşa da bilər.

Məsələ 4. Müsəlmanın dindarlığında nöqsanların yaranmasına yol açacağı təqdirdə, həmin qeyri-müsəlman ölkəsinin şərqdə və ya qərbdə yerləşməsindən, sözügedən səfərin məqsədindən (səyahət, biznes, təhsil, elmi-tədqiqat və s.), yaxud müsəlmanın orada müvəqqəti və ya daimi məskunlaşmasından asılı olmayaraq həmin səfər haramdır.

Məsələ 5. Əgər qadın həyat yoldaşı ilə belə bir səfərin onun dindarlığında qüsurların yaranmasına səbəb olacağına əminlik hasil edərsə, onunla birgə səfərə çıxması haramdır.

Məsələ 6. Əgər həddi-buluğa çatmış övladlar, qızlar və oğlanlar valideynləri və ya dostları ilə çıxmaq istədikləri xarici səfərin onların dindarlığına xələl gətirəcəyinə əmin olarlarsa, belə bir səfər onlara haramdır.

Məsələ 7. Fəqihlər “dindarlıqda nöqsan (qüsur, xələl)” deyərkən məstedici spirtli içkilər içmək, zinakarlıq, düzgün qaydada kəsilməmiş heyvan mənşəli məhsullarla qidalanmaq və s. haramlar kimi kiçik, yaxud böyük günahlara batmaq və ya namaz, oruc, həcc və s. ibadətləri icra etməmək kimi halları nəzərdə tuturlar.

Məsələ 8. Qaçılmaz ölüm təhlükəsindən xilas olmaq və ya bənzər ciddi məsələlərin doğurduğu zərurətlə əlaqədar olaraq qeyri-müsəlman ölkələrindən birinə mühacirət etmək məcburiyyəti qarşısında qalan müsəlman bu mühacirətin onun dindarlığında çatışmazlıqların yaranmasına səbəb olacağını bilsə də, zərurət çərçivəsində mühacirət edə və mühacirətdə yaşaya bilər.

Məsələ 9. Qeyri-müsəlman ölkələrindən birində məskunlaşan müsəlman mühacir mühacirət həyatının onun özünün və ya azyaşlı övladlarının dindarlığında nöqsanların yaranmasına səbəb olduğunu anladıqda müsəlman ölkələrindən birinə köçməlidir. Belə bir nöqsan şəriətdə vacib buyurulan ibadət və göstərişlərin icra

edilməməsi və ya haram (yasaq) edilən iş və hərəkətlərin icrası nəticəsində yaranır. Müsəlman ölkəsinə qayıdışın onu ölüm təhlükəsi, yaxud ciddi sıxıntı və məşəqqətlərlə üz-üzə qoyacağı hallar, yəni ölüm təhlükəsi qarşısında qalan insanın murdar (burada: şəriətdə göstərilən qaydada kəsilməyən) heyvanın ətindən yeməsinə icazə verən hallar kimi zəruri məqamlar istisna təşkil edir (bu hökm sözügedən hallara şamil edilmir).

Məsələ 10. Müsəlmana haram buyrulan səfər "günah səfər" sayılır və həmin səfər əsnasında o dördrəkətli namazlarını bütöv qılmalı, oruclarını da tutmalıdır. Sözügedən "günah səfər" davam etdikcə (müddətindən asılı olmayaraq *tərc.*) namazlarını qısa qılmağa və oruc tutmaqdan imtina etməyə haqqı yoxdur.

Məsələ 11. Çıxmağa hazırlaşdığı səfər valideynlərinə narahatçılıq yaratdığı, yaxud onların valideyn şəfqəti ilə (ayrılığına dözə bilmədiklərinə görə) ona bu səfəri qadağan etdiyi, bununla yanaşı səfər üçün şəriətin valideynlərini əziyyətə salmasına göz yumacağı üzürlü bir səbəbi olmadığı halda övlad valideynin onun səfərdən imtina etməsi ilə bağlı tələbinə qarşı çıxa bilməz.

Məsələ 12. Müsəlman canına, əmlakına, şərəf və ləyaqətinə qarşı təcavüz təhlükəsi ilə üz-üzə qaldıqda hüquqlarının bərpası və məruz qaldığı haqsızlıqdan qurtulması üçün əlaqədar rəsmi qurumlara sığınmaqdan başqa bir çıxış yolu olmadığı təqdirdə həmin qurumlara sığına bilər.

**Sual-cavab:**

İndi isə gəlin, qeyri-müsəlman ölkələrinə mühacirətlə bağlı bir sıra suallara Ayətullah əl-üzma Sistaninin cavabları ilə tanış olaq:

Məsələ 13. Böyük günahlardan sayılan "hicrətdən sonrakı təərrüb" hansı anlamı ifadə edir?

Cavab: Bəzi fəqihlər bu istilahı yaşadığımız dövrdə müsəlmanın məskunlaşdığı halda dindarlığında, imanında nöqsanların yaranacağı bir ölkədə yaşamasına şamil edirlər. Başqa sözlə "hicrətdən sonrakı təərrüb" deyərkən mükəlləf müsəlmanın dini bilikləri və şəriətin hökmlərini öyrənmək, müqəddəs şəriət tərəfindən ona vacib edilən ibadətləri, işləri icra etmək, haram edilənlərdən

isə çəkinmək imkanına sahib olduğu bir ölkədən bütün bu imkanlardan və ya onların bir qismindən məhrum olacağı bir ölkəyə köç etməsi nəzərdə tutulur.

Məsələ 14. Avropa, Amerika və ya hər hansı bir qeyri-müsəlman ölkəsində məskunlaşmış bir müsəlman hiss edir ki, böyüyüb boya-başa çatdığı doğma vətənindəki dini mühitdən get-gedə uzaqlaşır, nə Quran qiraəti, nə azan sədası eşidir, nə də müqəddəs məkanları ziyarət edə bilir, bir sözlə belə mənəvi mühitdən tamamilə məhrum olur. Onun öz yurdundakı belə İslami dəyərlərin hakim olduğu mühitdən, o cümlədən xeyirli işlərdən uzaqlaşması dindarlığında nöqsan hesab edilirmi?

Cavab: Bu (sözügedən gözəl və xeyirli işlərdən uzaq qalmaq) həmin ölkələrdə məskunlaşmağı haram edəcək bir nöqsan sayılmır. Lakin dini dəyərlərin hakim olduğu mühitdən uzaqlaşmaq bəzən zaman keçdikcə insanda bir sıra vacib əməllərin icrasından imtina və günaha yol vermə hallarına məhəl qoymayacaq dərəcədə imanın zəifləməsinə gətirib çıxarır. Mükəlləf müsəlman sözügedən ölkələrdə yaşadıqca dindarlığında bu dərəcədə nöqsanların yaranacağından qorxarsa, orada yaşamağa davam edə bilməz.

Məsələ 15. Avropa, Amerika və digər qitələrdə yerləşən qeyri-müsəlman ölkələrində yaşayan şəxslər müsəlman dövləti olan öz vətənində yaşayacağı halda rastlaşmayacağı bir sıra haram və günahlarla qarşı-qarşıya qalırlar. Belə ki, həmin ölkələrdə mövcud olan yaşayış şəraiti onları istəmədikləri halda belə haramlara sürükləyir. Bu vəziyyət dindarlıqda çatışmazlıq sayılırmı və həmin ölkələrdə məskunlaşmağın haram olmasına səbəb olurmu?

Cavab: Bəli, nəzərdə tutulan günahların arada-sırada qarşıya çıxan və təkrarlanmayan kiçik günahlardan olduğu hallar istisna olmaqla, təsvir edilən vəziyyət dindarlıqda çatışmazlıq sayılır və həmin ölkələrdə məskunlaşmağın haram olmasına səbəb olur.

Məsələ 16. "Hicrətdən sonra təərrüb"ü mükəlləfin dini bilik və məlumatlarının zəifləyəcəyi, cəhalətə daha çox meyillənə biləcəyi, məlumatsızlığının daha da artacağı bir ölkəyə köçməsi kimi başa düşdük. Bu o deməkdir ki, şəriət mükəlləfin üzərinə həmin ölkələrdə zaman keçdikcə dini

biliklər xüsusunda məlumatsızlığının artmaması üçün daha diqqətli olmaq vəzifəsini qoymuşdur?

Cavab: Belə gücləndirilmiş diqqətdən imtinanın dindarlıqda daha öncə açıqlanan dərəcədə nöqsanların yaranmasına yol açacağı təqdirdə daha artıq diqqət və imanı qoruma cəhdləri zəruridir.

Məsələ 17. İslami dəyərləri təbliğ edən, özü də bu dəyərləri qorumağa çalışan bir insan qeyri-müsəlman ölkələrində qadınların geyim tərzi kimi cəmiyyət həyatında mövcud bir sıra hallarla əlaqədar olaraq daha artıq haramlarla üzləşməli olarsa, belə ölkələrdə yaşamaq ona haram sayılırmı və dini-mənəvi dəyərlərini yaymaq işini dayandıraraq öz vətəninə dönməlidirmi?

Cavab: Tədricən böyük günahlara rəvac verməyəcəyinə əmin olduğu halda bəzən kiçik günahlarla üzləşməsi orada məskunlaşmasının, yaşamasının haram olmasına səbəb olmaz.

Məsələ 18. Mühacir övladlarının dindarlığı ilə bağlı nöqsanların yarana biləcəyindən qorxarsa, sözügedən ölkələrdə məskunlaşması haram sayılırmı?

Cavab: Bəli, eynilə öz din və imanı ilə bağlı hökmdə olduğu kimi.

Məsələ 19. Avropa, Amerika və digər qeyri-müsəlman ölkələrində məskunlaşan müsəlmanlara vacibdirmi ki, Qurani-Kərimin və şəriətin dili olan ərəb dilini övladlarına öyrətsinlər. Belə ki, ərəb dilini bilməmək gələcəkdə onların bu dildə qələmə alınan şəriətin əsas mənbələri hesab olunan əsərləri oxuyub anlaya bilməmələrinə, nəticə etibarilə isə dini bilik və məlumatlarının zəifləməsinə və dindarlıqlarında nöqsanların yaranmasına səbəb olacaqdır.

Cavab: Ərəb dilini yalnız dini fərizələrinin (ibadətlərinin) icrası üçün, məsələn vacib namazlarında Fatihə və daha bir surənin, eləcə də zikrlərin düzgün tələffüzü üçün gərəkli olan qədər öyrənmələri vacibdir. Başqa bir dildə ehtiyac duyduqları dini bilikləri mənimsəmək, şəri vəzifələrini öyrənmək imkanı olduğu təqdirdə ərəb dilini daha mükəmməl şəkildə öyrənmək onlara vacib deyil. Lakin təbii ki, onlara Qurani-Kərimi öyrətmək təqdirəlayiq bir işdir. Hətta daha yaxşı olar ki, İslam maarifini, mədəniyyətini onun təməl mənbələrindən, hər şeydən öncə isə Qurani-Kərimdən, Peyğəmbərin (s) sünnəsindən və Əhli-beytin (ə) dəyərli

kəlamlarından öz orijinal dilində öyrənmək imkanına sahib olmaq üçün ərəb dilini onlara mükəmməl şəkildə öyrətsinlər.

Məsələ 20. Bir müsəlman yaşadığı qərb ölkəsi ilə müqayisədə bir sıra iqtisadi çətinliklərlə üzləşəcəyini bildiyi halda onun həmin ölkəni tərk edərək məskunlaşmaq imkanına sahib olduğu bir müsəlman ölkəsinə mühacirət etməsi vacibdirmi?

Cavab: Həmin qərb ölkəsində mühacirət həyatı sürdükcə dindarlığında öncəki məsələlərdə göstərilən dərəcədə nöqsanların yarana biləcəyindən qorxması istisna olmaqla, vacib deyil.

Məsələ 21. Qeyri-müsəlmanları İslama çağırmaq, yaxud qeyri-müsəlman ölkələrində yaşayan müsəlmanların dini inanclarını gücləndirmək istiqamətində fəaliyyət göstərmək imkanına sahib olan və öz dindarlığında nöqsanların yaranmayacağından əmin olan bir müsəlmana dinini (onun təlim və dəyərlərini) yaymaq vacibdirmi?

Cavab: Bəli, bu iş ona və eləcə də bu imkanlara sahib olan bütün şəxslərə kifai vacibdir.

Məsələ 22. Müsəlman başqasının passportunu satın ala, yaxud başqa bir ölkəyə keçə bilmək üçün passportdakı şəkli dəyişdirməklə sözügedən sənədi saxtalaşdıraraq həmin ölkəyə daxil olduqdan sonra məsul şəxslərə (orqanlara) bu barədə məlumat verə bilərmi?

Cavab: Biz buna izin vermirik.

Məsələ 23. Qeyri-müsəlman ölkələrində mövcud olan, küçədə, məktəbdə, televiziya ekranlarında və s. rast gəlinən İslam dəyərlərinə zidd hallar nəzərə alınmaqla həmin ölkələrdə yaşamaq olarmı? Onu da nəzərə almaq lazımdır ki, mükəlləf hər hansı bir müsəlman ölkəsinə mühacirət edə bilər. Lakin bu mühacirət onu məskunlaşma, maddi zərər (gəlir azlığı), dünyəvi işlərdə çətinliklər və daha aşağı rifah səviyyəsi kimi problemlərlə qarşı-qarşıya qoyacaqdır.

Bəs həmin ölkələrdə yaşamağa icazə verilmədiyi halda müsəlman mühacir orada yaşamağa davam edərək (daha əlverişli bir mühit yaratmaq üçün)

müsəlmanlar arasında dini təbliğat, maarifləndirmə işləri apara, onlara dinin vacib göstərişlərini və yasaqlarını xatırlatmaq istiqamətində səy göstərə bilərmi?

Cavab: Həmin ölkələrdə məskunlaşmaq onun özünün və ailə üzvlərinin şəri vəzifələrini icra etməsinə hal-hazırda və eləcə də gələcəkdə əngəl törətməyəcəyi halda o ölkələrdə yaşamaq haram deyil. Əks təqdirdə isə təbliğat işləri ilə məşğul olsa belə, həmin ölkələrdə yaşaması doğru deyil. Allah (hər şeyin doğrusunu) biləndir.

## İKİNCİ FƏSİL
## TƏQLİD

Təqlid hər hansı bir işin icrasında camiüş-şərait (bütün şərtlərə cavab verən) fəqihin fətvasına müvafiq qaydada – hətta icra əsnasında məhz onun fətvasına istinad edilməsə belə - hərəkət etmək deməkdir. Beləliklə, araşdırma aparmadan (verilən fətvanın nəyə əsaslandığını öyrənmək zərurəti duymadan *tərc.*) icra edilməli olanları icra etmək və qadağan olunanlardan uzaq durmaqla təqlid gerçəkləşmiş olur, müqəllid (təqlid edən) Allah qarşısında öz əməlinin məsuliyyətini təqlid etdiyi fəqihin öhdəsinə buraxır.

Təqlid olunma səlahiyyətinə malik olmaq üçün fəqihin sahib olmalı olduğu keyfiyyətlərdən biri də dövrünün ən biliklisi (fiqh və əlaqədar elmlər sahəsində) olması, nəzərdə tutulmuş mənbələrinə istinad etməklə şəriət qanunvericliyində başqalarından daha mükəmməl olması şərtidir.

Bu xüsusda aşağıdakı şəriət hökmlərinə diqqət yetirməyi məqsədəuyğun hesab edirik:

Məsələ 24. Şəriət hökmlərini aydınlaşdırmaq (mənbələrinə istinad etməklə öyrənmək) iqtidarında olmayan mükəlləf bu səlahiyyətə malik olan ələm müctəhidə təqlid etməlidir. Beləliklə, müctəhid olmayan bir mükəlləfin təqlidə və ya ehtiyata əsaslanmayan əməli batil sayılır.

Məsələ 25. "Ələm müctəhid" şəriət hökmlərini mənbələrinə istinad etməklə öyrənmək və aydınlaşdırmaq işində başqalarından daha bacarıqlı olan müctəhiddir.

Məsələ 26. Ələm müctəhidi tanımaq üçün mütəxəssislərə müraciət etmək lazımdır və bu işdə mütəxəssis olmayanların rəyinə istinad etmək doğru deyil.

Məsələ 27. Mükəlləf təqlid etdiyi müctəhidin fətvalarını aşağıdakı üç yoldan biri ilə əldə edə bilər:

1 – hər hansı bir məsələ ilə bağlı müctəhidin fətvasını onun özündən eşitməklə;

2 – iki adil (burada: mötəbər, sözünə, şahidliyinə etibar edilən) şəxsin, yaxud qeydsiz-şərtsiz etimad edilə biləcək bir şəxsdən öyrənməklə;

3 – mötəbərliyinə əmin olmaq şərtilə əməliyyə (praktiki) risaləsinə, yaxud risalə hökmündə olan yazılı əsərlərinə müraciət etməklə.

Məsələ 28. Əgər müqəllidin ehtiyac duyduğu hər hansı bir məsələ ilə bağlı ələm müctəhidin bir fətvası olmazsa, yaxud müqəllid ehtiyac duyduğu zaman onun fətvasını öyrənə bilməzsə, ələmlik sırasına riayət etməklə başqa müctəhidlərə müraciət etməsinə icazə verilir.

Hörmətli oxucular, indi isə gəlin, təqlidlə bağlı Ayətullah əl-uzma Sistaniyə ünvanlanan bir sıra suallar və onlara verilən cavablarla tanış olaq:

Məsələ 29. Fəqihlər bizə ələm müctəhidə təqlid etməli olduğumuzu söyləyirlər. Tanıdığımız bir sıra dinşünas alimlərdən ələm müctəhidin kim olduğunu soruşduqda isə konkret bir cavab ala bilmirik ki, həmin müctəhidə təqlid edərək və özümüzü bu məsələdə rahat hiss edək. Belə qeyri-konkret cavabların səbəbini soruşduqda isə təvazökarlıqla: “biz bu sahədə səlahiyyətli mütəxəssis deyilik” – deyir, bəzən isə sözlərinə belə əlavə edirlər: “biz özümüz də bir sıra mütəxəssislərdən bu məsələni soruşmuş və belə cavab almışıq ki, ələm müctəhidin təyin edilməsi üçün bütün müctəhid fəqihlərin əsərlərini araşdırmaq lazımdır. Bu isə olduqca uzun zaman tələb edən, çətin və məuliyyətli bir işdir. Bir sözlə yaxşı olar ki, başqalarına müraciət edəsiniz”.

Beləliklə, ələm müctəhidin müəyyən edilməsi dini tədqiqat mərkəzlərində bu qədər mürəkkəb bir məsələ kimi qəbul edilirsə, bəs qərb ölkələrində, o  cümlədən ABŞ kimi uzaq ölkələrdə yaşayanlar nə etməlidir? Biz həmin ölkələrdə yaşayan gəncləri uzun səylərdən sonra şəriətin göstərişlərinin icrasına, yasaqlarından uzaq

durmağa təşviq edərkən “kimə təqlid etməliyik?” sualına çatdıqda bu sualın qarşısında aciz qalırıq. Bu problemin həlli üçün bir yol varmı?

Cavab: Əgər ələmliyi ayırd edə biləcək bəzi mütəxəssislər bu və ya digər bir səbəblə ələm müctəhidin təyin edilməsi məsələsində rəy bildirməkdən imtina edirsə, bunu bütün mütəxəssislərin imtinası kimi qiymətləndirmək olmaz. Beləliklə, ələm müctəhidi bu xüsusda rəy bildirməkdən imtina etməyən mütəxəssislərin və ya elmiyyə hövzələri (dini tədqiqat mərkəzləri) ilə əlaqəsi olan və etibar edilə biləcək şəxslərin, habelə digər ölkələrdə yaşayan alimlərin köməyi ilə tanıya bilərsiniz. Ələm müctəhidi tanımaq bir sıra çətinliklərdən xali olmayan bir məsələ olsa da, həlli olmayan mürəkkəb bir problem sayıla bilməz.

Məsələ 30. ƏƏləm müctəhidin kimliyini öyrənmək üçün müraciət edəcəyimiz mütəxəssislərin özlərini necə tanıyacağıq? Bəs tanıdıqdan sonra onlarla necə əlaqə saxlayacağıq? Nəzərə almaq lazımdır ki, biz elmiyyə hövzələrindən, ümumiyyətlə şərq (müsəlman) ölkələrindən olduqca uzaqda yaşayırıq. Məsələnin daha asan bir həlli yolu varmı ki, həmin yola baş vurmaqla kimə təqlid etməli olduğumuzu öyrənə bilək?

Cavab: Ələm müctəhidi təyin edə biləcək mütəxəssislər özləri də elmi səviyyəsi ona yaxın olan və başlıca meyarlar əsasında ələmliyin ehtimal dairəsinə daxil olan fəqihlərin müvafiq bilik və bacarıqlarının səviyyəsindən xəbərdar olan müctəhidlərdir. Sözügedən meyarlar aşağıdakılardan ibarətdir:

1 – rəvayətlərin (burada: yazılı hədis nümunələrinin) doğruluğunun və etibarlılığının isbatı yollarını bilmək; bu xüsusda biblioqrafiya (mənbəşünaslıq), saxta hədislər və onların yaranma səbəblərinin araşdırılması, fərqli nüsxələrin tədqiqi, ən mötəbər olanının müəyyən edilməsi, bəzən müəllifin (ravinin) sözləri ilə qarışdırılan hədisin orijinal mətninin tanınması kimi mövzuları əhatə edən rical və dirayə (hədisşünaslıq) elmlərini mükəmməl şəkildə mənimsəməlidir.

2 – ümumi qaydalar əsasında hədis mətninin məzmununu anlamaq; bu xüsusda imamların (ə) şəriət hökmlərini bəyan etmə üslübu, habelə üsul elminin və ərəb dilinin qayda-qanunları, o cümlədən dövrün digər fiqh məzhəblərinin fəqihlərinin rəyi ilə tanışlıq danılmaz önəm kəsb edir.

3 – ayrı-ayrı məsələlərlə bağlı ümumi qayda-qanunlar əsasında hökm çıxarmaq məhələsində və eləcə də ələmliyin ehtimal dairəsinə daxil olan fəqihlərilə bilavasitə müzakirə, yaxud fiqh və üsul elmləri sahəsində əsərlərinin və mühazirələrinin yazılı mətnlərinin tədqiqi əsasında onların rəylərini öyrənmək xüsusunda özünəməxsus sabit bir üsluba sahib olmaq.

Ələm müctəhidin kim olduğunu öyrənmək istəyən mükəlləf özü onu təyin edə biləcək mütəxəssisləri tanımaq imkanına sahib olmadığı təqdirdə etibarlı dindarlar kimi tanıdığı insanlar vasitəsilə onları tanıya və sözügedən məsələ ilə bağlı onlara müraciət edə bilər. Asan və sürətli kommunikasiya vasitələrinin günbəgün inkişaf etdiyi informasiya əsrində coğrafi uzaqlıq həmin mütəxəssislərlə əlaqə üçün ciddi əngəl sayıla bilməz.

Məsələ 31. Mütəxəssislərin ələm müctəhidin təyini ilə bağlı fikir ayrılığında olmasına rəğmən, mükəlləf müctəhidlərdən birinə qarşı arxayınlıq (etimad) hiss edərsə, bu ona təqlid etməsi üçün kifayətdirmi?

Cavab: Ələm müctəhidin təyin edilməsi ilə bağlı mütəxəssislər arasında fikir ayrılığı mövcud olarsa, bütün belə hallarda olduğu kimi onların arasından daha yetərli və səlahiyyətli (bu xüsusda daha bilikli və bacarıqlı) olan mütəxəssisin rəyini tərcih etmək lazımdır.

Məsələn 32. Mütəxəssislər ələm müctəhidin təyini mövzusunda fikir ayrılığına düşərək bir neçə müctəhidə təqlid edilə biləcəyini açıqlayarsa, mükəlləf hansısa bir məsələdə bir müctəhidin, başqa bir məsələdə isə digər müctəhidin fətvasına uyğun əməl edə, ələm müctəhidin müəyyənləşməsinədək bu qaydada davam edərək onu tanıdıqdan sonra isə ona təqlid edə bilərmi?

Cavab: Burada üç ehtimal mövcud ola bilər:

1 – bəzi mütəxəssislər bir və ya bir qrup müctəhidə təqlid etməyin kafi olduğunu elan edərsə, bu rəy heç bir şəri məsuliyyət doğurmur;

2 – mütəxəssilər iki və ya daha artıq şəxsin elm və təqva (burada: şəriət hökmlərinin öyrənilməsi və işıqlandırılması) etibarilə eyni səviyyədə olduğunu açıqlayarsa, mükəlləf bütün məsələlərdə şəxsi seçim əsasında onlardan hər hansı birinin fətvalarına müvafiq qaydada hərəkət edə bilər. Lakin vacib ehtiyata əsasən,

namazın bütöv və ya qısa qılınmalı olduğu kimi bir sıra ixtilafli məqamlarda onların hamısının fətvalarını nəzərə almalıdır (məsələn, örnək olaraq göstərilən halda namazlarını həm qısa, həm də bütöv qılmalıdır);

3 – mütəxəssislərdən bəziləri bir müctəhidi, başqa bir qismi isə digər bir müctəhidi ələm elan edərsə. Bu ehtimalın özü də iki fərzi özündə ehtiva edir:

a) mükəlləf onlardan birinin digərlərindən daha ələm olduğunu bilir, lakin onun məhz hansı olduğunu müəyyən edə bilmir; bu nadir rastlana biləcək bir ehtimaldır və bu ehimalla bağlı hökm “Minhac əs-salihin” risaləsində təfsilatı ilə öz əksini tapmışdır;

b) mükəlləf onlardan birinin daha ələm olduğuna dair məlumata sahib deyil; bu isə o deməkdir ki, onların elm və təqva etibarilə bərabərsəviyyəli müctəhidlər olduğu ehtimal olunur və bu halda 2-ci ehtimalla bağlı hökmə müvafiq qaydada hərəkət etmək lazımdır.

Məsələ 33. Mükəlləf yeni bir məsələ ilə qarşılaşarsa və həmin məsələ ilə bağlı təqlid etdiyi müctəhidin rəyini bilməzsə, onun rəyini öyrənməsi, vəkillərindən (nümayəndələrindən) soruşması bu iş ödənişli telefon əlaqəsi kimi kifayət qədər xərc tələb etdiyi halda belə vacibdirmi? Yoxsa təqlid etdiyi müctəhidin fətvasını öyrənənədək rəyini asanlıqla öyrənə biləcəyi başqa bir müctəhidin fətvasına əməl edə bilərmi? Bu halda fətvasına müvafiq surətdə hərəkət etdiyi başqa müctəhidin rəyi mükəlləfin təqlid etdiyi müctəhidin rəyi ilə üst-üstə düşməzsə, onun artıq gördüyü əməlləri ilə bağlı hökm nədir?

Cavab: Təqlid etdiyi ələm müctəhidin rəyini öyrənmək onu ciddi bir zərərə məruz qoymadığı halda telefon əlaqəsi vasitəsi ilə də olsa, onun fətvasını öyrənməlidir. Öz mərcəi-təqlidinin fətvasını öyrənməsi mümknü olmadığı təqdirdə isə ələmlik məsələsində ardıcıllığa riayət etməklə digər müctəhidlərə müraciət edə bilər. Bu zaman qarşısına çıxan həmin yeni məsələdə hətta sonradan öz mərcəi-təqlidinin fətvası ilə üst-üstə düşmədiyi aydın olsa belə, ikinci müctəhidin fətvasına uyğun qaydada etdiyi hərəkətlər doğru və kafi sayılır.

## ÜÇÜNCÜ FƏSİL

## TƏHARƏT VƏ NƏCASƏT

Hər bir müsəlman hər zaman bədəninin, paltarlarının və digər əşyalarının təmiz olmasına və onları çirkləndirə biləcək nəcasətdən uzaq tutmağa çalışır. Qeyri-müsəlman ölkələrində yaşamaq bəzi müsəlmanlar üçün nəcasətdən qorunmaq xüsusunda ciddi sıxıntılar yaradır. Belə ki, onlar həmin ölkələrin müsəlman olmayan əhalisi ilə eyni restoran və kafelərin, bərbərxanaların, paltaryuma servislərinin xidmətlərindən istifadə edir, sidik kimi nəcasətlərlə çirklənən döşəmələrin üzərində hərəkət etməli, ümumi ayaqyolundan və s. istifadə etməli olurlar.

Bütün bunları nəzərə alaraq öncə əziz oxucuları təharət və nəcasətlə bağlı aşağıdakı hökmlərlə tanış etməyi məqsədəuyğun hesab edirik:

Məsələ 34. Artıq qeyd edilən şəriət hökmünə əsasən, bütün əşyalar nəcis olduğu təsbit edilənədək pakdır.

Məsələ 35. Kitab əhli, o cümlədən yəhudilər, xristianlar və məcusilər pak hesab edilirlər və müsəlman onların bədənlərinin nəcisə bulaşdığına əmin olmayınca onlarla ünsiyyətdə bu qaydanı əsas tuta bilər.

Məsələ 36. Nəcasət rütubətin sirayət etməsinə səbəb olan nəmlik sayəsində keçir. Quru halda, yaxud rütubət sirayətedici olmadıqda isə nəcasət keçici sayılmır. Beləliklə, quru əllə quru nəcisə toxunduqda əl nəcisə bulaşmış sayılmır.

Məsələ 37. Müsəlman qarşılaşdığı, əl sıxaraq görüşdüyü hər bir şəxsin dini etiqadından xəbərdar olmadığı halda onun müsəlman və ya kitab əhli olduğunu ehtimal edərsə, əli rütubətli olsa belə onu pak hesab edə bilər. Bu zaman ondan dini etiqadını öyrənmək - hətta bu sual sizə və ya ona heç bir problem yaratmasa belə - vacib deyil.

Məsələ 38. Bədən və ya paltara tökülən mayelər nəcis olduğu sübuta yetməyincə pak hesab edilir.

Məsələ 39. Odun[1] və ya başqa bir nəsnədən alınmasından asılı olmayaraq spirt pakdır. Beləliklə, tərkibində spirt olan bütün dərman, ətriyyat və yeyinti

[1] İlk dəfə 1661-ci ildə quru odunun yüksək hərarətdə qızdırılması nəticəsində alınan metanol, metil, yaxud karbinol ən bəsit tərkibli spirt hesab olunur və sənayedə karbonmonooksid ilə hidrogenin reaksiyasından alınır.

məhsulları da pak hesab edilir və onlardan istifadə edə, hətta miqdarı olduqca az, məsələn 2% həcmində olduğu hallarda hətta həmin qida məhsulları ilə qidalana da bilərsiniz.

Məsələ 40. Daha öncə istifadə edilən əşyalardan nəcasətə bulaşdıqlarına əmin olmadıqca paklamağa ehtiyac duymadan yenidən istifadə etmək olar.

Məsələ 41. Xalçalar və digər döşəmə örtükləri üzərində bir qismi, yaxud təsiri qalmayan müxtəlif nəcasətlərə bulaşarsa, qəlil (kür miqdarından az) suyu onların üzərinə bir dəfə axıtmaqla yuyula bilər. Bu məqsədlə nəcisə bulaşan hissəni tamamilə isladacaq (yuyacaq) şəkildə həmin hissənin üzərinə su tökmək, sonra əllə sıxmaqla, yaxud quruducu cihazla, yaxud da üzərinə suyu özünə çəkəcək bir parça qoymaqla qüsalə suyundan təmizləmək lazımdır. Beləliklə, xalça və ya döşəmə örtüyü pak olur, qüsalə suyu isə vacib ehtiyata əsasən nəcis hökmünü daşıyır. Bu hökm sidikdən başqa nəcasətlərə bulaşan bütün libaslara da şamil olunur. Sidiyə bulaşan paltarlara, eləcə də südəmər oğlan və qızların sidiyinə tətbiq olunan özünəməxsus hökmlərə isə qarşıdakı məsələlərdə aydınlıq gətiriləcəkdir.

Məsələ 42. Öncəki məsələdə sözügedən əşyaları kürr miqdarından artıq olan su mənbəyinə qoşulmuş krant suyu ilə paklamaq istədikdə isə onları əllə sıxmaq, quruducu cihazla qurutmaq, yaxud baqa bir yolla qüsalə suyunu çıxarmağa ehtiyac yoxdur. Kürr suyun həmin əşyaların üzərinə axıdılması ilə onlar pak olur.

Məsələ 43. Libas, xalça və s. qan və məni (sperma) kimi üzərində təsir (rəngini, dadını yaxud qoxusunu) buraxan hər hansı bir nəcislə bulaşarsa, onları 41-ci məsələdə öz əksini tapan qaydada yumaq olar. Bu şərtlə ki, nəcasətin özü (təsiri) bu yumadan öncə suya çəkilərək, yaxud başqa bir vasitə ilə aradan qaldırılmalıdır. Həmçinin, bu halda 41-ci məsələdən fərqli olaraq nəcasətin özünü yuyub aparan su vacib ehtiyata əsasən deyil, birbaşa fətvaya əsasən nəcis sayılır.

Məsələ 44. Müstəsna halları çıxmaqla əsasən südlə qidalanan südəmər oğlan və qız uşaqlarının sidiyi ilə nəcis olan xalçaları, paltarları və s. paklamaq üçün həmin əşyanın sidiyə bulaşan hissəsini tamamilə əhatə edəcək qaydada üzərinə bir dəfə su tökmək kifayətdir və həmin suyu sıxaraq (qurudaraq) çıxarmağa da ehtiyac yoxdur.

Məsələ 45. Böyüklərin sidiyi ilə nəcis olan libasları da su ilə pak etmək olar. Bu məqsədlə kür həcmindən az su ilə yuduqda həmin paltarların üzərinə nəcisə bulaşan hissəni tamamilə əhatə edəcək şəkildə su axıtmaq, sonra həmin suyu əllə sıxaraq, yaxud başqa bir yolla çıxarmaq, ardınca bunu bir dəfə də təkrarlamaq lazımdır. Sidiyin özü ilə qarışmamış olduğu halda hər iki yumada sıxılan su vacib ehtiyata əsasən, nəcis sayılır. Sidiyin özünün də sıxılan suya qarışdığı halda isə birinci yumadan sonra sıxılan su birbaşa fətvaya əsasən nəcis sayılır.

Məsələ 46. Böyüklərin sidiyi ilə nəcis olan libasları kürr həcmində olan su mənbəyinə bağlı krantın suyu ilə yumaq üçün də onları iki dəfə suya çəkmək lazımdır, yalnız bu fərqlə ki, bu halda yuduqdan sonra sıxaraq, yaxud başqa bir yolla suyunu çıxarmağa ehtiyac yoxdur. Eləcə də bədən sidiyə bulaşdıqda onu (sidiyə bulaşan hissəsini) istər kürr həcmində, istərsə daha az miqdarda olan su ilə iki dəfə yumaq lazımdır.

Məsələ 47. Şərabla nəcis olan əl və libaslar bir dəfə yumaqla pak olur. Lakin libasları qəlil su ilə yuduqda yumadan sonra həmin suyu sıxmaq lazımdır.

Məsələ 48. Şərab, yaxud hər hansı başqa bir nəcasətlə bulaşan qabları qəlil su ilə paklamaq üçün onları üç dəfə yumaq lazımdır. Həmçinin, kürr həcmində mənbəyə bağlı krant suyu ilə paklayarkən də vacib ehtiyata əsasən, üç dəfə yumaq lazımdır.

Məsələ 49. İtin ağzının suyu (seliyi, yaxud tüpürcəyi) ilə nəcis olan əl və paltarlar bir dəfə yumaqla pak olur. Lakin qəlil su ilə yuyarkən paltarları yuduqdan sonra sıxmaq lazımdır.

Məsələ 50. İtin ağzı ilə toxunması, yaxud su içməsi nəticəsində nəcis olan qabları paklaşdırmaq üçün onları birinci dəfə torpağa sürtdükdən sonra olmaqla üç dəfə yumaq lazımdır.

İndi isə gəlin təharət və nəcasət mövzusu ilə bağlı tez-tez soruşulan bir sıra suallar və onların cavabları ilə tanış olaq:

Məsələ 51. Pakedicilərdən biri də yerdir. Bəs yer örtüyü ayaqqabıların altı kimi onun üzrənidə hərəkət edən avtomobillərin təkərlərini də pak edirmi?

Cavab: Xeyr, pak etmir.

Məsələ 52. Nəcasətə bulaşan əşyalar maye halında olmadığı halda nə qədər bulaşdırıcı hesab olunur?

Cavab: Nəcasətə bulaşan ilk əşya toxunduğu əşyanı (öncəki məsələlərdə də öz əksini tapdığı kimi təmasda olan əşyalardan ən azı biri keçirici dərəcədə rutubətli olduğu halda *tərc.*) nəcis edir. İkinci əşya da eyni qayda ilə üçüncünü nəcasətə bulaşdırmış hesab edilir. Lakin üçüncü əşya maye olub-olmamasından asılı olmayaraq təmasda olduğu əşyaları nəcasətə bulaşdırmış sayılmır.

Məsələ 53. İtin ağzı bədənimizə, yaxud libaslarımıza toxunduğu halda necə paklanmalıyıq?

Cavab: Bir dəfə su ilə yumaq kifayətdir. Qəlil su ilə yuduqda isə qüsalə suyu ayrılmalıdır ki, bunun üçün də yuyulan paltarları yumadan sonra möhkəmcə sıxmaq lazımdır.

Məsələ 54. Sihlər (siqhizm dininin ardıcılları) də yəhudilər və xristianlar kimi səmavi dinlərin nümayəndələri sayılırmı?

Cavab: Sihlər kitab əhli sayılmır.

Məsələ 55. Buddistlər kitab əhli sayılırmı?

Cavab: Onlar kitab əhli deyil.

Məsələ 56. Bir müsəlman qərb ölkələrindən birində mebel və avadanlıqlarla təmin edilmiş ev kirayələyərsə, hər hansı bir nəcasət izinə rast gəlmədiyi halda evdəki bütün əşyaları pak hesab edə bilərmi? Bəs ondan öncə həmin evdə məskunlaşan kitab əhli – yəhudi və ya xristian, yaxud hətta buddist və ya Allahı, onun elçilərini inkar edən bir şəxs olsa necə?

Cavab: Bəli, nəcasətə bulaşmış olduğunu bilmədikcə, buna əmin olmadıqca evdəki bütün əşyaları pak hesab edə bilər. Bu xüsusda şəkk-şübhəyə isə məhəl qoyulmamalıdır.

Məsələ 57. Qərb ölkələrində kirayəyə verilən evlərin əksəriyyəti otaqların döşəməsinə bitişdirilən və qaldırılaraq altına bir qab qoyulması belə mümkün olmayan döşəmə örtüyü ilə örtülmüşdür. Sidik, yaxud qan kimi nəcasətlərə bulaşdığı halda onları kürr həddindən az və çox su ilə necə yumaq lazımdır?

Cavab: Əgər yumadan sonra parça, yaxud hansısa bir alətlə həmin suyu sıxıb çıxarmaq (yuyulan hissəni qurutmaq) mümkün olarsa, bu qaydada kürr həcmindən az su ilə də yumaq olar. Əks təqdirdə isə yalnız kürr normasından artıq su ilə pak edilə bilər.

Məsələ 58. Qərb ölkələrində paltaryuma xidməti göstərən servislər geniş yayılmışdır və həmin paltaryuyan maşınlarda müsəlmanlarla qeyri-müsəlmanların libasları pak və ya nəcis olmasından asılı olmayaraq birlikdə yuyulur. Həmin maşınlarda yuyulan geyimlərimizlə namaz qıla bilərikmi? Nəzərə almaq lazımdır ki, biz həmin paltaryuyan maşınların yuma əsnasında lazımı qaydada kürr suya qoşulmuş olub-olmadığını, eləcə də libasları təmizlədiyi kimi nəcasətdən də pak edib-etmədiyini bilmirik.

Cavab: Yuyulmadan öncə pak olan və sonradan nəcasətə bulaşdığına əmin olmadığınız paltarla namaz qıla bilərsiniz. Həmçinin, üzərindəki nəcasətin - varsa - aradan qaldırıldığına əmin olduğunuz libaslar sidiklə nəcis olduğu halda pak və mütləq suyun bütün nəcasətə bulaşan (toxunan) hissələrini əhatə edəcəyi şəkildə iki dəfə (vacib ehtiyata əsasən, hətta kürr su ilə yuyulduqda belə), başqa nəcasətlərə bulaşdığı (toxunduğu) halda isə bir dəfə yuduqdan və eləcə də qəlil su ilə yuyulduğu halda ardınca qüsalə suyunu sıxmaq, yaxud başqa bir yolla ayırdıqdan sonra pak hesab olunur. Lakin şəriətdə nəzərdə tutulan qaydada paklandığına şəkk etdiyiniz libasların isə nəcis olaraq qaldığına hökm olunur və onlarla namaz qılmaq düzgün deyil.

Məsələ 59. Qeyri-müsəlmanlar tərəfindən işlədilən, müsəlmanlarla yanaşı qeyri-müsəlmanların da libaslarını yudurtduğu servislərdəki paltaryuyan maşınlarda yuyucu mayelər qatılaraq yuyulan geyimlər pak hesab olunurmu?

Cavab: Həmin paltarların nəcasətlə təmas nəticəsində nəcasətə bulaşdıqlarını bildiyiniz hal istisna olmaqla, onlar pak hökmündədir.

Məsələ 60. Bəzi sabunların üzərində onların hazırlanmasında donuz piyindən, yaxud İslam şəriətinin normalarına müvafiq qaydada kəsilməyən heyvan mənşəli maddələrdən istifadə olunduğu yazılır və biz həmin maddələrin istihalə

yolu ilə başqa bir maddəyə çevrilib-çevrilmədiyini bilmirik. Həmin sabunları pak saya bilərikmi?

Cavab: Tərkibində sözügedən maddələr mövcuddursa, onların istihaləsi gerçəkləşdiyi hallar istisna olmaqla, həmin sabunlar nəcis sayılır. Qeyd etmək lazımdır ki, sabun istehsalı prosesində sözügedən istihalə halınının gerçəkləşməsi təsbit (müşahidə) edilməmişdir.

Məsələ 61. Donuz tukundən hazırlanan diş fırçalarının alqı-satqısı və istifadəsi doğrudurmu və istifadə edildiyi halda ağız nəcasətə bulaşmış sayılırmı?

Cavab: Alqı-satqısı və istifadəsi haram deyil. Lakin istifadə edildiyi halda ağız nəcasətə bulaşmış hesab olunur. Fırçanı ağızdan çıxardıqdan sonra ağız boşluğunda qalan diş məcununun təmizlənməsi ilə isə pak olur.

Məsələ 62. Yumurtanın sarısında, yaxud ağında müşahidə olunan qan onu nəcis etmiş sayılırmı? Belə yumurtaları yeyə bilmərikmi? Bu məsələnin bir həlli yolu varmı?

Cavab: Yumurtanın ağında müşahidə edilən qan pak sayılır, lakin yeyilməsi haramdır. Bununla belə həmin qanı təmizləyərək yumurtanı yemək olar. Qan ləkəsi yumurtadan ayrılmayacaq dərəcədə cüzi miqdarda olduğu halda isə yumurta pak və yeyilməsi halal hesab edilir.

Məsələ 63. Şərab və pivə pak sayılırmı?

Cavab: Şərabın nəcis olduğu şübhəsizdir. Pivəyə (qaynadılmış, məstedici arpa suyuna) gəlincə, içilməsi qəti şəkildə haram olsa da, nəcis hesab olunması hökmü vacib ehtiyata əsaslanır.

Məsələ 64. Avropada fərqli dinlərin, irqlərin və millətlərin nümayəndələri bir arada yaşayırlar. Belə bir cəmiyyətdə hansı dinin mənsubu olduğunu bilmədiyimiz bir satıcıdan aldığımız və onun çılpaq əli ilə toxunduğu rütubətli (ələ rütubət keçirə biləcək dərəcədə) qida məhsullarını pak saya bilərikmi?

Cavab: Toxunan əlin nəcis olduğunu bilmədiyiniz (əmin olmadığınız) halda qida məhsulları pak hesab olunur.

Məsələ 65. Avropa ölkələrində harada istehsal olunduğunu bilmədiyimiz süni dəri məhsulları satılır. Deyilənlərə əsasən, bir sıra Avropa ölkələri müsəlman

dövlətlərindən ucuz qiymətə dəri xammalı alaraq süni dəri məhsulları istehsal edirlər. Həmin məhsulları pak hesab edə bilərikmi? Belə dəri geyimlərlə namaz qıla bilərikmi? Ümumiyyətlə, belə zəif bir ehtimala əsaslanmaq olarmı?

Cavab: Həmin dərilərin şəriət normalarına müvafiq surətdə kəsilən heyvanlardan alınması ehtimalı sağlam ağıl sahiblərinin etimad göstərməyəcəyi qədər az, məsələn 2% olarsa, sözügedən məhsullar nəcis hökmünü daşıyır və namaz qılarkən onları geyinmək olmaz. Əks təqdirdə isə həmin məhsullar pak sayılır və onlarla namaz qılmaq olar.

## DÖRDÜNCÜ FƏSİL
## NAMAZ

Bir hədisdə oxuyuruq: “Namaz dinin sütunudur”.[1]

Həzrət Əli (ə) Əbdürrəhman ibn Mülcəm tərəfindən sui-qəsdə məruz qaldıqdan sonra İmam Həsən (ə) və İmam Hüseynə (ə) vəsiyyətində deyirdi: “Sizi and verirəm Allaha! Sizi and verirəm Allaha! Namazlarınıza qarşı diqqətli olun! Sizi and verirəm Allaha! Sizi and verirəm Allaha! Ömrünüzün sonunadək Rəbbinizin evini unutmayın!”[2]

Sükuni adlı ravi İmam Sadiqə (ə) istinadən Allahın elçisinin (s) belə buyurduğunu nəql edir: “Mömin gündəlik beş namazını öz vaxtında qıldıqca şeytan ona yaxınlaşmaqdan qorxar. O, namazlarına qarşı etinasızlıq göstərməyə başladığı andan isə cürət taparaq onu böyük günahlara sövq etməyə başlayar”.[3]

Başqa bir müasiri, Yezid ibn Xəlifə isə İmam Sadiqin (ə) belə buyurduğunu nəql edir: “Namazqılan namaza başladıqda səmadan (ilahi dərgahdan) yer üzünə rəhmət enməyə başlayar, mələklər onu əhatəsinə alar, aralarından biri car çəkərək

---

[1] Vəsail əş-şiə, c.4, səh.35.

[2] Nəhc əl-bəlağə, Subhi Salehin redaktəsi ilə, səh.422.

[3] Vəsail əş-şiə, c.4, səh.28.

deyər: “Əgər bu namazqılan namazda hansı dəyərlərin gizli olduğunu bilsəydi, namazdan ayrılmazdı!”[1]

Bütün bu dəyərli kəlamlar bizə İslamın namaza verdiyi aydın, birmənalı dəyəri göstərir. Namaz bir növ Allahın hüzuruna şərəfyab olmaq hesab edildiyindən, hədisi-şərifdə də öz əksini tapdığı kimi namazqılan Rəbbinin qarşısında dayandığından namaz halında qəlbini Rəbbinə doğru yönəltməlidir və heç bir dünyəvi problem və ötəri maddi qayğısı onu məşğul etməməlidir.

Uca Allah (c.c.) özü də kitabında buyurur: ***“Həqiqətən, möminlər nicat tapmışlar! (Cənnətə nail olmaqla mətləblərinə çatıb əbədi səadətə qovuşmuşlar!) O kəslər ki, namazlarında (hər şeyi unudaraq ruhən və cismən yalnız Allaha) müti olub (Ona) boyun əyərlər! (Allahın qarşısında kiçilərlər!)”***[2]

İmam Səccad (ə) namaz qılarkən küləyin təsiri nəticəsində yalnız yarpaqları əsən ağac budağı kimi hərəkətsiz dayanardı.[3] İmam Baqir (ə) və İmam Sadiq (ə) isə namaza dayanarkən bəzən üzləri qızarar, bəzən də saralardı, sanki qarşılarında gördükləri bir həmsöhbətlə pıçıldaşırdılar.[4]

Namazla bağlı şəriətdə çoxsaylı hökmlər mövcuddur. Burada onlardan bir qismini xatırlamağı məqsədəuyğun hesab edirik:

Məsələ 66. Fəqihlər deyirlər: “Namaz heç zaman insanın öhdəsindən götürülmür. Bu isə o deməkdir ki, istər səfərdə, istərsə də vətəndə namaz qılmaqdan imtina etmək hansı vəchlə olursa-olsun yolverilməzdir. Məsələn, namazın vaxtı daralarsa, müsəlman müsafir təyyarədə, gəmidə, avtomobildə, yaxud qatarda (istər dayanarkən, istərsə hərəkət əsnasında), həmçinin gözləmə salonlarında, parklarda, yollarda, iş yerlərində və s. olmasından asılı olmayaraq namazını qılmalıdır.

---

[1] Vəsail əş-şiə, c.4, səh.32.

[2] Muminun surəsi, 1-2-ci ayələr.

[3] Məhəmmədhadi Milani, Qadətuna kəyfə nərifuhum, c.6, səh.164; bax: adıçəkilən mənbə, “İmam Zeynəlabidinin (ə) ibadəti” fəsli, səh.163-172.

[4] Ayətullah əl-uzma Sistani, Minhac əs-salihin, c.1, səh.193.

Məsələ 67. Müsafir təyyarədə, qatarda, avtomobildə, yaxud başqa bir nəqliyyat vasitəsində namazını ayaq üstə qıla bilməzsə, oturduğu halda qılmalıdır. Qibləni təyin edə bilmədiyi halda üzünü qiblə istiqaməti olduğunu güman etdiyi tərəfə tutmalıdır. Ümumiyyətlə, qiblənin hansı istiqamətdə olduğuna dair təsəvvürü olmadığı halda isə istənilən istiqamətə üzünü tuta bilər. Hərəkət nəticəsində yalnız "təkbirət əl-ihram" deyə biləcək qədər üzü qibləyə dayana bilmək fürsəti olduğu halda, bununla (namazın digər rükn və hərəkətlərini üzü qibləyə icra etməsə belə) kifayətlənə bilər.

Məsələ 68. Qiblə istiqamətini stüardessa vasitəsilə pilotlardan (yaxud gəmidə kapitandan və s.) öyrənmək olar və arxayınlıq hasil etdiyi halda hətta kafir olsalar belə onların verdiyi məlumatı doğru hesab etmək olar. Həmçinin, düzgün işlədiyinə arxayın olduğu halda müsəlman kompas kimi cəhəti təyin edən cihazlara əsaslana bilər.

Məsələ 69. Müsəlman namaz qılmaq üçün dəstamaz almaq imkanına sahib olmadıqda dəstamaz əvəzinə təyəmmüm almalıdır.

Məsələ 70. Gecə və gündüzün uzunluğu yer kürəsinin ayrı-ayrı məntəqələrində fərqli vaxt ölçüləri kimi təzahür edir. Müsəlmanın yaşadığı məntəqədə günün çıxma və qürub vaxtları dəqiq məlum olarsa, o namaz və oruc kimi ibadətlərini həmin vaxt ölçüsünə əsasən icra etməlidir, hərçənd günün qısa olması səbəbilə bəzi namazları çox az zaman fasiləsi ilə qılmalı olsa belə, yaxud gecənin qısa olması ilə əlaqədar olaraq iftar üçün olduqca az vaxtı qalsa belə.

Məsələ 71. Bəzən bir sıra ölkələrdə ilin müəyyən fəsillərində günəş günlərlə, hətta aylarla görünmür, yaxud qürub etmir. Həmin ölkələrdə yaşayan müsəlman ehtiyata əsasən, gündəlik namazlarını sutka ərzində gecə ilə gündüzün bəlli saatlarda başlayıb qurtardığı ən yaxın qonşu ölkənin namaz vaxtlarına müvafiq qaydada ümumi qürbət (Allaha yaxınlaşmaq) niyyəti ilə qılmalıdır.

Məsələ 72. Müsəlman namaz və oruclarını icra etmək üçün fəcrin (sübh namazının) başlanğıcını, günorta və qürub saatlarını dəqiq bilməzsə, rəsədxanaların verdiyi məlumatlar onda arxayınlıq (düzgünlüyünə inam) hasil

etdiyi halda, həmin rəsədxanalarda çalışanlar müsəlman olmasalar belə, onların vaxt cədvəllərinə əsasən namaz qıla, oruc tuta bilər.

Məsələ 73. Müsəlman məskunlaşdığı yerdən ənənəvi yaşayış məntəqələrində[1] sonuncu evdən hesablanmaqla 44 km-dən az olmayan məsafəyə səfər etdikdə namazlarını qısa qılmalı, yəni zöhr, əsr və işa namazlarını dörd deyil, iki rəkət qılmalıdır. Səfərdə namazların bütöv və ya qısa qılınması ilə bağlı şəriətdə burada hamısını qeyd edə bilmədiyimiz, lakin əməliyyə risalələrində müfəssəl surətdə öz əksini tapan özünəməxsus hökmlər vardır.

Məsələ 74. İcrası üçün gərəkli şərtlərin ödəndiyi halda qılınan cümə namazı zöhr namazından daha üstündür, onu əvəz edir və mükəlləf cümə namazını qıldığı halda zöhr namazını qılmasına ehtiyac yoxdur.

Məsələ 75. Camaat namazı fərdi qaydada qılınan namazdan daha üstündür. Sübh, məğrib və işa namazlarının camaatla birgə qılınması təkidlə tövsiyə olunmuşdur. Hədisi-şəriflərdə oxuyuruq ki, bir alimin arxasında qılınan namazın savabı min, bir qüreyşlinin arxasında qılınan namazın mükafatı isə yüz dəfə artıqdır və camaat namazında məmumların (imamın arxasında dayananların) sayı artdıqca namazın dəyəri və savabı da artır.

İndi isə gəlin namazla bağlı Həzrət Ayətullah əl-üzma Sistaniyə ünvanlanan bir sıra suallar və onlara verilən cavablarla tanış olaq:

Məsələ 76. Bəzi insanlar dəstəmaz və qüslü doğru qaydada almadıqlarını illərlə namaz qılıb, oruc tutub, həcc ayinini icra etdikdən sonra başa düşürlər. Nə etməli olduqlarını soruşduqda isə onlara namaz və həcc ziyarətlərini təkrarlamalı olduqları deyilir. Bütün bu ibadətləri yenidən icra etməyin kifayət qədər çətin bir iş olduğu nəzərə alındıqda, doğru bildiyi qaydada qüsl və dəstamaz alan həmin şəxslərin namaz və həcc ayinlərinin doğru və kafi hesab edilməsi və eləcə də ibadətlərdən (bezərək, yaxud naümidliyə qapılaraq *tərc.*) tamamilə uzaqlaşmasının qarşısını almaq üçün bir çıxış yolu varmı?

---

[1] Başqa sözlə, bir rayonundan başqa bir rayonuna yollanmağın səfər hesab edildiyi (yəni səfər məsafəsinin evdən hesablanmağa başladığı *tərc.*) kifayət qədər iri meqapolislər istisna olmaqla.

Cavab: Əgər mükəlləf cahil qasir[1] olub həmin şəraitdə dəstamaz və qüslün doğruluğuna xələl gətirməyən bəzi şərtlərini pozarsa, məsələn, qüsldə baş və bədənin digər hissələri arasında yuyulma ardıcıllığına riayət etməzsə, yaxud dəstamazda məsh üzvlərinə əlində (yuyulmalı üzvləri yuduqdan sonra) qalan rütubətlə deyil, yenidən isladaraq məsh edərsə, dəstamaz və qüslü, nəticə etibarilə də namaz və həcc ziyarəti doğru hesab edilir. Lakin müqəssir cahil olub şəriət hökmlərini öyrənməkdə səhlənkarlıq göstərərsə, yaxud ümumiyyətlə, dəstamaz və qüslün doğruluna xələl gətirən bəzi şərtləri pozarsa, məsələn, yuyulmalı olan bədən üzvlərini yumazsa, onun namaz və həcc ayini heç bir vəchlə doğru hesab edilə bilməz. Lakin tamamilə uzaqlaşması qorxusu mövcud olarsa, onu ibadətlərinin qəzasını yerinə yetirməyə sövq etmək lazım deyil. Bəlkə Allah (c.c.) özü bir çıxış yolu göstərəcəkdir.

Məsələ 77. Bəzi insanlar illərlə namaz qıldıqları və hətta həcc ayinini də yerinə yetirdikləri halda həmin illər ərzində xüms rüsumunu ödəməmişlər. Onlar həmin namazlarını və həcc ayinini yenidən icra etməlidirlərmi?

Cavab: Əgər mükəlləf namazlarını, təvaf və təvaf namazı ayinlərini xüms şamil olunan libasla icra edərsə, vacib ehtiyata əsasən, namazlarını və həcc ziyarətini yenidən icra etməlidir. Lakin xüms şamil olunan libas yalnız təvaf namazında onun üzərində olarsa və o hökmü, yaxud onun tətbiq olunduğu məqamları bilməzsə, hətta müqəssir cahil durumunda olsa belə, həcci doğru hesab edilir və hökmü bilməməsi üzrürlü hal hesab edilmədiyi halda yalnız təvaf namazını yenidən qılmalıdır. Bunun üçün vacib ehtiyata əsasən, ciddi sıxıntı törətmədiyi halda Məkkəyə qayıtmalıdır, əks təqdirdə isə istənilən yerdə qıla bilər. Həmçinin qurbanlıq heyvana xüms şamil olunarsa, məsələn xümsü ayrılmamış gəlirlə alınmış olarsa, həcc ziyarətini yenidən gerçəkləşdirməsi vacibdir. Lakin xüms verməli olan hacı qurbanı məhz xüms verməli olduğu gəlirdən deyil, ümumi əmlakı hesabına almış olarsa (bu daha çox rast gəlinən haldır), ziyarəti doğru hesab olunur. Əlbəttə ki, bu halda xüms verməli olan hacı həmin qurbanlığın puluna görə

[1] “Cahil qasir” və “müqəssir qasir” terminlərinin anlamı ilə tanış olmaq üçün “Müxtəsər fiqh terminləri lüğəti” bölməsinə müraciət edin.

də zəmanət məsuliyyəti daşıyır. Bütün bu hökmlər xümsün vacib olduğunu, xümsü verilməmiş əmlakdan istifadənin haram olduğunu bilənlərə, yaxud müqəssir cahillərə şamil olunur. Qasir cahillərə gəlincə, onların namaz və həcci bu hallarda doğru hesab olunur.

Məsələ 78. Müsafir bir şəhərdə günorta azanını öz qulaqları ilə eşitdikdən sonra namaz qılmadan yola çıxarsa və mənzilbaşına məğrib azanından sonra çatarsa, günah etmiş sayılırmı və günorta namazlarının qəzasını qılması vacibdirmi?

Cavab: Bəli, vacib bir ibadəti onun üçün müəyyən edilən vaxt ərzində qılmadığına görə günahkar sayılır və həmin namazın qəzasını qılmalıdır.

Məsələ 79. Quru mürəkkəb dəstamaza və qüslə (suyun dəriyə təmas etməsinə) əngəl hesab edilirmi?

Cavab: Əgər suyun dəriyə toxunmasına mane ola biləcək özəllikdə deyilsə, dəstamaz və qüsl doğru hesab edilir. Bu xüsusda şəkk edildiyi halda isə aradan qaldırılmalıdır (dərinin üzərindən təmizlənməlidir).

Məsələ 80. Müsəlman maraqlı bir filmə tamaşa edərkən namaz vaxtı başlayarsa, onun filmə sonunadək baxmağa davam edərək namazını vaxtının bitməsinə az bir müddət qalanadək təxirə salması doğrudurmu?

Cavab: Müsəlmana namazını üzrlü bir səbəb olmadan fəzilət vaxtında qılmayaraq təxirə salmaq yaraşmaz. Sözügedən hal isə üzürlü hallardan sayılmır.

Məsələ 81. Krem suyun dəriyə çatmasına əngəl hesab edilirmi və dəstamaz və qüsl əsnasında dərinin üzərindən silinməsi vacibdirmi?

Cavab: Bilindiyi kimi krem dəriyə sürtüldükdən sonra onun dəri üzərində yalnız yağlılıq təsiri buraxır və bu da suyun dəriyə təmas etməsinə mane olmur.

Məsələ 82. Bəzi xanımlar bəzək məqsədilə dırnaqlarını normal həddən daha artıq uzadır və bəzən həmin dırnaqlar qırıldığından müraciət etdikləri həkim-kosmetoloqlar onlara bir gündən az olmayaraq dırnaqda qalmalı olan boyaların istifadəsini tövsiyə edirlər. Dəstamaz və qüsl əsnasında həmin boyaların suyun dırnaqlara toxunmasına mane olduğu nəzərə alındıqda, deyilən məqsədlə (gözəl

görünmək üçün) onlardan istifadə edə bilərlərmi? İstifadə etdikləri halda dəstamaz və qüsl almaq üçün nə etməlidirlər?

Cavab: Suyun dəriyə toxunmasına əngəl olduğu halda onlarla alınan dəstamaz və qüsl doğru sayılmır və həmin boyalar dəstamaz və qüsl üçün dırnaqlardan silinməlidir. Sözügedən məqsəd də bu hökmü dəyişdirmir.

Məsələ 83. Namazlarımızı nə zaman bütöv, nə zaman müxtəsər qılmalıyıq? İnsanların bir nəfəri hansısa bir yaşayış məntəqəsinin sakini hesab etməsi onun həmin yaşayış məskənində namazını bütöv qılması üçün kifayətdirmi?

Cavab: Namazın hansı hallarda qısa qılınmalı olduğu əməliyyə risalələrində müfəssəl surətdə öz əksini tapmalıdır. İnsan bir yeri özünə uzun bir müddətdə məskunlaşmaq məqsədilə yaşayış yeri seçərsə və əhali də onu müsafir deyil, həmin yerin sakini hesab edərsə, məsələn həmin məntəqədə iki il yaşamaq niyyətində olarsa, bu müddətlə orada iki ay yaşadıqdan sonra həmin yaşayış yeri şəriətdə onun vətəni hesab edilir. Lakin məskunlaşma müddəti qısa olarsa və o, həmin yerdə müsafir hesab edilərsə, namazını müxtəsər qılmalıdır.

Məsələ 84. Məğrib və işa namazlarının vaxtının başa çatdığı gecə yarısını necə hesablamalıyıq? Xalq arasında yayıldığı kimi saat 24:00 (00:00) gecə yarısı hesab edilə bilərmi?

Cavab: Gecə yarısı (məğrib və işa namazlarının vaxtının başa çatdığı an) deyərkən günəşin batması ilə çıxması arasındakı zaman diliminin (iki bərabər hissəyə ayrıldıqda) birinci yarısının başa çatması nəzərdə tutulur. Məsələn, günəş axşam saat 19:00-da bataraq, sabah saat 04:00-da çıxarsa, gecə yarısı 23:00 hesab olunur. Beləliklə, gecə yarısının hesablanması üçün meyar ilin ayrı-ayrı fəsillərində və eləcə də yer kürəsinin fərqli nöqtələrində bir-birindən fərqlənən günəşin batması və çıxma saatlarıdır.

Məsələ 85. Mükəlləf yatacağı halda sübh namazına ayılmayacağını bilərsə, sübh namazını vaxtında qılmaq üçün oyaq qalması vacibdirmi? Bəs bunu bilə-bilə yatdığı və namaz üçün oyana bilmədiyi halda günahkar sayılırmı?

Cavab: Hansısa bir şəxsin, yaxud zəngli saatın köməyi ilə də oyana bilər. Bu da mümkün olmadıqda yatıb qalması namaza qarşı səhlənkarlıq və laqeydlik hesab olunduğu hallar istisna olmaqla yatmaqla günah etmiş sayılmır.

Məsələ 86. Qiblə istiqamətini təyin edə və bədənimizi hərəkətsiz saxlaya bilmədiyimiz hallarda təyyarədə vacib namazlarımızı necə qılmalıyıq?

Cavab: Qiblə istiqamətini bir qayda olaraq verdikləri məlumatlar arxayınlıq, yaxud güman hasil edən pilot, yaxud stüardessalardan soruşmaqla təyin etmək olar və qiblə məsələsində həmin məlumatlara əsaslanmaq lazımdır. Bədənin hərəkətsizliyinə gəlincə, mümkün olmadığı təqdirdə bu şərt qüvvədən düşür. Lakin namazın digər şərtlərinə mümkün olduğu qədər riayət etmək lazımdır. Namazı onun üçün müəyyən olunmuş vaxt ərzində qılmayaraq təxirə salmaq isə heç bir vəchlə doğru deyil.

Məsələ 87. Qatarlarda və avtomobillərdə namazlarımızı necə qılmalıyıq? Belə hallarda səcdə etməliyikmi, yoxsa sadəcə əyilmək kifayətdir?

Cavab: Sözügedən nəqliyyat vasitələrində namazı mümkün olduğunca adi qaydada qılmağa çalışmaq lazımdır. O cümlədən, namazın bütün hərəkətlərini üzü qibləyə icra etmək lazımdır. Mümkün olmadığı halda yalnız təkbirət əl-ihram əsnasında üzü qibləyə olmaq kifayətdir. Bu da mümkün olmadığı təqdirdə isə qibləyə yönəlmək şərti qüvvədən düşür. Habelə, mümkün olduqca rüku və səcdələri normal qaydada yerinə yetirmək lazımdır. Məsələn, əlverişli şərait olduğu halda qatarın dəhlizində, yaxud avtobus salonunun keçid hissəsində namaz qılmaq lazımdır. Normal qaydada rüku və səcdə etmək mümkün olmadığı halda isə rüku və səcdə hesab ediləcək qədər əyilmək lazımdır. Belə ki, səcdədə alnı üzərinə qoymağın doğru hesab edildiyi bir şeyə (hətta yerdə, döşəmədə olmasa belə) toxundurmaq lazımdır. Deyilən qədər əyilmək də mümkün olmadığı təqdirdə isə rüku və səcdəni əvəz edən işarə hərəkətlərini icra etmək kifayətdir.

Məsələ 88. Bəzən namazın vaxtı tələbələr universitetə yollanarkən başlayır. Tələbə universitet kampusuna çatdıqda isə namazın vaxtı başa çatır. Belə hallarda o, namazını nəqliyyat vasitəsində qılmalıdırmı? Nəzərə almaq lazımdır ki, o,

nəqliyyat vasitəsindən düşərək bir yerdə namazını qıla bilər, lakin bu halda universitetə gecikəcəkdir.

Cavab: Nəqliyyat vasitəsindən enərək hərəkətsiz bir yerdə bütün şərtlərinə riayət etməklə namaz qılmaq imkanı olduğu halda universitetə gecikmək (davamiyyətsizlik) öz-özlüyündə nəqliyyat vasitəsində bəzi şərtlərinin pozulmasına rəğmən namaz qılmağa əsas vermir. Lakin gecikmə və davamiyyətsizlik normal hallarda müşahidə olunmayan ciddi sıxıntıların yaranmasına səbəb olarsa, bütün şərtlərinə riayət etməklə namaz qılmaq mümkün olmasına rəğmən, nəqliyyat vasitəsində bəzi şərtləri pozulsa belə, namaz qılmaq olar.

Məsələ 89. Namaz vaxtı işçinin iş saatlarına təsadüf edir və onun işi olduqca mühüm və təxirəsalınmaz bir işdir. Namaz qılmaq üçün işdən ayrılacağı təqdirdə ciddi probləmlərlə qarşılaşa bilərsə, hətta bu onun işdən qovulması ilə nəticələnə bilərsə, namazını qəzaya verə bilərmi? Yoxsa ehtiyac duyduğu işini itirməsinə səbəb olsa belə, namazını vatında qılmalıdır?

Cavab: Əgər həmin işə ehtiyacı zərurətdən irəli gələrsə, namaz vaxtı ərzində mümkün olan istənilən surətdə, hətta rüku və səcdələri işarə hərəkətləri ilə icra etməklə olsa belə, namazlarını qılmalıdır. Lakin bu nadir hallarda rast gəlinən bir ehtimaldır. Yaxşı olar ki, həmin işçi təqvanı tərcih edərək dininin sütunu sayılan bir ibadətin icrasına xələ gətirən bir işlə məşğul olmasın və uca Allahın kəlamını unutmasın: ***“... Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər ...”***[1]

Məsələ 90. Bəzi qərb və qeyri-müsəlman ölkələrində fəaliyyət göstərən bir sıra şirkət və müəssisələrdə müsəlman işçilər də ofis əməkdaşı kimi çalışırlar və onlar işlədikləri yerin mülkiyyət vəziyyəti ilə bağlı məlumata sahib deyillər. Beləliklə:

1 - Həmin məkanlarda qılınan namaz və alınan dəstamazlarla bağlı hökm nədən ibarətdir?

[1] Təlaq surəsi, 2-3-cü ayələr.

Cavab: Həmin məkanların mülkiyyət hüququ qorunan (şəriət tərəfindən mülkiyyət hüququ toxunulmaz hesab edilən) bir mülkiyyətçidən qəsb edildiyi (qanunsuz yolla ələ keçirildiyi) bilinmədikcə, orada namaz qılmağın və dəstamaz almağın eybi yoxdur.

2 - Orada namaz qılınan namazlarla bağlı problem olduğu halda keçmişdə qılınan namazlarla bağlı hökm nədən ibarətdir?

Cavab: Namaz qılınan yerin qəsb edilmiş bir məkan olması namazdan sonra aydınlaşarsa, namaz doğru hesab edilir.

Məsələ 91. Dəri (təbii) kəmərlə, yaxud üzərimizdə şəriət qaydalarına müvafiq şəkildə kəsilməyən heyvanın dərisindən hazırlanmış çanta olduğu halda namaz qılsaq və bunu namaz əsnasında, yaxud namazdan sonra, namaz vaxtının bitməsində isə öncə xatırlasaq, nə etməliyik?

Cavab: Həmin dəri məhsullarının alındığı heyvanın şəriət normalarına müvafiq qaydada kəsildiyinə dair sağlam düşüncə sahiblərinin etibar edə biləcəyi bir ehtimal mövcud olarsa, dəri kəmərlə namaz qılmaq doğru olduğu kimi, üzərinizdə həmin dərilərdən hazırlanan çanta olduğu halda da namaz qıla bilərsiniz. Həmçinin, əks təqdirdə (belə bir əsaslı ehtimalın mövcud olmadığı halda) öncədən məsələni bilməyərək namaz əsnasında başa düşsəniz və dərhal həmin əşyaları üzərinizdən çıxarsanız, namazınız doğrudur. Eləcə də, məsələni öncədən bildiyiniz halda unutsanız və namaz əsnasında xatırlasanız, bu unutqanlıq laqeydlik (namazla bağlı hökmlərə etinasızlıq) səbəbi ilə baş vermədiyi təqdirdə namazınız doğru hesab edilir. Laqeydlik səbəbi ilə baş verdiyi halda isə, namaz vaxtı başa çatmadan xatırlasanız, namazınızı yenidən qılmalı, başa çatdıqdan sonra xatırladıqda isə qəzasını qılmalısınız.

Məsələ 92. Son dövrlərdə geniş yayılmış kişi geyimlərindən biri də qeyri-müsəlman ölkələrində istehsal edilən cinş şalvarlardır. Onların üzərində istehsalçı şirkətin adı yazılan hansı qaydada kəsildiyini bilmədiyimiz dəri parçalardan ibarət emblemlər tikilir. Belə geyimlərlə namaz qıla bilərikmi?

Cavab: Bəli.

Məsələ 93. Namaz qılan adekolonla ətirləndikdən sonra namaz qıla bilərmi və adekolon pak sayılırmı?

Cavab: Bəli, adekolon pak sayılır.

Məsələ 94. Mozaika və beton blokların üzərinə səcdəetmək olarmı?

Cavab: Bəli.

Məsələ 95. Bəzi səccadə-xalçaların istehsalında emal nəticəsində əldə olunan neft məhsullarından istifadə olunur. Həmin xalçalara səcdə etmək olarmı?

Cavab: Səcdədə alnı onların üzərinə qoymaq olmaz.

Məsələ 96. Kağız vərəqlərə, yaxud salfetlərə səcdə etmək olarmı? Nəzərə almaq lazımdır ki, onların hansı maddələrdən hazırlandığını bilmirik.

Cavab: Kağız salfetlərə üzərinə səcdə etməyin doğru olduğu maddələrdən istehsal edildiyinə əmin olmayınca səcdə etmək olmaz. Kağız parçalara isə ipəkdən hazırlanmış olmadığı halda səcdə etmək olar.

Məsələ 97. Quran qiraətinin audio yazılarına qulaq asarkən vacib səcdə ayələrini eşitsək, səcdə etmək vacibdirmi?

Cavab: Vacib deyil.

## BEŞİNCİ FƏSİL

## ORUC

Sevimli Peyğəmbərimiz (s) ramazan ayı ərəfəsində söylədiyi bir xütbəsində insanlara belə müraciət etmişdi:

“Ey insanlar! Allahın ayı öz bərəkət, rəhmət və əfv özəllikləri ilə sizin sorağınıza gəlir. Bu, Allah dərgahında başqa aylardan, günləri başqa günlərdən, gecələri digər gecələrdən, saatları da digər saatlardan daha üstün və dəyərli olan bir aydır. Bu elə bir aydır ki, onun gəlişi ilə siz ilahi ziyafətə dəvət olunmuş, ilahi kəramət və dəyərə layiq görülmüşsünüz. Bu ayda aldığınız hər nəfəs zikr, yuxunuz ibadət hesab olunur, əməlləriniz qəbul olunmuş, duanız eşidilmiş sayılır.

Beləliklə, Rəbbinizdən sidq-ürəklə, səmimi qəlblə sizi bu ayda oruc tutmağa və öz kitabını oxumağa (anlamağa) müvəffəq etməsini diləyin. Həqiqətən, bədbəxt o şəxsdir ki, bu dəyərli ayda ilahi əfvdən məhrum olan insandır.

Ey insanlar! Bu ay ərzində cənnətin qapıları üzünüzə açıqdır. Rəbbinizdən diləyin ki, onu üzünüzə bağlamasın. Cəhənnəmin qapıları isə bağlıdır. Rəbbinizdən onu sizin üzünüzə açmamasını istəyin. Bu ayda şeytanlar da zəncirlənmiş olur. Rəbbinizdən onların sizə (qəlblərinizə) hakim olmasına imkan verməməsini də diləyin.

Ey insanlar! Aranızdan kim bu ayda əxlaqını (xasiyyətini, davranışlarını) gözəlləşdirərsə, bu addımı sirat körpüsündə ayaqların əsdiyi gün onun sərbəst keçməsini təmin edər. Kim bu ayda tabeçiliyində olanlara (ailə üzvləri, qulluqçuları və s. ilə) güzəşt edərsə, Allah (c.c.) da sınaq əsnasında ona güzəşt edər. Kim bu ayda insanları incitməkdən çəkinərsə, Allah (c.c.) da hüzuruna çıxdığı gün ona qarşı qəzəbli davranmaqdan çəkinər. Kim bu ayda yetimlərə qayğı və nəvazişlə davranarsa, ilahi görüşün gerçəkləşəcəyi gün Allah (c.c.) da onu əziz tutar. Kim bu ayda qohumları ilə əlaqəni kəsərsə, Allah (c.c.) da onun qarşısına çıxacağı gün mərhəmətini ondan əsirgəyər. Kim bu ayda Qurandan bir ayə oxuyarsa, onu başqa aylarda Quranı başdan sona oxuyan şəxsin mükafatı gözləyir".

İmam Əli (ə) buyurur: "Nə çoxdur elə oruc tutanlar ki, orucları onlara susuzluqdan başqa bir şey qazandırmır. Nə çoxdur elə namaz qılanlar ki, ibadətlərindən yorğunluqdan başqa bir şey əldə etmirlər".

İmam Sadiq (ə) isə buyurur: "Oruc tutarkən qulağını, gözünü, tüklərini, dərini və bütün digər əzalarını da qoru!" Ondan nəql olunan başqa bir hədisdə də belə oxuyuruq: "Oruc yalnız yemək və içməkdən imtina etmək demək deyil. Oruc tutarkən dilinizi yalandan, gözünüzü Allahın baxmağı haram etdiklərindən qoruyun. Bir-birinizə düşmən kəsilməyin, bir-birinizin paxıllığını çəkməyin, qeybət etməyin, bir-birinizə xoşagəlməz sözlərlə müraciət etməyin, haqsızlıq etməyin. Hərbə-zorbalıqdan, yalandan, düşmənçilikdən, bədgümandan, qeybətdən, söz gəzdiricilikdən (ara vurmaqdan) çəkinin. Axirət həyatınızın qayğısını çəkin, Allahın sizə vəd etdiklərinin intizarını çəkin, ilahi görüşə özünüzü hazırlayın.

Mətin, vüqarlı, təvazökar olun, özünüzü sahibindən (üzünə ağ olmaqdan) qorxan, eyni zamanda onun əfvinə ümid bəsləyən qullar kimi aparın”.[1]

Burada orucla bağlı öz əksini tapacaq bir sıra sual-cavablardan öncə İslamın bu önəmli göstərişi ilə bağlı bəzi şəriət hökmlərini xatırlatmağı məqsədəuyğun hesab edirik:

Məsələ 98. Orucu batil edən hərəkətlərdən biri də qəsdən (şüurlu surətdə) yemək və içməkdir. Beləliklə, oruc tutan qəsdən deyil, oruc olduğunu unudaraq qida qəbul edərsə, orucu doğru sayılır və buna görə heç bir cəza almır.

Məsələ 99. Ramazan ayında orucu pozan hallardan biri də sübh azanınadək cənabətli halda qalmaqdır. Buna əsasən, cənabətli şəxs ramazan ayında gecəni cənabətli halda başa vuraraq qəsdən sübh azanınadək qüsl almazsa, ma fiz-zimmə (şəriətin üzərinə qoyduğu vəzifə) niyyəti ilə həmin günü oruc olaraq başa vurmalıdır. Lakin əhvət (ən ehtiyatlı) nəzərə əsasən, həmin günü oruc niyyəti ilə orucu pozan hallardan çəkinərək başa vurmaqla yanaşı başqa bir gün də həmin günün orucunun qəzası və cəzası niyyəti ilə oruc tutmalıdır. Xəstəliyi səbəbi ilə qüsl ala bilməyən xəstə isə sübh azanınadək təyəmmüm alarsa, paklanmış sayılır və orucunu tutmalıdır.

Məsələ 100. Ramazan ayında orucu batil edən hallardan daha biri isə heyz və ya nifas günləri bitən (qanaxması kəsilən) qadının sübh azanınadək heyzli və ya nifaslı halda qalaraq qüsl almaq imkanı olduğu halda qüsl almamasıdır. Beləliklə, sübh azanınadək fürsəti olduğu halda gecəni qüsllü halda başa vurarsa, öncəki məsələdə cənabətlə bağlı açıqlanan hökm ona da şamil olunur. Qüsl almaq imkanı olmadığı halda isə təyəmmüm etməlidir.

Məsələ 101. Daha yaxşı olar ki, oruc tutan şəxs ağız boşluğuna gələn bəlğəmi udmasın. Hərçənd, ağız boşluğuna toplanan tüpürcək (həcmindən asılı olmayaraq) kimi bəlğəmi də udmaq orucu pozmaz.

[1] Bu və digər hədislərlə tanış olmaq üçün müfəssəl hədis mənbələrinə, o cümlədən Şeyx Abbas Quminin “Məfatih əl-cinan” əsərinə (səh. 235-238) müraciət edin.

Məsələ 102. Oruc əsnasında gün ərzində baş verən ehtilam (pollyusiya, şeytanı olmaq) halı orucu pozmur. Möhtəlim olan şəxs namaz qılmaq üçün cənabət qüslü almalıdır, orucuna isə bu hal təsir etmir.

Məsələ 103. Oruc tutan fırçalama əsnasında ağız suyuna qarışan məcun maddəsini udmadıqca diş fırçası və məcunu ilə dişləri təmizləmək də orucu batil edən hallardan deyil. Ağız suyunda əriyib həll olan cüzi miqdardakı məcun qalığı isə oruca təsir etmir.

Məsələ 104. Əgər müsəlman gecə və gündüzün hər birinin altı ay davam etdiyi bir ölkədə yaşayarsa, ona vacibdir ki, istər ramazan ayında, istərsə ramazan orucunun qəzasını tutmaq üçün başqa bir ayda oruc tuta biləcəyi bir ölkəyə köçsün. Köçmək imkanına sahib olmadığı halda isə oruc əvəzinə fidyə verməlidir. Bu fidyə hər gün müqabilində bir yoxsula bir müdd (750 q.) təamdan ibarətdir.

Məsələ 105. Əgər müsəlman ilin bəzi günlərində gündüzün 23 saat, gecənin isə 1 saat sürdüyü, yaxud əksinə gecənin 23 saat, gündüzün isə 1 saat davam etdiyi bir ölkədə yaşayarsa, ramazan ayında oruc tutmaq iqtidarında olduğu halda oruc tutması vacibdir, əks təqdirdə isə vacib deyildir. Gələcəkdə (yaxud ilin digər günlərində) başqa bir ölkəyə köçməklə olsa belə, oruc tutmaq imkaına sahib olarsa, həmin orucların qəzasını tutması vacib, bu (orucların qəzasını tutmaq) da mümkün olmadığı təqdirdə isə oruc qarşılığında (öncəki məsələdə göstərilən qaydada) fidyə verməlidir.

İndi isə gəlin orucla bağlı Həzrət Ayətullah əl-uzmaya ünvanlanan bir sıra suallara cavab olaraq verilən fətvalarla tanış olaq:

Məsələ 106. Bəzi insanlar öz vətənlərindən imtina etmədən müəyyən bir məqsədi gerçəkləşdirmək üçün bir neçə il qalmaq niyyətilə başqa bir ölkəyə köçürlər. Həmin məqsədi gerçəkləşdirdikdən sonra isə istədikləri yeri özlərinə vətən seçmək (məskunlaşmaq) üçün o ölkəni tərk edirlər. Həmin insanlar namazlarını necə qılmalıdırlar? Oruc tutmalıdırlarmı?

Cavab: Orada namazlarını bütöv qılmalı, oruclarını isə öz vətənlərində oluğu kimi məskunlaşdıqdan bir ay keçdiyi vaxtdan etibarən tutmalıdırlar.

Məsələ 107. Avropa ölkələrində fəaliyyət göstərən rəsədxanaların il ərzində, eləcə də ramazan ayında fəcr (sübh azanı), günün çıxması, zöhr, qürub kimi ibadət saatlarının təyin edilməsi ilə bağlı hesablamalarına əsaslana bilərikmi? Nəzərə almaq lazımdır ki, həmin hesablamalar elmi əsaslara söykənir və saniyələrə qədər dəqiq vaxt ölçüləri əsasında aparılır.

Cavab: Həmin hesablamaların doğruluğuna arxayınlıq hasil olduğu təqdirdə onlara müvafiq şəkildə hərəkət etmək olar. Fəcr zamanının təyin olunması xüsusunda orada, xüsusilə də bəzi Avropa ölkələrində fərqli hesablamalar mövcud olduğundan doğru rəyə əməl etməyə çalışmaq lazımdır.

Məsələ 108. Bəzi ölkələrdə günəş günlərlə çıxmır, yaxud batmır. Həmin ölkələrdə namaz və oruclarımız necə olacaq?

Cavab: Namaz xüsusunda, vacib ehtiyata əsasən, hər sutka ərzində günəşin çıxıb batdığı ən yaxın məntəqəni nəzərə almalı, gündəlik beş vaxt namazı həmin məntəqənin namaz vaxtlarına müvafiq qaydada qılmalısınız. Oruca gəlincə isə ramazan ayında bu dəyərli ayın orucunu, yaxud daha sonra onun qəzasını tuta biləcəyiniz başqa bir ölkəyə köçməyiniz vacibdir.

Məsələ 109. Qeyri-müsəlman ölkəsində yaşayan bir müsəlman ramazan ayında (gündüz saatlarında) müsəlman olmayan bir şəxsi yeməyə qonaq edə bilərmi?

Cavab: Öz-özlüyündə eybi yoxdur.

Məsələ 110. Tənəffüsü asanlaşdıran süni tənəffüs spreylərinin istifadəsi orucu pozurmu?

Cavab: Spreyin sıxdığı qaz halındakı maddə qida borusu ilə deyil, tənəffüs yolu ilə bədənə daxil olarsa, orucu pozmur.

Məsələ 111. Xəstənin zəruri ehtiyacı olub-olmamasından asılı olmayaraq damara inyeksiya olunan (iynə ilə vurulan) serum orucu pozurmu?

Cavab: Hər iki halda (zəruri ehtiyac olsa da, olmasa da) orucu pozmur.

Məsələ 112. Mübarək ramazan ayında gündüz saatlarında istimna (masturbasiya, yaxud onanizm) ilə məşğul olmaq orucu pozurmu? Məninin (spermanın) ifraz olunduğu və olunmadığı hallarla bağlı hökmü açıqlamağınızı

xahiş edirik. Bu xoşagəlməz işlə məşğul olanlara hansı kəffarə tətbiq olunur? Bəs mübarək ramazan ayında oruc əsnasında masturbasiya ilə məşğul olan qadınlarla bağlı hökm (məni ifraz olunduğu və olunmadığı halda) nədən ibarətdir?

Cavab: Əgər məni ifraz etmək məqsədilə istimna edərsə və məni də ifraz olarsa, orucu batil olur və həmin orucun qəzası ilə yanaşı kəffarəsini də (iki ardıcıl ay oruc tutmaq və altmış yoxsulu yedirtmək) icra etməlidir.

Məni ifraz etmək məqsədilə istimna edərsə, lakin məni ifraz olmazsa, mütləq qürbət qəsdi (istənilən halda Allaha yaxınlaşmaq niyyəti) ilə orucunu başa çatdırmalı, ramazan ayından sonra isə həmin günün orucunun qəzasını tutmalıdır.

Lakin məni ifraz etmək niyyəti olmadan istimna edərsə və adətən də etdiyi hərəkət nəticəsində məni ifraz olmazsa, ancaq bununla belə məninin ifraz ola biləcəyini ehtimal edərsə və təsadüfdən həmin hərəkət nəticəsində məni ifraz olarsa, ona yalnız həmin günün orucunun qəzasını tutmaq vacibdir.

Etdiyi hərəkət nəticəsində orqanızmından məni ifraz olunmayacağına əmin olmasına rəğmən, məni ifraz olduğu halda isə həmin orucun qəzasını da tutması vacib deyil.

Bütün bu hallarla bağlı hökmlərdə kişi ilə qadın arasında heç bir fərq yoxdur.

Məsələ 113. Bir mömin sübh azanınadək cənabətli halda qalmağın orucu pozduğunu bilmədən həmin vəziyyətdə oruc tutarsa, nə etməlidir?

Cavab: Cənabətli halda qalmağın orucu pozmadığına əmin olduğu, yaxud ümumiyyətlə, bu məsələyə diqqət yetirmədiyi halda yalnız qəza orucu tutmalıdır, kəffarə isə ona vacib deyil.

Məsələ 114. Yer kürəsinin şərqində hilal (burada: yeni ayın başlaması) təsbit edilərsə, qərbdə də ay daxil olmuş sayılırmı? Həmçinin, Amerikada yeni ay görüldüyü halda, Avropada da yeni ay başlamış sayılırmı?

Cavab: Əgər şərqdə ayın başlaması sübuta yetərsə, nəzərdə tutulan iki məntəqə arasında coğrafi enlik fərqi kifayət qədər böyük olmadığı halda qərbdə də ay başlamış sayılır. Qərbdə ayın görünməsi ilə isə yalnız nəzərdə tutulan iki məntəqənin coğrafi enlik etibarilə kifayət qədər yaxın olub coğrafi uzunluq

etibarilə də aralarındakı məsafənin 880 km-dən artıq olmadığı hallarda şərqdə də ay başlamış sayılır.

Məsələ 115. Günah sayılan işlərlə orucu qəsdən pozmağın kəffarəsini bəzi fəqihlər hər üç kəffarənin icrasından ibarət olduğunu göstərirlər. Quldarlıq münasibətlərinin mövcud olmadığı və nəticədə qul azad etməyin mümkün olmadığı bu dövrdə nə etmək lazımdır?

Cavab: Qul azad etmək kəffarəsi mümkünsüz olduğu şəraitdə qüvvədən düşmüş sayılır. Bundan əlavə qeyd etmək lazımdır ki, bizim nəzərimizə görə ramazan ayında oruc haram sayılan işlərlə pozulduğu halda da hər üç kəffarənin deyil, onlardan birinin icrası vacibdir.

“Minhac əs-salihin” risaləsində göstərilir ki, yeni ayın daxil olması ya hilalın (ayparanın) görünməsi, yaxud insanlar arasında etimad olunacaq bir xəbər olaraq yayılması nəticəsində sübuta yetmiş sayılır. Həmçinin, sözügedən risalənin 1044-cü məsləsində oxuyuruq ki, eyni üfüqə malik olan iki şəhərdən birində ayın görünməsi ikincisində də yeni ayın başlamasının təsbiti üçün kifayətdir. Belə ki, həmin şəhərlərdən birində ay görünmüşsə, bu o deməkdir ki, ikinci şəhərdə də bulud, duman, dağ, yaxud başqa bir əngəl olmasaydı, ay görünməli idi. Bununla bağlı bir sıra sualları cavablandırmağı da məqsədəuyğun hesab edirik:

Məsələ 116. İran, Əhsa, Qətif (sonuncu ikisi Səudiyyə Ərəbistanı Krallığının şərq əyalətlərindəndir), digər Fars körfəzi ölkələri, habelə İraq, Suriya və Livanda hilalın görünməsi bulud və çən olmadığı halda Britaniya, Fransa və Almanya kimi ölkələrdə də görünə bilməsi anlamına gəlirmi?

Cavab: Bəli, coğrafi enlikləri arasında fərq kifayət qədər böyük olmadığı təqdirdə bir məntəqədə ayın görünməsi ondan qərbdə yerləşən məntəqələrdə də bir əngəl olmadığı halda ayın görünməli olduğu (başqa sözlə yeni ayın başlaması) deməkdir.

Məsələ 117. Şərqdə ayın görünməsi ilə qərbdə də ayın görünmüş (başlamış) sayılması fərziyyəsini nəzərə alaraq, şərq ölkələrində yaşayan bəzi alimlərin nəzərincə ayın başlaması qərbdə yaşayan və havanın aydın olmaması kimi əngəllər

səbəbi ilə hilalı öz gözü ilə görə bilməyən bir müsəlman üçün sübut hesab edilə bilərmi?

Cavab: Bu hal (bəzi şərqli alimlərə görə ayın başlaması) onun üçün və eləcə də digər qərbli müsəlmanlar üçün ayın başlamasını sübut edən dəlil hesab edilə bilməz. Lakin onların rəyincə ayın başlaması onda ayın başqa yerlərdə də görünməsinə dair arxayınlıq yaradarsa, yaxud əksinin iddia olunmadığı (hətta ehtimal belə edilmədiyi) bir dəlil ortaya qoyularsa, əmin olduğuna istinadən hərəkət edə bilər.

Məsələ 118. Bəzi şərq ölkələrində bir sıra alimlərin ayı müşahidə edənlərin təsbitinə istinadən hilalın göründüyü xəbəri elan edilir. Beləliklə:

1 – sayı bəzən 30 nəfərdən artıq olan həmin şahidlərin müxtəlif şəhərlərdə (məsələn, 2-si İsfahanda, 3-ü Qumda, 2-si Yəzddə, 4-ü Küveytdə, 5-i Bəhreyndə, 2-si Əhsada, 6-sı Suriyada və s.) müşahidələr apardıqlarını;

2 – bəzi qərb ölkələrində də üfüqün aydın olduğunu və orada yaşayan möminlərin də əngəl olmadan ayı görmək imkanına sahib olduqlarını;

3 – Britaniya rəsədxanasının isə həmin gecə hilalı açıq gözlə (teleskopsuz) görməyin mümkünsüz olduğunu, bunun yalnız növbəti gecə mümkün ola biləcəyini elan etməsini nəzərə alaraq belə bir vəziyyətlə bağlı hökmü açıqlamağınızı xahiş edirik.

Cavab: Bu xüsusda mötəbər sayılan təsbit insanın özünün hilalı görməsi, yaxud ayın görünməsinin onun üçün əksinin iddia olunmadığı bir dəlillə sübuta yetməsidir. Lakin sözügedən halda və eləcə də bənzər durumlarda ayın üfüqdə açıq gözlə görünə biləcək şəkildə müşahidə edilməsinə dair arxayınlıq hasil olmur, bəzən isə hətta tamamilə əksinə, şahidlərin müşahidəsinin göz xətası olmasına dair arxayınlıq hasil olur.

## ALTINCI FƏSİL

## HƏCC

Həcc İslam şəriətində vacib bilinən ibadət ayinlərindəndir və Qurani-Kərim də onun vacib olduğunu aydın bir dillə ifadə edir. Belə ki, Allah (c.c.) dəyərli

kitabında buyurur: ***“(Yemək, azuqə, sağlamlıq, minik baxımından) yoluna qüvvəsi çatan hər bir kəsin həccə gedib o evi (Kəbəni) ziyarət etməsi insanların Allah qarşısında borcudur. Kim bunu (bu borcu) inkar edərsə (özünə zülm etmiş olar). Əlbəttə, Allah aləmlərə (heç kəsə) möhtac deyildir!”***[1]

Uca Allah bu ayədə önəmini vurğulamaq üçün həcc ayininin icrasından imtinanı inkara (küfrə) bənzətmişdir. Həcc İslam dininin beş təməl sütunundan biridir. Eynilə İmam Baqirdən (ə) nəql olunan bir hədisdə buyurulduğu kimi: “İslam beş təməl üzərində qurulmuşdur: namaz, zəkat, həcc, oruc və vilayət (Əhli-beytə (ə) bağlılıq)”.[2]

Əmirəl-möminin Əli (ə) də bu önəmli ibadətin önəmini təkidlə vurğulayaraq buyurmuşdur: “Rəbbinizin evini ziyarət etməkdən imtina etməyin, yoxsa həlak olarsınız”.[3] İmam Sadiq (ə) isə buyurur: “Bilin və agah olun! Əgər insanlar bu evi ziyarət etməkdən (həcdən) imtina etsələr, onlara bəla göndəriləcək və qurtuluş üçün əsla möhlət verilməyəcəkdir”.[4]

Beləliklə, vacib olması üçün nəzərdə tutulan bütün şərtlərin doğrulduğu halda laqeydliklə həcc ziyarətini icra etməmək böyük günahdır. Hədislərdə oxuyuruq ki, bir insan həcc ayininin icrasına qadir olduğu halda bundan imtina edərsə, şübhəsiz, İslam şəriətinin önəmli göstərişlərindən birinin icrasından imtina etmiş sayılır.[5] Başqa bir hədisə isə buyurulur ki, kim həcc ziyarətini səbəbsiz yerə təxirə salaraq onu icra etmədən dünyadan köçərsə, Allah (c.c.) qiyamət günü onu yəhudi, yaxud xristianlar kimi qəbrindən qaldırar.[6]

Gəlin, həclə bağlı bir sıra şəriət hökmlərini xatırlayaq:

---

[1] Ali-İmran surəsi, 97-ci ayə.

[2] Vəsail əş-şiə, c11, səh.20.

[3] Vəsail əş-şiə, c11, səh.23.

[4] Vəsail əş-şiə, c11, səh.22.

[5] Vəsail əş-şiə, c11, səh.28.

[6] Mən la yəhzəruhu-l-fəqih, c.4, səh.266.

Məsələ 119. Həcc icrasına imkanı olduğu halda hər bir müsəlmana vacibdir. İmkan deyərkən isə aşağıdakılar nəzərdə tutulur:

a) həcc çərçivəsində ziyarət edilməli olan müqəddəs məkanlara getmək və orada vacib olan əməlləri icra etmək üçün kifayət qədər vaxtın olması;

b) bədənin sözügedən müqəddəs məkanlara qədər məsafəni qət etmək və orada qalaraq icra etməli olduğu əməlləri gerçəkləşdirmək üçün kifayət qədər sağlam və qüvvətli olması;

c) həcc ayinini icra etmək üçün çıxdığı səfərdə yolların təhlükəsiz olması, hacının canı, əmlakı və namusu üçün hər hansı təhlükənin mövcud olmaması;

ç) mükəlləfin mövcud rifah durumuna (həyat təminatına) müvafiq olar səfər əsnasında qida, geyim, nəqliyyat vasitəsi ehtiyaclarını təmin edəcək qədər maddi vəsaitin olmasını;

d) həcc səfəri, ona çəkilən xərc səbəbi ilə mükəlləfin özünün, ailəsinin yoxsulluqla üzləşmək qorxusunun olmamasını.

Məsələ 120. Təməttö həcci bizə, yəni Məkkədən uzaqda yaşayan vacib olan həcc ayinidir və iki ibadətdən ibarətdir. Onlardan birincisi ömrə, ikincisi isə həcc adlanır.

Məsələ 121. Təməttö ömrəsində beş əməlin icrası vacibdir:

1) miqatlardan, yəni müqəddəs şəriətin mührim olmaq üçün müəyyən etdiyi yerlərdən birində ihram libasını geyinmək;

2) Kəbənin ətrafına yeddi dəfə təvaf etmək (dövrə vurmaq);

3) təvaf namazını qılmaq;

4) Səfa və Mərvə təpələri arasında yeddi dəfə yürümək;

5) saç qırxmaq.

Məsələ 122. Həcc ayininin (təməttö həccinin) vacib əməllərinin sayı isə 13-dür:

1) Məkkədə ihram bağlamaq;

2) zül-hiccə ayının doqquzuncu günü Ərəfatda dayanmaq;

3) bayram gecəsinin bir hissəsini sübh açılanadək Müzdələfədə keçirmək;

4) bayram günü Minada cəmərət əl-əqəbəni (böyük şeytanı) daşlamaq;

5) bayram günü, yaxud təşriq günlərindən (zül-hiccə ayının 11, 12 və 13-cü günlərindən) birində Minada qurban kəsmək;

6) Minada başı qırxmaq, yaxud saçı qısaltmaq (kişilər üçün).

Bu altı əməlin icrasından sonra mührimlərə cinsi əlaqə, ətirdən istifadə etmək və həmçinin, vacib ehtiyata əsasən, ov istisna olmaqla ihramdan etibarən haram olan bütün işlər halal olur.

7) Minadan Məkkəyə döndükdən sonra yeddi dövrə ziyarət təvafı;

8) təvaf namazı;

9) Səfa və Mərvə arasında yeddi dəfə yürümək; (bu əməlin icrasından sonra isə ətirdən istifadə etmək də halal olur)

10) yeddi dövrə nisa təvafı;

11) nisa təvafının namazı; (bununla kişiyə öz həyat yoldaşı ilə cinsi əlaqədə olmaq da halal olur)

12) zülhiccə ayının on birinci, on ikinci, bəzən də on üçüncü gecələrini Minada keçirmək;

13) on birinci və on ikinci, eləcə də bəzən on üçüncü günlərində hər üç Cəmərəni daşlamaq.

İndi isə gəlin, həcc ayini ilə bağlı Həzrət Ayətullah əl-uzma Sistaniyə ünvanlanan bəzi aktual suallar və onların cavabları ilə tanış olaq:

Məsələ 123. Həcc ayininin icrasına başlamaq üçün Ciddə şəhərində ihram geyinmək olarmı? Buna icazə verilmədiyi halda nə etmək lazımdır? Nəzərə almaq lazımdır ki, hacıları daşıyan təyyarələr Ciddə hava limanına enirlər.

Cavab: Ciddə miqatlardan biri, yaxud onlara paralel ərazi hesab olunmur və beləliklə, həcc və ömrə ayinlərinin icrası üçün orada ihram libasına bürünmək doğru deyil. Lakin hacı Ciddə ilə Hərəm arasında miqatlardan birinə paralel bir yerdən keçdiyini bilərsə (örnək olaraq, Cöhfə miqatına paralel bir yerdən keçmək ehtimalı inkar olunmur), nəzir əsasında həmin yerdən ihram bağlaya bilər.

Məsələ 124. Saçını qırxarkən hacının başının dərisi zədələnərək qan gələrsə, nə etməlidir?

Cavab: Qəsdən baş vermədiyi halda həcc ayininə heç bir təsir göstərmir.

Məsələ 125. Hər il təkrarən həcc ziyarətinə yollanmaq müstəhəb əməllərdəndir. Digər tərəfdən isə bir sıra müsəlman ölkələrində qida və geyim təminatına ehtiyac duyan yoxsul müsəlmanlar yaşayır. Əgər sərvətimizi hər il təkrarən həcc ziyarətinə, yaxud məsumlardan birinin ziyarətinə yollanmaq və ya həmin yoxsulların həyat şəraitini yaxşılaşdırmaq üçün xeyriyyəçilik fəaliyyətinə sərf etmək arasında seçim qarşısında qalsaq, hansını tərcih etməliyik?

Cavab: Əlbəttə, həmin möhtac müsəlmanlara yardım etmək müstəhəb həcc və müqəddəs ziyarətgahların ziyarətindən daha dəyərlidir. Lakin həcc, yaxud müqəddəs məkanların ziyarəti bəzən müəyyən amillərlə əlaqədar olaraq bu dəyərli xeyriyyəçilik fəaliyyətinə bərabər, yaxud ondan daha üstün ola bilər.

Məsələ 126. Səudiyyə Ərəbistanı Krallığı hacıların Ərəfatda və Minada qalması üçün yer ayırır. Biz həmin ərazinin şəriət tərəfindən məqbul hesab edilən hüdudların daxilində olub-olmamasını bilmirik. Bunu şəxsən araşdırmağımız vacibdirmi?

Cavab: Əgər elan olunan və yazılı işarələrlə göstərilən hüdudlar nəsildən nəsilə ötürülən şifahi məlumatlara uyğun olarsa, araşdırmağa və soruşmağa gərək yoxdur.

Məsələ 127. Eşitdiyimizə görə, qurbangah olaraq ayrılan yerlərdən bir qismi, hətta deyilənlərə görə hamısı Mina ərazisinin hüdudları xaricindədir. Qurbanlarımızı kəsməzdən öncə bunu aydınlaşdırmağımız vacibdirmi? Nəzərə almaq lazımdır ki, Qurban bayramı günü bu məsələni araşdırmaq, ehtiyac olduğu təqdirdə başqa bir qurbangah tapmaq, daha sonra həmin yer (qurban kəsiminə icazə verilən ərazinin hüdudlarına daxil olub-olmadığı) haqqında araşdırma aparmaq olduqca çətin bir işdir və bildiyiniz kimi vaxt da kifayət qədər məhduddur. Bu problemin bir həlli yolu varmı?

Cavab: Qurbanı öyrənərək məhz Minanı hüdudları daxilində kəsmək vacibdir. Lakin Mina ərazisi bütün hacıların burada qurban kəsməsinə imkan verməzsə, Mühəssər vadisində də qurban kəsmək olar. Qurban kəsiminin vaxtına gəlincə, yalnız bayram günü (zülhiccə ayının 10-u) ilə məhdudlaşmır və bu ayini təşriq günlərinin sonunadək icra etmək olar.

Məsələ 128. Hacılar qurbankəsmə ilə bağlı bir sıra problemlərlə üzləşirlər. O cümlədən, onları narahat edən məsələlərdən biri də budur ki, həmin qurbanlar kəsildikdən sonra israf olunur. Halbuki müsəlman ölkələrində milyonlarla yoxsulluqdan əziyyət çəkən və aylarla ət üzü görməyən müsəlman yaşayır. Bunu nəzərə alaraq hacılar qurbanlarını öz ölkələrində kəsə bilərmi? Yaxud bu problemin həlli üçün təklif edə biləcəyiniz başqa bir çıxış yolu varmı?

Cavab: Şəriətin hacıların qarşısına qoyduğu vəzifəni icra edərək qurbanı Minada kəsməlisiniz. Kəsilən qurbanların əti israf olunduğu halda isə bu sizin deyil, məsul şəxslərin günahı sayılacaqdır.

Məsələ 129. Həcc mövsümü imtahan sessiyası ilə üst-üstə düşərsə və həmin imtahan (imtahanlar) tələbə üçün önəmli olarsa (buraxılış imtahanı kimi *tərc.*), o həcc ziyarətini növbəti ilə təxirə sala bilərmi?

Cavab: Növbəti il həcc ziyarətinə gedə biləcəyinə əmin olarsa, təxirə sala bilər. Əks təqdirdə isə şəriət buna icazə vermir. Digər tərəfdən, əgər imtahanların təxirə salınması onun üçün mümkünsüz olarsa və imtahanda iştirak etməkdən imtina edəcəyi halda dözülməz hesab edilən ciddi problemlə üzləşəcəksə, həmin il həcc ziyarəti ona vacib sayılmır.

Məsələ 130. Vacib həcc ayinini icra etməyən bir şəxs rəcəb ayında ümrə ziyarətinə gedə bilərmi? Bəs ramazan ayında necə?

Cavab: Müfrədə ümrə ziyarəti doğru hesab olunur. Lakin ümrə səfəri onun qarşıdan gələn həcc mövsümündə vacib həcc ayinini icra edə bilməməsi ilə nəticələnərsə (maddi, sağlamlıq və s. problemlərlə əlaqədar olaraq), ümrə ziyarətinə yollanmasına şəriət icazə vermir.

Məsələ 131. Yaxın zamanlarda təminatla bağlı problemlərini qaydasına salaraq evlənməyə hazırlaşan bir gənc həcc ziyarətinə yollanacağı halda evlilik planını təxirə salmalı olacaq. Bu halda hansını tərcih etməlidir?

Cavab: Dözülməz problemlərlə üzləşməyəcəyi halda evlilik planını təxirə salaraq həcc ayinini icra etməlidir. Allah (doğrulardan) agahdır.

## YEDDİNCİ FƏSİL

## CƏNAZƏ VƏ DƏFN

Allah (c.c.) Qurani-Məciddə buyurur: ***“Hər bir kəs (canlı) ölümü dadacaqdır. Şübhəsiz ki, mükafatlarınız qiyamət günü tamamilə veriləcəkdir. Oddan (Cəhənnəmdən) uzaqlaşdırılıb, Cənnətə daxil edilən kimsə muradına çatacaqdır. Dünya həyatı isə aldadıcı həzzdən (əyləncədən) başqa bir şey deyildir”.***[1] Müqəddəs kitabın başqa bir ayəsində isə belə buyurulur: ***“... Heç kəs səhər nə kəsb edəcəyini (savab, yaxud günah qazanacağını), heç kəs harada öləcəyini bilməz. Allah isə, şübhəsiz ki, (hər şeyi) biləndir, (hər şeydən) xəbərdardır!”***[2]

Gəlin, İslam şəriətində can vermə, cənazənin qüslü, hənutlanması, kəfənlənməsi və dəfni ilə bağlı qaydalarla qısaca tanış olaq:[3]

Məsələ 132. Vacib ehtiyata əsasən, can verməkdə olan şəxsi arxası üstə, ayaqları qibləyə doğru elə uzatmaq lazımdır ki, ayağa qalxsa, üzü qibləyə oturmuş olsun. Müstəhəbdir ki, ömrünün son ləhzələrində ətrafında olanlar ona kəlimeyi-şəhadəti diktə etsinlər, Allahın birliyinə, Həzrət Məhəmmədin (s) peyğəmbərliyinə və Əhli-beyt imamlarının (ə) imamətinə inancını təsdiqləməsini təlqin etsinlər.

Məsələ133. Dünyasını dəyişən müsəlmanın gözlərini və ağzını bağlamaq, əllərini yanına salmaq, ayaqlarını uzatmaq, cəsədini bir parça ilə örtmək, yanında Quran oxumaq və cənazənin saxlanıldığı otağın işıqlı olması müstəhəbdir. Cənazənin təkbaşına buraxılması isə məkruhdur.

Məsələ 134. Cənazənin üzərindəki nəcasət (qan, sidik, sperma və s.) təmizləndikdən sonra ona üç qüsl verilir:

1) az miqdarda sidr[4] əlavə olunmuş su ilə;

2) az miqdarda kafur[1] əlavə olunmuş su ilə;

---

[1] Ali-İmran surəsi, 185-ci ayə.

[2] Loğman surəsi, 34-ci ayə.

[3] Ətraflı məlumat üçün bax: “Minhac əs-salihin”, c.1, səh.95 və “əl-Məsail əl-muntəxəbə”, səh.50.

[4] Ucaboylu, iynəyarpaqlı, həmişəyaşıl ağac. Şam ağacından fərqli olaraq sidr ağacının iynələri dəstələrlə yerləşir və bozumtul rəngli olur.

3) xalis su ilə.

Əgər sidr məhlulu ilə qüsl vermək mümkün olmazsa (sidr tozu tapılmazsa), onun əvəzinə xalis su ilə qüsl vemək lazımdır. Kafur məhlulu ilə qüsl vermək mümkün olmadığı halda onun yerinə də xalis su ilə qüsl vermək, ardınca xalis su ilə üçüncü qüslü verdikdən sonra isə cənazənin üzərində bir dəfə təyəmmüm də etmək lazımdır.

Məsələ 135. Cənazə qüslü tərtibi qaydada verilməlidir: öncə cəsədin başı ilə boynu, ardınca bədəninin sağ yarısı, daha sonra isə sol yarısı yuyulmalıdır.

Məsələ 136. Cənazəyə qüsl verən şəxs onun həmcinsi olmalıdır, başqa sözlə kişinin cənazəsini kişi, qadının cənazəsini isə qadın yumalıdır. Ər-arvad bir-birinin cənazəsinə qüsl verə bilər. Daha yaxşı olar ki, cənazəyə paltarın (yaxud parçanın) üzərindən qüsl verilsin. Həmçinin, vacib ehtiyata əsasən, yalnız dünyasını dəyişən şəxsə qüsl vermək üçün onun həmcinsi tapılmadığı halda, evlənilməsi qəti surətdə haram olan (qan qohumluğu, südvermə, yaxud nikah münasibətləri ilə əlaqədar olaraq) məhrəmlər (eyni cinsdən olmayanlar), o cümlədən bacı və qardaş da bir-birinə qüsl verə bilər. Bu halda da daha yaxşı olar ki, qüsl paltarın üzərindən gerçəkləşdirilsin. Müməyyiz (ağlıkəsən) olmayan azyaşlılara əks cinsdən olanlar da (yəni körpə qız uşaqlarına kişilər, oğlan uşaqlarına isə qadınlar) qüsl verə bilər.

Məsələ 137. Vacib ehtiyata əsasən, cənazə qüslünü verən şəxs inanclı müsəlman olmalıdır. Vəfat edən şəxsə qüsl verə biləcək, həmcinsi olan isna əşəri müsəlman və eləcə də məhrəmlərindən hər hansı biri tapılmazsa, onun cənazəsinə həmcinsi olan başqa məzhəbdən bir müsəlman da qüsl verə bilər. Cənazəyə qüsl verə biləcək bir müsəlman tapılmadığı halda isə həmcins kitab əhli – mərhumla eyni cinsdən olan hər hansı yəhudi və xristian öncə özü qüsl almaq şərtilə cənazə qüslünü icra edə bilər. Hətta kitab əhli arasında belə cənazə qüslünü icra edə biləcək həmcins bir şəxs tapılmadığı təqdirdə isə cənazə qüslünün vacibliyi qüvvədən düşür və müsəlmanın cənazəsi qüslsüz dəfn edilməlidir.

[1] Həmin adda ağacın kitrəsindən alınan, təbabətdə və texnikada işlədilən kəskin və spesifik qoxulu maddə. Kafur ağacı Çin, Yaponiya və Hindistan kimi ölkələrdə bitən, dəfnəyə bənzər həmişəyaşıl ağacdır. Kamfora məhlulu kafur yağından alınır.

Məsələ 138. Qüsldən sonra cənazəni hənutlamaq, yəni səcdə əsnasında yerə toxunan yeddi bədən üzvünə - alnına, əllərinin içinə, diz qapaqlarına və ayaqlarının baş barmaqlarına qoxusunu itirməmiş kafur pudrası sürtülməlidir. Daha yaxşı olar ki, hənutlama əllə icra olunsun və cənazənin alnından başlanılsın.

Məsələ 139. Cənazə hənutlanmadan sonra üç parçadan ibarət kəfənə bürünməlidir:

1-ci parça, vacib ehtiyata əsasən, bədənin göbəkdən dizlərədək hissəsini örtməlidir;

2-ci parça, vacib ehtiyata əsasən, bədənin çiyindən baldırların orta hissəsinədək olan nahiyələrini örtməlidir;

3-cü parça isə bədəni tamamilə örtməlidir və vacib ehtiyata əsasən, eni və uzunluğu uclarının bir-birinin üzərinə düşərək bağlana biləcəyi ölçüdə olmalıdır.

Məsələ 140. Yaşı altıdan az olmayan müsəlman üçün cənazə namazı qılınmalıdır. Vacib ehtiyata əsasən, namazın nə demək olduğunu başa düşən azyaşlıların cənazəsinə də, hətta altı yaşını doldurmadığı halda belə namaz qılınmalıdır.

Məsələ 141. Cənazə namazında namazqılan beş təkbir deyir. Ən fəzilətli qılınma qaydasına əsasən, birinci təkbirdən sonra şəhadəteyn, ikinci təkbirdən sonra salavat, üçüncüdən sonra mömin kişi və qadınlar üçün, dördüncü təkbirdən sonra isə cənazəsinə namaz qılınan mərhum üçün dua oxunur, ardınca beşinci təkbir deyilir və bununla da namaz başa çatdırılır.

Məsələ 142. Müsəlmana cənazə namazı qıldıqdan sonra cəsədi dəfn edilməli, yəni yırtıcı heyvanlardan qoruna biləcək və qoxusu ilə insanlara əziyyət verməyəcək şəkildə, sağ çiyni üstündə üzü (bədəninin ön hissəsi) qibləyə doğru uzadılaraq torpağa basdırılmalıdır.

Məsələ 143. Müsəlmanın cənazəsini qeyri-müsəlman qəbiristanlığında dəfn etmək olmaz. Lakin belə (ümumi) qəbiristanlıqların bir hissəsinin müsəlmanlar üçün ayrıldığı hallar istisna təşkil edir. Həmçinin, müsəlman olmayanları da müsəlman qəbiristanlığında dəfn etmək olmaz.

Məsələ 144. Əgər müsəlmanı eyri-müsəlman qəbiristanlığından başqa bir yerdə dəfn etmək və eləcə də cənazəsini müsəlman ölkələrindən birinə aparaq orada dünyasını dəyişən müsəlmanların qəbirlərinin kənarında dəfn etmək mümkün olmazsa, qeyri-müsəlman qəbiristanlığında dəfn etməyə icazə verilir.

Məsələ 145. Həzrət Məhəmmədin (s) belə buyurduğu nəql olunur: "Dünyasını dəyişən üçün ən böyük çətinlik qəbirə qoyulduğu ilk gecə üləşəcəkləri olacaqdır. Dünyasını dəyişənlərinizə sədəqələrinizlə mərhəmət göstərin. Sədəqə vermək imkanınız olmadığı halda isə onlar üçün iki rəkət namaz qılın, birinci rəkətdə Həmd surəsindən sonra Ayətəl-kürsini, ikinci rəkətdə isə on dəfə Qədr surəsini oxuyun. Salamdan sonra isə, "Allahummə səlli əla Muhəmmədin və Ali Muhəmməd vəbəs səvabəha ila qəbri filan" (filan sözünün yerinə mərhumun adın çəkin).[1]

İndi isə gəlin, cənazə və dəfn məsələləri ilə bağlı Həzrət Ayətullah əl-üzma Sistaniyə ünvanlanan bir sıra aktual suallar və onlara verilən cavablarla tanış olaq:

Məsələ 146. Bəzi qeyri-müsəlman ölkələrində cənazələri taxta tabutların içində dəfn edirlər. Belə hallarla qarşılaşdıqd nə etməliyik?

Cavab: Cənazəni taxta tabutun içərisində dəfn etmək olar, lakin dəfnlə bağlı şəriət qaydalarına riayət edilməli, o cümlədən cəsəd sağ tərəfi üstə üzü qibləyə doğru uzadılmalıdır.

Məsələ 147. Müsəlman qəbiristanlığının mövcud olmadığı bir qeyri-müsəlman ölkəsində dünyasını dəyişən müsəlmanın cənazəsini dəfn etmək üçün müsəlman ölkəsinə aparmaq mümkün olarsa, lakin kifayət qədər ciddi zəhmət və xərc hesabına başa gələrsə, bu vəziyyət cənazənin qeyri-müsəlman qəbiristanlığında dəfn edilməsinə əsas verirmi?

Cavab: Xeyr, əsas vermir.

Məsələ 148. Müsəlman qəbiristanlığının mövcud olmadığı bir ölkədə dünyasını dəyişən müsəlmanın ailəsinin onun cənazəsini müsəlman ölkələrindən birinə apararaq orada dəfn etmək üçün nəqliyyat xərclərini ödəməyə imkanı

[1] əl-Məsail əl-muntəxəbə, səh.63.

çatmazsa, müsəlmanların problemlərinin həlli ilə məşğul olan ictimai təşkilatlara, yaxud orada yaşayan müsəlmanlara bu xərclərin ödənməsinə yardım etmək vacibdirmi?

Cavab: Müsəlmanın cənazəsinin həmin ölkədə kafir qəbiristanlığından kənarda, yaxud başqa hər hansı müsəlmana layiq olan bir yerdə dəfn edilməsi müəyyən məbləğdə xərc tələb edərsə və ondan bu xərcləri ödəyəcək qədər miras qalmazsa, vəlisinin (cənazənin sahibi sayılan şəxsin) də bu xərcləri ödəməyə imkanı çatmazsa, sözügedən xərcin ödənilməsi kifai vacib olaraq digər müsəlmanların öhdəsinə düşür və bu xərci ödəyən onu verməli olduğu şəri rüsumlarından, yaxud sadəcə ehsan (xeyriyyə işi) hesab edə bilər.

Məsələ 149. Qürbət ölkədə dünyasını dəyişən müsəlmanın vəlisi orada yaşamadığı halda onun dəfn məsuliyyəti kimin üzərinə düşür?

Cavab: Vəlisi ilə əlaqə saxlayaraq ondan dəfn işlərinin icrası üçün icazə almaq mümkün olmadığı halda icazəyə gərək qalmadan bu məsuliyyət kifai vacib olaraq mükəlləf müsəlmanların öhdəsinə düşür.

Məsələ 150. Müsəlman qəbiristanlığı olmadığından vəfat etdiyi ölkədə dəfn edilə bilməyən müsəlmanın nəşini müsəlman ölkəsinə aparmaq üçün tələb olunan maliyyə vəsaiti haradan təmin edilməlidir? Sözügedən xərclər onun hələ varisləri arasında bölüşdürülməmiş mirasından, mirasın onun vəsiyyəti üzrə ayrılan üçdə bir hissəsindən, yoxsa başqa bir vəsaitdən ödənilməlidir?

Cavab: Müsəlman özünün münasib bir yerdə dəfn edilməsi üçün gərəkli xərclərin onun mirasının (hansı istiqamətdə xərclənməsini vəsiyyət etməyə haqqı çatan *tərc.*) üçdə bir hissəsi hesabına ödənilməsini vəsiyyət edərsə, dəfn xərcləri həmin vəsait hesabına, əks təqdirdə (belə bir vəsiyyəti olmadığı halda) isə onun mirası hesabına (varislər arasında bölüşdürülməmişdən öncə) ödənilməlidir.

Məsələ 151. Qeyri-müsəlman ölkələrinə mühacirət halları get-gedə artmaqdadır. Bütün müsəlmanların öz yaxınlarının cənazəsini dəfn etmək üçün müsəlman ölkələrinə aparmaq imkanı olmadığından, yaxud bəzilərinin bu məsələdə səhlənkarlıq göstərməsi ucbatından gələcəkdə müsəlmanların cənazələrini qeyri-müsəlman qəbiristanlığında dəfn etmək məcburiyyəti qarşısında

qalacağını nəzərə alaraq maddi durumu yaxşı olan müsəlmanların öz hesablarına müsəlman qəbiristanlığı üçün bir yer satın alması kifai vacib hesab olunurmu?

Cavab: Müsəlmanın cənazəsini kafir qəbiristanlığından kənarda, münasib bir yerdə dəfn etmək vəzifəsi bütün digər dəfn işləri kimi onun vəlisinin üzərinə düşür. Lakin mərhumun vəlisi olmazsa, yaxud vəlisi bu vəzifələrin icrasından imtina edərsə və ya icra etməyə qadir olmazsa, bu vəzifə digər müsəlmanlara kifai qaydada vacib olur və bu kifai vacib əməlin icrası dəfn üçün öncədən satınalma, yaxud başqa bir yolla müəyyən torpaq sahəsinin əldə edilməsini labüd edirsə, onlara vacibdir ki, bu istiqamətdə səylərini əsirgəməsinlər.

Məsələ 152. Müsəlmanın cənazəsini vəfat etdiyi qeyri-müsəlman ölkəsində mövcud olan müsəlman qəbiristanlığında dəfn etmək daha doğrudur, yoxsa böyük məbləğdə xərc hesabına onu müsəlman ölkəsinə apararaq orada dəfn etmək?

Cavab: Əgər varisləri, yaxud başqa bir şəxs nəqliyyat xərclərini öz üzərinə götürərsə, yaxud mərhumun mirasının xeyriyyə işlərində sərf edilməsinə dair vəsiyyət etdiyi üçdə bir hissəsi bu xərcləri ödəməyə kifayət edərsə, ən yaxşısı budur ki, onun cənazəsini müqəddəs məqbərələrdən, ziyarətgahlardan birinin, yaxud başqa bir müqəddəs məkanın ərazisində dəfn etsinlər. Allah (hər şeyin doğrusunu) biləndir.

Məsələ 153. Müsəlmanın cənazəsini dəfn etmək üçün müsəlman ölkələrindən birinə aparmaq külli miqdarda maliyyə vəsaiti tələb edərsə, onu digər səmavi dinlərin nümayəndələrinin qəbiristanlığında dəfn etmək olarmı?

Cavab: Müsəlmanı qeyri-müsəlman qəbiristanlığında dəfn etmək yolverilməzdir, yalnız dəfn üçün başqa bir yer tapılmadığı, yaxud bu şəriətin bu tələbinin qüvvədən düşməsinə əsas verə biləcək bir zərurətin yarandığı hallar istisna olmaqla.

# II HİSSƏ
# MÜAMİLƏLƏR

## BİRİNCİ FƏSİL

## QİDALAR

Müsəlmanlar adətən öz doğma evlərində, şəhər, yaxud kəndlərində doğmalarının, ailə üzvlərinin əhatəsində böyüyüb boya-başa çatır, orada sevdikləri və tərkibini bildikləri müxtəlif növ qida məhsulları, yeməklər və içkilərlə qidalananmağa adət edirlər. Onlar bilirlər ki, həmin qidalar inanclarının onları qida kimi qəbulundan çəkindirdiyi məhsullardan xalidir və İslami dəyərlərdən hər hansı biri ilə uyğunsuzluq təşkil etmir.

Qeyri-müsəlman mühitində yaşayacaqları hər hansı bir xarici ölkəyə köç etdikdə isə qidalanma problemi ilə qarşı-qarşıya qalırlar. Çünki nə burada qarşılaşdıqları yeməklər və içkilər onların sevdikləri, yeməyə və içməyə adət etdikləri, zövqlərincə olan qidalardır, nə də onların tərkibi mühacir müsəlmanların halallığından əmin olduqları məhsullarından ibarətdir. Məsələ burasındadır ki, yeni məskunlaşdıqları cəmiyyət bir qeyri-müsəlman toplumudur və onun da özünəməxsus ictimai dəyərləri, adət-ənənələri vardır. Təbii ki, qidalanmada İslam şəriətinin norma və göstərişlərinə bağlılıq burada bir önəm kəsb etmir.

Beləliklə, müsəlman mühacir hər hansı bir restorana gedərək nahar etmək istədikdə isə həmin qidanın halal, yoxsa haram olması, onu yeməyin mübah, yoxsa yasaq olması, qidanın özünün pak olub-olmaması kimi problemlərlə üzləşir və bütün bunlar cavabını gözləyən bir sıra sualları meydana gətirir.

Bunu nəzərə alaraq, öncə hər bir müsəlmanın qidalanma ilə bağlı bilməli olduğu bir sıra şəriət hökmlərini xatırladaraq daha sonra sözügedən mövzuda ünvanlanan bir sıra suallara yer verməyi daha məqsədəuyğun hesab edirik:

Məsələ 154. Öncəki səmavi dinlərin və müqəddəs kitabların ardıcılları, o cümlədən yəhudilər, xristianlar və məcusilər pak hesab edildiyindən qidalanma ilə bağlı bir çox problemlərin həlli asanlaşır. Belə ki, biz müsəlmanlar onların hazırldıqları yeməklərin və içkilərin tərkibində şərab kimi qəbulu bizə haram olan maddələrin mövcudluğuna əmin olmadığımız halda hətta rütubətli əlləri ilə onlara toxunmuş olsalar belə həmin qida məhsulları ilə qidalana bilərik. Ət, piy və digər heyvan mənşəli qida məhsulları ilə bağlı isə gələcək məsələlərdə öz əksini tapacaq xüsusi göstərişlər vardır.

Məsələ 155. Kitab əhli olmayan (müqəddəs kitablardan heç birinə inanmayan) kafir tərəfindən hazırlanan yeməklərin tərkibində şərab kimi qəbulu ona haram olan qidaların mövcudluğuna əmin olmadığı halda müsəlman qidanı hazırlayanın ona rütubətli əllə toxunduğuna da əmin olmayınca ondan yeyə bilər. Bu halda da ət, piy və digər heyvan mənşəli qida məhsulları ilə bağlı gələcək məsələlərdə öz əksini tapacaq xüsusi göstərişlər vardır.

Məsələ 156. Müsəlman yeyinti sənayesi məhsullarını istehsal edənlərin dini və etiqadı haqqında ümumiyyətlə məlumatlı olmadığı təqdirdə həmin qida məhsullarının tərkibində şərab kimi qəbulu ona haram olan maddələrin mövcudluğuna əmin olmadıqca hazırlayanın ona yaş əllə toxunub-toxunmamasından asılı olmayaraq həmin qida məhsulları ilə qidalana bilər. Bu məqamda da ət, piy və digər ət məhsulları ilə bağlı gələcək məsələlərdə öz əksini tapacaq xüsusi göstərişlər vardır.

Bununla yanaşı qeyd etmək lazımdır ki, müsəlmana yediyi qidanı hazırlayanın inanclı olub-olmadığını, yaxud qidaya əllə toxunub-toxunmadığını öyrənmək vacib deyil. Hətta bu məlumatı əldə etmək kifayət qədər asan və normal görünsə belə. Bir sözlə, müsəlmana ət, piy və digər ət mənşəli məhsullar istisna olmaqla bütün növ qida məhsulları ilə qidalanmaq olar, hətta tərkibində yeyilməsi onun üçün haram olan qidaların mövcudluğundan, yaxud hazırlayanın ona rütubətli əllə toxunduğundan şübhələnsə belə.

Məsələ 157. Həmçinin müsəlmanın tərkibində yeyilməsi haram olan maddələrin olub-olmadığını öyrənmək üçün qida məhsulunun tərkibini araşdırması və eləcə də onu hazırlayanlardan hazırlama (istehsal) prosesində, yaxud daha sonra ona əllə toxunub-toxunmadığını soruşması vacib deyil.

Məsələ 158. Müsəlmana ət, piy konservləri, eləcə də ət və piy mənşəli məhsulların konservləri istisna olmaqla bütün növ qida məhsulları ilə qidalanmaq olar, hətta tərkibində yeyilməsi onun üçün haram olan qidaların mövcudluğundan, yaxud hazırlayanın ona rütubətli əllə toxunduğundan şübhələnsə belə. Həmçinin müsəlmanın tərkibində yeyilməsi haram olan maddələrin olub-olmadığını öyrənmək üçün konserv məhsullarının tərkibini araşdırması vacib deyil.

Məsələ 159. Müsəlman özü kimi müsəlman satıcının müsəlmanlara satdığı müxtəlif halal ət məhsullarını ala bilər. Həmin müsəlman başqa məzhəbdən, onun məzhəbinin fiqhinə görə kəsim qaydaları da bizim məzhəbin kəsim qaydalarından bir qədər fərqli olsa belə, heyvanın kəsimində fiqhimizin kəsim normalarına riayət edilməsi ehtimalı mövcud olduğu halda həmin ət məhsulları halal hökmünü daşıyır. Bu hökm kəsimin üzü qibləyə doğru gerçəkləşdirilməsindən başqa şərtlərə aiddir. Qibləyə doğru kəsim şərtinə gəlincə isə, qəssabın (məzhəbinin fiqhinə müvafiq olaraq) onu vacib bilmədiyi halda riayət edilməsi vacib deyil.

Məsələ 160. Əgər müsəlman almaq istədiyi ət məhsulunun inək, qoyun və toyuq kimi əti halal olan heyvanların ətindən olduğunu, lakin İslam şəriətinin normalarına müvafiq qaydada kəsilmədiyini bilərsə və buna əmin olarsa, satıcının müsəlman olmasına baxmayaraq, həmin ət məhsulunun yeyilməsi onun üçün haram, özü isə nəcis hesab olunur və rütubətli olduğu (ət, yaxud toxunduğu əşya, yaxud hər ikisi) halda toxunduğu əşyanı da nəcis edir.

Məələ 161. Əgər müsəlman ət məhsulunu bilavasitə kafirdən, yaxud kafirdən alan və alarkən necə kəsildiyini öyrənməyən başqa bir müsəlmandan satınalma, yaxud başqa bir yolla (ödənişsiz bağışlama və s.) əldə edərsə, həmin ət məhsulu haram hesab edilir. Lakin müsəlmanın həmin heyvanın şəriət normalarına müvafiq qaydada kəsilmədiyi haqqında dəqiq məlumatı olmadığı təqdirdə ət yeyilməsi haram olsa da, nəcis hökmünü daşımır.

Məsələ 162. Növündən asılı olmayaraq balıq və balıq məhsullarının yeyilə bilməsi (halal hesab edilməsi) üçün iki şərt (meyar) mövcuddur:

1) balıq pulcuqlu olmalıdır;

2) müsəlman onun sudan diri ovlandığına, yaxud balıqçının torunda öldüyünə əmin olmalıdır. Balığı ovlayanın müsəlman olması, yaxud ov əsnasında Allahın adını zikr etməsi vacib deyil. Beləliklə, hətta kafir belə pulcuqlu balığı ovlayaraq sudan diri çıxardarsa və ya balıq onun torunda, yaxud səbətində can verərsə, həmin balığın yeyilməsi halal sayılır.

Müsəlman birinci şərtin (meyarın) mövcudluğuna əmin olmaq üçün balıq qarşısında olduğu halda (toxunulmadan, təmizlənmədən qalmışsa) öz gözləri ilə

görərək, yaxud doğru yazıldığına arxayın olduğu halda adından onun pulcuqlu olub-olmadığını aydınlaşdıra bilər. Əlinizdəki əsərin sonunda (II əlavədə) pulcuqlu balıqların adlarından ibarət bir cədvəl öz əksini tapmışdır.

İkinci şərtə isə, əldə olan məlumatlara əsasən, demək olar ki, bütün dünya ölkələrində riayət olunur və bütün dünyada balıqçılıq təsərrüfatı normalarına müvafiq olaraq ovlanan balıqlar sudan diri çıxarılır, yaxud torda can verir.

Beləliklə, təbii, yaxud konservləşdirilmiş olmasından asılı olmayaraq balıq məhsullarını müsəlmandan olduğu kimi kafirdən də alaraq yemək olar.

Məsələ 163. Krevet sudan diri tutulduğu halda yeyilməsi halaldır. Lakin qurbağaların, xərçənglərin, tısbağaların, bütün növ suda-quruda yaşayanlar, o cümlədən ilbizlər və omarların (oynaqlı iri dəniz xərçəngləri) yeyilməsi haramdır.

Məsələ 164. Kürülərin halallığı isə onun alındığı balığın halal olub-olmamasından asılıdır. Yeyilməsi halal olan balığın kürüsü də halal, haram olan balığın isə kürüsü də haramdır.

Məsələ 165. Şərab, pivə, bərk və ya maye halında olmasından, yaxud ağır və yüngül içki sayılmasından asılı olmayaraq bütün məstedicilərin qəbulu haramdır. Allah (c.c.) dəyərli kitabında buyurur: ***“Ey iman gətirənlər! Şərab da (içki də), qumar da, bütlər də, fal oxları da Şeytan əməlindən olan murdar bir şeydir. Bunlardan çəkinin ki, bəlkə nicat tapasınız! Şübhəsiz ki, Şeytan içki və qumarla aranıza ədavət, kin salmaq və sizi Allahı zikr etməkdən, namaz qılmaqdan ayırmaq (yayındırmaq) istər. Artıq bu işə son qoyacaqsınızmı?”***[1]

Sevimli Peyğəmbərimiz Həzrət Məhəmməd (s) isə belə buyurur: “Allah (c.c.) şərabı dilimə belə toxundurmağı mənə haram etdikdən sonra kim şərab içərsə, qapınıza elçiliyə gəldikdə ona qız verməyiniz, onun üçün hər hansı bir işdə vasitəçilik və himayədarlıq etməyiniz, sözlərini təsdiq etməyiniz və əmanətdarlığına inanaraq ona etibar etməyiniz doğru deyil”.[2] Başqa bir hədisdə isə Allahın elçisinin (s) belə buyurduğunu oxuyuruq: “Allah (c.c.) şərabı, onun

[1] Maidə surəsi, 90-91-ci ayələr.

[2] Furu əl-Kafi, c.6, səh.396.

alındığı meyvə ağacını (şərab istehsalı məqsədilə) əkəni, onu şərab şirəsinə çevirəni (istehsalçını), şərab içəni, içirdəni, satanı, alanı, onun gəlirindən faydalananı, şərabı daşıyanı və istifadəsinə daşınan şəxsi lənətləmişdir”.[1] Bu xüsusda çoxsaylı hədislər mövcuddur ki, daha ətraflı məlumat almaq üçün fiqh və hədis məcmuələrinə müraciət edə bilərsiniz.[2]

Məsələ 166. Şərab, yaxud məstedici içki içilən süfrədən qidalanmaq haramdır. Həmçinin, vacib ehtiyata əsasən, həmin süfrənin arxasında əyləşmək belə haramdır.

Məsələ 167. Müsəlman şərab verilən iaşə müəssisələrinə (restoranlara, kafelərə və s.) gedə bilər, bu şərtlə ki, onun həmin müəssisələrin xidmətindən istifadəsi onların belə şəriətə uyğun olmayan fəaliyyətinə rəvac vermiş olmasın. Bu halda da şərab içilən süfrədən qidalanmamalı, həmçinin vacib ehtiyata əsasən, belə süfrələrin arxasında belə oturmamalıdır. Şərab içilən süfrənin yaxınlığında stol rezervasiya etməyin isə eybi yoxdur.

Məsələ 168. Təharət və nəcasətlə bağlı hökmlərin öz əksini tapdığı üçüncü fəsildə qeyd edildi ki, odundan və ya başqa bir maddədən alınmasından asılı olmayaraq spirtin bütün növləri pak sayılır. Beləliklə, tərkibində spirt olan bütün qida məhsulları da pak hesab edilir.

Məsələ 169. Bəzi balıqçılıq təsərrüfatı mütəxəssislərinin nəzərincə, pulcuqsuz balıqlar dənizlərdəki çirkli məhsulları yeməklə təmizlik vəzifəsini icra edirlər.

Məsələ 170. Bəzi tədqiqatçı mütəxəssislərin rəyinə görə, heyvanın başının kəsilməsi ilə orqanizmindəki qanın axıdılması onun ətini yeyənlərin sağlamlığı üçün bu qaydada ölməyən heyvanın ətindən daha faydalı edir. Təəccüblü deyildir ki, bəzi müsəlman olmayan alıcıların da daha sağlam qidalanmaq niyyəti ilə ət məhsullarını heyvanların İslam şəriəti normalarına müvafiq qaydada kəsildiyi və satıldığı satış nöqtələrindən aldığına şahid oluruq.

---

[1] Mən la yəhzəruhu-l-fəqih, c.4, səh.4.

[2] Furu əl-Kafi, c.6, səh.396.

Məsələ 171. İnsana (sağlamlığına və mövcudluğuna) öldürücü zəhər qəbul etmək kimi ciddi təhlükə törədə biləcək hər hansı bir maddənin istifadəsi, eləcə də hamilə qadının uşağını düşürməsinə (kurtaja) səbəb ola biləcək hər hansı bir dərman maddəsini qəbul etməsi və zərərli olduğu məlum olan, yaxud sağlam ağıl sahiblərinin etina etdiyi kiçik bir ehtimalla olsa belə güman edilən və zərəri ölümə, yaxud bədən üzvlərindən birinin fəaliyyətini itirməsinə yol aça biləcək qədər ciddi olan hər hansı digər bir işin icrası haramdır.

Məsələ 172. İslam dinində süfrə arxasında əyləşməyin və qidalanmağın bir sıra etik qaydaları mövcuddur, o cümlədən:

- yeməyə başlayarkən Allahın adını xatırlamaq;
- sağ əllə yemək;
- yeməyi kiçik dilimlər şəklində qəbul etmək;
- süfrə arxasında tələsmədən əyləşmək;
- yeməyi həzm olunması üçün yaxşıca çeynəmək;
- yeməkdən sonra Allaha şükür etmək;
- meyvələri yeməzdən öncə yumaq;
- tox halda qidalanmaqdan imtina etmək;
- tam doyanadək yeməmək (doymazdan öncə əlini süfrədən çəkmək);
- yemək əsnasında insanların üzünə baxmamaq;
- kollektiv halda süfrə arxasına əyləşdikdə başqalarının qarşısındakı yeməyə əl uzatmamaq;
- yeməyə süfrədəki duzdan dadmaqla başlamaq və yeməyi bu qaydada bitirmək.[1]

İndi isə gəlin qidalanma ilə bağlı Həzrət Ayətullah əl-uzma Sistaniyə ünvanlanan bir sıra aktual suallar və onlara verilən cavablarla tanış olaq:

Məsələ 173. Müsəlman ölkələrində fəaliyyət göstərən bir sıra qeyi-müsəlman müəssisələrinin istehsal etdiyi ət məhsullarının üzərində "İslam normalarına müvafiq qaydada kəsilmişdir" yazılır. Həmin məhsullarla qidalana

---

[1] Daha ətraflı məlumat almaq üçün Həsən ibn Fəzl Təbərsinin "Məkarim əl-əxlaq" əsərinin 7-ci fəslinə (səh.134-dən etibarən) müraciət edə bilərsiniz.

bilərikmi? Belə məhsulları qeyri-müsəlman ölkələrində fəaliyyət göstərən müsəlman yeyinti sənayesi müəssisələri istehsal etdiyi halda həmin məhsullardan yeyə bilərikmi? Bəs həm istehsalçı müəəsisənin qeri-müsəlmanlara məxsus olduğu, həm də məhsulun istehsal olunduğu ölkənin qeyri-müsəlman dövləti olduğu halda necə?

Cavab: Məhsulların üzərindəki yazılar mötəbər hesab edilmir. Həmin məhsulların istehsalçısı müsəlmanlar olduğu halda, yaxud əhalisinin əksəriyyətini müsəlmanların təşkil etdiyi bir ölkədə istehsal edildiyi və istehlakçıda istehsalçının müsəlman olmadığına dair etibarlı məlumat olmadığı halda onlarla qidalanmaq olar. Lakin istehsalçının müsəlman olmadığı, yaxud məhsulun əhalisinin əksəriyyətini müsəlmanların təşkil etmədiyi bir ölkədə istehsal edildiyi və istehlakçıda onun istehsalçısının müsəlman olduğuna dair dəqiq məlumat olmadığı halda isə həmin məhsullarla qidalanmaq olmaz.

Məsələ 174. Avropa ölkələrində bir sıra iri alış-veriş mərkəzlərində qutusunun üzərində “halal”, yaxud “İslami şəriətin müvafiq qaydada kəsilmişdir” kimi ifadələrin yazıldığı ət konservlərinə rast gəlirik. Onları alıb yeyə bilərikmi?

Cavab: Doğruluğuna arxayınlıq hasil etmədiyi halda həmin yazılar bir önəm kəsb etmir.

Məsələ 175. Bəzi müəssisələr əllərindəki texnologiya və avadanlıqlarla çoxlu sayda toyuğun vahid zamanda kəsimini həyata keçirir. Əgər həmin avadanlığı bir müsəlman işlədərək cihazı işə salarkən bütün başı kəsilən heyvanlar üçün bir dəfə təkbir və bəsmələ (bismillah) zikr edərsə, onları yemək halal sayılırmı? Həmin məhsulların halallığına şübhə etdiyimiz halda onları təmiz hesab edə və yeyə bilərikmi?

Cavab: Cihaz kəsim əməliyyatını həyata keçirdiyi müddət ərzində cihazı işə salan “bismillah” zikrini davamlı surətdə təkrarlayarsa, halallıq üçün kifayətdir. Halallıqda şəkk “bismillah” zikrinin deyilib-deyilməməsi ilə əlaqədar olduğu halda isə məhsul təmiz, yeyilməsi də halal sayılır.

Məsələ 176. Sahibi müsəlman olan və şərab da satılan supermarketdə halal adı ilə satılan ət məhsullarını almaq olarmı?

Cavab: Bəli, hərçənd daha öncə müsəlman olmayan bir şəxsin əlində olsa belə, müsəlman satıcının məhsulun şəriət normalarına müvafiq qaydada kəsildiyini aşkarlaması ehtimalını nəzərə alaraq həmin məhsulları satın almaq olar və onlarla qidalanmaq halal sayılır. Belə bir ehtimal olmadığı halda isə halal hesab edilmir.

Məsələ 177. Qeyri-müsəlman ölkələrində istehsal olunan bir sıra pendir məhsullarının mayası buzov, yaxud başqa bir heyvanın mədəsindən alınır və biz həmin heyvanların şəriət normalarına müvafiq qaydada kəsilib-kəsilmədiyini, yaxud mayanın istihalə halını gerçəkləşdirib-gerçəkləşdirmədiyini bilmirik. Həmin pendir məhsullarını yemək olarmı?

Cavab: Sözügedən pendir məhsullarının bu baxımdan yeyilməsinə bir əngəl görünmür. Doğrusunu isə Allah bilir.

Məsələ 178. Qərb ölkələrində "jelatin" adlanan qida məhsullarının istehsalında, yeməklərdə və içkilərdə geniş miqyasda istifadə olunur. Bu maddənin bitki, yoxsa heyvan mənşəli olduğunu, heyvan mənşəli olduğu halda isə heyvanın sümüyündənmi, yoxsa sümüyün ətrafındakı toxumalardanmı alındığını, habelə həmin heyvanın yeyilməsi halal, yoxsa haram heyvanlardan olduğunu bilmirik. Beləliklə, jelatini qida kimi qəbul edə bilərikmi?

Cavab: Şübhə jelatinin heyvan, yoxsa bitki mənşəli olduğuna dairdirsə, qida kimi qəbul etmək olar. Lakin heyvan mənşəli olduğuna dair məlumat olduğu halda vacib ehtiyata əsasən, hətta heyvanın sümüyündən hazırlandığı halda belə onun şəriət normalarına müvafiq qaydada kəsildiyinə əmin olmadıqca jelatini qida kimi qəbul etmək olmaz. Bununla yanaşı, jelatini təşkil edən maddələrin kimyəvi istehsal prosesi çərçivəsində istihaləyə məruz qaldığına əmin olduğumuz təqdirdə qida kimi qəbulunun qəti qorxusu yoxdur. Lakin bu (istihalə halı) təsbit edilməmişdir.

Məsələ 179. İri balıqçılıq gəmiləri eyni anda tonlarla balıq ovlayaraq bazarlarda satışa çıxarırlar. Əldə etdiyimiz məlumatlara əsasən, balıq ovunda formalaşan ənənələr, qaydalar balıqların sudan diri halda çıxarılmasını tələb edir. Hətta iri balıqçılıq təsərrüfatı subyektləri özləri sudan ölü halda çıxan balıqları zəhərlənmə hallarından qorxaraq, yaxud qida sağlamlığını nəzərə alaraq yenidən

suya atırlar. Beləliklə, həmin balıqları qeyri-müsəlmanlar, yaxud şəriətin hökmlərinə qarşı laqeyd olan müsəlmanlar tərəfindən satıldığı satış nöqtələrindən ala bilərikmi? Nəzərə almaq lazımdır ki, qarşımızdakı balığın sudan diri çıxarıldığına dair dəqiq məlumat əldə etmək, yaxud bunu öz gözləri ilə görən etibarlı bir şahid tapmaq olduqca çətin, hətta bəzi hallarda mümkünsüzdür. Bütün bunları nəzərə alaraq, toyuq, qoyun və inək ətinin təzkiyəsi ilə bağlı dəqiq məlumatın əldə edilməsində çətinlik çəkdiklərindən ət və ət məhsullarına ehtiyaclarını balıq ətinin heabına ödəməyə çalışan müsəlmanların bu probleminin həlli yolu nədən ibarətdir?

Cavab: Həmin balıqların istər müsəlmanlardan, istərsə qeyri-müsəlmanlardan alınmasına məhdudiyyət qoyulmur. Həmçinin, deyilən qaydada (sudan diri çıxarılma şərtilə) ovlandığı və pulcuqlu balıqlardan olması dəqiqləşdirildiyi halda yeyilməsi də sərbəstdir.

Məsələ 180. Adətən balıq konservlərinin qutularının üzərində əks olunan balığın adı və ya şəklinə əsaslanaraq onun pulcuqlu balıqlardan olub-olmamasını ayırd edə bilirik. Bu qəbildən olan hallarda saxtakarlığın istehsalçı şirkəti ciddi zərərlərlə qarşı-qarşıya qoya biləcəyini (bu baxımdan da istehsalçının belə saxtakarlıq hallarına yol verməyəcəyini) nəzərə alaraq balığın növünü təyin etməkdə qutunun üzərindəki həmin məlumatlara (ad və ya şəklə) istinad edə bilərikmi?

Cavab: Doğruluğuna əmin olduğunuz halda istinad edə bilərsiniz.

Məsələ 181. Krevetlərə oxşadıqlarını nəzərə alaraq müxtəlif növ xərçəngləri də yemək olarmı?

Cavab: Xərçənglərin yeyilməsinə şəriət tərəfindən icazə verilmir.

Məsələ 182. Əhli-sünnə məzhəblərindən olan müsəlmanlardan balıq məhsullarını almaq olarmı? Nəzərə almaq lazımdır ki, həmin balıqların pulcuqlu olub-olmadığını bilmirik.

Cavab: Alınmasına əngəl yoxdur, lakin pulcuqlu olduğuna dair dəqiq məlumat əldə edilməmiş yeyilə bilməz.

Məsələ 183. Təzkiyə olunmamış heyvan ətinin buxarında bişirilən halal yeməkləri yemək olarmı?

Cavab: Yemək olmaz. Çünki həmin yemək nəcis hökmündə olan ətin buxarından toplanan su dənəcikləri ilə təmas etdiyindən nəcis hesab olunur.

Məsələ 184. Müsəlmanın iştirakılardan hesab olunacağı təqdirdə şərab məclislərində süfrə arxasında oturmasının haram olduğunu bilirik. Bəs süfrə deyərkən nə nəzərdə tutulur: bir neçə süfrədən (stoldan) ibarət bütöv məclis, yoxsa yoxsa məhz üzərində şərab olan süfrə (stol)? Başqa sözlə məclisdə süfrələr bir-birindən aralı olduğu halda üzərində şərab olmayan süfrənin arxasında əyləşmək olarmı?

Cavab: Burada süfrə deyərkən məhz üzərində şərab olan süfrə nəzərdə tutulur. Şərab və ya spirtli məstedici içkilərin içildiyi süfrədə əyləşməyin haramlığı ilə bağlı hökm ehtiyata əsaslandığından, "əqva" (ən güclü) nəzərə əsasən, həmin süfrədən qidalanmaq da haramdır.

Məsələ 185. Bir müsəlman kafedə çay içərkən başqa bir şəxs də gələrək həmin stolun arxasında əyləşərək şərab (spirtli içki) içməyə başlayarsa, müsəlmn dərhal ayağa qalxaraq həmin məkanı tərk etməlidirmi?

Cavab: Bəli, artıq qeyd edildiyi kimi belə vəziyyətlərdə həmin süfrədən (stolun arxasından) qalxmaq lazımdır.

Məsələ 186. Üzərində "spirtsiz" ifadəsi yazılan pivə məhsullarını içmək olarmı?

Cavab: Yüngül dərəcədə də olsa, məstedicilik qabiliyyəti olan pivə halal sayılmır. Lakin "mauş-şəir" (arpa suyu) adlanan və məstedicilik qabiliyyəti olmayan içkinin qəbuluna isə məhdudiyyət qoyulmur.

Məsələ 187. Həb və ya maye halında olan əksər dərman preparatlarının tərkibində spirt mövcuddur. Həmin preparatların qəbuluna şəriət tərəfindən icazə verilirmi və onlar pak hesab edilirmi?

Cavab: Həmin preparatlar pak hesab olunur və onların tərkibindəki spirtin miqdarı cüzi olduğundan qəbuluna da məhdudiyyət qoyulmur.

Məsələ 188. Sirkənin şərabdan (araqdan) alınan bir növü də mövcuddur. Belə ki, həmin sirkəni zavodda müəyyən emal prosesi nəticəsində şərabdan alırlar. Buna görə də onu arpa və digər xammallardan alınan sirkələrdən fərqləndirmək üçün qablaşdırmanın üzərində “şərab sirkəsi” yazılır. Bu sirkə ilə bağlı digər bir məqam isə ondan ibarətdir ki, onu alışveriş mərkəzlərində sirkə məhsulları üçün ayrılan rəflərdə yerləşdirirlər və əsla şərabların müştərilərə təqdim olunduğu vitrinlərə yerləşdirmirlər. Həmçinin, qeyd etmək lazımdır ki, biz bu sirkə ilə İraqda xurmadan hazırlanan sirkə məhsulları arasında bir fərq görə bilmirik. Beləliklə, şərabdan sirkəyə çevrilən sözügedən məhsul sirkə sayılırmı?

Cavab: Sualda göstərilən vəziyyətdə olduğu kimi ürfən sirkə hesab olunduğu halda sözügedən məhsul sirkə hökmünü daşıyır.

Məsələ 189. Qida, konserv və qənnadı məhsullarının istehsalçıları qanunvericiliyinin tələbinə uyğun olaraq istehlakçılara satdıqları yeyinti sənayesi məhsullarının (qablaşdırmalarının) üzərində onların tərkibinə dair məlumat da yerləşdirməlidirlər. Həmin məhsulların bəziləri tez xarab olan qida məhsulları olduğundan onların tərkibinə xarab olmaqdan qoruyan və bir qismi heyvan mənşəli olan qatqı maddələri (stabilizatorlar) də əlavə olunur və məhsulların tərkibi haqqında məlumatda həmin maddələr “E 450”, yaxud “E 472” kimi (E400 – E499) əmtəə seriya nişanları (kodları) ilə göstərilir. Beləliklə, aşağıdakı hallarda şəriətin hökmü nədən ibarətdir:

a) istehlakçı qida məhsulunu təşkil edən tərkib hissələrinin mahiyyətini başa düşmədikdə;

b) istehlakçıya istihalə ilə bağlı anlayışı olmayan əmtəəşünaslar tərəfindən hazırlanan və bir sıra qatqı maddələrinin heyvan mənşəli olduqlarına görə seriya kodlarının qarşısında “haram” qeydi olan bir siyahı təqdim olunduqda;

c) tədqiqatlar həmin maddələrin bəzilərinin ilkin vəziyyətində qalmayaraq istihalə nəticəsində başqa bir maddəyə çevrildiyini göstərdikdə.

Cavab: a) Tərkibində sözügedən qatqı maddələrinin mövcud olduğu həmin qidalar onun üçün halal sayılır;

b) İddialara rəğmən, həmin qatqı maddələrinin heyvan mənşəli olduğuna dair dəqiq məlumat əldə edilmədiyi halda, həmçinin heyvan mənşəli olduğu məlum olan qatqı maddələrinin nəcis hesab olunan (nəcisül-eyn və ya təzkiyə olunmamış) heyvan mənşəli olduğuna dair dəqiq məlumat əldə edilmədiyi və qatqı maddəsinin olduqca cüzi miqdarda əlavə edildiyi halda həmin məhsullarla qidalana bilər.

c) Ürfən (insanların, yaxud mütəxəssislərin nəzərincə) həmin maddələrin istihalə halının gerçəkləşməsi nəticəsində ilkin tərkibini itirərək dəyişikliyə uğramasından sonra onların paklığı və halallığı xüsusunda heç bir şübhə ola bilməz.

Məsələ 190. Aşağıdakı suallara cavab verməyinizi xahiş edirik:

a) Jelatin pak hesab olunurmu?

b) "İstihalə" anlayışının nəyi əhatə etməsi ilə bağlı anlaşılmazlıqdan (məfhum qeyri-müəyyənliyindən) irəli gələrək bu halın gerçəkləşib-gerçəkləşmədiyi ilə bağlı tərəddüdə düşsək, "istishab" prinsipi əsasında öncəki nəcislik hökmü qüvvədə qalırmı?

Cavab: a) Heyvan mənşəli jelatinin mənşə etibarilə nəcis olduğuna dair əldə dəqiq məlumat yoxdursa, məsələn təzkiyə olunmuş heyvandan əldə edildiyinə dair bir ehtimal da mövcuddursa, pak hesab olunur. Lakin həmin jelatin maddəsinin yeyilməsi halal olan, təzkiyə olunmuş heyvandan əldə edildiyinə, yaxud "istihalə"sinin gerçəkləşdiyinə dair dəqiq məlumat əldə edilmədikcə ondan qida məhsullarına yalnız tərkibdə gözə çarpmayacaq dərəcədə olduqca cüzi miqdarda əlavə edilə bilər. Bu məsələdə onun qığırdaq kimi canlı hesab olunan, yaxud sümük kimi canlı hesab olunmayan bədən üzvlərindən alınmasının da heç bir fərqi yoxdur. Hərçənd, sonuncu halda (sümükdən alındığı halda) ehtiyat etmək (həmin jelatin maddəsinin qida məhsullarının hazırlanmasında istifadə edilməsindən, yaxud tərkibində bu növ jelatin maddəsi olan qida məhsulları ilə qidalanmaqdan çəkinmək *tərc.*) daha məqsədəuyğundur.

Lakin jelatin maddəsinin mənşə etibarilə nəcis olduna dair əldə dəqiq məlumat olarsa, məsələn onun nəcisül-eyn heyvanlardan (vücudu tamamilə nəcis

hesab olunan heyvan: it və donuz), yaxud təzkiyə olunmamış heyvanın qığırdağından və ya yuyularaq təmizlənməmiş sümüyündən alındığı məlum olarsa, həmin jelatin maddəsi rütubətli nəcisə toxunduğundan nəcis hesab olunur. Bu halda onun paklığı və qidalarda istifadəsinin halallığı "istihalə"nin gerçəkləşməsinə bağlıdır. "İstihalə"nin gerçəkləşməsi isə ürfün nəzərindən asılıdır və "istihalə"nin hansı qaydada gerçəkləşməsi öncəki səhifələrdə qeyd olunmuşdur.[1]

b) "İstishab"a gəlincə, hərçənd "məfhum qeyri-müəyyənliyi" xüsuslarında, yəni şəriət hökmünün predmetinin, yaxud predmetin xüsusiyyətlərinin və ya hökmün özünün məzmununun qeyri-müəyyən olduğu hallarda bu prinsip tətbiq olunmasa da ("üsuli-fiqh" elmində də öz əksini tapdığı kimi), nəcasətin predmeti insanların nəzərində ayrı-ayrı nəcislər, o cümlədən sidik, qan, it və s. olduğundan və nəcasətin qalması aqil insanların nəzərincə həmin predmetlərin zati xüsusiyyətlərinin qalması demək olduğundan "istihalə"nin gerçəkləşib-gerçəkləşməməsi xüsusunda (istihalə anlayışının nəyi əhatə edib nəyi etməməsi baxımından) şəkk də həmin nəcislərin varlığının onların zati xüsusiyyətləri ilə birgə qalıb-qalmaması (mövcudluğunu davam etdirib-etdirməməsi) xüsusunda şübhədən irəli gəlir. Beləliklə, burada nəcasətlə bağlı şəriət hökmünün predmeti mücərrəd deyil, maddi varlıq predmetlərindən olduğundan "istishab" prinsipinin tətbiq olunmasına məhdudiyyət qoyulmur. Allah (ən doğrusunu) biləndir.

Məsələ 191. Qərb ölkələrində alış-veriş etdiyimiz ticarət mərkəzlərində tərkibi haqqında məlumatsız olduğumuz müxtəlif növ qida məhsulları satılır. Həmin məhsulların yeyilməsi və içilməsi haram olan qidalardan xali olub-olmaması məlum deyil. Bu halda onların tərkibinə baxmadan, yaxud tərkibi haqqında məlumat almadan həmin məhsullarla qidalana bilərik, yoxsa bu yolverilməz hesab edilir?

Cavab: Onların tərkibində ət, piy, habelə ət və piy mənşəli qida maddələrinin olduğuna dair məlumatınız olmadığı halda qidalana bilərsiniz.

---

[1] Bu məsələdə sözügedən "istihalə", "istishab", "təzkiyə" kimi terminlərin izahı üçün bax: Müxtəsər fiqh terminləri lüğəti.

Məsələ 192. Balina və digər yeyilməsi haram olan balıqların yağından və ilbizlərdən qidalarda və eləcə də digər məqsədlərlə istifadə olunmasına icazə verilirmi?

Cavab: Qidalarda istifadəsinə icazə verilmir, digər məqsədlərlə istifadəsinə isə məhdudiyyət qoyulmur. Allah (hər şeyin doğrusunu) biləndir.

Məsələ 193. Müsəlman şərab içilən məclislərdə iştirak edə bilərmi?

Cavab: Həmin məclislərdə yeyib-içmək haramdır. İştirak etməyin haramlığı isə vacib ehtiyat hökmünə əsaslanır. Nəhy əz münkər edə biləcəyi halda isə bu məqsədlə orada iştirak etməsinə əngəl yoxdur.

Məsələ 194. Omarların (iri oynaqlı dəniz xərçənglərinin), krevetlərin və ilbizlərin yeyilməsi halladırmı?

Cavab: Dəniz canlılarından yalnız pulcuqlu balıqların və krevetlərin yeyilməsi halladır. Digər dəniz canlılarının, o cümlədən xərçənglərin və pulcuqsuz balıqların isə yeyilməsinə şəriət icazə vermir. Allah (hər şeyin ən doğrusunu) biləndir.

## İKİNCİ FƏSİL
## GEYİMLƏR

Təbii dəridən hazırlanan geyimlər qeyri-müsəlman ölkələrində hər bir müsəlmanın qarşılaşa biləcəyi real bir problemdir. Belə ki, onlar doğma ölkələrində (müsəlman dövlətlərində) həmin məhsulların şəriət normalarına müvafiq qaydada kəsilən heyvanların dərisindən istehsal edildiyini bildiklərindən belə geyimləri arxayınlıqla alaraq çəkinmədən geyinir, onlarla namaz qılır və rütubətli əlləri ilə həmin libaslara toxunurlar. Qeyri-müsəlman ölkələrində isə vəziyyət köklü surətdə fərqlənir. Beləliklə, sözügedən mövzu ilə bağlı ən önəmli şəriət hökmlərinə qısaca nəzər salmağı məqsədəuyğun hesab edirik:

Məsələ 195. İslam şəriəti normalarına müvafiq qaydada kəsilməyən heyvanın dərisindən istehsal edildiyi məlum olduğu halda dəri geyimlər nəcis hesab olunur və onlarla namaz qılmaq olmaz. İslam şəriətində tətbiq olunan qaydalara uyğun şəkildə kəsilən və yeyilməsi halal olan heyvanın dərisindən

istehsal edildiyi ehtimal olunduğu halda isə dəri geyimlər pak hesab olunur və onlarla namaz qılmaq olar.

Məsələ 196. Şir, bəbir, pələng, tülkü və çaqqal kimi yırtıcı heyvanların dərisindən istehsal olunan geyimlərlə namaz qılmaq olmaz. Həmçinin, vacib ehtiyata əsasən, meymun və fil kimi yırtıcı olmasa da ətinin yeyilməsi haram olan heyvanların dərisindən istehsal edilən geyimlərlə də - hətta sözgedən dərilərin təzkiyə nəticəsində pak hesab olunduğu, yaxud təzkiyəsinin ehtimal olunduğu hallarda belə - namaz qılmaq olmaz. Lakin belə dərilərdən (təzkiyə nəticəsində pak olan, yaxud təzkiyə olunduğu ehtimal edilən, əti haram olsa da yırtıcı olmayan meymun və fil kimi heyvanların dərisindən *tərc.*) hazırlanan və övrəti (eyib yerləri) örtməyən kəmər kimi geyim və aksessuarlardan istifadə etmək olar.

Dəri geyim məhsullarının təzkiyə olunmamış heyvanın dərisindən istehsal edildiyinə əmin olduğumuz halda, eləcə də həmin heyvanların təzkiyə olunması ehtimalının sağlam ağıl sahiblərinin etimad göstərmədiyi zəif bir ehtimal, məsələn 2% olduğu halda isə həmin geyimlər, hətta kəmər kimi övrəti örtməyən geyim növü və aksessuarlar da nəcis hesab olunur və onlarla namaz qılmaq olmaz.

Məsələ 197. Qeyri-müsəlman ölkələrində ilan və timsah dərisindən istehsal edilən və satılan dəri məhsulları pakdır və onların alqı-satqısı da, paklığın şərt olduğu (namaz kimi) məqamlarda istifadəsi də sərbəstdir.

Məsələ 198. Müsəlman ölkələrində istehsal olunan və qeyri-müsəlman ölkələrində satılan bütün növ dəri məhsulları pak hesab olunur və onlarla namaz qılmaq olar.

Məsələ 199. Qeyri-müsəlman ölkələrində istehsal edilən və təbii, yoxsa süni dəridən hazırlandığı məlum olmayan dəri məhsulları pak sayılır və onlarla namaz qılmaq olar.

Məsələ 200. Şəriətin kəsim qaydalarına riayət olunmadan kəsilən heyvanların dərisindən istehsal olunan ayaqqabı onu geyinən şəxsin ayağını yalnız nəcasəti keçirən rütubətlə nəcis edə bilər. Beləliklə, əgər ayaq tərləyərsə və corab da tərləmə nəticəsində yaş olarsa, lakin rütubət nəcis dəridən olan ayaqqabıya sirayət etməzsə, ayaq və corab nəcis hesab olunmur.

Məsələ 201. Qeyri-müsəlman ölkələrində istehsal edilən dəri kapşon (gödəkçə və jaketlərə əlavə edilən başlıq), papaq və ya kəmərlə namaz qılmaq olar. Eləcə də sahibi, yaxud müştəriləri qeyri-müsəlmanlar olan ticarət mərkəzlərindən aldığımız dəri məhsullarının şəriət normalarına müvafiq qaydada kəsilmiş əti halal heyvanların dərisindən istehsal olunduğunu ehtimal edərsək, onlarla namaz qılmaq olar.

Məsələ 202. Kişilərə istər namazda, istərsə də digər vaxtlarda qızıl üzük, o cümlədən nişan üzüyü, qol saatı və s. qızıl zinət əşyaları və aksessuarlarından istifadə etmək olmaz. Lakin qızıl suyuna çəkilən və qızıl zinət əşyası hesab edilməyən aksessuarlardan istifadə etmək olar.

Məsələ 203. Kişilərə ağ qızıl adlandırılan qiymətli metaldan hazırlanan zinət əşyalarından istifadə etmək olmaz.

Məsələ 204. Qadınlara bütün hallarda, eləcə də namazda qızıl zinət əşyalarından və aksessuarlardan istifadə etmək olar.

Məsələ 205. Fiqh ədəbiyyatında öz əksini tapan müstəsna hallar istisna olmaqla kişilərə təbii ipəkdən hazırlanan libasları geyinmək olmaz, istər namazda, istərsə də digər vaxtlarda.

Məsələ 206. Qadınlar bütün hallarda, habelə namaz əsnasında ipək parçalı libaslar geyinə bilərlər.

Məsələ 207. Kişilər təbii, yoxsa süni dəridən olduğunu dəqiq bilmədikləri libasları geyinə və onlarla namaz qıla bilərlər.

Həmçinin, kişilərə xalis ipək hesab olunmayacaq dərəcədə qarışığı olan, tərkibində təbii ipəklə yanaşı yüksək miqdarda pambıq, yun, neylon və s. olan parçalardan hazırlanan libasları, eləcə də belə qarışıq parçadan olduğu güman edilən libasları geyinmək və onlarla namaz qılmaq olar.

Məsələ 208. Vacib ehtiyata əsasən, kişi qadın kimi (qadına bənzəyəcək görkəmdə) geyinməməlidir.

Məsələ 209. Vacib ehtiyata əsasən, müsəlmanlar kafirlərin geyim tərzini təqlid etməməlidirlər.

İndi isə gəlin, geyim mövzusu ilə bağlı Ayətullah əl-uzma Sistaniyə ünvanlanan ən aktual suallar və onlara verilən cavablarla tanış olaq:

Məsələ 210. Biz, Avropa ölkələrində yaşayan müsəlmanlar təzkiyə olunmamış heyvanların dərisindən istehsal edildiyini güman etdiyimiz ayaqqabı, bel kəmərləri və s. dəri geyim məhsullarını alırıq. Həmin dərilər bəzən müsəlman ölkələrindən də idxal olunur, yaxud burada müsəlman qəssabların işlətdiyi sallaqxanalardan alınır. Nümunə üçün qeyd etmək olar ki, Britaniyada az sayda da olsa belə sallaqxanalar fəaliyyət göstərir. Beləliklə, həmin dəri məhsullarının müsəlman ölkələrindən idxal edildiyi, yaxud heyvanların İslami kəsim qaydasında kəsildiyi hər hansı bir yerdən alındığı ehtimalına - hətta ehtimal zəif olsa belə - əsaslanaraq onları pak hesab edə bilərikmi?

Cavab: Əgər 2%-lik ehtimal kimi əksinin daha çox həqiqətə uyğun göründüyü zəif bir ehtimal olarsa, ona etimad etmək (əsaslanmaq) olmaz. Əks təqdirdə (etimad edilə biləcək yüksək ehtimalın mövcud olduğu halda) isə onları pak hesab etmək olar. Doğruları bilən Allahdır.

Məsələ 211. Fəqihlər xalis təbii ipəkdən hazırlanan geyimlərin kişilərə haram olmasına dair fətva verirlər. Bəs kişilər qalstuk kimi xalis olmayan ipəkdən hazırlanan geyim və aksessuarlardan istifadə edə bilərmi? Qalstuk xalis təbii ipəkdən hazırlandığı halda necə, kişilər üçün bağlanılması haram hesab edilirmi?

Cavab: Hətta xalis ipəkdən olsa belə qalstuk bağlamaq haram hesab edilmir. Çünki qalstuk övrəti örtə bilən geyimlərdən deyil. Xalis ipək hesab olunmayan qarışıq tərkibli parçadan hazırlanan məhsullara gəlincə, hətta övrəti örtən geyimlər olsa belə, onları geyinmək olar.

Məsələ 212. Bəzi istehsalçı şirkətlərin öz məhsullarının üzərinə həmin geyimlərin xalis ipəkdən hazırlandığını yazmasına baxmayaraq, qiymətlərinin ucuzluğu səbəbilə biz bunun doğruluğuna tərəddüd edirik. Bu halda həmin libasları geyinə və onlarla namaz qıla bilərikmi?

Cavab: Şəkk halında həmin libasları geyinmək və onlarla namaz qılmaq olar.

Məsələ 213. Üzərində spirtli içkiləri reklam edən təsvirlərin əks olunduğu paltarların geyinilməsinə və alqı-satqısına icazə verilirmi?

Cavab: Onların geyinilməsi də, alqı-satqısı da haramdır.

Məsələ 214. Kişilər bəzi daxili hissələri (məsələn əqrəbi), yaxud qayışı qızıldan olan qol saatı bağlaya və onunla namaz qıla bilərmi?

Cavab: Birinci halda həmin saatı qola bağlamaq və onunla namaz qılmaq olar, ikinci halda (qayışı qızıldan olduğu halda) isə olmaz.

## ÜÇÜNCÜ FƏSİL
## MÜSƏLMAN İMMİQRANT VƏ YAŞADIĞI ÖLKƏNİN QANUNVERCİLİYİ

Hər bir dövlət öz hüdudları daxilində hüquqi cəmiyyətin bərpası və qorunması məqsədilə bir sıra qanunlar qəbul edir. Qanunvericilik bəzən bu və ya digər bir hərəkətin, fəaliyətin icrasını tələb, bəzən isə qadağan edir, bəzən məhdudlaşdırır, bəzən də bu və ya digər bir şərtlə şərtləndirir və s.

Həmin qanunlardan bir qismi də müəyyən bölgənin əhalisinin gündəlik sosial həyatının ayrılmaz bir parçası olan ictimai yerlərlə bağlı olur və həmin qanunların tələblərini pozmaq ictimai sabitliyin pozulmasına, hərc-mərcliyin yaranmasına səbəb ola bilər.

Bunu nəzərə alaraq mövzu ilə bağlı aşağıdakı şəriət hökmlərini oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun görürük:

Məsələ 215. Müsəlman insanların istifadə etdiyi istər piyada yollarını (səkiləri, keçidləri), istərsə də avtomobil yollarını nə müsəlman ölkələrində, nə də qeyri-müsəlman ölkələrində bu və ya digər bir şəkildə bağlaya, hərəkəti məhdudlaşdıra bilməz.

Məsələ 216. Müsəlman sahibinin izni olmadan özəl mülkiyyətdə olan binaların divarlarına, elan lövhələrinə hər hansı bir elanı yerləşdirə, yaza bilməz.

Məsələ 217. Müsəlmana ona bu ya digər əmlakı, yaxud işi etibar edən şəxsə, hətta kafir olsa belə, xəyanət etmək haramdır. Müsəlmana vacibdir ki, ona etibar edilən əmanəti qorusun, həvalə edilən işi layiqincə icra etsin. O cümlədən, ticarət

müəssisələrində işləyən satıcılara və mühasiblərə heç bir vəchlə biznes sahibinə xəyanət edərək nəzarətlərində olan əmlakı mənimsəməyə icazə verilmir.[1]

Məsələ 218. İslama və müsəlmanların heysiyyətinə ləkə düşürdüyünü nəzərə alaraq, müsəlman olmayan insanların istər xüsusi, istərsə də ümumi mülkiyyətini oğurlayaraq mənimsəmək, yaxud tələf etmək yolverilməzdir.

Məsələ 219. Xüsusi və ya ümumi mülkiyyət olmasından asılı olmayaraq müsəlman olmayan əhalinin əmlakını oğurlamaq yolu ilə mənimsəmək və ya tələf etmək, hətta İslam və müsəlmanların nüfuzuna xələl gətirməsə belə, xəyanət və immiqrasiya əsnasında, yaxud daimi və ya müvəqqəti məskunlaşma icazəsi alarkən həmin dövlət qarşısında götürülən öhdəliklərin pozulması hesab edildiyindən yolverilməzdir. Çünki dinindən, irqindən və s. asılı olmayaraq istənilən şəxs (o cümlədən, fiziki və hüquqi şəxslər) qarşısında götürülən öhdəliyi pozmaq və xəyanət haramdır.

Məsələ 220. Müsəlman ölkələrinə giriş əsnasında (sərhəd və gömrük keçid məntəqələrində) müsəlman olmayan insanların əmlakını oğurlamaq yolu ilə mənimsəmək yolverilməzdir.

Məsələ 221. Əlaqədar qurumları və məsul şəxsləri yalan informasiya vermək kimi yollarla aldadaraq qeyri-qanuni yollarla pensiya və müavinət hüququ əldə etmək olmaz.

Məsələ 222. Müsəlman istənilən sığorta şirkəti ilə yanğın, sel, daşqın, oğurluq və s. təhlükələrə qarşı həyat sığortası, əmlak sığortası və s. sığorta müqavilələri bağlaya bilər və bu müqavilələr öhdəliklərinin icrası icbari olan, yalnız tərəflərin birgə razılığı əsasında son verilə biləcək hüquqi anlaşma hesab olunur.

Məsələ 223. Müsəlman haqqı olmayan əmlakı (sığorta ödənişini) əldə etmək etmək üçün sığorta şirkətinə yalan informasiya verə bilməz. Həmçinin, sığorta ödənişini əldə etmək üçün qəsdən yanğın törətmək kimi yollara əl atmaq da

---

[1] Dəlil əl-muslim fi bilad əl-ğurbə, səh.89-90.

müsəlman üçün yolverilməzdir və həmin əmlak (sığorta ödənişi) onun üçün halal hesab edilmir.

Məsələ 224. Bəzən müsəlmanların ali mənafeyi onların qeyri-müsəlman ölkələrində bu və ya digər bir siyasi partiyada, nazirlikdə və ya qanunverici orqanda təmsil olunmalarını tələb edir. Bu halda onlara sözügedən qurumlarda çalışmağa icazə verilir. Sözügedən addımın müsəlmanların mənafeyinə olub-olmadığına gəlincə, bu yalnız və yalnız etibarlı mütəxəssislərə müraciət əsasında müəyyən edilməlidir.

Məsələ 225. Təhsil müəssisələrində götürülən imtahanlarda başqa bir abituriyentdən qarşılıqlı yardım almaq, hazır yazılı cavablardan istifadə etmək, nəzarətçini aldatmaq və ya hər hansı başqa bir yolla imtahan qaydalarını pozaraq saxtakarlıq etmək yolverilməzdir.

İndi isə gəlin, mövzu ilə bağlı bəzi aktual suallar və onlara Ayətullah əl-uzma Sistanin fətvalarına müvafiq surətdə verilən cavalar ilə tanış olaq:

Məsələ 226. Müsəlman bankomatdan pul çəkərkən yazdığı məbləğdən daha artıq pul gələrsə, qeyri-İslami bankın məlumatı olduğu halda həmin pulu (artıq məbləği) götürə bilərmi?

Cavab: Götürə bilməz.

Məsələ 227. Qeyri-müsəlman ölkələrində alış-veriş əsnasında satıcı (kassir və ya mühasib) ona qaytarmalı olduğu qalıq məbləğindən daha artıq pul qaytararsa, müsəlman həmin məbləği götürə bilərmi? Yoxsa satıcını bu səhvdən xəbərdar etməsi vacibdirmi?

Cavab: Qalıqdan artıq məbləği götürməyə haqqı yoxdur və götürdüyü halda da mütləq geri qaytarmalıdır.

Məsələ 228. Qeyri-müsəlman şirkətlərdən birində çalışan bir məmur şirkətin əmlakından ehtiyacı olan bir avadanlığı, əşyanı və s. şirkət sahibinə və ya məsul şəxsə məlumat vermədən götürə bilərmi?

Cavab: Götürə bilməz.

Məsələ 229. Qeyri-müsəlman ölkələrində elektrik enerjisi, qaz, su sayğaclarının işinə müdaxilə edərək onların düzgün işləməsinə əngəl törətmək olarmı?

Cavab: Bu yolverilməzdir.

Məsələ 230. Qərb ölkələrindən birində avtomobil qəzası ilə üzləşən müsəlman mühacir yüksək məbləğdə sığorta ödənişini əldə etmək etmək üçün öz ölkəsində uzun illər sürücülük təcrübəsi olduğunu iddia edir və iddiasını təsdiqləmək üçün sığorta şirkətinə yazılı sənədlər də təqdim edir. Onun məqsədi həqiqətə uyğun olmayan informasiya verməsinə, hətta sadəcə həqiqəti gizlətməklə olsa belə mütəxəssisləri yanıltmasına əsas verirmi və bu işdə ona kömək etmək olarmı?

Cavab: Sözügedən məqsədlə yalan söyləmək, həmçinin bu yolla artıq qazanc (sığorta ödənişi) əldə etmək olmaz. Bu işə yardım etmək də günahın icrasına yardım etmək deməkdir.

Məsələ 231. İslam və müsəlmanların imicinə kölgə düşürəcəyini bildiyi halda müsəlman qeyri-müsəlman ölkələrində sığorta şirkətlərini aldada bilərmi?

Cavab: Əsla, yolverilməzdir.

Məsələ 232. Müsəlman qeyri-İslami sığorta şirkətindən sığorta ödənişi əldə etmək məqsədilə öz evində yanğın hadisəsinin baş verməsinə zəmin yarada və sığorta ödənişi edildiyi halda həmin ödənişi qəbul edə (mənimsəyə) bilərmi?

Cavab: Müsəlmana deyilən məqsədlə öz əmlakını tələf etməyə, habelə sığorta şirkətinə yalan informasiya verməyə icazə verilmir və sığorta ödənişi də ona halal sayılmır.

Məsələ 233. Avropa ölkələrində fəaliyyət göstərən dövlət məktəblərində saxtakarlıq hallarına yol vermək olarmı? Bəs müsəlman və ya qeyri-müsəlman qeyri-dövlət məktəblərində necə?

Cavab: İstənilən halda saxtakarlıq yolverilməzdir.

Məsələ 234. Bəzi ictimai nəqliyyat vasitələrində siqaret çəkməyin qadağan edildiyini göstərən yazı və işarələr mövcuddur. Bu tələbi pozmaq olarmı?

Cavab: Əgər bu tələb həmin nəqliyyat vasitələrindən istifadə edən sərnişinlər üçün bir öhdəlik hesab edilərsə, yaxud müsəlman mühacirin riyaət edəcəyinə dair öhdəlik götürdüyü yerli qanunvericliyin bir tələbi olarsa, sözügedən yasağa riayət edilməlidir.

Məsələ 235. Bu və ya digər bir qeyri-müsəlman ölkəsinə viza əldə edən müsəlman həmin ölkəyə səfəri əsnasında yerli qanunlara, o cümlədən yol hərəkəti haqqında qanunun, əmək məcəlləsinin və s. tələblərinə riayət etməyə borcludurmu?

Cavab: Əgər dolayı yolla olsa da, belə bir öhdəlik götürmüşsə, müqəddəs şəriətin zidd olmadıqca həmin qanunlara riayət etməlidir. Yol hərəkəti haqqında qanun kimi hüquqi-normativ aktlara gəlincə, xüsusilə, bu qanunların tələblərinin pozulması canı və malı (yaşamaq və mülkiyyət hüququ) toxunulmaz olan insanlara zərər dəyməsinə səbəb olduğundan onlara riayət etmək mütləq şəkildə vacibdir.

Məsələ 236. Bəzi dövlətlər immiqrantlara işsizliyə görə müavinət verir. Müsəlman immiqrantlara əmək fəaliyyəti ilə məşğul olduqları halda bu müavinəti almaq (mənimsəmək) olarmı?

Cavab: Onlar əmək fəaliyyəti ilə məşğul ola və əmək haqqı ala bilərlər. Lakin əlaqədar qurumlara əmək fəaliyyəti haqqında məlumat vermədən həmin müavinətləri ala bilməzlər.

Məsələ 237. Müsəlman Avropa və Amerika ölkələri kimi qeyri-müsəlman ölkələrində kafirlərdən oğurluq edə və ya onların əl atdığı hiyləli yollara baş vurmaqla sərvət əld etməyə çalışa bilərmi?

Cavab: İslam və ya müsəlmanların nüfuzuna zərbə vurduğu halda onların həm xüsusi, həm də ümumi mülkiyyətini oğurluq yolu ilə mənimsəmək, habelə tələf etmək yolverilməzdir. Hətta İslam və ya müsəlmanlara ləkə gətirmədiyi halda belə, bu əməl həmin ölkəyə giriş və ya orada məskunlaşma izni alarkən götürülən öhdəliklərin pozulması və xəyanət hesab olunduğundan yolverilməzdir. Çünki öhdəlikləri pozmaq və xəyanət istənilən halda haram və günahdır.

Məsələ 238. Müsəlman Avropa ölkələrində qanunvericilikdə nəzərdə tutulmuş bir sıra imtiyaz və güzəştləri əldə etmək üçün dövlət orqanlarına həqiqətə uyğun olmayan informasiya təqdim edə bilərmi?

Cavab: Bu addım yalan hesab edildiyinə görə yolverilməzdir və göstərilən hal yalana icazə verən zərurət məqamlarından sayılmır.

## DÖRDÜNCÜ FƏSİL
## BİZNES VƏ SƏRMAYƏ

Hər bir müsəlman istənilən həyat fəaliyyəti ilə, müsəlman olmasa belə fəaliyyəti müsəlmanların mənafeyinə zidd olmayan sahibkarların biznesi də daxil olmaqla özü ilə yanaşı insan cəmiyyəti üçün də faydalı olan işlərlə məşğul ola bilər, yalnız bu şərtlə ki:

1) həmin əmək fəaliyyəti İslam şəriəti tərəfindən qadağan edilmiş olmasın;

2) həmin iş və fəaliyyətin nəticəsində müsəlmanlara zərər dəyməsin;

3) İslam və müsəlmanların düşmənlərinin mənafeyinə və planlarına xidmət xarakteri daşımasın.

Məsələ 239. Müsəlman özünü başqa bir şəxsin – istər müsəlman olsun, istərsə qeyri-müsəlman – qarşısında alçaltmamalıdır. Gördüyü iş, əmək fəaliyyəti müsəlmanı müsəlman olmayan bir şəxs qarşısında alçaldarsa, həmin iş və fəaliyyətlə məşğul olması yolverilməzdir.

Məsələ 240. Müsəlmana İslam şəriəti normalarına müvafiq qaydada kəsilməyən heyvanların ətini belə ət məhsullarını halal qəbul edən insanlara, o cümlədən xristianlara, yəhudilərə və s. satmaq və ya bağışlamaq, həmçinin onlar üçün həmin ət məhsullarının istehsal edildiyi, onlardan müxtəlif yeməklərin hazırlandığı yeyinti sənayesi, ticarət və ictimai iaşə müəssisələrində işləməyə icazə verilir.

Məsələ 241. Müsəlmana donuz ətini onun yeyilməsini halal qəbul edən insanlara, o cümlədən xristianlara satmağa icazə verilmir. Həmçinin, vacib ehtiyata əsasən, belə ət məhsullarını satışdan başqa bir yolla da (məsələn bağışlamaq) onların istifadəsinə vermək olmaz.

Məsələ 242. Müsəlmana şərabı (məstedici, spirtli içkiləri) istənilən şəxsin, hətta belə içkiləri halal hesab edənlərin belə istifadəsinə təqdim etməyə (satmağa, ictimai iaşə obyektlərində müştərilərin içməsinə şərait yaratmağa və s.) icazə verilmir. Həmçinin, şərab qədəhlərini yuması, müştərilərə şərab verilən iaşə obyektlərində işləməsi (ofisiant və s. qismində) onların fəaliyyətinə zəmin yaradaraq rəvac verərsə, müsəlmana belə əmək fəaliyyəti ilə məşğul olmağa da heç bir vəchlə icazə verilmir.

Məsələ 243. Müsəlmanın ödənişli əsaslarla (müəyyən əmək haqqı müqabilində) şərab içilməsinə zəmin yaradan işlərlə məşğul olması, belə içkilərin satışı, iaşə müəssisələrində servisi və şərab qədəhlərinin yuyulması kimi xidmətlər göstərməsi yolverilməzdir. Həmçinin, belə bir iş müqabilində alınan əmək haqqı da haram hesab edilir. Bəzi müsəlmanların özlərinin belə işlərlə məşğul olmalarına zərurət və ehtiyac adı altında bəraət qazandırmaq cəhdlərinə gəlincə, qeyd etək lazımdır ki, bu bəraətlər məqbul hesab edilmir.

Allah (sübhanəhu və təala) buyurur: ***“...Kim Allahdan qorxsa, Allah ona (hər çətinlikdən) bir çıxış yolu əta edər. Və ona gözləmədiyi yerdən ruzi verər. Kim Allaha təvəkkül etsə, (Allah) ona kifayət edər...”***[1]

Ən dəyərli kəlamın uca sahibi başqa bir ayədə isə belə buyurur: ***“Mələklər öz nəfslərinə zülm edənlərin (Məkkədə kafirlər içərisində qalıb hicrət etməyənlərin) canlarını alarkən (onlara) deyəcəklər: “Siz (hicrət zamanı) nə iş görürdünüz? (vəziyyətiniz necə idi?)” Onlar söyləyəcəklər: “Biz yer üzərində zəif (aciz) kəslər idik”. (Mələklər də onlara:) “Allahın torpağı geniş deyildimi ki, siz də hicrət edəydiniz?” – deyəcəklər. Onların sığınacaqları yer Cəhənnəmdir. O necə də pis yerdir. Yalnız hicrət etməyə yol və çarə tapmağa qadir olmayan aciz kişi, qadın və uşaqlar müstəsnadır”.***[2]

Sevimli peyğəmbərimiz (s) vida həcci əsnasında söylədiyi xütbəsində müsəlmanlara belə müraciət etmişdi: “Bilin və agah olun! Ruhuləmin (vəhy

---

[1] Təlaq surəsi, 2-3-cü ayələr.

[2] Nisaə surəsi, 97-98-ci ayələr.

mələyi) mənə vəhy etmişdir ki, kimsə ruzi payını tamamilə almadan dünyasını dəyişməyəcəkdir. Beləliklə, Allahdan qorxun (təqvalı olun) və ruzinizi təqdirəlayiq şəkildə əldə etməyə çalışın. Ruzinizin bir qədər gecikməsi sizi Allaha üsyan etməklə (harama, günaha əl atmaqla) ruzi əldə etməyə sövq etməsin! Çünki Allah (təbarəkə və təala) ruzini məxluqları arasında haramlıq deyil, halallıq əsasında bölüşdürmür. Kim təqvalı və səbirli olarsa, Allah (c.c.) onun ruzisini halal yolla özünə çatdıracaqdır. Tanrının yasaqlarına məhəl qoymayaraq, dözümsüzlük nümayiş etdirərək ruzisini halal olmayan yollarla əldə etməyə çalışanların isə halal ruzi payı azalar və qiyamət günü həmin şəxslər buna görə sorğu-suala cəlb olunarlar”.[1]

Məsələ 244. Müsəlmanın böyük günahların baş verdiyi əyləncə məkanlarında harama sürüklənməsi ilə nəticələnən işlərlə məşğul olması yolverilməzdir.

Məsələ 245. Müsəlmanlar İslam şəriətində halal hesab edilən istənilən alqı-satqı, idxal, ixrac və s. biznes fəaliyyətlərində başqa dinlərin ardıcılları, o cümlədən yəhudi və xristianlarla şərik ola bilərlər.

Məsələ 246. İstər dövlət, istərsə özəl sektora daxil olan qeyri-İslam banklarında hətta qazanc (faiz gəliri) əldə etmək niyyətilə olsa belə, hesab açmaq olar. Çünki müsəlman olmayanlardan riba almaq (faizli gəlir əldə etmək) olar.

Məsələ 247. Lakin həmin banklardan faizli borc almaq istədikdə isə həmin borcu faizi ilə ödəyəcəyini bilsə də, bu addımı “əmlakı qurtarmaq” (bu borcu almayacağı təqdirdə qarşılaşacağı iflas və ya borcu aldıqdan sonra faizi ödəməyəcəyi halda üzləşəcəyi müsadirə təhlükəsindən qorunmaq *tərc.*) niyyəti ilə atmalıdır. Həmin banklara gəlir faizi qazandırmaq niyyəti ilə borc götürmək olmaz. Çünki riba (sələm) vermək haramdır.

Məsələ 248. Müsəlman başqa bir şəxsə öncədən tərəflər arasında razılaşdırılmış qaydada müəyyən məbləğ müqabilində öz adından və etibarından istifadə edərək bank, şirkət və s. səhmlərini satın almağa icazə verə bilər.

---

[1] Vəsail əş-şiə, c.17, səh.44.

Məsələ 249. Müsəlman İslam və müsəlmanlara qarşı müharibədə olan hər hansı bir dövlətin məhsullarını almamalıdır.

Məsələ 250. Müsəlman nağd və nisyə əməliyyatları arasında fərq olmaması şərtilə istənilən valyuta mübadiləsi əməliyyatını bazar (qiymətli kağızlar bazarı) qiymətlərinə uyğun həyata keçirə, yaxud məzənnəsindən yüksək və ya aşağı qiymətlərə dəyişə bilər.

Məsələ 251. Saxta və ya tədavüldən çıxarılmış əskinaslarla alqı-satqı əməliyyatlarını həyata keçirmək saxtakarlıq olduğundan doğru deyil və haramdır.

Məsələ 252. Müsəlmana mükafat məbləğini əldə etmək niyyətilə lotoreya biletlərini almaq olmaz. Lakin İslamda məqbul hesab edilən hansısa xeyriyyə layihəsi, məsələn xəstəxana, kimsəsizlər evi kimi müəssisələrin tikilişində iştirak etmək niyyəti ilə olduğu halda isə lotoreya biletlərini almaq (lotoreya oyunlarında iştirak etmək) olar. Bununla belə sözügedən müstəsna halın qeyri-müsəlman ölkələrində özünü doğrultması bir qədər həqiqətdən uzaq görünür. Çünki İslam şəriətində yasaq edilən bəzi iş və fəaliyyətlər həmin ölkələrdə xeyriyyə işi kimi qəbul edilir. Ancaq istənilən halda kafirlərin təşkil etdiyi lotoreya oyununda qalib gəldikdə mükafat məbləğini həmin əmlakı kafirlərin mülkiyyətindən qurtarmaq (münaqişəyə yol vermədən onların əlindən almaq *tərc.*) niyyəti ilə götürmək olar.

Məsələ 253. Yeyilməsi haram olan bəbir, kaftar, tülkü, fil, şir, ayı, pişik və eləcədə balına kimi yırtıcı heyvanların onlara bazar dəyəri qazandıracaq halal bir faydası olduğu halda – hətta bütün deyil, bəzi mütəxəssislərin rəyinə əsaslansa belə - onların alqı-satqısına icazə verilir. Yalnız it (ov iti istisna olmaqla) və donuz istisna təşkil edir.

Məsələ 254. Zinət əşyası kimi istifadəsi məqsədilə qızıl və gümüş qabların alqı-satqısına icazə verilir. Onların yemək və içki servisi kimi istifadəsi isə haramdır.

Məsələ 255. Müsəlman dövlətlərində birbaşa şəxsin bank hesabına köçürülən məvaciblər (eləcə də digər ödənişlər) əldə edilmədikcə (bankomatdan çıxarılma, yaxud bank şöbələrindən alınma yolu ilə) hətta illik məxaricindən artıq olsa belə, onlara xüms şamil edilmir.

İndi isə gəlin, mövzu ilə bağlı bir sıra aktual suallar və Həzrət Ayətullah əl-uzma Sistaninin həmin suallara cavabları ilə tanış olaq:

Məsələ 256. Qərb ölkələrində hər bir şəxs heç bir çətinliklə üzləşmədən bu və ya digər faiz gəliri olan müxtəlif növ bank hesabları aça bilər. Müsəlmanlara faiz gəliri qazanmaq niyyəti olmadan – bank faizi ödəməkdən imtina edəcəyi halda həmin faiz gəlirlərini tələb etmək niyyətləri olmazsa – yüksək faiz gəliri gətirən hesablar açmağa icazə verilirmi? Bəs icazə verilmədiyi halda bank hesabı açmaq üçün başqa bir çıxış yolu varmı? Nəzərə almaq lazımdır ki, insan övladı daxilən hər zaman gəlir əldə etməyə meyilli olur.

Cavab: Müsəlmana qeyri-müsəlman dövlət və özəl banklarında istənilən növ bank hesabı açmaq və hətta gəlir qazanmaq məqsədi ilə belə bank əmanətləri yerləşdirmək olar.

Məsələ 257. Qərb ölkələrində banklar nağd yolla ev satın almağa imkanı olmayanlara yüksək faizli uzunmüddətli kreditlər (ipoteka kreditləşməsi kimi) verirlər. Müsəlmanlar da bu kreditlərdən istifadə edə bilərmi? Bəs icazə verilmədiyi halda ev almaq üçün həmin kreditlərə ehtiyacı olduğunu və kifayət qədər nağd pulu olmadığını iddia edənlər üçün başqa bir çıxış yolu varmı?

Cavab: Borc niyyəti ilə deyil, "əmlakı qurtarma" niyyəti ilə (qeyri-müsəlmanlardan borc alıb onlara gəlir qazandırmaq niyyəti ilə deyil, şəxsi ehtiyaclarını ödəmək zərurəti ilə götürdüyü borcun faizini ödəməkdən imtina edəcəyi təqdirdə üzləşə biləcəyi müsadirə kimi halların qarşısını almaq məcburiyyəti ilə *tərc.*) səhmdarları qeyri-müsəlman hüquqi və fiziki şəxslər olan (yəni həm dövlət, həm də özəl) banklardan kredit götürmək olar. Bu halda bankın həmin borcu faizi ilə birgə alacağını bilmək də sözügedən kredit əməliyyatlarına əngəl hesab olunmur.

Məsələ 258. Bəzi dövlətlər müəyyən şərtlər çərçivəsində mənzil ehtiyacı olan vətəndaşlarını mənzillə təmin etmək kimi layihələr həyata keçirirlər. Müsəlmanlar özlərinə şəxsi mənzil satın alaraq xüms şamil olunmaması üçün bir müddət həmin mənzildə yaşadıqdan sonra həmin mənzili kirayəyə verərək özləri dövlətin verdiyi mənzildə yaşaya bilərlərmi?

Cavab: Sualda göstərildiyi kimi hallarda, satın alınan mənzilə real ehtiyac olmadıqca orada bir müddət yaşamaqla həmin daşınmaz əmlak xümsdən azad olmaz.

Məsələ 259. Bəzi ticarət və sənaye müəssisələri müsəlman və qeyri-müsəlman dövlət və ya özəl banklarından faizli borclar götürür və həmin vəsaitlərlə aparılan əməliyyatlar nəticəsində yüksək gəlirlər əldə edirlər. Həmin şirkətlərin səhmlərini ala və onların layihələrində iştirak edə bilərikmi?

Cavab: Həmin layihələrdə iştirak etmək sələmçilik fəaliyyətində iştirak etmək demək olarsa, icazə verilmir. Lakin sözügedən şirkət müsəlman şirkəti olarsa və həmin əməliyyatlar nəticəsində qeyri-müsəlman banklarından faizli gəlir əldə edərsə, bu baxımdan icazə verilir.

Məsələ 260. Qeyri-müsəlman və eləcə də bir sıra müsəlman ölkələrində dövlət və özəl müəssisələr işçilərinin məvaciblərini birbaşa onların şəxsi bank hesablarına köçürürlər və onlar da istədikləri zaman məvaciblərini öz hesablarından çəkə bilirlər. Məmur və işçilərin hesablarına köçürülən pul onların illik məxariclərindən artıq olarsa, xüms şamil olunurmu?

Cavab: Xüms həmin pulun illik məxaricdən artıq qalan hissəsinə şamil olunur. Lakin nəzərdə tutulan işçi hansısa bir müsəlman ölkəsində dövlət məmuru (yaxud qulluqçusu) olarsa və onun məvacibi dövlət və ya müştərək (səhmlərinin bir qismi dövlətə, digər bir qismi isə özəl sektorun nümayəndələrinə məxsus olan) banka köçürülərsə, həmin pulu hesabından çəkənədək ona xüms şamil olunmur və şəriət hakiminin izni ilə (mübahisəli hallarda) həmin pul onun əmlakı sayılır. Beləliklə, həmin pul onu hesabından çəkdiyi ilin gəlirindən sayılır və həmin ilin məxaricindən artıq qaldığı halda ona xüms şamil olunur.

Məsələ 261. Bir müsəlman başqa bir müsəlmandan müəyyən məbləğdə pul borc alır. Lakin bir müddətdən sonra həmin valyutanın məzənnə dəyəri (yaxud alıcılıq qabiliyyəti) aşağı düşür. Bu halda borc hansı məbləğdə qaytarılmalıdır: alındığı məbləğdə, yoxsa alındığı əsnada kəsb etdiyi məzənnə dəyərinə (alıcılıq qabiliyyətinə) uyğun məbləğdə? Bəs borc verən kafir olduğu halda necə, hökm fərqlənəcəkmi?

Cavab: Eynilə borc götürülən məbləğdə qaytarılmalıdır və borc verənin müsəlman və ya qeyri-müsəlman olmasının heç bir fərqi yoxdur.

Məsələ 262. İstehsal etdiyi məhsullar arasında şərab da olan müəssisələrə sərmayə qoymaq olarmı? Nəzərə almaq lazımdır ki, burada biznes və gəlir ortaqlığı mövcuddur (yəni bütün səhmdarlar gəlirlərini ümumi istehsal və satışdan əldə edirlər).

Cavab: Şərab istehsalı və alqı-satqısı biznesinə şərik (səhmdar) olmaq yolverilməzdir.

Məsələ 263. Müsəlman memarlara, yaxud podratçı şirkətlərə qeyri-müsəlman ölkələrində digər dinlərin ardıcıllarının ibadət edəcəyi məbədlərin (kilsə, sinoqoq və s.) tikintisi ilə bağlı layihə təklif olunarsa, təklifi qəbul edə bilərlərmi?

Cavab: Şəriətimiz buna icazə vermir, çünki bu iş təhrif olunmuş dinlərin yayılmasına yardım etmək deməkdir.

Məsələ 264. Müsəlman bir kalliqrafa (hüsnü-xətt ustasına), yaxud rəssama şərab və rəqs məclislərinin afişalarını və ya müştərilərə donuz ətindən hazırlanan yeməklərin də təqdim olunduğu restoranların reklam lövhələrini hazırlamaqla bağlı iş təklif olunarsa, qəbul edə bilərmi?

Cavab: Şəriət tərəfindən icazə verilmir, çünki bu günah və İslam əxlağına zidd halların yayılmasına rəvac vermək anlamını daşıyır.

Məsələ 265. Gəlirlərinin bir qismini müsəlmanlara qarşı işğalçı mövqeyindən əl çəkməyən dövlətlərin güclənməsinə sərf edən ticarət mərkəzlərindən alış-veriş etmək olarmı?

Cavab: Bu yolverilməzdir.

Məsələ 266. Bir müsəlman hansısa bir binanı satın aldıqdan sonra həmin binada müştərilərə spirtli içkilərin də satıldığı bar və ya kafe olduğunu öyrənərsə və binanı satın aldıqdan sonra həmin iaşə obyektini işlədən icarəçini binadan çıxara bilməzsə:

a) kafe və ya barı işlədənlərdən icarə haqqı ala bilərmi?

b) bəs icarə alması qeyri-məqbul hesab edildiyi halda şəriət hakiminin xüsusi icazəsi əsasında necə, ala bilərmi və bu halda onu hansı əsasla qəbul etmiş sayılır?

c) həmin binanı satın almazdan öncə onun ərazisində spirtli içkilərin müştərilərə satıldığı kafenin olduğunu və kafenin icarəçisini oradan çıxara bilməyəcəyini bildiyi halda həmin binanı satın alması doğru hesab edilirmi?

Cavab: a) Spirtli içkilərin satışı və servisi üçün istifadə müqabilində icarə haqqı ala bilməz.

b) Lakin oradan çıxara bilmədiyi icarəçidən "təqas" (ödəşmə) niyyətilə həmin obyektin halal işlərdə istifadəsi müqabilində ala biləcəyi icarə haqqı mislində ödənişi qəbul edə bilər, yaxud kafeni icarə edən müsəlman olmadığı halda "istinqaz"[1] niyyətilə ala bilər.

c) Həmin binadan deyilən növ kafe işlədildiyini və həmin iaşə müəssisəsinin icarəçisini oradan çıxara bilməyəcəyini bilsə belə, binanı satın almasına qadağa qoyulmur.

Məsələ 267. Müsəlman biznesmenlərin, sahibkarların işsizlikdən əziyyət çəkən müsəlmanlar olduğu halda qeyri-müsəlmanları işə götürməsinə şəriətin münasibəti necədir?

Cavab: Müsəlman olmayanları işə götürmək öz-özlüyündə qadağan olunmamışdır. Lakin din qardaşlığı və müsəlmanın müsəlman üzərindəki mənəvi haqqı hər hansı bir əngəl olmadıqca onu tərcih edərək başqalarından üstün tutmasını daha məqsədəuyğun edir.

Məsələ 268. Çılpaq (yaxud yarıçılpaq) şəkillərin yer verildiyi jurnalların, dərgilərin satıldığı yerlərdə işləmək, onların alqı-satqısını və çapını həyata keçirmək olarmı?

Cavab: Harama (günaha) rəvac vermək və əxlaqsızlığı yaymaq hesab olunduğundan bu fəaliyyətlərin heç birinə şəriət tərəfindən icazə verilmir.

---

[1] "İstinqaz" (qurtarma) - İslam şəriətində qeyi-müsəlmanların əmlakından mümkün olan hər hansı bir yolla, bu və ya digər bir təhlükəyə yol açmamaq şərtilə faydalanmaq deməkdir.

Məsələ 269. Qərb ölkələrində itlərin satışa çıxarıldığı xüsusi satış yerləri fəaliyyət göstərir. Yalnızlıqdan xilas olmaq və vaxtını şən keçirmək məqsədilə həmin itləri alıb saxlamaq olarmı?

Cavab: Şəriət buna icazə vermir.

Məsələ 270. Bəzi qərbli qadınların gəzinti əsnasında təhlükədən qorunmaq və əylənmək məqsədilə özləri ilə götürdükləri qoruyucu itləri satın alıb saxlamaq olarmı? Bəs həmin heyvanların ticarətinə və icarəsinə münasibət necədir?

Cavab: Həmin heyvanların alqı-satqısına icazə verilmir. Lakin belə itləri saxlayan şəxslərin onların üzərində mülkiyyət hüququ tanınır. Həmin heyvanların onlardan müəyyən ödəniş müqabilində satın alınmasına da məhdudiyyət qoyulmur və bu halda satın alan şəxs mülkiyyət hüququnu da əldə edir. Həmçinin, bu heyvanların halal yolla faydalanmaq (o cümlədən, təhlükədən qorunmaq) məqsədilə istifadəsi üçün icarəyə verilməsinə də heç bir məhdudiyyət qoyulmur.

Məsələ 271. Qərb ölkələrində xüsusi təlim görmüş itlər görmə qabiliyyətindən məhrum olan sahiblərinə yolu keçməkdə və s. yardım edirlər. Belə itlərin alqı-satqısı ilə məşğul olmağa icazə verilirmi?

Cavab: Bu suala da cavabımız öncəki sualın cavabı kimidir.

Məsələ 272. Qeyri-müsəlman ölkələrində bu və ya digər dövlət müəssisəsində çalışan müsəlman məmurların, yaxud hər hansı bir müəssisədə müqavilə əsasında işləyərək əmək haqqı saat hesabı ilə hesablanan müsəlman işçilərin iş saatları ərzində məqsədli şəkildə işdən yayınmasına, səhlənkarlıq və tənbəllik nümayiş etdirməsinə şəriətin baxışı necədir və belə hallarda onların məvaciblərini bütövlüklə almağa haqqı çatırmı?

Cavab: Bu yolverilməzdir və belə hallarda həmin şəxslərin məvaciblərinin hamısını almağa haqları çatmır.

Məsələ 273. Bəzi müsəlmanlar Qurani-Kərimin nəfis əlyazma nüsxələrini qeyri-müsəlmanlara yüksək qiymətə satmaqla gəlir əldə edirlər. Buna icazə verilirmi? Əgər Qurani-Kərimin kafirlərə satılması bu işə əngəl hesab edilərsə, bu əngəlin aradan qıldırılması üçün bir çıxış yolu varmı? Bəs icazə verildiyi halda çıxış yolu nədən ibarətdir?

Cavab: Müsəlman mədəni irsinin məhvi demək olduğundan bu işə heç bir vəchlə icazə vermirik.

Məsələ 274. Əlyazma nüsxələrin və İslam tarixinə aid əntiq əşyaların alqı-satqısı, Avropa ölkələrinə daşınaraq orada yüksək qiymətə satılmasına şəriət tərəfindən icazə verilirmi, yoxsa İslam mədəni irsinin məhvi kimi qəbul edilərək yasaqlanır?

Cavab: Öncəki sualın cavabında öz əksini tapan səbəblə əlaqədar olaraq bu qəbildən olan işlərə heç bir vəchlə icazə vermirik.

Məsələ 275. Bəzi gecələrdə barlar müştərilərlə dolur və onlar sərxoş olanadək içdikdən sonra həmin məkanlardan çıxaraq hazır yemək axtarırlar. Bir müsəlman bu vəziyyətdən istifadə edərək həmin barların yaxınlığında onlara və eləcə də digər insanlara halal yemək xidmətləri göstərən restoran aça bilərmi? Yeyəcəkləri həmin halal qidaların onların sərxoşluğunu bir qədər yüngülləşdirəcəyinə və s. müsbət cəhətlərə rəğmən bu iş günah hesab edilirmi?

Cavab: Bu iş üçün öz-özlüyündə heç bir məhdudiyyət qoyulmur.

Məsələ 276. Müsəlman donuz ətini onu halal hesab edən səmavi dinlərin ardıcıllarına sata bilərmi?

Cavab: Donuz ətinin alqı-satqısına heç bir vəchlə icazə verilmir.

Məsələ 277. İnsan bir gün baxılması haram olan hər hansı bir kadra, video materiala baxacağını bildiyi halda televizor alması doğrudurmu?

Cavab: Sağlam düşüncə belə bir vəziyyətdə onun televizor cihazı almamasını tələb edir.

Məsələ 278. Donuz ətinin satıldığı satış yerlərində işləməyə, habelə müsəlmanın öz işçilərinə müştərilərə donuz əti məhsulları satması ilə bağlı göstəriş verməsinə şəriətin münasibəti necədir?

Cavab: Donuz ətinin hətta onun yeyilməsini halal hesab edənlərə də satışına bilavasitə və ya başqalarının əli ilə həyata keçirilməsindən asılı olmayaraq icazə verilmir. Donuz ətinin qeyri-ticari məqsədlərlə (gəlir əldə etmədən) onu halal qəbul edənlərin istifadəsinə təqdim edilməsinin haramlığı il bağlı şübhələr mövcuddur. Lakin ehtiyat bundan da çəkinməyi tələb edir.

Məsələ 279. Fətvanıza əsasən, müsəlman şəxs qazanmaq və priz əldə etmək üçün deyil, xeyriyyə layihələrində iştirak etmək məqsədilə lotoreya oyunlarında iştirak edə bilər. Bəs qazanılacaq mükafatın bir qismini xeyriyyə qurumlarına bağışlamaq, digər bir qismini isə mükafat əldə etmək niyyətilə lotoreya bileti almaq olarmı?

Cavab: İcazə verilmir.

Məsələ 280. Həddi-buluğa çatmış bir müsəlman qalib olmaq niyyəti ilə oynamaq istədiyi lotoreyanın biletini azyaşlı uşağa, yaxud digər dinlərin ardıcıllarından birinə (yəhudi, yaxud xristiana) aldıra bilərmi?

Cavab: Bununla haramlıq hökmü qüvvədən düşmür. Bir işin icrasına sövq etmək, yaxud bir işin icrasını başqasına həvalə etmək onu bilavasitə icra etməklə eyni hökmü daşıyır.

Məsələ 281. Üstündə lotoreya biletlərinin də təqdim edildiyi bal məhsullarını lotoreya mükafatını əldə niyyətilə almaq olarmı?

Cavab: Verilən pul bütövlüklə bal üçün ödənilərsə, yəni bir qismi lotoreya bileti üçün nəzərdə tutulmuş olmazsa, halal hesab edilir.

Məsələ 282. Bir müsəlman lotoreya yarışında qalib olmuş və qazandıqdan sonra mükafatın bir qismini xeyriyyə işlərində xərcləməyi qərara almışdır. Bu niyyətini nəzərə alaraq həmin mükafatı əldə edərək müsəlmanlar üçün faydalı olan işlərə sərf edə bilərmi? Bəs qalibin mükafatı qazanmamışdan öncəki niyyəti onun hamısını deyil, bir qismini müsəlmanların mənafeyinə uyğun faydalı işlərdə xərcləmək olduğu təqdirdə hökm dəyişirmi?

Cavab: Əgər həmin mükafat tamamilə “möhtərəm əl-mal”[1] hesab olunmayan insanların pullarından yığılmış olarsa, onu mənimsəyərək xərcləmək olar.

Məsələ 283. Müsəlman lotoreya oyunundan əldə etdiyi qazancla həcc ziyarətinə gedərsə, həcci doğru hesab olunurmu?

Cavab: Öncəki sualın cavabına müraciət edin.

[1] İslam şəriətində əmlakı toxunulmaz hesab edilən şəxs.

Məsələ 284. Qəsbkar və zalım (başqalarının haqqını haqsızlıqla mənimsəyən) bir şəxs müsəlmanın həcc ziyarəti xərclərini ödəyərsə, onun həcci doğru sayılırmı?

Cavab: Məhz həcc ziyarəti üçün ödənilən vəsaitin qəsb olunmuş (zorla, haqsızlıqla əldə olunmuş, haram) pul olduğu məlum olmazsa, həmin şəxsin zalım və qəsbkar olması həccin doğruluğuna xələl gətirmir.

Məsələ 285. Avropa ölkələrində məişət avadanlıqlarının satışı ilə məşğul olan bəzi satış mərkəzləri müştərilərə aldıqları tarixdən etibarən iki həftə ərzində aldıqları məhsulları geri qaytarmağa icazə verirlər. Sözügedən satış mərkəzlərindən almaq məqsədilə deyil, həmin müddət ərzində istifadə etmək məqsədilə bu və ya digər avadanlığı alaraq iki həftədən sonra qaytarmaq olarmı? Beləliklə, bu halda müştərinin niyyəti gerçək ticarət deyil, həmin haqdan faydalanmaq olur. Bəs satşı mərkəzinin sahibi müsəlman olduğu halda hökm dəyişirmi? Ümumiyyətlə, belə bir addım doğru hesab edilə bilərsə, buna hansı əsasla icazə verilir?

Cavab: Satış mərkəzinin sahibi müsəlman olarsa, heç bir vəchlə icazə verilmir. Müsəlman olmadığı halda isə ticarət deyil, bu və ya digər zərər və təhlükə ilə qarşılaşmayacağına əmin olduğu halda istinqaz niyyəti ilə bu addımı atmaq olar.

Məsələ 286. Bir müsəlman müştərilərinə spirtli içkilər də təqdim edən restoranda bilavasitə şərab servisi bölümündə deyil, qabyuma bölümündə işləyə bilərmi?

Cavab: Şərab qədəhlərinin yuyulması həmin iaşə müəssisələrində şərab içilməsinə rəvac verən bir iş hesab olunduğu halda şəriət tərəfindən haram sayılır.

Məsələ 287. Öz dininə bağlı olan və onun yayılmasına çalışan bir müsəlman qərb ölkələrində hər hansı bir dövlət müəssisəsində işləyərək bəzi günahları işləmək məcburiyyəti qarşısında qalarsa və onun məqsədi gələcəkdə karyera yüksəlişi nəticəsində daha önəmli bir yerə gələrək dininə həmin günahları kölgədə qoyacaq qədər ciddi xidmətlər göstərmək olarsa, belə bir yerdə işləməsinə icazə verilirmi?

Cavab: Sadəcə gələcəyə bağlı (reallaşacağı bəlli olmayan) hər hansı ümidləri əldə əsas tutaraq günaha yol vermək yolverilməzdir.

Məsələ 288. Müsəlman hüquqşünasa qeyri-müsəlman ölkələrində vəkillik fəaliyyəti məşğul olaraq həmin ölkələrin qanunvericiliyi çərçivəsində sadəcə iş qazanmaq məqsədilə müsəlman olmayan insanların müdafiəsini həyata keçirməyə icazə verilirmi?

Cavab: Hüquq pozuntusu, yalan iddia və ittiham kimi şəriət tərəfindən haram edilən hallara yol verilmədiyi halda məhdudiyyət qoyulmur.

Məsələ 289. Müsəlman hüquqşünasın qeyri-müsəlman ölkəsində həmin dövlətin qanunvericiliyi çərçivəsində hakimlik fəaliyyəti ilə məşğul olmasına icazə verilirmi?

Cavab: Hakimlik ləyaqəti olmayan şəxslərin hakimliklə məşğul olmasına, eləcə də ədalət mühakiməsinin İslam qanunvericiliyindən başqa qanunlar çərçivəsində həyata keçirilməsinə şəriət tərəfindən icazə verilmir.

Məsələ 290. Avropa ölkələrində yaşayan bir müsəlman mühəndis-elektrik mikrofon və s. səs apparaturasının çalışdırılması və təmiri üçün müxəlif yerlərə çağırılır. Həmin yerlərdən bəziləri isə haram əyləncə məkanları olur. O, həmin məkanlarda yeni apparatura və cihazları quraşdıra, yaxud təmir edə bilərmi? Nəzərə almaq lazımdır ki, bir-iki dəfə belə bir işdən imtina etdiyi halda o, müştərilərini və peşəsini itirə bilər.

Cavab: İcazə verilir.

Məsələ 291. Bir şəxs bu və ya digər restoranda ofisiant işləyərək müsəlman olmayan müştərilərə bəzən halal olmayan ət məhsullarından, bəzən isə donuz ətindən hazırlanan yeməklər təqdim edir. Birinci vəziyyət (qeyri-halal ət məhsulları) ilə bağlı fətvanız məlumdur. Sualımız ikinci vəziyyətlə bağlıdır. Haram sayılan ətlə yanaşı tərkibində donuz əti olan yeməklərin qeyri-müsəlman müştərilərə təqdim olunmasına necə baxırsınız? Nəzərə almaq lazımdır ki, ofisiant bundan imtina edəcəyi halda işdən azad ediləcəkdir.

Cavab: Donuz ətinin hətta onu halal bilənlərə belə təqdim edilməsinin halallığı şübhəlidir və ehtiyata əsasən bu işdən çəkinmək lazımdır.

Məsələ 292. Müsəlman şəxs spirtli içkilərin də satıldığı alış-veriş mərkəzlərində kassir işləyə bilərmi? Nəzərə almaq lazımdır ki, o satıcı deyil və işi yalnız ödənişləri qəbul etməkdən ibarətdir.

Cavab: Həm satıcı, həm də alıcı qeyri-müsəlman olduğu halda orada işləyə və halal məhsullar kimi spirtli içkilərin də ödənişini qəbul edə bilər.

Məsələ 293. Qərb ölkələrində mətbəə sahibi olan bir şəxs hansısa bir restoranın aralarında donuz ətindən hazırlanan yeməklərin də olduğu yeməklər siyahısını dərc edə bilərmi? Həmçinin, mətbəə xidmətləri ilə məşğul olan müsəlman şəxs şərab satışını, yaxud digər günahları həyata keçirən müəssisə və fiziki şəxslər üçün reklam lövhələrini çap edə bilərmi? Nəzərə almaq lazımdır ki, həmin şəxs bu qəbildən olan sifarişlərdən imtina etməyin onun işinə mənfi təsir edəcəyini iddia edir.

Cavab: Hətta biznesinə mənfi təsir edəcəyi halda da şəriət tərəfindən buna icazə verilmir.

## BEŞİNCİ FƏSİL
## İCTİMAİ ƏLAQƏLƏR VƏ SOSİAL MÜNASİBƏTLƏR

Hər bir cəmiyyətin özünəməxsus bir ictimai mühiti, adət-ənənələri və dəyərləri vardır. Bu baxımdan müsəlmanların mühacirət etdiyi ölkələrdəki ictimai mühitin, adət-ənənələrin və dəyərlərin müsəlman cəmiyyətlərində mövcud olan ictimai mühit və dəyərlərdən fərqlənməsi təbii bir haldır və mühacirət həyatı yaşayan müsəlmanları davamlı olaraq orada nələrin şəriət tərəfindən məqbul hesab edilib, nələrin edilmədiyi sualı ilə qarşı-qarşıya qoyur. Çünki o yeni qatıldığı, doğulub boya-başa çatdığı doğma cəmiyyətindəki ictimai dəyərlərdən fərqlənən dəyərlərin hökm sördüyü bir cəmiyyətdə yaşamalı olacağını anlayır. Digər tərəfdən isə belə fərqli mühitlərdə yaşam müsəlman cəmiyyətindən oraya mühacirət edənləri özlərinin, ailələrinin və gələcək nəsillərinin assimilyasiyaya məruz qalmasına qarşı müqavimət zərurəti ilə üz-üzə qoyur ki, bu da öz növbəsində onlardan özlərini və övladlarını həmin mühitlərin mənfi təsirlərindən qorumaq üçün səylərini artırmalarını tələb edir.

Bütün bunları nəzərə alaraq mövzü ilə əlaqədar bir sıra şəriət hökmlərini xatırlatmağı məqsədəuyğun hesab edirik:

Məsələ 294. Qohumlarla sıx əlaqə saxlamaq müsəlmana vacib, qohumluq əlaqələrini kəsmək isə böyük günahdır. Beləliklə, sözügedən əlaqələrin qurulması və qorunub-saxlanılmasının vacib, bu əlaqələrə son verilməsinin isə Allahın (c.c.) cəhənnəm odu ilə cəzalandıracağını vəd etdiyi böyük günahlardan olduğu nəzərə alındıqda bu münasibətlərin önəminin qürbətdə daha da artdığı, qardaşların (dindaşların) daha az yaşadığı, ailələrin bir-birindən ayrı düşdüyü, mənəvi dəyərlərin arxa plana keçdiyi və maddi dəyərlərin (dünyəvi qayğıların) ön plana çıxdığı ölkələrdə sosial məsələlərdə prioritet kəsb etməli olduğu aydınlaşır.

Uca Allah da qohumlarla əlaqələrin kəsilməsini qadağan edərək dəyərli kitabında buyurur: ***"Əgər (Muhəmməd əleyhissəlamdan) üz döndərsəniz, sizdən yer üzündə fitnə-fəsad törətmək və (Cahiliyyət dövründə olduğu kimi) qoumluq tellərini qırmaq gözlənilməzmi?! Onlar (münafiqlər, fitnə-fəsad törədənlər) Allahın lənət elədiyi (qulaqlarını) kar və gözlərini kor etdiyi kimsələrdir!"***[1]

İmam Əli (ə) isə belə buyurur: "Bəzən bir ailənin üzvləri mənəviyyatdan yoxsul insanlar olsalar da, bir arada yaşadıqlarına, bir-birlərinə qarşı xeyirxah olduqlarına görə uca Allah onlara ruzi bəxş edir. Başqa bir ailənin üzvləri isə təqvalı olmağa çalışsalar da, bir-birlərindən uzaqlaşdıqlarına, əlaqələrini kəsdiklərinə görə Allah (c.c.) ruzisini onlardan əsirgəyir".[2]

İmam Baqirdən (ə) nəql olunan bir hədisdə isə belə oxuyuruq: "Əlinin (ə) kitabında göstərilmişdir ki, üç xislətə sahib olan şəxslər onların nəticəsini görməyincə dünyadan köçməyəcəklər: zülm (haqsızlıq), qohumlarla əlaqəni kəsmək və yalan and (şahidlik). Belə şəxslər sanki Allahla mübarizəyə qalxmışlar. İbadətlər arasında ən tez mükafatlandırılanı qohumlarla sıx əlaqələrin bərpasıdır. Bəzən mənəviyyatdan yoxsul insanlar belə bir-biri ilə sıx və səmimi əlaqələr

---

[1] Muhəmməd surəsi, 22-23-cü ayələr.

[2] Usul əl-kafi, c.2, səh.348.

qurduqlarına görə zəngin insanlara çevrilirlər. Yalan andlar və əlaqələrin kəsilməsi isə məmləkətləri sakinsiz xarabalığa çevirir”.[1]

Məsələ 295. Qohumlarla əlaqəni kəsmək haramdır, hətta həmin qohum özü daha öncə münasibətlərə son versə də, namaz qılmasa da, şərab içsə də, hicab kimi İslamın bəzi hökmlərinə qarşı laqeydlik nümayiş etdirsə də, hətta xeyirxahcasına nəsihət və tənbeh cəhdləri belə ona təsir etməsə də. Yalnız bu şərtlə ki, onunla münasibətlərin bərpası haram (qəbahətli və günah) işlərinə dəstək və təşviq xarakteri daşımamalıdır.

Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) buyurur: “Ən üstün fəzilətlər (ali mənəvi keyfiyyətlər) insanın onunla əlaqəsini kəsən qohumu ilə əlaqə saxlaması, onu məhrum edən şəxsdən əlindəkini əsirgəməməsi və ona qarşı haqsızlıq edəni bağışlamasıdır”.[2]

Başqa bir hədisdə isə belə buyurduğunu oxuyuruq: “Qohumlarınla əlaqəni kəsmə, hətta onlar sənin münasibətlərinə son versələr də”.[3]

Məsələ 296. Müsəlmanın qohumlarla sıx əlaqələrin bərpası üçün görə biləcəyi ən sadə iş onlarla imkan daxilində görüşmək, onları ziyarət etmək, yaxud uzaqdan da olsa belə hal-əhval tutmaq, vəziyyətlərindən xəbərdar olmaqdır.

Əziz peyğəmbərimiz (s) buyurur: “Mükafatı ən tez verilən xeyirli əməl qohumlarla əlaqə saxlamaqdır”.[4]

Möminlərin əmiri (ə) isə buyurur: “Qohumlarınızla heç olmazsa salamlaşmaqla (hal-əhval tutmaqla) əlaqə saxlayın. Uca Allah: ***“... (Adı ilə) bir-birinizdən (cürbəcür şeylər) istədiyiniz Allahdan, həmçinin qohumluq əlaqələrini***

[1] Usul əl-kafi, c.2, səh.347.

[2] Cami əs-səadat, c.2, səh.260.

[3] Usul əl-kafi, c.2, səh.347; həmçinin, bax: Mən la yəhzəruhu-l-fəqih, c.4, səh.267.

[4] Usul əl-kafi, c.2, səh.152.

***kəsməkdən həzər edin! Şübhəsiz ki, Allah sizin üzərinizdə gözətçidir!”***[1] – deyə buyurmuşdur”.[2]

İmam Sadiqdən (ə) nəql olunan hədisdə isə belə oxuyuruq: “Qohumlarla əlaqə saxlamaq və xeyirxah işlər sorğu-sualı (qiyamət gününün sınağını) asanlaşdırır və insanı günahlardan qoruyur. Ona görə də qohumlarınızla əlaqə saxlayın və qardaşlarınıza (dindaşlarınıza) qarşı xeyirxahlıq göstərin, hətta səmimi bir salamla, yaxud salama verilən cavabla olsa belə”.[3]

Məsələ 297. Qan bağı olan insanlarla əlaqəni kəsməyin ən xoşagəlməz halı uca Allahın barələrində xeyirxahlıqla davranmağı əmr etdiyi valideynlərin üzünə ağ olmaqdır. Ən dəyərli kəlamın sahibi buyurur: ***“Rəbbin yalnız Ona ibadət etməyi və valideynlərə yaxşılıq etməyi (onlara yaxşı baxıb gözəl davranmağı) buyurmuşdur. Əgər onların biri və ya hər ikisi səin yanında (yaşayıb) qocalığın ən düşkün çağına yetərsə, onlara: “Uf!” – belə demə, üstlərinə qışqırıb acı söz söyləmə. Onlarla xoş danış!”***[4]

İmam (ə) buyurur: “Valideynin üzünə ağ olmağın ən yüngül örnəyi onlara “uf!” deməkdir (nəsihətlərini dinləməkdən, yaxud onlara qulluq etməkdən bezdiyini izhar etməkdir). Əgər Allah (c.c.) bundan daha yüngül bir hal tanısaydı, ondan da çəkindirərdi”.[5]

İmam Baqir (ə) belə nəql edir: “Bir dəfə atam birlikdə hərəkət edən ata ilə oğul görmüş, oğulun atasına söykəndiyini müşahidə etdikdə ona necə acığı tutmuşdusa, ömrünün sonunadək həmin adamla söhbət etməmişdi”.[6]

---

[1] Nisa surəsi, 1-ci ayə.

[2] Usul əl-kafi, c.2, səh.155.

[3] Usul əl-kafi, c.2, səh.157.

[4] İsra surəsi, 23-cü ayə.

[5] Usul əl-kafi, c.2, 348.

[6] Usul əl-kafi, c.2, 349.

İmam Sadiq (ə) isə belə buyurur: “Kim valideynlərinə qəzəbli baxışlarla baxarsa, hətta ona qarşı haqsızlıq etmiş olsalar belə, Allah onun (övladın) namazını qəbul etməz”. Bu mövzu ilə bağlı hədislər saysız-hesabsızdır.[1]

Məsələ 298. Valideynlərə qarşı xeyirxahlıq isə insanı Allaha yaxınlaşdıran ən dəyərli əməllərdəndir. Ən ali kəlamın sahibi (c.c.) buyurur: ***“Onların hər ikisinə acıyaraq mərhəmət qanadının altına alıb: “Ey Rəbbim! Onlar məni körpəliyimdən (nəvazişlə) tərbiyə edib bəslədikləri kimi, Sən də onlara rəhm et!” – de”.***[2]

İbrahim ibn Şüeyb adlı bir müasiri nəql edir ki, bir gün İmam Sadiqə (ə) dedim: “Atam qocalaraq tamamilə əldən-ayaqdan düşüb, ayaq yoluna belə onu biz çiynimizdə aparırıq”. Həzrət (ə) buyurdu: “Gücün yetdikcə bundan (ona qulluq etməkdən) imtina etmə və onu öz əllərinlə yedizdir. Çünki bu əməlin sabah sənin üçün bəlalar, əzablar qarşısında qalxana çevriləcəkdir”.[3]

Bəzi hədisi-şəriflərdə övlad-ana münasibətlərinin övlad-ata münasibətlərindən daha önəmli olduğu vurğulanmışdır. O cümlədən, İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq ki, bir səhabəsi Allahın elçisinin (s) yanına gələrək kimə yaxşılıq etməli olduğunu soruşur. Peyğəmbər (s): “Anana” – deyə cavab verir. Həmin şəxs: “Sonra kimə?” – deyə soruşur, Allahın elçisi (s) isə öz növbəsində cavabını bir daha təkrarlayır. Səhabə üçüncü dəfə eyni sualla müraciət etdikdə sevimli Peyğəmbərimiz (s) yenə də: “Anana” – deyə cavab verir. “Daha sonra kimə?” – sualını bir daha təkrarlayan səhabəyə Allahın elçisi (s) yalnız dördüncü dəfə: “Atana” – cavabını verir”.[4]

Məsələ 299. Bəzi hədislərdə göstərilir ki, böyük qardaş kiçik qardaş(lar)ına qarşı bir sıra məsuliyyətləri daşıyır. O, kiçik qardaşını qorumalı, ona qarşı qayğıkeş olmalıdır ki, ailə daxilində birlik, bərabərlik, sevgi münasibətləri möhkəmlənsin,

---

[1] Usul əl-kafi, c.2, 349.

[2] İsra surəsi, 24-cü ayə.

[3] Usul əl-kafi, c.2, 162.

[4] Usul əl-kafi, c.2, 160.

qarşıya çıxan müstəsna hallarda bağlılıq münasibətlərinin qorunub-saxlanması təmin edilsin. Həzrət Məhəmməd (s) buyurur: “Böyük qardaşın kiçik qardaş üzərindəki haqları atanın övladları üzərindəki haqlarına bərabərdir”.[1]

Məsələ 300. Uşağın vəlisindən (valideynindən, yaxud qəyyumundan) və ya onun izin verdiyi şəxsdən başqa kimsənin haram bir iş gördükdə, yaxud başqalarına zərər verdikdə tərbiyələndirmək məqsədilə onu vurmağa haqqı yoxdur. Yalnız azyaşlıların vəlilərinə, yaxud onların izin verdiyi şəxslərə və yalnız tərbiyələndirmək (xoşagəlməz hərəkətlərdən çəkindirmək) üçün başqa bir yol qalmadıqda tərbiyə tədbiri olaraq onları üç dəfədən artıq olmamaq şərtilə yüngülcə, dərisini qızartmayacaq şəkildə vurmağa icazə verilir. Gənc (yaşca böyük) qardaşa da azyaşlı (özündən kiçik) qardaşını onun vəlisi olduğu, yaxud vəlisinin izni əsasında hərəkət etdiyi hal istisna olmaqla tərbiyə tədbiri olaraq vurmağa icazə verilmir. Məktəblərdə müəllimlərin də vəlilərinin, yaxud onların təyin etdiyi şəxslərin icazəsi olmadan azyaşlı şagirdləri vurması qətiyyən yolverilməzdir.

Məsələ 301. Vacib ehtiyata əsasən, həddi-büluğa çatmış insanı vurmaq (tərbiyə tədbiri adı ilə) ümumiyyətlə yolverilməzdir.

Məsələ 302. Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) bizi qocalara, yaşlılara hörmət bəsləməyə çağıraraq buyurmuşdur: “Kim bir ağsaqqal qocanın dəyərini bilərək ona yaşına (həyat təcrübələrinə) görə hörmət bəsləyərsə, Allah (c.c.) onu qiyamət gününün qorxulu sıxıntılarından uzaq tutar”.[2] Başqa bir hədisində isə buyurmuşdur: “Uca Allaha sayğının örnəklərindən biri də ağsaqqal möminlərə hörmət bəsləməkdir”.[3]

Məsələ 303. İslam peyğəmbəri (s) və onun Əhli-beytindən (ə) nəql olunan çoxsaylı hədisi-şəriflərdə möminləri bir-birini ziyarət etməyə, mehriban dostluq münasibətləri qurmağa, bir-birinin qəlbini sevindirməyə, ehtiyaclarının aradan qaldırılması istiqamətində çalışmağa, xəstələrə baş çəkməyə, cənazələrin dəfnində

[1] Cami əs-səadat, c.2, səh.267.

[2] Şeyx Səduq, Səvab əl-əmal və iqab əl-əmal, 225.

[3] Şeyx Səduq, Səvab əl-əmal və iqab əl-əmal, 225.

iştirak etməyə, həm yaxşı, həm də pis günlərdə bir-birinin yanında olmağa çağıran təkidli tövsiyələrə rast gəlirik. O cümlədən, İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: "Kim Allah yolunda (onun rizasını qazanmaq niyyətilə) qardaşını (dindaşını) ziyarət edərsə, Allah (c.c.) buyurar: "Sən sanki məni ziyarət etdin və mükafatını da mən verəcəyəm. Səni (bu əməlini) cənnətdən başqa bir mükafatla dəyərləndirməyə razı olmaram!"[1] Müasirlərindən olan Xeysəməyə buyurduğu hədisində isə belə oxuyuruq: "Bizim dostlarımıza salam söylə və onları uca Allahın təqvalı bəndələri olmağa, zənginlərini yoxsullarına, güclülərini zəiflərinə qarşı qayğıkeş olmağa, sağ qalanlarını dünyadan köçənlərinin dəfnində iştirak etməyə, bir-birlərini evlərində ziyarət etməyə çağır".[2]

Məsələ 304. Qonşuluq haqları da demək olar ki, qohumluq haqlarına bərabərdir və bu haqlar xüsusunda müsəlman qonşu ilə qeyri-müsəlman qonşu arasında fərq qoyulmamalıdır. Allahın elçisi (s) də müsəlman olmayan qonşular haqqında da bu haqları (mənəvi məsuliyyətləri) təsdiqləmiş, önəmini vurğulamışdır: "Qonşular üç qismə bölünür. Onlardan bir qismi (qohum qonşular *tərc.*) sizin üzərinizdə üç növ haqq sahibidir – müsəlmanlıq (dindaşlıq), qonşuluq və qohumluq haqqı. İkinci qismi iki (qohum olmayan müsəlman qonşular *tərc.*) iki növ haqqa sahibdir – müsəlmanlıq və qonşuluq haqqı. Üçüncü qisim qonşuların, yəni kafirlərin isə üzərinizdə yalnız bir növ haqqı – qonşuluq haqqı vardır".[3] Sevimli peyğəmbərimiz (s) həmçinin, buyurur: "Qonşularınla xoş (mehriban) münasibətdə ol ki, mömin sayılasan".[4]

Həzrət Əli (ə) də İbn Mülcəm tərəfindən sui-qəsdə məruz qaldıqdan sonra xəstə yatağında İmam Həsən (ə) və İmam Hüseynə (ə) vəsiyyətində qonşuluq haqlarını xatırladaraq buyurmuşdu: "Sizi and verirəm Allaha! Sizi and verirəm Allaha! Qonşularınızı unutmayın, bu peyğəmbərinizin (s) vəsiyyətidir. O, qonşular

---

[1] Usul əl-kafi, c.2, səh.176.

[2] Usul əl-kafi, c.2, səh.176.

[3] Müstədrək əl-vəsail, Kitab əl-həcc, 72-ci bab.

[4] Cami əs-səadat, c.2, səh.267; Usul əl-kafi, c.2, səh.666.

barədə bizə o qədər önəmli tövsiyələr edərdi ki, onlara varislik haqqı da tanıyacağını zənn edərdik”.[1]

İmam Sadiq (ə) isə buyurur: “Qonşusunu incidən lənətlənmişlərin lənətlənmişidir!”[2] Həmçinin, buyurur: “Qonşusu ilə mehriban qonşuluq münasibəti saxlamayan bizdən deyil”.[3]

Məsələ 305. Əməlisaleh möminlərin özəlliklərindən biri də uca Allahın öz dəyərli kitabında ***“Şübhəsiz ki, sən böyük bir əxlaq üzərindəsən!”***[4] sözləri ilə vəsf etdiyi sevimli peyğəmbərimiz Həzrət Məhəmmədi (s) özünə örnək götürərək ali əxlaqi keyfiyyətlərə yiyələnməyə çalışmaqdır. Allahın elçisi (s) özü isə buyurur: “Qiyamət günü əməl tərəzisinə gözəl əxlaqdan daha dəyərli bir çəki daşı qoyulmayacaqdır”. [5] Başqa bir hədisində isə “imanda ən üstün möminlər kimlərdir?” – deyə soruşulduqda belə buyurduğunu oxuyuruq: “Ən gözəl (ali) əxlaq sahibi olanlarınız”.[6]

Məsələ 306. O cümlədən, əməlisaleh möminlərin xislətlərindən biri də sözdə və əməldə dürüstlük və vədə sadiqlikdir. Allah (c.c.) peyğəmbərlərindən olan İsmaili (ə) təqdir edərkən buyurur: ***“O öz vədinə sadiq və (Bizim tərəfimizdən öz ümmətinə göndərilmiş) bir elçi, bir peyğəmbər idi”.***[7] Sevimli peyğəmbərimiz (s) buyurur: “Kim Allaha və axirət gününə inanırsa, vəd verdikdə vədinə əhdinə vəfa etsin”.[8]

Müsəlman olmayan insanların böyük əksəriyyətinin İslam barəsində mühakimələrinin müsəlmanların davranışlarına əsaslandığını anladıqda dürüstlük

---

[1] Nəhc əl-bəlağə, Sübhi Salehin redaktəsi ilə, səh.422.

[2] Müstədrək əl-vəsail, 172-ci bab.

[3] Cami əs-səadat, c.2, səh.268.

[4] Qələm surəsi, 4-cü ayə.

[5] Cami əs-səadat, c.1, səh.443.

[6] Cami əs-səadat, c.2, səh.268; Usul əl-kafi, c.2, səh.99; Vəsail əş-şiə, c.15, səh.198.

[7] Məryəm surəsi, 54-cü ayə.

[8] Usul əl-kafi,c.2, səh.363.

və vədə sadiqlik xislətlərinin önəmi daha da aydınlaşır. Belə ki, bir müsəlmanın öz dinini xoş əxlaqı ilə qeyri-müsəlmanlara gözəl təqdim etdiyi hallara da, əksinə xoşagəlməz xasiyyət və davranışları ilə mənfi şəkildə təqdim etdiyi hallara da sıx-sıx rast gəlirik.

Məsələ 307. Əməlisaleh həyat yoldaşının başlıca xüsusiyyətlərindən biri də öz həyat yoldaşını incitməməsi, onunla pis davranmaması, onu özündən uzaqlaşdırmamasıdır. Allahın elçisi (s) buyurmuşdu: "Hansı qadın həyat yoldaşını incidərsə, onun könlünü alaraq razılığını qazanmadıqca hətta hər gün oruc tutub, bütün gecələrini ibadətlə keçirsə, Allah yolunda saysız-hesabsız kölə azad edərək böyük bir sərvət xərcləsə belə, Allah (c.c.) onun namazını və heç bir yaxşı əməlini qəbul etməz və o, cəhənnəmə daxil olan ilk şəxs olacaqdır". Sonra sözlərinə belə əlavə etmişdi: "Haqsızlıqla həyat yoldaşını incidən kişini də belə bir aqibət və cəza gözləyir".[1]

Məsələ 308. Hər bir müsəlman müsəlman olmayanlar insanlarla tanış ola və dostluq əlaqələri qura bilər. Onların arasında səmimi münasibətlərin, dünyəvi problemlərinin həllində yardımlaşma və əməkdaşlığın olmasının heç bir zəzəri yoxdur. Uca Allah Qurani-Kərimdə buyurur: ***"Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!"***[2]

Belə sədaqətli dostluqlar yetərincə öz bəhrəsini verərsə, müsəlman olmayan dostlarımızın, qonşularımızın, iş yoldaşlarımızın İslam dəyərləri və təlimləri ilə tanış olmasını, haqq dininə daha da yaxınlaşmasını təmin edə bilər. Sevimli peyğəmbərimiz (s) Həzrət Əliyə (s) tövsiyələrindən birində buyurur: "Allahın öz bəndələrindən birini sənin əlinlə doğru yola yönəltməsi məşriqdən məğribədək günəşin üzərinə nur saçdığı bütün varlıqların sənin ixtiyarına verilməsindən daha xeyirlidir".[3]

---

[1] Vəsail əş-şiə, c.20, səh.82; Qonahan-e kəbire, c.2, səh.296-297.

[2] Mümtəhinə surəsi, 8-ci ayə.

[3] Müstədrək əl-vəsail, c.12, səh.241.

Məsələ 309. Yəhudi və xristianlar kimi kitab əhlini, eləcə də kitab əhli olmayan kafirləri bayram günlərində, o cümlədən miladi təqvimlə yeni ilin başlanması, Həzrət İsanın miladı və pasxa bayramları münasibətilə təbrik etmək olar.

Məsələ 310. Mərufa əmr (yaxşılığa çağırış) və münkərdən nəhy (qəbahətli, günah işlərdən çəkindirmə) şərtləri çərçivəsində bütün kişi və qadın möminlərə vacib olan iki ibadətdir. Allah (sübhanəhu və təala) uca kitabında buyurur: ***"Ey müsəlmanlar!) İçərinizdə (insanları) yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar (bu camaat), həqiqətən nicat tapmış kimsələrdir".*** [1] Qurani-Məcidin başqa bir ayəsində isə oxuyuruq: ***"Mömin kişilərlə mömin qadınlar bir-birinə dostdurlar (hayandırlar). Onlar (insanlara) yaxşı işlər görməyi əmr edər, pis işləri yasaq edər..."*** [2]

Sevimli peyğəmbərimiz Həzrət Məhəmməd (s) buyurur: "Ümmətim (bir-birlərini) yaxşı işlər görməyi əmr etdikcə, pis işləri yasaq etdikcə və xeyirli işlərdə yardımlaşdıqca xeyir içində olarlar. Bu işlərdən imtina etdikdə isə xeyir-bərəkət onlardan uzaqlaşar, bir-birlərinə qənim kəsilərlər və nə yer üzündə, nə də göydə onlara bir yardım edən tapılmaz".[3] Həmçinin, İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə də oxuyuruq ki, bir gün Allahın elçisi (s) səhabələrinə buyurur: "Qadınlarınızın mənəviyyatsızlaşdığı, gənclərinizin günah girdabında boğulduğu halda bir-birinizə yaxşı işlər görməyi əmr etmədiyiniz, pis əməlləri qadağan etmədiyiniz zaman halınız necə olacaq?!" Səhabələri soruşurlar: "Ey Allahın elçisi! Belə bir hal ilə qarşılaşacağıqmı?" Peyğəmbər (s) buyurur: "Bəli, hətta bundan daha acınacaqlı bir vəziyyətlə üzləşəcəksiniz. Bir-birinizi pis əməllərə sövq edib, xeyirli işlərdən çəkindirdiyiniz bir dövr gəldikdə halınız necə olacaq?!" Səhabələri: "Bu vəziyyətlə də üzləşəcəyikmi, ey Allahın elçisi?" – deyə soruşduqda isə buyurur: "Şübhəsiz! Hətta bundan da pis bir durumla üz-üzə

[1] Ali-İmran surəsi, 104-cü ayə.

[2] Tövbə surəsi, 71-ci ayə.

[3] Vəsail əş-şiə, c.16, səh.396.

qalacaqsınız. Yaxşı işləri pis əməllər, pis əməlləri isə xeyirli işlər hesab edəcəyiniz gün halınız necə olacaq?!”[1]

Yaxşı işlərdən uzaqlaşan, pis işlərə meyl edən insanın öz ailə üzvləindən biri olduqda bu iki vacib vəzifə daha ciddi önəm kəsb edir. Bəzən insan ailə üzvlərindən birinin vacib əməllərin icrasında nöqsanlara yol verdiyini, düzgün qaydada dəstəmaz, təyəmmüm, yaxud qüsl almadığını, bədənini, yaxud libaslarını düzgün təmizləmədiyini, namazda surələri, yaxud vacib zikrləri düzgün oxumadığını, əmlakından, gəlirindən xüms və zəkat verməli olduğu halda dini rüsumlarını ödəmədiyini görür. Bəzən isə onlardan birinin bir sıra günahlara bulaşdığına, məsələn, istimna (onanizm, masturbasiya) ilə məşğul olduğuna, qumar oynadığına, haram musiqilərə qulaq asdığına, şərab içdiyinə, yeyilməsi haram olan ət məhsulları ilə qidalandığına, qul haqqı yediyinə, xəyanatkarlıq, yaxud oğurluq etməsi hallarına şahid olur. Bəzən isə ailəsinin qadın üzvlərindən birinin hicab geyinmədiyini, saçını lazımı qaydada örtmədiyini, yaxud qüsl və dəstəmaz alarkən dırnaqlarındakı boyanı təmizləmədiyini və ya ərindən başqası üçün ətirləndiyini, bir evdə yaşamaq kimi əsassız bəhanələrlə əmisi, dayısı, xalası, bibisi oğlanlarının, qaynının, yaxud ərinin dostlarının yanında hicaba riayət etmədiyini görür. Bəzi hallarda isə ailə üzvləri arasında yalan danışan, qeybət edən, başqasına qarşı haqsızlıq edən, israfçılığa yol verən, zalımlara yardım edən və qonşularını narahat edən insanlar tapılır və s.

Belə hallarla üzləşdikdə onları yaxşı işlərə sövq etmək, pis əməllərdən çəkindirmək, bu məqsədlə öncə birinci (hiss və jestlərlə pis əməllərə xoşagəlməz reaksiyanın ifadəsi) və ardınca ikinci mərhələdən (sözügedən reaksiyanın sözlərlə ifadəsi) başlamaq, yalnız bu mərhələlər fayda vermədikdə üçüncü mərhələyə baş vuraraq şəriət hakiminin izni ilə yüngüldən ağıra doğru əməli tədbirləri həyata keçirilmək lazımdır.[2] Sözügedən şəxs, şəriətin hər hansı bir məsələ ilə bağlı

[1] Vəsail əş-şiə, c.16, səh.122.

[2] əl-Fətava əl-müyəssərə, səh.268-275.

hökmünü bilmədiyi halda isə vacibdir ki, bu hökm ona öyrədilsin və həmin hökmün icrasına təşviq edilsin.

Məsələ 311. Bütün insanlara qarşı tolerantlıq haqq dinimizin təkidlə tövsiyə etdiyi təqdirəlayiq məqamlardandır. Allahın elçisi (s) buyurur: "Rəbbim mənə fərizələrini (vacib ibadət və göstərişlərini) icra etməyi əmr etdiyi kimi, bütün insanlarla mülayim (tolerant münasibətlər əsasında) davranmağı əmr etmişdir". Başqa bir hədisində isə buyurur: "Üç xislət vardır ki, onlar olmadan kimsənin əməli kamil sayılmaz: insanı Allaha qarşı üsyankarlıqdan (günahlardan) qoruyan təqva, insanlarla mülayim davranışı təmin edən əxlaq və nadanın cahilliyindən qorunmağa yardım edən həlimlik".[1]

Tolerantlıq yalnız müsəlmanlar arasındakı münasibətlərlə məhdudlaşmayaraq, müsəlman olmayanlara qarşı davranışı da əhatə edir. Belə nəql olunur ki, Əmirəlmöminin Əli (ə) Kufə yolunda müsəlman olmayan bir şəxslə yol yoldaşı olur və yol ayırıcna çatdıqda həmin şəxs ondan ayrılaraq öz yoluna davam etmək istəyərkən Əli (ə) da onu bir neçə addım müşayiət edir. Həmin şəxs, "məgər siz Kufəyə getmirdiniz?" – deyə təəccüblə soruşduqda Möminlərin əmiri (ə) deyir: "Yoldaşlığın ən ali ədəb qaydalarından biri də budur ki, insan gərək həmsöhbətini, yoldaşını ondan ayrılarkən bir qədər müşayiət etsin, yola salsın. Peyğəmbərimiz (s) bizə belə əmr etmişdir". Həmin şəxs bu nəzakətli davranışın nəticəsi olaraq müsəlman olmuşdu.[2]

Möminlərin əmirinin (ə) müsəlman olmayanlarla davranışı ilə bağlı ən maraqlı və təqdirəlayiq xatirələrdən biri də Şibi adlı ravinin nəql etdiyi rəvayətdir. Şibi deyir: "Günlərin bir günü Əli ibn Əbu Talib (r.ə.) bazara gəlir və zireh satan bir xristian satıcı ilə qarşılaşır. Zireh Əliyə (r.ə.) tanış gəlir və o, satıcıya zirehin ona məxsus olduğunu deyir və məsələnin aydınlaşdırılması üçün İslam şəriəti hakiminə (qaziyə) müraciət etməyi təklif edir. O zamanlar qazi vəzifəsini Şüreyh icra edirdi və onu Əli özü bu vəzifəyə təyin etmişdi. Qazinin yanına gəldikdə

[1] Vəsail əş-şiə, c.12, səh.200.

[2] Vəsail əş-şiə, c.12, səh.135.

Şüreyh soruşur: “Ey Möminlərin əmiri, iddianız nədən ibarətdir?” Əli (r.ə.) deyir: “Bu, mənim bir müddət öncə oğurlanan zirehimdir”. Sonra Şüreyh üzünü xristian satıcıya tutaraq ona da eyni sualla müraciət edir. Xristian: “Əmirəlmömininі (ə) yalançı hesab etmirəm, ancaq zireh mənə məxsusdur”.

Şüreyh: “Əli, zireh onun əlindədir, iddianı sübut etmək üçün bir sübutun, şahidin varmı?”

Əli: “Etiraf edirəm ki, Şüreyh ədalət mühakiməsini düzgün qaydada aparır”.

Xristian: “Mənə gəlincə, təsdiq edirəm ki, bu peyğəmbərlərin mühakimə üsuludur. Əmir özü də hər bir fərd kimi qaziyə müraciət edir və qazisi onun əleyhinə hökm çıxarır. Ey Möminlərin əmiri, Tanrıya and içərək etiraf edirəm ki, bu sizin zirehinizdir. Mən siz qoşununuzla birgə hərəkət edərkən sizi izləmiş, bu zirehi də kül rəngli dəvənizdən düşərkən götürmüşdüm. Bu andan etibarən, iqrar edirəm ki, Allahdan başqa tanrı yoxdur və Məhəmməd onun elçisidir”.

Əli (r.ə.) isə öz növbəsində, “İslamı qəbul etdiyinə görə bu zirehi sənə hədiyyə edirəm” – demiş, üstəlik ona qiymətli bir at da bağışlamışdı. Əbu Zəkəriyyadan eşitdiyimə görə, həmin şəxs sonralar müşriklərlə savaşlarda da iştirak etmişdi”.[1]

Həmçinin, Həzrət Əlinin həyatı ilə bağlı (ə) indi nəql edəcəyimiz bir rəvayət hal-hazırda qərb dövlətlərində sosial təminat qanunvericiliyinin başlıca hüquqi prinsipini təşkil edən sosial ədalət və bərabərlik anlayışlarının İslam svilizasiyasındakı tarixinə işıq salır. Gördüyümüz kimi, o İslam dövlətinin tabeliyində yaşayan müsəlman və qeyri-müsəlman vətəndaşlar arasında fərq qoymur. Sözügedən rəvayətdə oxuyuruq: “Görmə qabiliyyətini itirən ahıl bir kişi insanlara əl açıb dilənirdi. Bu mənzərəyə şahid olan Möminlərin əmiri (ə) ətrafındakı insanlardan nə baş verdiyini soruşduqda ona həmin qocanın xristianlardan olduğunu söyləyirlər. Əli (ə) bu cavaba hiddətlənərək deyir: “Onun əmək qabiliyyətindən yararlandınız, qocalıb əmək qabiliyyətini itirdikdə isə

---

[1] Qadətuna kəyfə nərifuhum, Beyhəqinin “əs-Sunən əl-kubra” əsərinə (c.4, səh.135) istinadən.

özünüzdən uzaqlaşdırırsınız?! Beytülmaldan onun üçün də müavinət ayırmaq lazımdır”.[1]

İmam Sadiq (ə) də dəyərli kəlamlarından birində belə buyururdu: “Yəhudi ilə də həmsöhbət olsan, yoldaşlıq etsən, onunla xoş davranmalısan”.[2]

Məsələ 312. İnsanları barışdırmaq, fikir ayrılıqlarına son qoymaq, aralarında ülfət yaratmaq və düşmənçilik meyillərini aradan qaldırmaq üçün böyük savablar, ilahi mükafatlar nəzərdə tutulmuşdur. Bu əməllər insanların öz doğma diyarından, ailə üzvlərindən, tanışlarından və dostlarından uzaq olduqları qürbət eldə, təbii ki, daha böyük önəm kəsb edir. Möminlərin əmiri (ə) xaricilərdən olan İbn Mülcəm Muradi tərəfindən sui-qəsdə məruz qaldıqdan sonra ömrünün son anlarında oğlanları İmam Həsən (ə) və İmam Hüseynə (ə) vəsiyyətində buyururdu: “Sizə, bütün övladlarıma, ailə üzvlərimə və bu vəsiyyətnaməmi oxuyan hər bir kəsə təqvalı ömür sürməyi, işlərinizdə nizam-intizamlı olmağı və insanlar arasında sülh, barış yaratmağı vəsiyyət edirəm. Sizin bababından (Həzrət Məhəmməddən (s)): “İnsanlar arasında sülh və barışığı təmin etmək bütün ömür boyu qılınan namaz və tutulan oruclardan üstündür” – deyə buyurduğunu eşitmişəm”.[3]

Məsələ 313. Nəsihət, insanın mömin qardaşları üçün ilahi nemətlərin davamlı olmasını arzulaması, şərrin onlara toxunmasından ikrah hissi keçirməsi, onları xoşbəxtliyə, xeyir qazandıran, mənfəətlərinə olan işlərə doğru istiqamətləndirməsi Rəbbimizin (c.c.) sevdiyi, təqdirəlayiq əməllərdəndir. Nəsihət və xeyirxahlıq xüsusunda nəql olunan hədislər saysız-hesabsızdır. O cümlədən, Allahın elçisindən nəql olunan bir hədisdə oxuyuruq: “Qiyamət günü Allah dərgahında ən uca məqamın sahibi yer üzündə insanlara nəsihət və xeyirxahlıq üçün daha çox addım atan şəxs olacaqdır”.[4]

---

[1] Təhzib əl-əhkam, c.6, səh.292.

[2] Vəsail əş-şiə, c.12, səh.201.

[3] Nəhc əl-bəlağə, Sübhi Salehin redaktəsi ilə, səh.421.

[4] Usul əl-kafi, c.2, səh.208.

İmam Baqirin (ə) nəql etdiyi hədisdə isə sevimli Peyğəmbərimiz (s) belə buyurur: “Hər biriniz qardaşlarınıza (dindaşlarınıza) qarşı özünüzə olduğunuz qədər xeyirxah olmalısınız”.[1]

İmam Sadiq (ə) də kəlamlarında nəsihət və xeyirxahlığın önəmini vurğulamışdır: “Möminlərin bir-birlərinə qarşı vəzifələrindən biri də istər bir arada olduqda, istərsə bir-birindən uzaqda olduqda bir-birlərinə qarşı xoş niyyət və tövsiyələrini əsirgəməməkdir”.[2] Başqa bir kəlamında isə belə buyurmuşdur: “Allah yolunda Onun bəndələrindən xeyirxahlığını və nəsihətlərini əsirgəmə! Çünki Onun qarşısına çıxacağın gün bundan daha üstün bir əməl tapmayacaqsan”.[3]

Məsələ 314. Müsəlmanların gizli qalmasını istədiyi işləri araşdıraraq ifşa etmək, onların sirlərindən agah olmağa və başqalarını da agah etməyə çalışmaq İslam şəriətində haram hesab olunur. Uca Allah dəyərli kitabında buyurur: ***“Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır. (Bir-birinizin eybini, sirrini) arayıb axtarmayın...”***[4]

İmam Sadiqin (ə) müasirlərindən olan İshaq ibn Əmmar deyir: “Həzrət Sadiqdən(ə) Allhın elçisinin (s) belə buyurduğunu nəql etdiyini eşitdim: “Ey dildə İslamı qəbul etdikləri halda ixlaslı imanın qəlblərinə yol tapmadığı insanlar! Müsəlmanları məzəmmət etməyin, sirlərini faş etməyin, Kim onların sirlərini faş edərsə, Allah (c.c.) da onun eyiblərini, sirlərini ifşa edər və Allahın ifşa etdiyi insan hətta evində belə rüsvay olar”.[5]

Məsələ 315. Qeybət möminin yoxluğunda onu eyibli, qüsurlu göstərmək niyyətilə olub-olmamasından, sözügedən eybin onun, bədənində, əsil-nəsəbində, doğuluşunda, davranışında, danışığında, dindarlığında, məişət həyatında və s.

---

[1] Usul əl-kafi, c.2, səh.208; Cami əs-səadat, c.2, səh.213.

[2] Öncəki mənbə.

[3] Cami əs-səadat, c.2, səh.164. Həmçinin, bax: Vəsail əş-şiə, c.16, səh.381-384, “Möminə nəsihətin (xeyirxahlığın) vacibliyi” və “Möminə nəsihətdən və qarşılıqlı xeyirxahlıqdan imtinanın haram olması” fəsilləri.

[4] Hucurat surəsi, 12-ci ayə.

[5] Vəsail əş-şiə, c.12, səh.275.

olmasından asılı olmayaraq insanlar qarşısında ifşa edilməməli olan bu və ya digər bir eyiblə, qüsurla xatırlanmasıdır, istər eybi xatırladan bunu sözlə ifadə etsin, istərsə eybi göstərən hansısa bir işarə ilə.[1]

Allah (c.c.) da Qurani-Kərimdə bu əməli məzəmmət edərək onu tük ürpədən çirkin bir əməl kimi təsvir etmişdir: ***"... bir-birinizin qeybətini qırmayın! Sizdən biriniz ölmüş qardaşının ətini yeməyə razı olarmı?! Bu sizdə ikrah hissi oyadar (qeybət də belədir)".***[2]

Allahın elçisi (s) isə belə buyurur: "Qebətdən həzər edin! Həqiqətən, o zinadan daha ağır bir günahdır. Çünki insanlar zina etdikdən sonra tövbə edərsə, Allah onları bağışlaya bilər, ancaq qeybət edən qeybətini etdiyi şəxs onu bağışlamayınca, günahı əfv edilməz".[3]

Möminə başqa bir mömin qardaşının qeybətinə qulaq asmaq yaraşmaz. Əksinə, sevimli Peyğəmbərimizdən (s) və imamlarımızdan (ə) nəql olunan hədislərdən belə aydın olur ki, yanında qeybət edilən şəxs qeybətini eşitdiyini insanı müdafiə etməli, onun qeybətinin edilməsinə etirazını bildirməlidir. Əks təqdirdə Allah (sübhanəhu və təala) onu dünya da, axirətdə də alçaldar və o, qeybət edənlə eyni günahı qazanar.[4]

Məsələ 316. Qeybətdən söz düşərkən möminlərin yadına cəmiyyət həyatında sabitliyin qorunması məqsədilə İslamın haram buyurduğu və icraçılarını kəskin bir dillə qınadığı başqa bir əməl – söz gəzdirmək, dedi-qodu yaymaq düşür. Söz gəzdirmək insanlar arasında kin-küdurət yaratmaq, yaxud mövcud kin-küdurəti dərinləşdirmək məqsədilə onların bir-birləri barəsindəki sözlərini qarşı tərəfə çatdırmaqdan ibarətdir. Rəvayələrdən birində oxuyuruq ki, bir gün sevimli Peyğəmbərimiz (s) səhabələrinə müraciətlə soruşur: "Sizə aranızdakı ən şər xislətli insanların kim olduğunu açıqlayımmı?" Onlar bir ağızdan: "Bəli, ey Allahın

---

[1] Minhac əs-salihin, Ayətullah əl-uzma Sistani, c.1, səh.17.

[2] Hucurat surəsi, 12-ci ayə.

[3] Cami əs-səadat, c.2, səh. 203.

[4] Minhac əs-salihin, Ayətullah əl-uzma Sistani, c.1, səh.17.

elçisi!" – deyə cavab verdikdə isə buyurur: "İnsanlar arasında gəzərək dedi-qodu yayanlar, dostları bir-birindən ayıranlardır".[1]

İmam Baqir (ə) buyururdu: "Cənnət qeybət edərək insanlar arasında söz gəzdirənlərə haramdır".[2]

Buna bənzər başqa bir hədisdə isə İmam Sadiqin (ə) belə buyurduğunu oxuyuruq: "Qaniçən qatillər, əyyaşlar və ara vuranlar cənnətə həsrət qalacaqlar".[3]

Məsələ 317. Rəbbimiz bizi sui-zəndən, yəni bədgümanlıqdan da çəkindirmişdir. O, Qurani-Kərimdə buyurur: ***"Ey iman gətirənlər! Çox zənnə-gümana qapılmaqdan çəkinin. Şübhəsiz ki, zənnin bəzisi (heç bir əsası olmayan zənn) günahdır".[4]***

Qurani-Məcidin bu dəyərli ayəsinə əsasən, mömin iman qardaşı haqqında tutarlı bir dəlil olmadan bədgümanlığa qapılmaq, xoşagəlməz şeylər düşünmək olmaz. Qəlblər yalnız Allaha (c.c.) məlumdur və möminin hərəkətlərini (şübhəyə düşdüyümüz məqamlarda) yaxşıya yozmaq mümkün olduğu halda əksi isbat olunanadək məsələyə yaxşı tərəfindən baxmalıyıq.

Həzrət Əli (ə) buyurur: "Əksini düşünməyə tutarlı bir səbəbin olmadıqca mömin qardaşının əməlini yaxşıya yoz (ona haqq qazandır). Onun ağzından çıxan hər bir sözü xeyirə yozmaq (doğru hesab etmək) mümkün olduğu halda bədgümanlığa (pis düşüncələrə) qapılma".[5]

Məsələ 318. İsrafçılıq və malını sağa-sola, dəyərsiz yerlərə xərcləmək də Allahın pislədiyi əməllərdəndir. Ən uca kəlamın sahibi (c.c.) buyurur: ***"...Yeyin-için, lakin israf etməyin, Çünki (Allah) israf edənləri sevməz!"[6]***

---

[1] Cami əs-səadat, c.2, səh.276.

[2] Usul əl-kafi, c.2, səh.369.

[3] Səvab əl-əmal və iqab əl-əmal, səh.262.

[4] Hucurat surəsi, 12-ci ayə.

[5] Vəsail əş-şiə, c.8, səh.161.

[6] Əraf surəsi, 31-ci ayə.

Qurani-Kərimin başqa bir ayəsində isə buyurulur: ***“Həqiqətən, (malını əbəs yerə) sağa-sola səpələyənlər şeytanların qardaşılarıdır. Şeytan isə Rəbbinə qarşı nankordur!”***[1]

İmam Əlinin (ə) Ziyad adlı bir müasirinə israfçılığı məzəmmət mövzusunda yazdığı məktubunda oxuyuruq: “Qənaətcilliklə israfdan uzaq ol, hər gün sabahını (aqibətini) düşün, var-dövlətindən özünə yalnız ehtiyacın olan qədərini saxla, artığını isə nöhtac olacağın gün (qiyamət günü) üçün azuqə olaraq yolla. Allahın nəzərində təkəbbürlülərdən olduğun halda Onun səni təvazökarlar kimi mükafatlandıracağınamı ümid edirsən?! Naz-nemət içində üzməyinə rəğmən, əlindəkiləri zəiflərdən, dul qadınlardan əsirgədiyin halda sədəqə verənlərin mükafatlarınamı tamah salırsan?! Həqiqətən, Adəm övladı yalnız öncədən özü üçün hazırlayıb göndərdikləri əsasında mükafatlandırılacaqdır”.[2]

Məsələ 319. **Allah yolunda xərcləmək.** Rəbbimiz dəyərli kitabında bizi qazancımızdan və əmlakımızdan bir hissəsini Onun yolunda sərf etməyə təşviq edərək bu əməli *kasad olmayacaq bir ticarət (savab)* adlandırmışdır. Allah (c.c.) buyurur: ***“Allahın kitabını oxuyan, namaz qılan, özlərinə verdiyimiz ruzilərdən (Allah yolunda) gizli və aşkar xərcləyənlər kasad olmayacaq bir ticarət (savab) umarlar ki, (Allah) onlara (əməllərinin) mükafatlarını versin və Öz lütfündən (kərəmindən) onlara artırsın! Həqiqətən, (Allah) bağışlayandır, qədirbiləndir! (Bəndələrinə Ona etdikləri şükr müqabilində bol nemət əta edər)”.***[3]

Başqa bir surədə isə Rəbbimizin (c.c.) belə buyurduğunu oxuyuruq: ***“Kimdir o kəs ki, Allah yolunda könül xoşluğu ilə borc versin, O da onun əvəzini qat-qat artırsın?! Onu həm də çox qiymətli bir mükafat (Cənnət) gözləyir! O gün mömin kişilərin və qadınların (səmimi etiqadları və dünyada etdikləri yaxşı əməllər müqabilində nail olduqları iman) nurunun onların önlərindən və sağ tərəflərindən axıb şölə saçdığını (qıl körpüsü üstündə onlara yol göstərdiyini)***

---

[1] İsra surəsi, 27-ci ayə.

[2] Nəhc əl-bəlağə, Sübhi Salehin redaktəsi ilə, səh.377.

[3] Fatir surəsi, 29-30-cu ayələr.

***görəcəksən. (Mələklər onlara deyəcəklər:) “Bu gün sizin müjdəniz (ağacları) altından çaylar axan cənnətlərdir. Siz orada əbədi qalacaqsınız!” Bu böyük qurtuluşdur (uğurdur)!”***[1]

Üçüncü ayədə isə Allah (c.c.) əcəl bizi haqlamamış Onun yolunda xərcləmək fürsətindən yararlanmaq üçün tələsməli olduğumuzu xatırladır: ***“Birinizin ölümü çatıb: “Ey Rəbbim! Mənə bir az möhlət versəydin, sədəqə verib salehlərdən olardım!” – deməmişdən əvvəl sizə verdiyim ruzidən (Allah yolunda) xərcləyin. Və (bilin ki) Allah əcəli çatan heç kəsə möhlət verməz. Allah sizin nə etdiklərinizdən xəbərdardır!”***[2]

Bununla yanaşı Allah (sübhanəhu və təala) var-dövlət yığaraq özlərinə xəzinə toplayan və Allah yolunda xərcləməyənlərin aqibətini aydınlaşdırmış, onları qorxulu bir əzabın gözlədiyini bəyan etmişdir. Rəbbimiz (c.c.) Qurani-Məciddə buyurur: ***“(Ya Rəsulum!) Qızıl-gümüş yığıb onu Allah yolunda xərcləməyənləri şiddətli bir əzabla müjdələ! O gün (qiyamət günü) yığdıqları qızıl-gümüş cəhənnəm atəşində qızdırılıb alınlarına, böyürlərinə və kürəklərinə dağ basılacaq (və onlara): “Bu sizin özünüz üçün yığıb saxladığınız sərvətdir. Di dadın yığdığınızı (mal-dövlətinizin əzabını, acısını)” – (deyiləcəkdir)”***[3]

İslamın təməllərini öz nümunəvi həyat yolu ilə təcəssüm etdirən Möminlərin əmiri Əli (ə) də bu fani dünyada qazandığı nemətləri Allah yolunda xərcləyərək zahidlik həyatını tərcih etmiş, müsəlmanların beytülmalı onun ixtiyarında olduğu günlərdə (xəlifəliyi dövründə) də dünya həyatının ehtişamına könül verməmişdir. Özü bununla bağlı buyururdu: “Mən istəsəydim, xalis bal, əla növ buğda ilə bəslənər, ipəkdən libaslar geyinərdim. Ancaq Hicazda və ya Yəmamədə bir kəsin ac yataraq bir tikə çörəyə həsrət qalmış olduğu halda, əsla nəfsim (ehtiraslarım) mənə qalib gələrək növbənöv təamlarla bəslənməyə, yaxud ətrafımda ac qarınlar, susuzluqdan yanan ciyərlər olduğu halda məni tox yatmağa, başqa sözlə şairin

---

[1] Hədid surəsi, 11-12-ci ayələr.

[2] Munafiqun surəsi, 10-11-ci ayələr.

[3] Tövbə surəsi, 34-35-ci ayələr.

“sənin tox yatdığın halda ətrafında bir tikə çörəyə həsrət mədələrin olmasından daha böyük bir dərd, bəla ola bilərmi?!” – sözlərinin örnəyinə çevrilməyə sövq edə bilməz”.[1]

İslam Peyğəmbərindən (s) və eləcə də imamlarımızdan (ə) nəql olunan bir sıra hədislər malından Allah yolunda xərcləyənlərin onları gözləyən ən dəyərli axirət mükafatı ilə yanaşı sözügedən əməlin bu dünyada da bir sıra nəticə və mənfəətlərinə şahid olacaqlarını açıq şəkildə bəyan edir. Belə nəticələrdən biri ruzi bolluğudur. Allahın elçisi (s) buyurur: “Sədəqələrinizlə göydən özünüzə ruzi yağdırın”.[2]

Başqa bir nəticə isə xəstəliklərdən qurtulmaq, şəfa tapmaqdır. Peyğəmbərimiz (s) buyurardı: “Xəstələrinizi sədəqə sayəsində sağaldın”.[3]

Digər bir mükafat isə ömrün uzun olmasından və xoşagəlməz ölümdən uzaq olmaqdan ibarətdir. İmam Baqirdən (ə) nəql olunan bir hədisdə bununla bağlı oxuyuruq: “Yaxşılıq və sədəqə yoxsulluğu insandan uzaqlaşdırır, ömrünü uzadır və onu yetmiş növ xoşagəlməz ölümdən qoruyur”.[4]

Allah yolunda xərcləməyin faydalarından biri də borcların qaytarılmasına zəmin yaratması və bərəkət gətirməsidir. Eynilə İmam Sadiqin (ə) buyurduğu kimi: “Sədəqə borcları qaytarmağa və xeyir-bərəkətin yaranmasına səbəb olur”.[5]

Sədəqə verənin dünya həyatında qazandığı faydalardan biri də övladının xoşbəxt gələcəyinin təmin olunmasıdır. İmam Sadiqdən (ə) nəql olunan bir hədisdə oxuyuruq: “Hansı bəndə dünya həyatında gözəl sədəqə əməlini əsirgəməmişdirsə, Allah (c.c.) da onun övladının xoşbəxt gələcəyini təmin etmişdir”.[6] İmam Baqir (ə) isə belə buyurur: “Mənə görə, bir müsəlman ailəsinə himayədarlıq etmək,

---

[1] Nəhc əl-bəlağə, Sübhi Salehin redaktəsi ilə, səh.417-418.

[2] Bihar əl-ənvar, c.19, səh.118.

[3] Qurb əl-isnad, səh.74.

[4] əl-Xisal, c.1, səh.25.

[5] Vəsail əş-şiə, c.6, səh.255.

[6] Vəsail əş-şiə, c.19, səh.118.

qarınlarını doyurmaq, geyimlə təmin etmək, insanlara əl açmalarına imkan verməmək dəfələrlə, onlarla dəfə, hətta yetmiş dəfə həcc ziyarətinə yollanmaqdan daha təqdirəlayiqdir”.[1]

Allah yolunda xərcləmək təfərrüatlarını bu müxtəsər risaləyə sığışdıra bilməyəcəyimiz geniş bir mövzudur.[2]

Məsələ 320. Allahın elçisi (s) ailə başçılarını öz ailəsinin üzvlərini onlara aldıqları hədiyyələrlə sevindirməyə təşviq edərdi. İbn Abbas onun belə buyurduğunu nəql edir: “Bazara yollanaraq hədiyyə alıb onu öz əlləri ilə ailə üzvlərinə aparan şəxs möhtaclara sədəqə (yardım) daşıyan şəxs kimidir”.[3]

Məsələ 321. İslam şəriətinin önəmini təkidlə vurğuladığı məqamlardan biri də müsəlmanların problemlərinə diqqət ayırmaqdır. İslam Peyğəmbərinin (s) buyurduğu kimi, sabah açıldıqda müsəlmanların qayğısı ilə yuxudan oyanmayan şəxs müsəlman deyil.[4] Allahın elçisi (s) belə buyururdu: “Kim yeni günə başlayarkən müsəlmanların problemlərini düşünməzsə (onları həll etməyə çalışmazsa), onlardan sayılmaz”.[5] Bu məsələ ilə bağlı çoxsaylı hədislər mövcuddur ki, burada onların hamısını xatırlatmaq imkanlarımız çərçivəsində deyil.[6]

İndi isə ictimai əlaqələr (sosial münasibətlər) mövzusu ilə əlaqədar Həzrət Ayətullah əl-uzma Sistaniyə ünvanlanan bir sıra suallar və onların cavabları ilə tanış olaq:

Məsələ 322. Qeyri-müsəlmanların, məsələn müsəlman olmayan qonşuların cənazəsini müşayiət edərək dəfnində iştirak etmək olarmı?

Cavab: Dünyasını dəyişən şəxsin özü, yaxud yaxınları İslama və müsəlmanlara düşmən mövqeyi ilə tanınan insanlar olmadığı halda dəfn

---

[1] Səvab əl-əmal və iqab əl-əmal, səh.172.

[2] Əlavə məlumat üçün bax: “əl-İnfaq fi səbilillah”, Seyid İzzəddin Bəhrəlülum.

[3] Səvab əl-əmal və iqab əl-əmal, səh.239.

[4] Cami əs-səadat, c.2, səh.229.

[5] Cami əs-səadat, c.2, səh.229.

[6] Bax: Usul əl-kafi, Müsəlmanların qayğısın qalmaq fəsli.

mərasimində iştirak etməyin eybi yoxdur. Lakin daha yaxşı olar ki, müşayiət zamanı cənazənin önündə deyil, arxasınca hərəkət etsinlər.

Məsələ 323. Müsəlman olmayan qonşu, biznes partnyoru, yaxud başqa bir şəxslə şəmimi dostluq münasibətləri qurmaq olarmı?

Cavab: Əgər sözdə və hərəkətlərində İslam və müsəlmanlara qarşı düşmənçilik meyilləri izhar etməzsə, ona qarşı dostluq və sevginin təzahürü olan yaxşılıq və xeyirxahlıqla davranmaq olar. Uca Allah buyurur: ***“Allah din yolunda sizinlə vuruşmayan və sizi yurdunuzdan çıxartmayan kimsələrə yaxşılıq etməyi və onlarla ədalətlə rəftar etməyi sizə qadağan etməz. Allah ədalətli olanları sevər!”***[1]

Məsələ 324. Kitab əhli olan öncəki səmavi dinlərin nümayəndələri və hər hansı bir müqəddəs kitaba inancı olmayan kafirlər məscidlərə və müsəlmanların ibadət məkanlarına girə bilərlərmi və onlara giriş izni verildiyi halda hicaba riayət etməyən qadınları içəri girərkən hicab geyinməyə məcbur etməliyikmi?

Cavab: Ehtiyata əsasən, onlar məscidlərə daxil ola bilməzlər. Lakin digər ibadət məkanlarına giriş sərbəstdir. Hicabdan imtina etmək müqəddəs məkana qarşı hörmətsizlik kimi anlaşıldığı halda qadınlar ona riayət etməyə borcludurlar.

Məsələ 325. Yəhudi, xristian, yaxud hər hansı bir dinə etiqad bəsləməyən qonşulara narahatçılıq törədəcək hərəkətlərə yol vermək olarmı?

Cavab: Bbelə bir hərəkətə haqq qazandıracaq tutarlı bir səbəb olmadan etiqadından asılı olmayaraq qonşuları incitmək olmaz.

Məsələ 326. Kitab əhli olan və olmayan kafir yoxsullara sədəqə vermək olarmı və sədəqə verən bu əməlinə görə savab qazanırmı?

Cavab: Haqqa və haqq yolunun ardıcıllarına düşmənçilik hissi bəsləməyən istənilən yoxsula sədəqə vermək olar və sədəqə verən bu əməlinə görə Rəbbi tərəfindən mükafatlandırılacaqdır.

Məsələ 327. Təsirli olacağını ehtimal etdiyimiz, habelə hər hansı bir xoşagəlməz halla nəticələnməyəcəyinə əmin olduğumuz hallarda Əhli-beyt (ə)

[1] Mümtəhinə surəsi, 8-ci ayə.

ardıcıllarından (imamiyyə məzhəbindən) olmayanları, yaxud kitab əhli sayılan digər səmavi dinlərin ardıcıllarını da yaxşı əməllərə sövq edərək pis işlərdən çəkindirmək vacibdirmi?

Cavab: Vacib olması üçün zəmin hesab edilən digər şərtlər də nəzərə alınmaqla onları da yaxşı işlərə sövq etmək və pis əməllərdən çəkindirmək vacibdir. Həmin şərtlərdən biri də onların münkər (pis) işlərlə məşğul olması, yaxud məruf (yaxşı) işlərin icrasından imtinasının üzürlü hal qismindən olmaması, o cümlədən həmin şəxslərin müqəssir cahil olmaması şərtidir ki, bu halda öncə onlara doğru olanı başa salmaq, başa düşdükdən sonra əməl etmək niyyətində olmadığını gördükdə isə əmr (yaxşı işlərə sövq) və nəhy (pis əməllərdən çəkindirmə) tədbirlərini (mərhələlərin ardıcıllığına riayət etməklə) həyata keçirmək lazımdır. Münkər iş yer üzündə fəsad törətmək, nahaq insan qanı axıtmaq kimi ümumiyyətlə Allahın gerçəkləşməsini yolverilməz hesab etdiyi günahlar qismindən olduğu halda isə qarşısının alınması labüddür, hətta münkər işi icra edən qasir cahil[1] olsa belə.

Məsələ 328. Avropada bəzi məktəblərdə hansısa bir dinə etiqad bəsləməyən, şagirdlərin önündə Allahın varlığını inkar edən bir sıra müəllimlər də tədris fəaliyyəti ilə məşğul olur. Müsəlman şagirdlərin belə məktəblərdə təhsilinə davam etməsi doğrudurmu? Nəzərə almaq lazımdır ki, müəllimlərinin onların düşüncələrinə təsiri olduqca güclüdür.

Cavab: Bu yolverilməzdir və bununla bağlı bütün məsuliyyət şagirdlərin vəlilərinin (valideynlərinin, yaxud qəyyumlarının) üzərinə düşür.

Məsələ 329. Oğlanlar və qızlar orta təhsil müəssisələrində birgə təhsil ala bilərlərmi? Nəzərə almaq lazımdır ki, belə birgə təhsil mühiti gec-tez onları hansısa günaha, ən azından haram hesab edilən baxışa (naməhrəmə şəhvət hissi ilə baxmağa) sürükləyəcəkdir.

Cavab: Göstərilən halda birgə təhsil doğru deyil.

---

[1] "Müqəssir cahil" və "qasir cahil" terminləri üçün əlinizdəki əsərin "Müxtəsər fiqh terminləri lüğəti" bölməsinə müraciət edin.

Məsələ 330. Müsəlman kişilər ümumi (kişi və qadınların birgə istifadə etdiyi) hovuz xidmətlərindən istifadə edə bilərlərmi? Özəlliklə nəzərə almaq lazımdır ki, həmin hovuzların xidmətindən istifadə edən qadınlar İslam şəriətində əxlaq normaları hesab edilən geyim və davranış qaydalarına qarşı o qədər etinasızdırlar ki, hətta onlara bununla bağlı edilən xatırlatmalara belə məhəl qoymurlar.

Cavab: Geyim normalarına riayət etməyən və bu xüsusda qadağa və xəbərdarlıqlara da məhəl qoymayan qadınlara şəhvani həzz duyğusu olmadan baxmağa icazə verilməsinə baxmayaraq, ehtiyata əsasən, belə məkanlara üz tutmaq ümumiyyətlə doğru yolverilməzdir.

Məsələ 331. Qərb ölkələrində məskunlaşan müsəlmanlar hicablı qızlarını icbari orta təhsil, yaxud digər növ təhsil (texniki peşə təhsili və s.) almaq üçün oğlanlarla qızların birgə təhsil aldığı təhsil müəssisələrinə göndərə bilərmi? Nəzərə almaq lazımdır ki, yalnız qızların təhsil aldığı təhsil müəssiləri də vardır. Lakin həmin məktəblər yüksək təhsil haqqı tələb edir, yaxud onların yaşayış yerlərindən kifayət qədər uzaqdır və ya orada təhsilin səviyyəsi daha aşağıdır.

Cavab: Valideynlər övladlarını əksər hallarda müşahidə etdiyimiz kimi şagirdlərin dini inanclarını və dinlərinə bağlılıqlarını itirməklə yanaşı onların əxlağina da mənfi təsir edən belə məktəblərə göndərməməlidirlər.

Məsələ 332. Əcnəbi universitetlərdə müsəlman gənclərlə birlikdə təhsil alan gənc qızlar onlarla birgə əyləncə, elmi və s. xarakterli gəzintilərdə iştirak edə bilərlərmi?

Cavab: Yalnız haramdan (günaha düşməkdən) qorunacaqlarına əmin olduqları halda iştirak edə bilərlər.

Məsələ 333. Küçədə qarşılaşdığımız real romantik səhnələrə baxmaq günahdırmı?

Cavab: Şəhvani həzz hisslərinin müşayiəti ilə belə bir səhnəyə tamaşa etmək olmaz. Hətta ehtiyata əsasən, ümumiyyətlə belə səhnələrə baxmamalısınız.

Məsələ 334. Həm kişi, həm də qadınların baş çəkdiyi kinoteatrlara və şəriət tərəfindən məqbul hesab edilməyən digər əyləncə məkanlarına getmək olarmı?

Nəzərə almaq lazımdır ki, həmin məkanlarda harama (günaha) yol verməyəcəyimizə əmin deyilik.

Cavab: Olmaz.

Məsələ 335. Kişi və qadınların birgə istifadə etdiyi hovuzlarda şəhvani həzz almaq niyyəti olmadan üzmək olarmı?

Cavab: Ehtiyata əsasən, əxlaqi fəsadın baş alıb getdiyi məkanlara üz tutmaq ümumiyyətlə yolverilməzdir.

Məsələ 336. Havanın isti olduğu günlərdə dincəlmək üçün dəniz sahili və parklara baş çəkmək olarmı? Nəzərə almaq lazımdır ki, həmin məkanlarda ictimai əxlaq qaydalarına zidd hallara rast gəlmək qaçınılmazdır.

Cavab: Harama (günaha) yol verməyəcəyinizdən əmin olmadığınız halda belə yerlərə üz tutmamalısınız.

Məsələ 337. Avropa ölkələrində müəyyən standartlar əsasında ümumi tualetlər tikilir və onların tikintisində müsəlman dövlətlərində riayət olunan ayaqyolu çanaqlarının üzü və ya arxası qibləyə olmaması şərti nəzərə alınmır. Qiblənin hansı istiqamətdə olduğunu bilmədiyimiz halda həmin ümumi tualetlərdən istifadə edə bilərikmi? Bəs onları üzü (yaxud arxası) qibləyə olduğunu bildiyimiz halda necə? Xahiş edirik, şəriət tərəfindən bizə həmin tualetlərdən istifadə edilməyə icazə verilməyəcəyi halda nə etməli olduğumuzu da açıqlayın.

Cavab: Birinci halda vacib ehtiyata əsasən, orada qiblə istiqamətini müəyyənləşdirməyin mümkünsüzlüyünə əmin olduğunuz və gözləyə bilmədiyiniz, yaxud gözləməyin məşəqqətli olduğu hallar istisna olmaqla, həmin ümumi tualetlərdən istifadə etmək olmaz. İkinci halda isə vacib ehtiyata əsasən, həmin ayaqyolu çanaqlarından istifadə edərkən (sidik və ya nəcis ifrazı əsnasında) üzü və ya arxası qibləyə oturmaqdan çəkinməlisiniz. Həmin çanaqlardan istifadə məcburiyyəti qarşısında qaldıqda isə ehtiyata əsasən, üzü deyil, arxası qibləyə oturmağı tərcih edin.

Məsələ 338. Müsəlman Avropa, Amerika və digər qeyri-müsəlman ölkələrində üzərində sahibinin kimliyini müəyyən etməyə əsas verən hər hansı bir

əlamət (ad, soyadı, əlaqə telefonları və s.) olan və ya olmayan çamadan taparsa, nə etməlidir?

Cavab: Adətən, çamadanların üzərində sahibi ilə əlaqə saxlamağa imkan verən hansısa bir əlamət olur. Çamadanı tapan onun bir müsəlmana, yaxud yaxud müsəlmanlar kimi mülkiyyət hüququ qorunan (şəriət tərəfindən toxunulmaz hesab edilən) bir şəxsə aid olduğunu bilərsə, yaxud əsaslı bir ehtimalla güman edərsə, vacib ehtiyata əsasən, bir il müddətində onun sahibini axtarmalı və onu tapa biləcəyinə ümidini itirdikdən sonra isə sədəqə verməlidir. Lakin onun müsəlmanlara, yaxud digər mülkiyyət hüququ (İslam şəriəti tərəfindən) toxunulmaz hesab edilən şəxslərə aid olmadığını bildiyi halda isə bir müstəsna hal xaricində həmin çamadanı mənimsəyə bilər. Müstəsna hal isə bundan ibarətdir ki, müsəlman vətəndaşı olduğu hüquqi dövlət qarşısında qanunvericiliklə nəzərdə tutulmuş bir sıra öhdəliklər daşıyarsa, o cümlədən həmin ölkənin ərazisində tapdığı əşyaları əlaqədar dövlət orqanlarına təhvil verməlidirsə, bu halda həmin əşyaları mənimsəyə bilməz və mütləq qanunvericilikdə nəzərdə tutulan öhdəçiliyini (vətəndaşlıq vəzifəsini) icra etməlidir.

Məsələ 339. Avropa ölkələrindən birində üzərində sahibini müəyyən etməyə əsas verən heç bir əlamət olmayan müəyyən məbləğdə pul tapsam, ona sahiblənə bilərəmmi?

Cavab: Həmin əsknasların üzərində sahibini müəyyən etməyə imkan verən hər hansı bir əlamət olmazsa (heç olmazsa, itirilən pulun miqdarını bilməsi ilə belə sahibini tanımaq mümkün olmazsa), öncəki məsələlərdə qeyd olunan hallar (yerli qanunlar çərçivəsində hərəkət etməyin zəruri olduğu məqamlar) istisna olmaqla, həmin vəsaiti mənimsəmək olar.

Məsələ 340. Bəzi qərb ölkələrində dəyərli əşyaları elə ucu qiymətə satışa çıxarırlar ki, nəticədə müştəri həmin əşyaların oğurluq mal olduğunu düşünür. Beləliklə, həmin əşyaların müsəlman, yaxud kafir bir şəxsdən oğurlandığından əmin olsaq, yaxud böyük ehtimalla şübhəyə düşsək, satıcının müsəlman olduğu və olmadığı hallarda onları almaq olarmı?

Cavab: Həmin əşyaların müsəlman və ya kafir olmasından asılı olmayaraq mülkiyyət hüququ qorunan (şəriət tərəfindən əmlakının müsadirə və qəsb edilməsi yolverilməz hesab edilən) bir şəxsdən oğurlandığına dair məlumat əldə etdikdə, yaxud buna əmin olduqda onları alması və öz mülkiyyətinə daxil etməsi yolverilməz hesab olunur.

Məsələ 341. Qərb ölkələrində siqaret olduqca baha qiymətə satılır. İstehlakçının siqaretin nəinki faydalı bir şey olmadığını, hətta sağlamlığa ciddi təhlükə törətdiyini bildiyini nəzərə alaraq demək olarmı ki, israfçılıq baxımından siqaret almaq haramdır?

Cavab: Siqaretin alqı-satqısı sərbəstdir və sadəcə göstərilən səbəblə (qiymət bahalığı ilə) əlaqədar olaraq istehlak edilməsi də haram sayıla bilməz. Lakin siqaret çəkmək istehlakçının sağlamlığına ciddi zərər törədərsə və siqaret çəkməkdən imtina etmək ona zərər verməzsə, yaxud daha az zərər toxundurarsa, imtina etməlidir.

Məsələ 342. Yaşadığımız dövrdə telefon danışıqlarını abonentlərin məlumatı olmadan qeydə alan cihazlar mövcuddur. Lazım gəldikdə dəlil olaraq istifadə edə bilmək üçün kiminsə danışığını özünün məlumatı (xəbəri və razılığı) olmadan qeydə almaq olarmı?

Cavab: Bir abonentin həmsöhbəti olduğu abonentlə danışığını qeydə alması üçün ondan icazə alması vacib deyil. Lakin bir mömin insana qarşı hörmətsizlik və onun sirlərinin ifşa olunması ilə nəticələnəcəyi halda bu dərəcədə (mömininin şərəf və ləyaqətinin qorunması qədər) və ya daha artıq önəm kəsb edən bir zərurət olmadıqca həmin səs yazısını yaymaq, yaxud başqaları ilə paylaşmaq yolverilməzdir.

Məsələ 343. Fotoqraflıqla məşğul olan bir şəxs süfrəyə şərab da verilən bir toy məclisində iştirakçıların fotolarını çəkmək üçün çağrılarsa, həmin məclisə gedə bilərmi?

Cavab: Şərab içilən, yaxud hansısa bir haramın icra olunduğu səhnələrin fotosunu çəkmək olmaz.

Məsələ 344. Valideynlərə itaətin çərçivələrini bəyan edə bilərsinizmi?

Cavab: Övladların valideynləri qarşısında vəzifələri bunlardır:

1) onlara yaxşılıq etməlidir; baxıma möhtac olduqları halda onların ehtiyaclarını təmin etməli, sağlam düşüncənin məqbul və normal hesab etdiyi çərçivədə yaşayış tələbatlarını ödəməlidirlər. Bu vəzifənin icrasından imtina etmək onların (valideynlərin övladlara qarşı) yaxşılıqlarını inkar etmək anlamına gəlir. Valideynlərə yaxşılıq vəzifəsinin çərçivələri onların fiziki durumundan (səhhətindən) asılı olaraq dəyişir.

2) onlarla yaxşı davranmalıdırlar. Hətta övladlarına haqsızlıq, zülm etsələr belə övladlar onlara qarşı xoşagəlməz ifadə və hərəkətlərdən uzaq olmalıdırlar. Hədislərdə oxuyuruq: "Hətta (valideynlərin) səni vursalar, döysələr belə, onların üstlərinə qışqırıb acı söz söyləmə! "Allah sizi bağışlasın!" – deməklə kifayətlən!"

Bu iki vəzifə övlad-valideyn münasibətlərini valideynlik hüquqları aspektindən izah edir. Məsələyə övlad aspektindən baxdıqda da iki halla qarşılaşırıq:

1) valideynlər övladlarına qarşı xeyirxahlıqlarına, qayğıkeşliklərinə görə əziyyətə məruz qalırlar; bu halda övladlar valideynlərinin çəkindirib-çəkindirməməsindən asılı olmayaraq onları incidəcək işlərdən uzaq durmalıdırlar.

2) valideynlər bəzi xoşagəlməz xislətlərinə, məsələn övladlarının dünya və axirət mənfəətlərini düşünmədiklərinə (onları da belə xeyirli işlərdən çəkindirdiklərinə) görə incidilirlər. Valideynlərin bu növ incikliyi övladlarına heç bir günah qazandırmır və övladların onların bu növ istək və arzularına tabe olması vacib deyil.

Göründüyü kimi, valideynlərə onların şəxsi əmr (tələb) və qadağaları (ilahi əmr və yasaqlara zidd və zərərli istək və arzuları) xüsusunda itaət öz-özlüyündə vacib sayılmır. Allah (hər şeyi) biləndir.

Məsələ 345. Bəzi valideynlər övladlarının insanları yaxşı əməllərə yönləndirməsindən və xoşagəlməz işlərdən çəkindirməsindən qorxur, çəkinirlər. Bu xüsusda onlara itaət etmək vacibdirmi? Nəzərə almaq lazımdır ki, övladlar onların bu addımlarının nəticə verəcəyinə inanırlar və özlərinə üz verəcək hər hansı bir zərərdən də qorxmurlar.

Cavab: Sözügedən addımlar şərtləri çərçivəsində övladlara vacib olduğu halda həmin addımları atmalıdırlar. İnsanlara (hətta valideynlərə belə) itaət Yaradanın əmrinə itaətsizliyə əsas vermir.

Məsələ 346. Bir çox ailələrdə oğullarla ataları, qızlarla isə anaları arasında müxtəlif məişət məsələləri ilə bağlı ciddi mübahisələr baş verir və valideynlər bu mübahisələrdən bərk inciyirlər. Övladlar valideynlərlə belə mübahisələrə girişə bilərlərmi və bu məsələdə aşılması yolverilməz hesab edilən bir hədd, çərçivə mövcuddurmu?

Cavab: Övladlar valideynləri ilə onların doğru hesab etmədikləri rəyləri ilə bağlı mübahisə edə bilərlər. Lakin bu mübahisələrdə sakitçiliyə və ədəb qaydalarına riayət etməli, nəinki kobud ifadələrə yol verməməli, hətta onlara qəzəblə baxmaqdan və valideynlərindən uca səslə danışmaqdan belə çəkinməlidirlər.

Məsələ 347. Ana oğlundan gəlini ilə aralarındakı narazılıqlara görə onu boşamasını tələb edərsə, oğlunun onun istəyini gerçəkləşdirməsi vacibdirmi? Bəs ana "əgər ondan boşanmasan, üzümə ağ olmuş sayılacaqsan!" kimi sözlərlə israr etsə necə?

Cavab: Onun bu tələbini gerçəkləşdirmək vacib deyil və həmin sözlər də heç bir şeyi ifadə etmir. Bununla belə, daha öncə də qeyd edildiyi kimi ananı xoşagəlməz sözlər və davranışlarla incitməkdən çəkinmək lazımdır.

Məsələ 348. Atanın oğlunu vurması nəticəsində dərisi qaralarsa, yaxud qızararsa, diyə ödəməlidirmi? Bəs insanı atasından başqa bir şəxs bu şəkildə vurduqda (döydükdə) necə, hökm dəyişirmi?

Cavab: Vuranın (döyənin) insanın atası olub-olmamasından asılı olmayaraq diyə ödənilməlidir.

Məsələ 349. Əgər müsəlman atasının onun ölkə xaricinə səfər etməsinə etirazını sözlərlə ifadə etməsə də, onun qəlbən bu səfərə razı olmadığına əmin olarsa, həmin səfərin onun xeyrinə olduğunu bildiyi halda səfərini gerçəkləşdirə bilərmi?

Cavab: Əgər ataya yaxşılıq (öncəki məsələlərdə öz əksini tapan çərçivələrdə) onun yanında olmağı labüd edirsə, yaxud o övladının ondan uzaqlaşması nəticəsində mənəvi sıxıntılarla üzləşəcəksə, övlad belə bir səfərdən imtina etməlidir. Lakin səfərdən imtina nəticəsində zərərə uğrayacağı halda imtina etməsi vacib deyil.

Məsələ 350. Xüsusilə qürbətdə qadının ya kişinin həyat yoldaşının valideynlərinə, bacı və qardaşına hörmət və yaxşlığı, onlara qulluq etməsi də vacibdirmi?

Cavab: Bunun həyat yoldaşına qarşı hörmət və xeyirxahlığın örnəyi olmasına şübhə yoxdur, lakin bununla belə vacib sayılmır.

## ALTINCI FƏSİL
## SƏHİYYƏ VƏ TİBB

Son dövrlərdə Qərbi Avropa və ABŞ-da elm və texnologiyanın inkişafı ilə əlaqədar olaraq dünyanın müxtəlif ölkələrində yaşayan müsəlmanların da müalicə məqsədilə həmin ölkələrə üz tutması halları artmışdır. Həmçinin, həmin ölkələrdə məskunlaşan müsəlmanların da digər vətəndaşlar kimi şəxsi sağlamlıqlarını qorumaq məqsədilə yerli tibb müəssisələrinə müraciət etməsi bir sıra aktual sualları meydana gətirmişdir. Bütün bunları nəzərə alaraq sözügedən mövzu ilə bağlı ən önəmli şəriət hökmlərini nəzərinizə çatdırmağı məqsədəuyğun hesab edirik:

Məsələ 351. Praktiki tibbi təhsil və s. məqsədlərlə müsəlmanın cəsədinin yarılması yolverilməzdir. Şəriət tərəfindən müsəlmanın cəsədinin yarılmasına yalnız başqa bir müsəlmanın yaşamasının bundan asılı olduğu hallarda – hətta gələcəkdə olsa belə - icazə verilir.

Məsələ 352. İstənilən heyvanın, hətta it və donuzun da bu və ya digər orqanının insan bədəninə transplantasiyasına şəriət tərəfindən icazə verilir və köçürülən üzv insan bədəninin yaşayan aktiv bir orqanına çevrildikdən sonra pak hesab edilir və namaz kimi ibadətlərə də heç bir xələl gətirmir.

Məsələ 353. Həkimin ürək döyüntüsü cihazla bərpa olunan pasiyentini hətta beyin ölümü gerçəkləşmiş olsa belə və həyatı yalnız həmin süni nəfəs aparatına bağlı olsa belə, həmin cihazı söndürə və eftanaziyanı[1] həyata keçirə bilməz. Çünki, İslamda insanın yaşamaq hüququ toxunulmaz hesab edilir.

Həkim pasientinin və ya yaxınlarının onun müalicəsini dayandırmasına dair istək və tələblərini nəzərə alaraq müalicədən imtina etməməlidir. Onun süni nəfəs aparatını söndürməsi nəticəsində pasient həyatını itirərsə, həkim qatil hesab olunur.

Məsələ 354. Tibb ixtisasları üzrə təhsil alan tələbə hətta gələcəkdə olsa belə müsəlmanların ciddi sağlamlıq problemlərinin həlli üçün zəruri olduğu hallar istisna olmaqla, təcrübə əsnasında təcrübə obyekti olan insanın cinsiyyət orqanına baxa bilməz.

Məsələ 355. Müsəlmana qəbul etdiyi dərman vasitələri və preparatlarının tərkibində şəriət tərəfindən qəbulu haram hesab olunan maddələrin olub-olmamasını müəyyənləşdirmək məqsədilə hətta dərmanların tərkibini öyrənmək mümkün və kifayət qədər asan olsa belə, onların tərkibini araşdırmaq vacib deyil.

**Sual-cavablar:**

Məsələ 356. Narkotik maddələrin yalnız istifadəçisinə deyil, eləcə də cəmiyyət üçün davamlı asılılıq, yoluxucu xəstəliklər və s. ciddi zərər və təhlükələri artıq tibbi cəhətdən sübuta yetirilmişdir. Səhiyyə sistemi, rehabilitasiya mərkəzləri və eləcə də qanunvericilik narkotik maddələr və onların fəsadları ilə mübarizə məqsədilə bütün imkanlardan istifadə etməkdədir. Bəs müqəddəs şəriətin bu məsələ ilə bağlı rəyi nədən ibarətdir?

Cavab: Davamlı asılılıq və eləcə də digər ciddi zərər və təhlükələri nəzərə alınmaqla narkotik maddələrin istifadəsi haramdır. Hətta vacib ehtiyata əsasən, istənilən halda narkotik maddələrin istifadəsindən çəkinmək lazımdır. Yalnız zəruri tibbi prosedurlarda zəruri miqdarlarda istifadəsinə icazə verilir. Allah hər şeyin doğrusunu biləndir!

---

[1] Eftanaziya - koma, beyin ölümü və ya ağır xəstəlikdən əziyyət çəkən pasientin süni nəfəs aparatından ayrılması, yaxud müalicəsinin dayandırılması ilə həyatdan məhrum edilməsi nəticələnən tibbi prosedurdur. Bir sıra ölkələrdə qanunvericliklə qadağan edildiyi halda, xüsusən son dövrlərdə bəzi ölkələrdə də icasına icazə verilmişdir.

Məsələ 357. Tibbi tədqiqatlar siqaretin ürək xəstəlikləri və habelə xərçəngin başlıca amillərindən biri olduğunu göstərir. Hətta bir sıra hallarda siqaret çəkmək insan ömrünün qısalması ilə nəticələnə bilir. Beləliklə, siqaret çəkmə ilə bağlı aşağıdakılara şamil olunan hökm nədən ibarətdir:

a) yeni başlayanlar;

b) adət edənlər;

c) yanında siqaret çəkilənlər? Nəzərə almaq lazımdır ki, həkimlər yanında siqaret çəkilən şəxsin (passiv tütün məhsulu istifadəçisi) də siqaret çəkən (aktiv tütün məhsulu istifadəçisi) ilə yanaşı bir sıra təhlükələrə məruz qaldığını bəyan edirlər. Passiv tütünçəkən həkimlərin bu tövsiyələrinə əsasən, sağlamlığı ilə bağlı ciddi təhlükə ilə üzləşə biləcəyini ehtimal etdiyi halda nə etməlidir?

Cavab: a) Siqaretin onun istifadəsinə yeni başlayan şəxsi hətta gələcəkdə belə olsa, ciddi təhlükələrə məruz qoyacağı halda həmin şəxsə siqaret çəkmək haramdır, istər təhlükənin mövcudluğu faktlara əsaslansın, istərsə sağlam düşüncə sahiblərinin nəticələrindən qorxduğu ehtimala. Lakin ciddi təhlükədən qorunarsa, məsələn həddən ziyadə çəkmədiyinə (yaxud nadir hallarda çəkdiyinə) görə sağlamlığına ciddi təhlükə törətməzsə, icazə verilir.

b) Siqaret çəkməyə davam etmək onun sağlamlığı üçün ciddi təhlükə törədərsə, siqareti dərhal tərk etməlidir. Lakin siqaretdən birdəfəlik uzaqlaşmağın siqaret aludəçisini siqaret çəkmək qədər, yaxud daha ciddi problemlərlə qarşı-qarşıya qoyduğu, başqa sözlə onun siqareti atacağı halda adətən dözülməz hesab edilən çətinliklərlə üzləşəcəyi hal istisna təşkil edir.

c) Passiv siqaretçəkənlərə isə siqaret çəkməyə yeni başlayan şəxs ilə bağlı "a" bəndində təfsilatı ilə öz əksini tapan hökm şamil olunur.

Məsələ 358. Bəziləri beyin ölümünün nəbz döyüntüsünün kəsilməməsinə rəğmən insanın həyatını itirməsi demək olduğu qənaətindədir. Həkimlərin sözlərinə görə beyin ölümü gerçəkləşdikdən bir müddətdən sonra nəbz döyüntüləri də dayanır. Beləliklə, nəbz döyüntüləri kəsilmədiyi halda beyin ölümü gerçəkləşən insan ölmüş hesab olunurmu?

Cavab: Bir sıra şəriət hökmlərinin mövzusu olan “ölüm” üçün meyar ürfün (cəmiyyətin) nəzərində ölüm kimi qəbul edilən vəziyyətdir, yəni ürfün insanı həyatını itirmiş hesab etməsidir ki, sualda göstərilən halda bu anlamda ölüm gerçəkləşmiş sayılmır.

Məsələ 359. Həkimlik sənəti bəzən kişi həkimlərin qadın xəstələrini bədənlərinə bilavasitə baxaraq, toxunaraq müayinə etməyi tələb edir. Avropa ölkələrində müayinə əsnasında üst paltarların çıxarılmasının normal bir hal kimi qəbul edildiyi nəzərə alınmaqla, müsəlman həkimlərin həmin çalışmasına şəriətin münasibəti necədir?

Cavab: Diaqnoz qoymaq üçün zəruri hesab edilən hallar istisna olmaqla, haram baxış və toxunuşlardan çəkinmək şərtilə məhdudiyyət qoyulmur.

Məsələ 360. Bəzən qadın xəstəni müayinə edən kişi həkim cinsiyyət orqanı istisna olmaqla onun bədəninin müəyyən üzvlərini, o cümlədən həssas nahiyələrini (sinə, bud və baldırlar kimi) baxaraq və ya toxunaraq müayinə etməyə gərək duyur.

Beləliklə:

a) müvafiq sahə üzrə qadın mütəxəssisin mövcud olduğu, lakin onun tərəfindən müayinənin baha başa gəldiyi;

b) ciddi bir xəstəliyi olmadığı;

c) həkimin cinsiyyət orqanına baxmaq istədiyi hallarda qadın pasient sözügedən bədən üzvlərini kişi həkimə göstərə bilərmi?

Cavab: a) Qadın pasientlərə qadın həkim-mütəxəssislərin mövcud olduğu, lakin maddi durumlarının onların tərəfindən müayinə prosedurunun xərclərini ödəməyə imkan vermədiyi hallar istisna olmaqla, kişi həkimə müraciət etmələrinə icazə verilmir.

b) Kişi həkim tərəfindən müalicədən imtina etməyin onların sağlamlığını ciddi təhlükəyə məruz qoya biləcəyi, yaxud onlar üçün adətən dözülməz olan sıxıntılar törədə biləcəyi hallarda icazə verilir.

c) Bu halla bağlı da “a” və “b” bəndlərində açıqlanan hökm keçərlidir və hər iki halda zərurət həddi ilə kifayətlənmək lazımdır. Müayinə və müalicə prosedurunu bədən üzvlərinə birbaşa baxmadan, başqa sözlə monitor və ya güzgü

vasitəsilə həyata keçirmək mümkün olarsa, ehtiyata əsasən, bu qaydada həyata keçirmək lazımdır.

Məsələ 361. Bəzi genetika mühəndisləri insan genlərini dəyişdirməklə bəşər cinsini gözəlləşdirməyə qadir olduqlarını iddia edirlər. O cümlədən:

1) insanın zahiri görkəmindəki qüsurların aradan qaldırılmasına;

2) ona estetik baxımdan daha gözəl bir görkəm bəxş etməyə;

3) yuxarıdakıların hər ikisinə eyni zamanda nail ola biləcəklərini bildirirlər.

Alimlərin bu təcrübələri həyata keçirməsinə şəriət tərəfindən icazə verilirmi? Müsəlman gen mühəndislərinə onun genlərini dəyişdirməsinə icazə verə bilərmi?

Cavab: Yan təsirləri olmadığı halda öz-özlüyündə yasaq deyil.

Məsələ 362. Qərb ölkələrində farmakoloji məhsulların (dərman vasitələri və preparatlarının) istehsalı ilə məşğul olan müəssisələr məhsullarını bazara çıxarmazdan öncə onları sınaqdan keçirirlər. Həkim xəstəsinə məlumat vemədən ona faydalı ola biləcəyini güman etdiyi dərmanı həmin dərmanın üzərində tədqiqat təcrübələri başa çatmadığı halda xəstənin müalicəsində sınaqdan keçirə bilərmi?

Cavab: Xəstənin məlumatlandırılması və dərmanın onun üzərində təcrübədən keçirilməsinə dair razılığının alınması labüddür. Lakin həkimin həmin dərmanın xəstəyə yan təsirlər göstərməyəcəyinə əmin olduğu, sadəcə faydalı olub-olmayacağına şübhə etdiyi hallar istisna təşkil edir.

Məsələ 363. Bəzən tibbi-ekspertiza qurumları ölüm və ya qətlin səbəbini aydınlaşdırmaq üçün meyidin yarılmasını zəruri hesab edir. Hansı hallarda buna icazə vermək olar, hansı hallarda isə meyidin yarılması şəriət tərəfindən yolverilməz hesab edilir?

Cavab: Mərhumun vəlisi (məsələn, atası və ya böyük oğlu) qeyd olunan və buna bənzər məqsədlərlə onun cəsədinin yarılmasına icazə verməməli və mümkün olduğu halda mane olmalıdır. Lakin meyidin yarılmasının fəsadı (şəriətdə bunu yolverilməz edən amillər) qədər, yaxud ondan daha önəmli bir problemin həlli zəruri olduğu hallarda icazə verilir.

Məsələ 364. Müsəlmanın kafirə və ya kafirin müsəlmana sağlığında orqanlarından birini, məsələn böyrəyini bağışlamasına, yaxud ölümündən sonra bu

və ya digər bədən üzvünün bağışlanmasını vəsiyyət etməsinə icazə verilirmi? Bu məsələdə bədən üzvləri arasında fərq varmı?

Cavab: Bir insanın sağlığında bədən üzvlərindən birini öz sağlamlığına ciddi təhlükə törətmədiyi halda başqasının bədəninə transplantasiya olunması məqsədilə ona bağışlamasına icazə verilir. Məsələn, hər iki böyrəyi sağlam olan şəxs bir böyrəyini bağışlaya bilər. Dünyadan köçən şəxsin vəsiyyəti əsasında bədən üzvlərindən birinin başqa bir şəxsin bədəninə trasplantasiyası məqsədilə kəsilib götürülməsinə gəlincə, buna yalnız həmin donorun müsəlman və ya bu məsələdə müsəlmanla eyni hökmün şamil olunduğu bir şəxs olmadığı, yaxud bir müsəlmanın həyatını xilas etmək üçün zəruri olduğu hallarda (sonuncu halda hətta müsəlmanın da cəsədinin yarılmasına) icazə verilir. Bu iki hal istisna olmaqla digər hallarda isə müvafiq vəsiyyətin icrasının və meyidin yarılmasının şəriət baxımından doğruluğu şübhə altındadır. Bununla belə, istənilən halda vəsiyyət əsasında meyidin yarılması əməliyyatını həyata keçirən şəxsin diyə ödəməsi vacib deyil.

Məsələ 365. Ateist (Tanrıya inancı olmayan) insanın bu və ya digər orqanı müsəlmanın bədəninə transplantasiya olunduqda əməliyyatdan sonra müsəlmanın bədən üzvü sayılması ilə pak olurmu?

Cavab: Müsəlman olub-olmamasından asılı olmayaraq insanın bədənindən ayrılan, yaxud kəsilən istənilən orqan nəcis hesab olunur. Lakin kəsilən orqan müsəlman və ya bu məsələdə müsəlmanla eyni hökmün şamil olunduğu bir şəxsə transplantasiyasından nəticəsində ölü orqanın köçürüldüyü orqanizmdə yeni bir həyat qazanmasından sonra pak hesab olunur.

Məsələ 366. Şəkərli diabetin müalicəsində istifadə olunan insulin preparatlarının bir qismi donuzun mədəaltı vəzindən alınır. Sözügedən preparatlardan istifadə edə bilərikmi?

Cavab: Həmin preparatların əzələ, damar, yaxud dəri altına inyeksiyasına (iynə ilə vurulmasına) heç bir məhdudiyyət qoyulmur.

Məsələ 367. Donuzun qaraciyərinin insan orqanizminə transplantasiyasına şəriətin münasibəti necədir?

Cavab: Donuzun qaraciyərinin insan bədəninə köçürülməsinə icazə verilir. Allah (hər şeyi) biləndir.

Məsələ 368. Kişi (sperma) və qadın (yumurta) cinsi hüceyrələrinin laboratoriya şəraitində mayalandırılması nəticəsində yaranan embrionların uşaqlığa transferi ilə gerçəkləşdirilən süni mayalanma əməliyyatlarına şəriətin münasibəti necədir?

Cavab: Bu əməliyyat öz-özlüyündə (haramlaşmasına səbəb ola biləcək əlavə amillərin mövcud olmadığı təqdirdə) yasaq deyil.

Məsələ 369. Bəzi irsi xəstəliklər atadan övlada keçərək onların gələcək sağlamlığına qarşı təhlükə riski yaradırlar. Müasir tibb həmin xəstəliklərin bir qisminin irsi yolla dünyaya gələcək övladlara keçməsinin qarşısını almaq üçün bir çıxış yolu tapmışdır. Bu, repreduktiv hüceyrələrin (sperma və yumurta hüceyrələrinin) sınaq borusunda dölləndirilərək alınan embrionların (rüşeymlərin) ən sağlam inkişaf edəninin seçilərək (digər embrionlar isə həkim tərəfindən məhv edilir) ana bətninə yerləşdirilməsindən ibarət olan süni mayalandırma əməliyyatıdır. Şəriət bu əməliyyatın icrasına icazə verirmi?

Cavab: Bu əməliyyata öz-özlüyündə (haramlaşmasına səbəb ola biləcək əlavə amillərin mövcud olmadığı təqdirdə) heç bir məhdudiyyət qoyulmur.

Məsələ 370. Sınaq borusunda həyata keçirilən süni mayalandırma əməliyyatı nəticəsində bəzən alınan çoxsaylı embrionların hamısının ana bətninə yerləşdirilməsi ananın həyatını və ya sağlamlığını təhlükə qarşısında qoyur. Bunu nəzərə alaraq həmin embrionlardan yalnız birini seçə, digərlərini isə məhv edə bilərikmi?

Cavab: Sınaq borusunda əldə edilən embrionların bətn daxilinə ötürülməsi (embrion transferi) vacib deyil. Beləliklə, sualda qeyd olunan halda onların birinin seçilərək digərlərinin məhv edilməsinə şəriət tərəfindən əngəl yoxdur.

Məsələ 371. Üzdə və ya bədənin müxtəlif yerlərində estetik əməliyyatların həyata keçirilməsinə icazə verilirmi?

Cavab: Əməliyyat əsnasında haram toxunuş və baxışlardan qorunmaq şərtilə icazə verilir.

QİÇS (Qazanılmış İmmun Çatışmazlığı Sindromu, ingiliscə: AİDS) günümüzdə bəşəriyyətin üzləşdiyi ən təhlükəli xəstəliklərdən biridir. Hesablamalara əsasən, 1996-cı ildə dünyanın müxtəlif ölkələrində bu xəstəliyə yoluxanların sayı 8 milyon çatmışdır. 22 milyon nəfər isə İİV (İnsanın İmmunçatışmazlığı Virusu, ingiliscə: HİV) virusunun daşıyıcısıdır. Son statistik məlumatlar göstərir ki, təkcə 1996-cı il ərzində bu xəstəlikdən dünyasını dəyişənlərin sayı 1,5 milyon nəfər olmuşdur. Ümumdünya Səhiyyə Təşkilatının 1 dekabr 1996-cı il tarixində "Ümumdünya QİÇS-lə mübarizə günü" münasibəti ilə açıqladığı məlumatlara əsasən isə həmin tarixədək sözügedən virusun qurbanlarının sayı 6 milyona çatmışdır.

Mütəxəssislərə görə, QİÇS xəstəliyinə yoluxma əsasən üç yolla baş verə bilər:

a) heteroseksual (əks cinsin nümayəndəsi ilə) və homoseksual (eyni cinsin nümayəndəsi ilə) cinsi əlaqə yolu ilə - bu ən təhlükəli və ən çox rast gəlinən yoluxma halıdır, belə ki, bu yolla yoluxma halları 80%-ə çatır;

b) içərisində virus olan qanın və ya qan preparatlarının sağlam adama köçürülməsi və ya virusla imfeksiyalaşmış iynə ilə sağlam adama damardaxili inyeksiyalar zamanı;

c) tranplasentar yolla - xəstəliyin xəstə anadan bətndaxili dövrdə (hamiləlik) cift vasitəsilə dölə və ya doğuş əsnasında keçməsi yeni dünyaya gələn körpəyə keçməsi ilə.

Araşdırmalar göstərir ki, bütün ölkələrdə bu ölümcül xəstəliyə yoluxan insanlar yaşayır və heç bir xalq bu xəstəlikdən sığortalanmamışdır. Həmçinin, araşdırmaların nəticələrinə əsasən, sözügedən xəstəliyin daşıyıcılarının sayı günü-gündən artmaqdadır və onların böyük əksəriyyətini kişilər təşkil edir. Bununla yanaşı məlum olmuşdur ki, QİÇS xəstəliyinə yoluxma hallarının artması son dövrlərdə qismən azalan bir sıra xəstəliklərin, o cümlədən ağciyər vərəminin artmasına gətirib çıxarmışdır.

QİÇS haqqında ümumi məlumatdan sonra bir sıra aktual suallara Həzrət Ayətullah əl-uzma Sistaninin cavablarını nəzərinizə çatdırırıq:

Məsələ 372. QİÇS-ə yoluxanların təcrid olunması ilə bağlı şəriətin hökmü nədən ibarətdir? Onların özlərini, yaxud ailə üzvlərinin həmin şəxsləri cəmiyyət həyatından təcrid etməsi vacibdirmi?

Cavab: QİÇS-ə yoluxanların nə özləri, nə də başqa şəxslər tərəfindən cəmiyyətdən təcrid olunması vacib deyil, əksinə yoluxdurma təhlükəsi olmadığı halda onların məscidlərə və eləcə də digər ictimai məkanlara girişinin yasaqlanması yolverilməzdir. Bununla belə, yoluxmanın qaçılmaz olduğu, yaxud ehtimal edildiyi məqamlarda profilaktik tədbirlərə riayət olunması vacibdir.

Məsələ 373. QİÇS xəstəliyini (İİV virusunu) qəsdən yoluxdurma ilə bağlı şəriətin hökmü nədən ibarətdir?

Cavab: Bu yolverilməz hesab olunur və yoluxan şəxsin ölümü ilə - hətta uzun müddətdən sonra baş versə belə - nəticələnərsə, yoluxduran şəxs yoluxmaya səbəb olan iş (məsələn, cinsi əlaqə, yaxud inyeksiya) əsnasında həmin hadisənin ölümlə nəticələnə biləcəyindən xəbərdar olduğu halda ölən şəxsin vəlisi qisas tələbi ilə çıxış edə bilər. Lakin yoluxduranın ölüm təhlükəsindən xəbərsiz olduğu, yaxud yoluxmaya və ölümə səbəb olan hadisə əsnasında unutduğu halda isə yalnız diyə (qanbahası) və kəffarə ödəməlidir.

Məsələ 374. QİÇS xəstəliyinin daşıyıcısı olan bir şəxs sağlam bir insanla ailə həyatı qura bilərmi?

Cavab: Evlənə bilər. Lakin həmin şəxsin öz xəstəliyindən xəbərdar olduğu halda elçilik və nikah əsnasında özünü sağlam insan kimi təqdim etməsinə icazə verilmir. Həmçinin, evləndikdən sonra yoluxma ilə nəticələnəcəyi halda həyat yoldaşı ilə cinsi əlaqədə olmasına da icazə verilmir. Bununla belə, yoluxmanın baş verəcəyinə əmin olmadıqları, bunun sadəcə bir ehtimal olduğu və qarşı tərəfin də etiraz etmədiyi hallarda cinsi əlaqədən imtina etmək vacib sayılmır.

Məsələ 375. İİV virusunun daşıyıcıları olan iki şəxsin evlənməsinə şəriətin münasibəti necədir?

Cavab: Qadağan edilmir, lakin cinsi əlaqə onların xəstəliyinin təhlükəli dərəcəyə çatmasına səbəb ola bilərsə, cinsi əlaqədən imtina etməlidirlər.

Məsələ 376. QİÇS xəstəliyinin daşıyıcısı olan şəxslə cinsi əlaqədə olmaqla bağlı şəriətin hökmü nədən ibarətdir. Sağlam şəxsin cinsi əlaqənin QİÇS-in əsas yoluxma vasitələrindən biri olduğunu nəzərə alaraq həyat yoldaşı ilə cinsi əlaqədən imtina etməyə haqqı varmı?

Cavab: Sağlam qadın özünün də yoluxması ilə nəticələnə biləcəyi halda (hətta sadəcə bir ehtimala əsaslansa belə) QİÇS xəstəliyinə yoluxan həyat yoldaşının onunla cinsi əlaqədə olmasına icazə verməyə bilər. Hətta belə hallarda qadının cinsi əlaqədə olmaqdan imtina etməsi vacibdir.

Lakin prezervativ, yaxud digər qoruyucu vasitələrdən istifadə etməklə yoluxma ehtimalını diqqətə alınmayacaq dərəcədə (məsələn, 2%-ə kimi) azaltmaq mümkündürsə, cinsi əlaqədə ola bilər və hətta ehtiyata əsasən, bu halda ərinin onunla cinsi əlaqədə olmasına əngəl törətməsinə icazə verilmir.

Bu hökmlə QİÇS xəstəliyinin daşıyıcı olan qadınla nikahda olan kişilərlə bağlı hökm də aydınlığa qovuşur. Beləliklə, aqillərin önəm verdiyi dərəcədə ciddi bir yoluxma ehtimalı mövcud olduğu halda sağlam kişinin xəstəliyin daşıyıcısı olan həyat yoldaşı ilə cinsi əlaqədə olmasına icazə verilmir. Digər tərəfdən isə yoluxmanın qarşısının alınmasını təmin edən vasitələrdən (prezervativlərdən və s.) istifadənin mümkünlüyü istisna olmaqla, həyat yoldaşı qarşısında "cinsi əlaqədən dörd aydan artıq müddət ərzində imtina etməmə" vəzifəsi də qüvvədən düşmüş sayılır.

Məsələ 377. Ailədə tərəflərdən birinin QİÇS xəstəliyinin daşıyıcısı olduğu halda qarşı tərəfin (ər və ya arvadın) ayrılma tələbi ilə çıxış etməyə haqqı varmı?

Cavab: Elçilik, yaxud nikah əsnasında aldatma və ya yanıltma məqsədilə tərəflərdən biri özünü sağlam insan şəxs kimi təqdim edərsə və nikah anlaşması da hər iki tərəfin sağlamlığına əsaslanaraq baş tutarsa, vəziyyət aydınlaşdıqdan sonra aldadılan şəxs nikahın etibarsız sayılmasını tələb etmək hüququna malikdir. Kişi evləndiyi qadının sağlam olduğunu düşündüyü halda sadəcə qadının və onun vəlisinin sükut edərək xəstəliklə bağlı onu məlumatlandırmaması nəticəsində

kişiyə nikahı pozmaq hüququ verilmir. Məqsədli şəkildə aldatma və ya yanıltmanın baş vermədiyi, yaxud xəstəliyin nikahdan sonra qazanıldığı halda isə sağlam ər xəstəliyin daşıyıcısı olan arvadını boşamaq hüququna malikdir.

Sağlam qadının cinsi əlaqədən məhrum olma kimi səbəblərlə QİÇS xəstəliyinin daşıyıcısı olan ərindən boşanmaq tələbinin haqlı sayılıb-sayılmamasına gəlincə, burada iki nəzər mövcuddur və istənilən halda ehtiyatın tələbinə riayət etmək lazımdır. Əlbəttə, əgər əri ondan tamamilə uzaqlaşaraq onu çıxılmaz vəziyyətdə qoymuşsa (qadın nə evli, nə də subay sayılmayaraq ailə və intim həyatından məhrum qalmışsa), ərini icbari tədbirlərlə iki seçim qarşısında qoyaraq ya boşanmağa, ya da həyat yoldaşı ilə birgə həyatına qayıtmağa məcbur etməsi üçün şəriət hakiminə müraciət edə bilər.

Məsələ 378. Ər QİÇS xəstəliyinin daşıyıcısı olduğu halda qadının boşanması ilə bağlı şəriətin hökmü nədən ibarətdir?

Cavab: Öncəki sualın cavabına müraciət edin.

Məsələ 379. QİÇS xəstəliyinin daşıyıcısı olan qadın abort etdirə bilərmi?

Cavab: Abort, xüsusilə də, ruhun rüşeymə daxil olmasından sonrakı mərhələdə yolverilməzdir. Lakin ana üçün ciddi təhlükə riski daşıdığı halda ruhun rüşeymə daxil olmasına qədər aborta icazə verilir.

Məsələ 380. QİÇS daşıyıcısı olan ananın yeni dünyaya gələn sağlam övladını böyütmək hüququna və onu öz südü (ağuz və ya yetkin süd ilə) qidalandırmasına şəriətin münasibəti necədir?

Cavab: Ananın övladına baxmaq, onu böyütmək hüququ qorunur. Lakin süd vəzilərindən birbaşa əmizdirmə yolu ilə xəstəliyin keçmə ehtimalının (ciddi ehtimalın) mövcud olduğu halda yoluxmanın qarşısını almaq üçün lazımı tədbirlərin görülməsi labüddür.

Məsələ 381. QİÇS-i ölüm xəstəliyi adlandırmaq olarmı?

Cavab: Uzun sürən xəstəliklərdən olduğundan bu xəstəliyin yalnız ölümdən bilavasitə öncəki iztirablar, immun sisteminin tamamilə zəifləməsi və ölümcül nevroloji simptomların üzə çıxması ilə müşayiət olunan son mərhələsini ölüm xəstəliyi hesab etmək olar.

Məsələ 382. Həkimə QİÇS xəstəliyinə yoluxan xəstəsinin vəziyyəti ilə maraqlanan şəxsləri, o cümlədən həyat yoldaşını onun bu xəstəliyin daşıyıcısı olması ilə bağlı məlumatlandırması doğrudurmu, yaxud vacibdirmi?

Cavab: Xəstə və ya onun vəlisinin icazəsi ilə məlumatlandıra bilər. Xəstənin həyatının xilas edilməsi, yaxud hətta bir qədər daha artıq yaşaması belə buna bağlı olarsa, onun vəziyyəti ilə bağlı yaxınlarını məlumatlandırması vacibdir. Həmçinin, onları məlumatlandırmadığı halda bu, yoluxmadan qorunmaq üçün zəruri ehtiyat tədbirlərini həyata keçirməyəcəklərinə görə onların da xəstəliyin daşıyıcısına çevrilməsinə səbəb olacaqsa, bu halda da həmin şəxslərin məlumatlandırılması vacibdir. Allah (hər şeyi) biləndir.

Məsələ 383. Müsəlman kişi yoluxucu QİÇS xəstəliyinin daşıyıcısı olduğunu bildiyi halda həyat yoldaşı ilə cinsi əlaqədə ola bilərmi və onu bununla bağlı məlumatlandırması vacibdirmi?

Cavab: Əgər cinsi əlaqə yolu ilə xəstəliyin keçəcəyinə əmindirsə, yaxud yoluxma ilə bağlı ciddi bir ehtimal mövcuddursa, cinsi əlaqəyə heç bir vəchlə icazə verilmir.

## YEDDİNCİ FƏSİL
## AİLƏ HƏYATI VƏ NİKAH

İslam şəriətində kişi-qadın münasibətləri bu münasibətlərin həyati önəm kəsb edən müxtəlif aspektlərini işıqlandıran, onları fərdi və ictimai həyata birbaşa təsirləri olan bir ehtiyac və zərurət kimi qəbul edərək təfərrüatlarını və xüsusiyyətlərini əhatə edən özünəməxsus şəriət hökmləri ilə tənzimlənir. Sözügedən şəriət hökmləri olduqca müfəssəl mövzuları əhatə edir. Lakin biz burada yalnız qeyri-müsəlman ölkələrində yaşayan müsəlmanları maraqlandıran və onların bilməli olduqları praktik əhəmiyyətli şəriət hökmlərini qeyd etməyi məqsədəuyğun görürük:

Məsələ 384. Ailə həyatı qurmaq İslam şəriətində ən təqdirəlayiq addımlardan biridir. Allahın elçisi (s) buyururdu: “Evlənən şəxs dininin (imanının)

yarısını qoruyur”.[1] Başqa bir kəlamında isə belə buyururdu: “Kim mənim həyat yolumu mənimsəmək istəyirsə, bilsin ki, evlənmək mənim sünnəmdəndir”.[2] Sevimli Peyğəmbərimizin (ə) başqa bir hədisində oxuyuruq: “Müsəlman kişilər üçün İslamdan (müsəlman olmaqdan) sonra üzünə baxarkən sevindiyi, istək və göstərişlərini nəzərə alan və yoxluğunda onun namusunu qoruyan həyat yoldaşından daha üstün bir uğur tanımıram”.[3]

Məsələ 385. Müsəlman kişi evlənmək niyyətində olduğu qadının şəxsi keyfiyyətlərinə diqqət yetirməli və yalnız ona dünya və axirət həyatında yoldaş ola biləcək əxlaqlı, əsil-nəcabətli və əməlisaleh bir qadınla ailə həyatı qurmalıdır. Həyat yoldaşı seçimində yalnız zahiri gözəlliyi və maddi durumu nəzərə almaq müsəlman kişiyə yaraşmaz. Sevimli Peyğəmbərimiz (s) nəsihətlərindən birində buyurmuşdu: “Ey insanlar! Bataqlıqda bitən güldən uzaq durun!” Səhabələri nəyi nəzərdə tutduğunu soruşduqda isə belə cavab vermişdi: “Xoşagəlməz mühitdə böyüyən gözəl qadını nəzərdə tuturam”.[4]

Məsələ 386. Müsəlman qadın və onun vəlisi (himayəsində yaşadığı şəxs) də həmin qadınla ailə həyatı qurmaq istəyən kişinin şəxsi keyfiyyətlərini nəzərə almalı və yalnız imanlı, əxlaqlı, şərab içməyən, xoşagəlməz işlərdən və böyük günahlardan uzaq olan bir kişi ilə evliliyə razılıq verməlidirlər.

Məsələ 387. İmanlı və əxlaqlı (maddi durumu etibarı ilə zəngin olmasa belə, mənəviyyatı zəngin olan) elçiyə rədd cavabı verməmək təqdirəlayiq bir hərəkətdir. Allahın elçisi (s) buyurardı: “Qapınıza xarakteri və mənəviyyatı sizi qane edən bir şəxs elçi gələrsə, ona rədd cavabı verməyin. Əks təqdirdə bunun nəticəsi olaraq cəmiyyətdə fitnə və ciddi fəsadlar yarana bilər”.[5]

---

[1] Vəsail əş-şiə, c.20, səh.17.

[2] Vəsail əş-şiə, c.20, səh.18.

[3] Minhac əs-salihin (Ayətullah əl-uzma Sistani), əl-Müamilat, II cild, səh.7.

[4] Vəsail əş-şiə, c.20, səh.35.

[5] Təhzib əl-əhkam, c.7, səh.395.

Məsələ 388. Bir cütlüyün ailə həyatı qurmasına yardım və vasitəçilik etmək, tərəfləri razı salmağa çalışmaq bəyənilən əməllərdəndir.

Məsələ 389. Kişinin nişandan öncə evlənmək niyyətində olduğu qadının gözəlliyinə baxmağa və onunla ünsiyyət qurmağa haqqı çatır. Bu məqsədlə ona ehtiraslanma niyyəti olmadan həmin qadının üzünü, saçını, boynunu, əllərini, qollarını və ayaqların (budlarını) və bədəninin digər gözəl hissələrini görməyə icazə verilir.

Məsələ 390. İslam şəriətində iki növ izdivac mövcuddur: daimi və müvəqqəti.

Daimi evlilik müddətsiz nikah müqaviləsidir və bu evlilikdə qadın daimi həyat yoldaşı adlanır.[1]

Müvəqqəti evlilik isə müddətli (məsələn, tərəflər arasında bir il, yaxud bir qədər az və ya artıq müddətə razılaşdırılan) evlilikdir və bu evlilik münasibətində qadın müvəqqəti arvad adlandırılır.[2]

Məsələ 391. Daimi evlilik anlaşmasında şəriət şifahi surətdə qadının evlənməyə hazırlaşdığı şəxsə "... mehriyyə (nöqtələrin yerinə mehriyyənin[3] dəyəri qeyd edilməlidir) ilə səninlə evliliyə (nikaha) razı oldum", kişinin isə fasilə vermədən "bu evliliyə razı oldum" deməsini tələb edir.

Müvəqqəti evlilik anlaşmasında isə qadın "... mehriyyə ilə səninlə ... müddətə (mehriyyənin dəyəri kimi müvəqqəti evlilikdə müddət də şifahi anlaşmada dəqiq şəkildə ifadə olunmalıdır) evliliyə razı oldum", kişi də dərhal "bu evliliyə razı oldum" deməlidir.

---

[1] Ailə quruculuğu ilə bağlı məsələlər və evliliyin şəriət hökmləri ilə əlaqədar daha ətraflı məlumat almaq üçün Seyid İzzəddin Bəhrülulumun "əz-Zəvac fil-Quran vəs-sünnə" (Quran və sünnədə evlilik) adlı əsərinə müraciət edin.

[2] Müvəqqəti evliliyin xüsusiyətləri və onunla bağlı şəriət hökmləri ilə daha ətraflı tanış olmaq üçün Seyid Məhəmmədtəqi əl-Həkimin "əz-Zəvac əl-muəqqət və davruhu fi həlli muşkilat əl-cins" (Müvəqqəti evlilik və onun cinsi problemlərin həllində rolu) adlı əsərinə müraciət edin.

[3] Bir sıra əsər, məqalə və KİV səhifələrində öz əksini tapan və eləcə də cəmiyyətimizdə formalaşan təsəvvürə görə mehriyyə xalqımızın qədim adət-ənənələrindən olan "başlıq pulu" və ya "süd haqqı" kimi anlayışlarla eyniləşdirilir. Lakin İslam şəriətində vacib hesab edilən mehriyyə ailə həyatı quran qadının valideynlərinə, ya da başqa bir şəxsə deyil, bilavasitə onun özünə verilir və şəxsi mülkiyyəti hesab edilir. Mehriyyəni həm də boşandığı və ya dul qaldığı halda qadının yeni evliliyə qədər özünün və övladlarının maddi ehtiyaclarını təmin edə bilmək üçün minimum kompensasiya kimi də qəbul etmək olar. *Tərcüməçinin qeydi.*

Məsələ 392. Evlənən cütlük şifahi evlilik anlaşmasını bilavasitə və ya vəkalət yolu ilə həyata keçirə bilərlər. Bu anlaşmaya kiminsə şahidlik etməsi vacib deyil. Həmçinin, ruhani və ya ilahiyyatçı alimin də iştirakı anlaşmanın doğruluğu üçün şərt hesab edilmir.

Məsələ 393. Şifahi anlaşmanı ərəb dilində ifadə edə bilməyənlər hətta ərəb dilini bilən vəkil tutmaq imkanı olduğu halda belə anlaşmanın mətnini tərəflərin hər ikisinin başa düşdüyü bir dildə ifadə edə bilərlər.

Məsələ 394. Müsəlman kişilərə yəhudi və ya xristian qadınla müvəqqəti evliliyə icazə verilir. Lakin vacib ehtiyata əsasən, müsəlman kişilər qeyri-müsəlman qadınlarla daimi nikaha daxil olmamalıdırlar. Kitab əhli olmayan (heç bir səmavi kitaba inanmayan) kafir qadınla evliliyə isə heç bir vəchlə (nə daimi, nə də müvəqqəti) evliliyə icazə verilmir. Həmçinin, vacib ehtiyata əsasən, məcusi qadınla da hətta müvəqqəti evlilikdən də imtina etmək lazımdır.

Müsəlman qadınların isə qeyri-müsəlman kişilərlə evlənməsi qətiyyən yolverilməzdir.

Məsələ 395. Şəriətimizə görə müsəlman olub-olmamasından asılı olmayaraq müstəqil həyata addım atmayan, şəxsi həyatı ilə bağlı qərarları müstəqil surətdə qəbul və icra edə bilməyən bakirə qızların nikaha daxil olması üçün atalarının, yaxud ata tərəfdən babalarının razılığı şərtdir. Vacib ehtiyata əsasən, hətta onların himayəsində yaşamayan, müstəqil qərarlar qəbul edə bilən qadınlar da onlardan (ata və babasından) birinin razılığını əldə etməlidir. Qardaş, ana, bacı kimi digər qan qohumlarının razılığı isə şərt hesab edilmir.

Məsələ 396. Həddi-buluğa çatan, yetişkin, lakin bakirəliyini itirməyən qızın evlənməsi üçün onu şəriət və ictimai baxış etibarilə özünə tay (uyğun hayat yoldaşı) ola biləcək bir şəxslə evlənməsinə mane olduqları, yaxud onun evliliyinə ümumiyyətlə qarışmaq niyyətində olmadıqları və ya itkin düşmə kimi hallarla əlaqədar olaraq icazələrini, razılıqlarını əldə etməyin mümkün olmadığı halda ata və ya ata tərəfdən olan babanın razılığı şərt hesab edilmir.

Məsələ 397. Bakirə olmayan, daha öncə şəriətin məqbul hesab etdiyi bir evlilik həyatı yaşayan və həmin evlilik əsnasında cinsi əlaqə nəticəsində

bakirəliyini itirən qadınla evlənmək üçün isə onun atasının və ya ata tərəfdən olan babasının razılığını almağa gərək yoxdur. Bakirəliyini zina, yaxud başqa bir yolla itirən qadınlar üçün isə bakirələrin evliliyi ilə bağlı hökm (ata və ya ata tərəfdən olan babanın razılığı şərti) qüvvədədir.

Məsələ 398. Əhalisinin əksəriyyətini ateistlərin və kitab əhli olan digər dinlərin ardıcıllarının təşkil etdiyi ölkələrdə müsəlmanlara vacibdir ki, evlənmək istədikləri qızlardan, qadınlardan onların etiqadı haqqında məlumat alsınlar və onlarla evlənməyin doğru olub-olmadığını aydınlaşdırmaq üçün Tanrının varlığına inanıb-inanmadıqlarını öyrənsinlər. Bu xüsusda onların etiqadları il bağlı verdikləri şəxsi məlumatlar əsas götürülür.

Məsələ 399. Müsəlman qadınla evli olan müsəlman kişiyə həyat yoldaşının razılığı olmadan kitab əhli sayılan yəhudi və xristian bir qadınla ikinci ailə həyatını qurmasına icazə verilmir. Vacib ehtiyata əsasən, müsəlman kişi kitab əhli olan qadınlarla hətta müsəlman həyat yoldaşının razılığı olsa belə, müvəqqəti evlilikdən də çəkinməlidir. Bu hökm həyat yoldaşının onunla birgə (yanında) yaşayıb-yaşamamasından asılı olaraq dəyişmir.

Məsələ 400. Müsəlman kişilərə hətta müsəlmanlarla müharibə vəziyyətində olan dövlətlərin vətəndaşı olan kitab əhli olan yəhudi və xristian qadınlarla belə nikahdankənar cinsi əlaqədə olmağa icazə verilmir.

Məsələ 401. Vacib ehtiyata əsasən, zinakarlıqla məşhur olan qadınla tövbə etməyincə evlənməkdən çəkinmək lazımdır. Həmçinin, vacib ehtiyata əsasən, zina edən kişi zina etdiyi qadınla da yalnız onun tövbə etməsindən sonra evlənə bilər.

Məsələ 402. Müsəlman olmayan cütlüyün izdivacı onların öz din və ənənələrinə əsasən doğru sayılarsa, sözügedən nikah bizim şəriətimiz tərəfindən də məqbul hesab edilir. Bu məsələdə onların hər ikisinin xristian və yəhudi kimi kitab əhli, yaxud kitab əhli olmayan fərqli etiqadın mənsubları olmasının və ya cütlüyün bir üzvünün kitab əhli olmasının, digərinin isə kitab əhli olmamasının heç bir fərqi yoxdur. Hətta onların hər ikisi eyni anda İslamı qəbul etsələr, nikahları qüvvədə qalır və nikah anlaşmasını dinimizə, şəriətimizə müvafiq qaydada yeniləməyə də ehtiyac yoxdur.

Məsələ 403. Avropa, Amerika və eləcə də bir sıra digər ölkələrdə müşahidə etdiyimiz ənənəyə uyğun olaraq ata 18 yaşına çatdıqda qəyyumluq haqqını qızının üzərindən götürərək ona həyatı ilə bağlı müstəqil surətdə qərarlar qəbul etməyə, eləcə də bu qərarları icra etməyə icazə verərsə, qəyyumluq qüvvədən düşmüş sayılır və həmin qız onun izni və razılığı olmadan da nikaha daxil ola bilər.

Məsələ 404. Ər və arvad bir-birinin bütün daxili və xarici bədən üzvlərinə, hətta cinsiyyət orqanlarına belə istər şəhvət hissi ilə, istərsə ehtirassız baxa və toxuna bilər.

Məsələ 405. Daimi evlilikdə arvadın yaşayış ehtiyaclarının (nəfəqəsinin) təmin edilməsi kişinin vəzifəsidir. Belə ki, şəriət tərəfindən ərinə itaət etməsi (burada: onunla razılaşması) vacib edilən məqamlarda ona qarşı çıxmazsa, ər də öz növbəsində maddi durumunun (rifah səviyyəsinin) həyat yoldaşını qida, geyim, habelə kondisioner, xalça və mebellə təchiz edilmiş ev kimi zəruri yaşayış ehtiyacları ilə təmin etməyə imkan verdiyi çərçivədə onu sadalananlarla təmin etməyə borcludur. Qeyd emək lazımdır ki, şəriətdə nəzərdə tutulan nəfəqə təminatının məzmunu zaman, ictimai mühit və mövcu iqtisadi-sosial münasibətlər kimi amillərdən asılı olaraq dəyişə bilər.

Məsələ 406. Ər onunla birgə səfərə çıxan həyat yoldaşının da səfər xərclərini ödəməlidir. Həmçinin, arvadın təkbaşına gerçəkləşdirdiyi zəruri və yaşayış ehtiyaclarının tərkib hissəsi olan səfərlərin, məsələn müalicə məqsədilə gerçəkləşdirdiyi zəruri səfərin, habelə müalicə prosedurunun da bütün xərclərini ödəmək kişiyə vacibdir.

Məsələ 407. Gənc həyat yoldaşı ilə dörd aydan artıq müddət ərzində cinsi əlaqədən imtina etmək üzürlü səbəblər, o cümlədən cinsi əlaqənin onlardan biri və ya hər ikisi üçün zərərli olması, yaxud həyat yoldaşının cinsi əlaqənin baş verməməsinə razı olması və ya bunun nikah anlaşmasının şərtlərindən biri olması kimi hallar istisna olmaqla, yolverilməzdir. Ehtiyata əsasən, bu hökm yalnız daimi evliliyə şamil olunmayaraq müvəqqəti evliliyi də əhatə edir.

Həmçinin, ehtiyata əsasən, bu hökm yalnız öz vətənində olanları əhatə etməyərək səfərdə olanlara da şamil olunur. Beləliklə, ər şəriətin üzürlü hesab

etdiyi hallar istisna olmaqla, həyat yoldaşının hüquqlarının pozulması ilə nəticələnəcəyi halda xüsusilə də ürfün nəzərincə zərurətdən irəli gəlməyən uzun müddətli səfərlərdən, o cümlədən əyləncə və gəzinti məqsədlərilə gerçəkləşdirilən turist səfərlərindən imtina etməlidir.[1]

Məsələ 408. Müsəlman qadının kafir kişi ilə nə daimi, nə də müvəqqəti nikaha daxil olmasına icazə verilmir.[2]

Məsələ 409. Ər arvadına şəriət tərəfindən dözülməz hesab edilən şəkildə əziyyət edərsə, zorakılığa məruz qoyarsa, o, ərinə onunla xoş davranmalı olduğunu xatırlatması üçün şəriət hakiminə müraciət edə bilər. Şəriət hakiminin tənbehləri təsir etmədiyi halda o, əri cəzalandıra bilər. Cəza tədbiri də nəticə vermədiyi halda isə qadın boşanma tələbi ilə çıxış edə bilər. Nəhayət, əri onu boşamaq istəmədiyi və bütün tədbirlərin də nəticəsiz qaldığı halda şəriət hakimi qadını ərindən boşaya bilər.[3]

Məsələ 410. Süni mayalanma əməliyyatlarında haram hesab olunan hallara yol verilməzsə, o cümlədən qadınların baxılması haram olan bədən üzvlərinə baxılmazsa, qadının yumurtahüceyrələrinin öz ərinin sperması ilə süni yolla mayalandırılmasına icazə verilir.

Məsələ 411. Ərinin razılığının olub-olmamasından asılı olmayaraq qadına onun sağlamlığı üçün ciddi təhlükə törətməməsi şərtilə hamiləliyin qarşısını alan dərman preparatlarını qəbul etməyə icazə verilir.

Məsələ 412. Qadın sağlamlığına qarşı ciddi təhlükə riski daşımadığı halda uşaqlıqdaxili vasitə (UDA) və eləcə də digər kontrasepsiya (hamiləliyin qarşısını alma) vasitələrindən istifadə edə bilər. Lakin spiralın yerləşdirilməsi prosesində kişi həkimin qadının onun tərəfindən görülməsi haram olan bədən üzvlərinə baxması və toxunması, eləcə də qadın həkim pasientin cinsiyyət orqanına birbaşa baxması və əlcəksiz toxunması haram hesab olunur. Həmçinin, spiral döllənmədən

[1] Minhac əs-salihin, əl-Muamilat, 2-ci cild, səh.10-11.

[2] Öncəki mənbə, səh.67.

[3] Öncəki mənbə, səh.109.

sonra embrionun məhvinə (özbaşına abort, düşmə və s. nəticəsində) səbəb olmamalıdır.

Məsələ 413. Qadın bətnindəki körpəni ruh onun bədəninə daxil olduqdan sonra heç bir vəchlə abort yolu ilə saldıra bilməz. Lakin hamiləliyin davam etdirilməsinin qadının sağlamlığı üçün ciddi təhlükə və ya dözülməz çətinliklər törədə biləcəyi hallarda ruhun daxil olmasından öncə abort etdirmək olar.

Məsələ 414. Uşaqsalma qadının özü tərəfindən həyata keçirilərsə, onun diyə ödəməsi vacibdir. Həmçinin, abort gələcək körpənin atası və ya üçüncü bir şəxs (o cümlədən həkim) tərəfindən həyata keçirildiyi halda da onlar diyə ödəməlidirlər. Bu mövzu ilə bağlı əməliyyə risalələrində və eləcə də digər fiqh ədəbiyyatında müfəssəl surətdə öz əksini tapan bir sıra hökmlər vardır.[1]

**Sual-cavablar:**

Məsələ 415. Xümsün imama aid olan hissəsini qərb ölkələrində yaşayan mömin bir gəncin ailə həyatı qurmasına yardım üçün sərf etmək olarmı? Bunu da nəzərə almaq lazımdır ki, həmin ölkələrdə yaşayan müsəlmanların ödədiyi iri məbləğli xüms ödənişləri hesabına müxtəlif müsəlman ölkələrində yaşayan bir neçə aztəminatlı mömini evləndirmək mümkündür. Beləliklə, xümsün sözügedən hissəsindən faydalanmağa haqqı olan bir deyil, daha artıq insanın faydalanması daha yaxşı olmazdımı?

Cavab: Ehtiyac sahibi olan möminlərin evləndirilməsi xümsün imama aid olan hissəsinin xərc istiqamətlərindən biri olsa da, həmin rüsumlar bu və eləcə də şəriətdə nəzərdə tutulan digər istiqamətlərdə xərclənməsi yalnız mərcəi-təqlidin və ya onun vəkilinin icazəsi əsasında həyata keçirilməlidir. Həmin dini rüsumlarla mümkün qədər daha artıq möminin evləndirilməsi vacib hesab edilmir. Vacib olan onların sərf olunmasında prioritet (önəmlilik dərəcəsi) ardıcıllığına riayət etməkdir. Bu isə şəraitdən asılı olaraq dəyişən bir vəziyyətdir.

Məsələ 416. Qeyri-ərəb müsəlmanların "əqd siğəsi" adlanan şifahi nikah anlaşmasını onun sözlərinin ayrı-ayrılıqda ifadə etdiyi mənanı bilmədiyi halda ərəb

---

[1] Bax: Minhac əs-salihin, əl-Muamilat, c.2, səh.136-137; əl-Məail əl-muntəxəbə, səh.385-419.

dilində tələffüz etməsi kifayətdirmi? Nəzərə almaq lazımdır ki, onlar bu sözləri tələffüz etməkdə məqsədlərinin şəriətdə nəzərdə tutulan şifahi nikah anlaşmasını həyata keçirmək olduğunu bilirlər. Ümumiyyətlə, "əqd siğəsinin" ərəb dilində oxunması vacibdirmi, yəni başqa dildə ifadə etmək olmazmı?

Cavab: "Əqd siğəsi"nin ümumi məzmununu başa düşmək və tələffüz əsnasında diqqət mərkəzində saxlamaq kifayətdir və ehtiyata əsasən, şifahi nikah anlaşmasının başqa dillərdə icra edilməsi doğru hesab edilmir.

Məsələ 417. Şifahi nikah anlaşmasını telefon əlaqəsi ilə həyata keçirmək doğru hesab olunurmu?

Cavab: Doğru hesab edilir.

Məsələ 418. Telefon, faks, yaxud məktub vasitəsilə şahidlik etmək (məhkəmədə şahid kimi ifadə vermək) mümkündürmü?

Cavab: Şəriət baxımından yalnız hakimin hüzurunda verilən şahid ifadəsi üçün nəzərdə tutulan hüquqi nəticələr qüvvəyə minir, lakin şahid ifadəsinin açıqlanmasına gəlincə, bu məqsədlə yanıltma və saxtakarlıq hallarına yol verilməməsi şərtilə sözügedən kommunikasiya vasitələrindən istifadə eedilməsinə də icazə verilir.

Məsələ 419. Evlənmək istədiyimiz qızın bədəninin cinsiyyət üzvü istisna olmaqla digər yerlərinə diqqətlə, ehtiraslanmaq məqsədilə və ya şəhvani həzzalma məqsədi olmadan baxa bilərikmi?

Cavab: Onların gözəlliyinə, o cümlədən üzünə, saçlarına və əllərinə ehtiraslanmaq məqsədi olmadan (hərçənd ehtiras hissinin qeyri-iradi olaraq yaranacağı məlum olsa belə) baxmaq olar və əgər ilk baxışda onların zahiri görkəmi (qüsurlu və ya gözəl olub-olmaması) ilə bağlı informasiya əldə edildiyi halda yenidən baxmağa icazə verilmir.

Məsələ 420. Bəzi qərb dövlətlərində 16 yaşına çatan qızlara bir sıra sosial-iqtisadi hüquqlar, o cümlədən əmək fəaliyyəti ilə məşğul olmaq, yaşayış yerini müstəqil surətdə seçmək kimi hüquq və azadlıqlar tanınır. Onlar ata evindən ayrılaraq öz həyatlarını müstəqil surətdə qurmağa başlayırlar və onların valideynləri ilə şəxsi həyatları ilə bağlı bu və ya digər məsələni müzakirə etməsi

sadəcə məşvərət, yaxud etik norma xarakteri daşıyır. Beləliklə, belə bir durumda olan bakirə qızın atasından icazə almadan daimi və ya müvəqqəti evliliklə bağlı qərar qəbul etməsinə şəriətin münasibəti necədir?

Cavab: Bu, atasının onun istədiyi şəxslə evlənməsinə razı olması, yaxud ümumiyyətlə onun evlilik məsələsinə qarışmaqdan imtina etməsi deməkdirsə, onun öz iradəsi əsasında nikaha daxil olmasına icazə verilir. Əks təqdirdə evlilik ehtiyata əsasən, şəriət tərəfindən məqbul hesab edilmir.

Məsələ 421. Yaşı otuzdan artıq olmasına baxmayaraq hələ də bakirəliyini qoruyan qadın evlənmək xüsusunda atasının, yaxud ata tərəfdən olan babasının icazəsini almalıdırmı?

Cavab: Müstəqil həyat tərzi sürmürsə, hətta vacib ehtiyata əsasən, müstəqil həyat tərzi sürdüyü halda belə icazə alması vacibdir.

Məsələ 422. Bakirə qızlara qadın məclislərində potensial elçilərin diqqətini cəlb etmək və daha gözəl görünmək məqsədilə yüngül makyajdan istifadə etməyə icazə verilirmi? Yoxsa bu, zahiri görkəmdəki qüsurların ört-basdır edilməsi sayılır?

Cavab: Onların makyaj etməsinə icazə verilir və bu qüsurların ört-basdır edilməsi hesab olunmur. Hətta qüsurların gizlədilməsi sayılsa belə, elçini aldatmaq, saxtakarlığa yol vermək kimi qəbul edilmədiyi surətdə haram deyil.

Məsələ 423. Qadın hansı hallarda şəriət hakiminə boşanma tələbi ilə müraciət edə bilər? Əri tərəfindən davamlı olaraq xoşagəlməz davranışlara məruz qalan və cinsi ehtiyacları təmin olunmadığından günaha düşməkdən qorxan qadın boşanma tələbi ilə çıxış edə və boşana bilərmi?

Cavab: Ər şəriət hakiminin həyat yoldaşı qarşısında üzərinə düşən vəzifələri yerinə yetirmək ilə boşanma arasında seçim etməsi ilə bağlı tələbindən sonra da boşanmaqdan boyun qaçırarsa, arvad şəriət hakiminə boşanma tələbi ilə müraciət edə bilər. Beləliklə, qadın aşağıdakı hallarda sözügedən tələblə şəriət hakiminə müraciət edə bilər:

a) əri onun yaşayış ehtiyaclarını ödəməkdən və eyni zamanda boşanmaqdan imtina edərsə, yaxud yaşayış ehtiyaclarını ödəməyə qadir olmazsa, bununla belə boşanmaqdan da imtina edərsə;

b) onu zorakılığa məruz qoyarsa və uca Allahın əmr etdiyi kimi xoş davranmazsa;

c) onu tamamilə tərk edərək çıxılmaz vəziyyətdə qoyarsa və nəticədə qadın nə boşanmış, nə də evli qadın kimi öz hüquqlarından yararlana bilməzsə.

Lakin ərin arvadının cinsi ehtiyaclarını tamamilə ödəmədiyi və nəticədə arvadın günaha düşmək qorxusu ilə üzləşdiyi halda hərçənd vacib ehtiyata əsasən, ər ya onun sözügedən ehtiyacını ödəməli, ya da boşanmalı olsa da, ər bu seçimlərin ikisindən də imtina edərsə, qadının dözməsi, səbirli olması tövsiyə olunur.

Məsələ 424. Müsəlman bir qadın uzun müddətdir ki, ərindən ayrı yaşayır və bu vəziyyətin tezliklə başa çatacağına da ümidi yoxdur. O, yaşadığı qərb ölkəsində tənha qadınların üzləşdiyi həyat tərzi ilə yaşaya bilməyəcəyini, həyatının və əmlakının təhlükədə olduğunu bəyan edir. Beləliklə, ərindən boşanaraq yenidən başqa bir şəxslə evlənə bilməsi üçün boşanma tələbi ilə şəriət hakiminə müraciət edə bilərmi?

Cavab: Əgər əri onu tənha qoyub getmişsə, yaxud ondan ayrı yaşamağa başlamışsa, bu məsələ ilə bağlı şəriət hakiminə müraciət edə bilər. Şəriət hakimi isə öz növbəsində icbari surətdə onu (əri) həyat yoldaşı ilə yaşamaqla onu boşamaq arasında seçim etməyə məcbur etməlidir. Ərin bunların hər ikisindən imtina etdiyi və hakimin məcburiyyət tədbirlərinin də nəticə vermədiyi halda isə hakim qadının tələbi əsasında onların evliliyinə xitam verə bilər.

Lakin ayrılan, həyat yoldaşını tərk edən tərəf arvad olarsa və o ərini şəriətdə üzürlü hesab edilməyən bir səbəblə tərk etmiş olarsa, o, boşanma tələbi ilə şəriət hakiminə müraciət edərək boşana bilməz.

Məsələ 425. Müsəlman qadınla evli olan müsəlman kişi uzun müddət həyat yoldaşından ayrı yaşamağa məcbur olarsa, onun xəbəri olmadan kitab əhli olan bir qadınla müvəqqəti və ya daimi evlilik həyatı qura bilərmi? Bəs həyat yoldaşından icazə aldığı və onun da razılıq verdiyi surətdə bu evlilik doğru hesab olunurmu?

Cavab: Vacib ehtiyata əsasən, kitab əhli olan qadınla daimi evliliyə heç bir vəchlə icazə verilmir. Yəhudi və ya xristian qadınla müvəqqəti evliliyə isə kişinin müsəlman qadınla evli olmadığı halda icazə verilir. Müsəlman həyat yoldaşı

olduğu halda isə şəriət müsəlman kişinin yəhudi və xristian qadınla müvəqqəti evliliyinə həyat yoldaşının izni olmadan, hətta vacib ehtiyata əsasən, onun izni olsa belə icazə vermir.

Məsələ 426. Müsəlman qadınla evli olan müsəlman kişi uzun illər qürbətdə yaşamaq məcburiyyəti qarşısında qalmışdır. Yaxın zamanlarda isə həyat yoldaşından boşanmışdır və evlilik həyatı yaşamağa ehtiyac duyur. Beləliklə, boşandığı müsəlman həyat yoldaşı "iddə" (gözləmə) günlərində olduğu müddət ərzində kitab əhli olan bir qadınla müvəqqəti nikaha (mütə) daxil ola bilərmi?

Cavab: Sözügedən müvəqqəti evliliklə bağlı şəriətin hökmü onun batil (yanlış) olmasından ibarətdir. Çünki rici təlaqdan (nikahın bərpa olunma imkanı olan boşanmadan) sonrakı iddə günlərində boşanan qadın hələ həyat yoldaşı sayılır və öncəki məsələlərdə də qeyd edildiyi kimi müsəlman qadınla evli olduğu halda müsəlman kişi kitab əhli olan bir qadınla müvəqqəti evlilik münasibətləri qura bilməz.

Məsələ 427. Keçmiş səmavi dinlərin ardıcılı (yəhudi, xristian) və ya müsəlman bir qadınla evlənməyə hazırlaşan şəxsə həmin qadının keçmiş həyat yoldaşından boşandıqdan sonra iddə müddətini gözləmədiyini və ya hal-hazırda iddə müddətində olduğunu bildirmək, xəbəri olmadığı halda onu bu barədə məlumatlandırmaq vacibdirmi?

Cavab: Onu bu barədə məlumatlandırmaq vacib deyil.

Məsələ 428. Müsəlmanın kafir kişi ilə nikah münasibətlərində olan kafir qadınla evlənməyə icazə verilirmi? Həmin qadın kafir həyat yoldaşından ayrıldıqdan sonra iddə müddəti gözləməlidirmi və gözləməli olduğu halda bu müddət neçə gündən ibarətdir? İddə müddəti ərzində onunla cinsi əlaqədə olmağa icazə verilirmi? Bəs həmin qadın İslamı qəbul edərsə, kafir həyat yoldaşından boşandıqdan sonra müsəlman bir kişi ilə evlənmək üçün gözləməli olduğu iddə müddəti neçə gündür?

Cavab: Müsəlman kişinin kafir də olsa bir kişi ilə qanuni nikah münasibətlərində olan kafir qadınla evlənməsi yolverilməzdir. Çünki o, evli hesab olunur. Lakin boşandıqdan və iddə müddəti (müsəlman qadının gözləməli olduğu

iddə müddətinə bərabərdir) başa çatdıqdan sonra onunla müvəqqəti nikaha daxil ola bilər. Sözügedən müddət başa çatmamış evlilik münasibətlərinə daxil olmağa isə heç bir vəchlə icazə verilmir.

İslamı qəbul etməinə gəlincə, əgər qadın əri ilə nikah münasibətləri çərçivəsində cinsi əlaqədə olduqdan sonra müsəlman olarsa və həyat yoldaşı kafir olaraq qalarsa, ehtiyata əsasən, boşandıqdan sonra iddə müddəti başa çatmamış onunla müvəqqəti evlilik münasibətlərinə başlamaq olmaz. Lakin cinsi əlaqədə olmamışdan öncə İslamı qəbul etdiyi halda isə onların nikahı qüvvədən düşmüş sayılır və qadının iddə müddətini gözləməsinə də gərək yoxdur.

Məsələ 429. Şəriətdə həyat yoldaşları (zövcələr) arasında ədalət deyərkən nə nəzərdə tutulur?

Cavab: Riayət edilməsi vacib olan ədalət ərin vaxtını onlar arasında bərabər surətdə bölüşdürməsindən ibarətdir. Başqa sözlə, ər bir gecə onlardan birinin yanında qaldığı halda başqa bir gecə digərinin yanında qalmalıdır. Riayət edilməsi müstəhəb (təqdirəlayiq) hesab olunan ədalət isə onların yaşayış, diqqət və qayğı, habelə cinsi ehtiyaclarını  və s. bərabər səviyyədə təmin etməkdən ibarətdir.

Məsələ 430. Müsəlman qadın zina edərsə, həyat yoldaşı onu öldürməlidirmi?

Cavab: Vacib ehtiyata əsasən, hətta öz gözləri ilə onu zina edərkən görrərsə belə, öldürməsinə şəriət tərəfindən icazə verilmir.

Məsələ 431. Əməliyyə risalələrində “zinakarlıqla tanınan qadın” ifadəsinə rast gəlirik. Bu təbir nəyi ifadə edir?

Cavab: Bir qadının insanlar arasında zinakarlıqla məşğul olan, qeyri-qanuni intim münasibətlər quran qadın kimi tanınmasını.

Məsələ 432. Bir gənc müvəqqəti evliliyə ehtiyac duyarsa və müvəqqəti nikaha daxil ola biləcəyi yeganə qadın zinakarlığı ilə tanınan bir qadın olarsa, onunla müvəqqəti evlilik həyatı qura bilərmi?

Cavab: Vacib ehtiyata əsasən, tövbə edənədək onunla müvəqqəti evlilikdən çəkinmək lazımdır.

Məsələ 433. Fəqihlər bəyan edirlər ki, zinakar qadının zina əməlinə görə iddə müddəti gözləməsinə ehtiyac yoxdur. Bu məsələyə aydınlıq gətirə bilərsinizmi?

Cavab: Bu o deməkdir ki, qadın zina etdikdən sonra iddə müddəti gözləmədən evlənə bilər, yaxud evli qadın zina etdiyi halda həyat yoldaşı idə müddətini gözləmədən onunla cinsi əlaqədə ola bilər. "Yanlışlıqla cinsi yaxınlıq" (vəty əş-şübhə)[1] hallarına isə bu hökm şamil edilmir.

Məsələ 434. Bir kişi evlənmək niyyətində olduğu qadınla nikahdan öncə cinsi əlaqədə olur və bu cinsi əlaqə nəticəsində qadın hamilə qalır. Yalnız bundan sonra onlar şəriət qaydası ilə evlənirlər. Beləliklə, onların şəri nikahdan öncəki evliliyi şəriət tərəfindən məqbul hesab edilirmi və sonradan bağlanan şəri nikah öncəki münasibətləri də tənzimləyirmi? İstənilən halda şəri nikahdan öncəki cinsi yaxınlıq nəticəsində dünyaya gələn övladla bağlı şəriətin rəyi nədən ibarətdir?

Cavab: Şəriət nikahın qüvvəyə minməsi üçün müəyyən olunmuş "icab" (qadın tərəfindən) və "qəbul" (kişi tərəfindən) ifadələrinin şifahi surətdə tələffüzünü mötəbər (zəruri) hesab edir və evlilik münasibətləinin təsdiqi üçün heç bir digər hərəkət bunu əvəz edə bilməz. Beləliklə, sualda şərh olunan vəziyyətdə evlilik münasibətləri məqbul hesab olunmur. Yalnız şəri nikahın icrasından sonra evlilik münasibətləri şəriət tərəfindən məqbul hesab olunur və şəri nikah özündən öncəki münasibətlərə məqbulluq qazandırmır. Övlada gəlincə, valideynlərinin hər ikisi bu məsələ haqqında məlumatsız olduğu halda cinsi əlaqə "vəty əş-şübhə" olduğundan halalzadə sayılır. Hər ikisi məlumatlı olduğu halda cinsi əlaqə zina,

---

[1] "Yanlışlıqla cinsi əlaqə" (vəty əş-şübhə) aşağıdakı iki vəziyyətə şamil olunur:

1) bir kişi ilə bir qadının şəriətin onların nikah münasibətlərinə (istər daimi, istərsə müvəqqəti) daxil olmasına (məsələn, bir kişinin öz həyat yoldaşının bacısı, yaxud livat etdiyi başqa bir kişinin bacısı ilə evlənməsi kimi hallara) icazə vermədiyini bilmədən nikah münasibətinə daxil olaraq cinsi əlaqədə olması;

2) bir kişi ilə bir qadının şəriət tərəfindən nikah münasibətlərində olduqlarını güman edərək (məsələn, nikahlarının bu və ya digər səbəbdən doğru hesab edilmədiyini, yaxud pozulmuş, xitam verilmiş olduğunu bilmədən) cinsi əlaqədə olması.

"Yanlışlıqla cinsi əlaqə" (vəty biş-şübhə) mövzusu ilə bağlı ətraflı məlumat almaq üçün əməliyyə risalələrinin, eləcə də digər müfəssəl fiqh ədəbiyyatının "nikah" və "təlaq" bölmələrinə müraciət edə bilərsiniz.

övlad isə vələdüzzina hesab olunur. Valideynlərdən yalnız biri məlumatlı olduğu halda isə dünyaya gələn övlad digəri (məlumatlı olmayan) üçün halalzadə hesab edilir.

Məsələ 435. Bəzi evli cütlüklər hamiləlik şansının yüksək olduğu süni mayalanma əməliyyatına ehtiyac duyurlar və həkim-mütəxəssislər tərəfindən həyata keçirilən bu əməliyyat onların cinsiyyət orqanlarının görünməsini labüd edir. Bu halda şəriət süni mayalanma əməliyyatının icrasına icazə verirmi?

Cavab: Övlad sahibi olmaq zərurəti duyulmadıqca və bu məqsədlə cinsiyyət orqanının müşahidə və müayinəsi labüd olmadıqca, sözügedən əməliyyat çərçivəsində cinsiyyət orqanının göstərilməsinə şəriət tərəfindən icazə verilmir. Övlad sahibi olmaq zərurətinə valideynlərin ümumiyyətlə övlad sahibi olmaması və bunun onlar tərəfindən dözülməz hesab edilməsini örnək göstərmək olar.

Məsələ 436. Hamilə qalmaq istəməyən qadın uşaqlıq borularının bağlanması üçün həkimə müraciət edərək arzuolunmaz hamiləlikdən qoruna bilər. Gələcəkdə sözügedən boruların təkrar açılmasının mümkün olub-olmamasını, yaxud ərin razılığının olub-olmamasını nəzərə alaraq bu əməliyyata şəriətin münasibətini açıqlamağınızı xahiş edirik.

Cavab: Gələcəkdə uşaqlıq borularının təkrar açılmasının mümkün olub-olmamasından asılı olmayaraq haram baxış və toxunuşların labüd olmadığı halda sözügedən əməliyyatın həyata keçirilməsinə icazə verilir. Hamiləliyin qarşısını aldığına görə bu əməliyyat üçün qadının ərindən icazə almasına da ehtiyac yoxdur. Lakin digər səbəblərlə əlaqədar olaraq, o cümlədən həkimə müraciət məqsədilə evdən çıxmaq üçün ərindən icazə alması lazım ola bilər.

Məsələ 437. Qərb ölkələrində geniş yayılmış süni mayalanma əməliyyatlarından bir qismində ər və arvadın cinsi hüceyrələri (sperma və yumurta hüceyrələri) sınaq borusunda mayalandırıldıqdan sonra alınan embrion arvadın anasının rəhminə transfer edilir və onun bətnində böyüyən rüşeym elə onun tərəfindən dünyaya gətirilir. Beləliklə, şəriət tərəfindən süni mayalanma nəticəsində alınan həmin embrionun bioloji nənəsinin bətninə transfer edilməsinə icazə verilirmi və bu yolla dünya gələn övladın anası kim hesab olunur?

Cavab: Hətta icrası üçün labüd olan haram baxış və toxunuşlar nəzərə alınmasa da, belə bir əməliyyatın şəriət tərəfindən məqbul hesab edilməsi şübhə doğuran bir məqamdır. Bu əməliyyatın uğurlu icrası nəticəsində uşaq dünyaya gəldiyi halda isə nəsəb etibarilə onun anasının yumurta hüceyrənin sahibimi, yoxsa uşaqlığın sahibimi olması ilə bağlı fikir ayrılığı mövcuddur və zənnimizcə, onların hər ikisinə qarşı şəriət hökmlərində ehtiyat hallarına riayət etmək lazımdır.

Məsələ 438. Bəzi ölkələrdə kişilərin sperma hüceyrələri alınaraq sperma banklarında saxlanılır. Ərindən boşanmış müsəlman bir qadın nikah münasibətində olmadığı yad bir kişinin sperma hüceyrəsindən onun icazəsi əsasında, yaxud icazəsi olmadan istifadə edərək süni mayalanma yolu ilə hamilə qala bilərmi? Bəs rici (nikahın bərpasının mümkün olduğu) təlaqla boşanan qadın iddə müddəti ərzində, yaxud iddə müddəti başa çatdıqdan sonra boşandığı ərinin sperma donorluğu ilə hamilə qala bilərmi?

Cavab: Yad kişinin sperma donorluğu ilə süni mayalandırma əməliyyatını həyata keçirməsinə icazə verilmir. Lakin öz ərinin donorluğu ilə, hətta rici təlaqdan sonrakı iddə müddəti əsnasında da hamilə qala bilər. İddə müddəti başa çatdıqdan sonra isə sözügedən əməliyyat yolverilməzdir.

Məsələ 439. Həyat yoldaşı ilə ailəsi (o cümlədən valideynləri) arasında ciddi narazılıqlar olan şəxs ailəsini razı salmaq üçün həyat yoldaşını boşamalıdır, yoxsa ailəsindən üz çevirməlidir?

Cavab: O, mənəvi və dünyəvi həyatı ilə bağlı ən doğru qərarı qəbul etməli, ədalət və insaf prinsipinə riayət etməli və hər iki tərəfə qarşı haqsızlıqdan çəkinməlidir.

Məsələ 440. Ərin arvadı qarşısında vəzifələrindən olan “vacib nəfəqə” (icbari təminat) anlayışı özündə nəyi ehtiva edir? Vacib olan nəfəqə ərin sosial vəziyyətinə, yoxsa qadının ata evindəki sosial vəziyyətinə (rifah səviyyəsinə) uyğun olmalıdır? Yoxsa başqa bir meyar mövcuddur?

Cavab: Meyar ərin rifah səviyyəsi nəzərə alınmaqla qadının sosial vəziyyətidir.

Məsələ 441. Əri qadının hüquqlarını nəzərə almadıqda, vəzifələrinin icrasından imtina etdikdə qadın onunla cinsi əlaqədən imtina edə bilərmi?

Cavab: Onun belə bir haqqı yoxdur. Tövsiyə və xəbərdarlıqlar nəticə vermədiyi halda lazımı tədbirlərin icrası məqsədilə şəriət hakiminə müraciət edə bilər.

Məsələ 442. Müsəlman vidalaşarkən, yaxud səfərdən qayıtdıqda qarşılanma əsnasında insanların gözü önündə həyat yoldaşını qucaqlayaraq öpə bilərmi?

Cavab: Təhrikedici hərəkət olmadığı halda hicab və geyim qaydalarına riayət olunması şərtilə haram sayılmır. Bununla belə, bu qəbildən olan hərəkətlərdən çəkinmək daha doğru olardı.

Məsələ 443. Qərb ölkələrindən birində yaşayan bir ailə həmin ölkənin qanunvericiliyinə müvafiq qaydada boşanmışdır. Lakin keçmiş ər qadının şəri hüquqlarını nəzərə almayaraq nəfəqə ödəməkdən imtina edir, şəriətdə müəyyən edilmiş qaydalarla problemin həllinə vasitəçilik edənlərin vasitəçiliyini də qəbul etmir. Bu halda qadın nə etməlidir? Nəzərə almaq lazımdır ki, onun qarşılaşdığı vəziyyət olduqca dözülməzdir.

Cavab: Bu halda qadın şəriət hakiminə və ya onun vəkilinə müraciət etməli, onlar da öz növbəsində ərini iki seçim qarşısında qoyaraq ya nəfəqə ödəməyə, ya da şəri boşanmanı (hətta üçüncü bir şəxsin vəkilliyi ilə olsa belə) gerçəkləşdirməyə məcbur etməlidir. Ərin bunların hər ikisindən də imtina edərsə və onun əmlakından qadına nəfəqə ödənməsi də mümkün olmazsa, hakim, yaxud onun vəkili qadını boşaya (şəri nikaha son verə) bilər.

Məsələ 444. Vətəndaşı olduğu ölkə bilavasitə və ya dolayı yolla müsəlmanlarla (hər hansı müsəlman ölkəsi ilə) müharibə vəziyyətində olan kafir qadınla (səmavi dinlərdən birinin mənsubu, yaxud dinsiz olmasından asılı olmayaraq) şəri nikahdan kənar cinsi əlaqədə olmaq olarmı?

Cavab: İcazə verilmir.

Məsələ 445. Ərinə itaət etməyən, onun qarşısında həyat yoldaşı kimi öz vəzifələrini icra etməyən, habelə ondan izin almadan atası evinə gedərək aylarla orada qalan, sonra isə evinə dönməyərək İslam qanunlarına üz tutmaq əvəzinə

boşanmaqla yanaşı yüksək məbləğdə nəfəqə almaq və övladlarının qəyyumluq hüququnu əldə etmək məqsədilə qeyri-müsəlman məhkəmələrinə müraciət edən qadının şəriət baxımından ərindən nəsə tələb etməyə haqqı varmı? Belə vəziyyətdə, yəni qadın boşanmaq və hüquqlarını (nəfəqə və övladlarının qəyyumluq hüququnu) əldə etmək məqsədilə İslam qanunlarından fərqli qanunverilik əsasında fəaliyyət göstərən qeyri-İslami məhkəmələrə üz tutduğu təqdirdə şəriətdə həyat yoldaşı üçün nəzərdə tutulan bütün hüquqlara malikdirmi?

Cavab: Belə bir vəziyyətdə qadın şəriətdə nəzərdə tutulan nəfəqə haqqından məhrum olur, lakin bununla belə həyat yoldaşı kimi öz vəzifələrindən icrası nəticəsində mehriyyə və övladlarını böyütmək (iki il ərzində) hüququnu itirmir.

Məsələ 446. Gənc bir qadın uşaqlığın götürülməsi əməliyyatı nəticəsində 15 ildir ki, heyzdən (aybaşı, menstruasiya) tamamilə kəsilmişdir. Həmin qadın müvəqqəti evlilik həyatı yaşayarsa, mütə anlaşmasının müddəti başa çatdıqdan sonra iddə gözləməlidirmi və gözləməli olduğu halda onun üçün iddə müddəti neçə gündür?

Cavab: Əgər normal halda heyz qanı görən qadınlarla eyni yaşdadırsa (klimaks dövrü başlamamışsa), iddə gözləməlidir və müvəqqəti nikahdan sonra iddə müddəti 45 gündür.

Məsələ 447. Müsəlman olmayan bir qadın müsəlman bir şəxsin onunla evlənməyə razılıq verməsi üçün kəlimeyi-şəhadət deyərək müsəlman olduğunu bildirərsə, lakin həmin şəxs onun həqiqətən İslamı qəbul etdiyinə əmin olmazsa, onu müsəlman hesab edə bilərmi?

Cavab: Həmin qadından müsəlman olmasını inkar edən bir fikir eşitməzsə, yaxud bir hərəkət müşahidə etməzsə, onu müsəlman hesab edə bilər.

Məsələ 448. Süni mayalandırma əməliyyatı çərçivəsində bir qadının yumurta hüceyrəsini dölləndikdən sonra başqa bir qadının uşaqlığına transfer edirlər. Bu əməliyyata şəriətin münasibəti necədir? Bəs hamiləlik baş tutduğu halda həmin embriondan əmələ gələn uşaq kimin övladı sayılır?

Cavab: Haram baxış və toxunuşlardan qorunmaq şərtilə sözügedən əməliyyata məhdudiyyət qoyulmur. Lakin uşağın nəsəb etibarilə anasının yumurta

hüceyrənin sahibimi, yoxsa içində böyüdüyü uşaqlığın sahibimı olması xüsusunda bir mənalı fikir söyləmək mümkün deyil. Vacib ehtiyata əsasən, onların hər ikisinə qarşı şəriət hökmlərindən ehtiyatın tələblərinə riayət etmək lazımdır.

Məsələ 449. Döl ana bətnində dölyanı mayedə üzür. Doğuş əsnasında, yaxud doğuşdan bir qədər əvvəl isə bəzən bu maye ilə yanaşı qan da ifraz olunur. Beləliklə, sözügedən maye qana qarışmadan ifraz olunduğu halda pak sayılırmı?

Cavab: Bəli, bu halda pak sayılır.

Məsələ 450. Hansı hallarda aborta icazə verilir? Bu məsələdə embrionun inkişafının hansı mərhələdə olmasının bir önəmi varmı?

Cavab: Döllənmədən sonrakı mərhələlərdə aborta icazə verilmir. Lakin ana hamiləliyin onun həyatı üçün riskli olmasından qorxarsa, yaxud hamiləliyin davam eməsi onu əsasən (normal vəziyyətlərdə) dözülməz hesab edilən bir çətinliklə qarşı-qarşıya qoyarsa və yeganə çıxış yolu abort etdirmək olarsa, bu halda ruhun daxil olmasından öncə abort etdirə bilər. Ruhun ana bətnindəki bədənə daxil olmasından sonrakı mərhələdə isə abort istənilən vəchlə yolverilməzdir.

Məsələ 451. Bəzən həkim-ginekoloqlar embrionun (dölün) bu və ya digər bir təhlükəli xəstəliyin daşıyıcısı olduğunu anlayır və abortun doğru seçim olduğu qərarına gəlirlər. Onların diaqnozuna görə, körpə dünyaya gələcəyi halda anadangəlmə qüsurlu doğulacaq, yaxud doğuşdan qısa bir müddət sonra həyatını itirəcəkdir. Belə hallarda həkim abort əməliyyatını həyata keçirə bilərmi? Digər tərəfdən ana özünün və bətnindəki canlının canını sözügedən əməliyyatın icrası üçün həkimə təslim edə bilərmi? Bəs bu halda onlardan hansı diyə (qanbahası) ödəməlidir?

Cavab: Uşağın anadangəlmə qüsurlu doğulması, yaxud doğuşdan sonra uzun müddət yaşamayacağı ehtimalı aborta icazə verilməsi üçün tutarlı səbəb sayılmır. Beləliklə, nə ana həkimin bu əməliyyatı həyata keçirməsinə icazə verməli, nə də həkim bu əməliyyatı icra etməlidir. Diyəni isə abortu bilavasitə həyata keçirən şəxs ödəməlidir.

Məsələ 452. Həyatı risk altında olmadığı halda qadın ruhun daxil olmasından öncə arzuolunmaz hamiləlikdən abort əməliyyatı ilə azad ola bilərmi?

Cavab: Hmiləliyin davam edəcəyi təqdirdə sağlamlığı ilə bağlı ciddi təhlükə ilə qarşılaşa və ya dözülməz çətinliklərlə üzləşə biləcəyi hallar istisna olmaqla, abort etmək haqqına sahib deyil.

## SƏKKİZİNCİ FƏSİL
## GƏNCLƏRİ MARAQLANDIRAN MƏSƏLƏLƏR

Son dövrlərdə gənclərin təhsil almaq, yaxud müvəqqəti və ya daimi məskunlaşmaq məqsədilə qeyri-müsəlman ölkələrinə, xüsusilə də Avropa və Amerika ölkələrinə köçməsi halları artmaqdadır. İnanclı müsəlman gənclərinin öz dinlərinə bağlılığının məntiqi nəticəsi olaraq onlar üçün qarşılarına çıxan bir sıra aktual məsələlərə, problemlərə şəriətin münasibətini öyrənmək zərurəti yaranır. Məhz bu zərurəti nəzərə alaraq həmin ölkələrdə məskunlaşan dininə bağlı müsəlman gəncləri onları maraqlandıran ən aktual şəriət hökmləri ilə tanış etməyi məqsədəuyğun hesab edirik:

Məsələ 453. Fəqihlər birmənalı olaraq bəyan edirlər ki, qadınlara (həyat yoldaşından başqa *tərc.*) ehtiraslı və şübhəli (tərəddüdlü) baxış haramdır. Ehtirasla baxmaq deyərkən şəhvət hissinin oyanmasını, şübhəli baxış deyərkən isə günaha düşmək qorxusunu nəzərdə tuturlar.

Məsələ 454. Açıq-saçıq geyinməkdən çəkindirilmələrinə rəğmən məhəl qoymayaraq belə geyinməyə davam edən qadınlara ehtiraslanmaq məqsədi güdmədən baxmaq olar. Onların üzlərinə, əllərinə, ayaqlarına və adətən açıq olan digər bədən üzvlərinə cinsi həzzalma duyğusu və harama (günaha) düşmək qorxusu olmadan baxmağa şəriət tərəfindən icazə verilir. Lakin adətən açıq olmayan, təsadüfi hallarda görünən bədən üzvlərinə isə, ümumiyyətlə, baxmaq olmaz.

Məsələ 455. Kişinin kişiyə, qadının da qadına şəhvət hissi ilə baxması yolverilməzdir.

Məsələ 456. Homoseksualizm adlandırılan livat – kişilər arasında cinsi əlaqə və müsahiqə (lezbianizm) qadınlar arasında cinsi əlaqə haramdır.

Məsələ 457. İstimna (masturbasiya, onanizm) hansı üsulla edilməsindən asılı olmayaraq haramdır.

Məsələ 458. Vacib ehtiyata əsasən, çılpaq şəkil və video görüntülərə hətta ehtiras duyğusu və günah qorxusu olmadan belə baxmaqdan çəkinmək lazımdır.

Məsələ 459. Əxlaqı fəsadı yayan ünsürlər qadın cinsiyyət orqanının bir sıra xüsusiyyətləri özündə əks etdirən bir oyuncaq ixtira etmişdir. Kişilər yatarkən həmin oyuncağı cinsiyyət üzvünün üzərinə qoyaraq həzz ala (orqazm ola) bilirlər. Vacib ehtiyata əsasən, həmin oyuncaqlardan hətta məni (sperma) ifraz etmək niyyəti olmadığı halda belə istifadə edilməməlidir və bu məsələdə kişinin evli olub-olmamasının heç bir fərqi yoxdur.

Məsələ 460. Kişi hamiləliyin qarşısını almaq üçün cinsi əlaqə zamanı prezervativdən istifadə edə bilər, lakin vacib ehtiyata əsasən, həyat yoldaşının da razılığı olmalıdır.

Məsələ 461. Müsəlman kişilərə haramla nəticələnə biləcəyi halda ümumi (kişi və qadınların birgə istifadə etdiyi) hovuzların xidmətindən istifadə etmək, yaxud digər bənzər yerlərə (sauna, çimərlik və s.) getmək olmaz. Vacib ehtiyata əsasən isə, hətta harama sürüklənməyəcəkləri halda da belə yerlərə getməməlidirlər.

Məsələ 462. Müsəlman kişilərə qadınlarla bilavasitə təmasa əngəl törədəcək əlcək kimi bir vasitə olmadan əllə görüşmək olmaz. Lakin əllə görüşməkdən imtina etmək onları ciddi və normal durumlarda dözülməz hesab edilən çətinlik və sıxıntı ilə qarşı-qarşıya qoyarsa, zərurət çərçivəsində görüşməyə icazə verilir.

Məsələ 463. Gənc müsəlman kişi gənc bacısını, xalasını, bibisini və azyaşlı qızlarını onlara qarşı sevgisinin təzahürü olaraq öpə bilər. Onları öpmək şəhvət hissi oyandırdığı halda isə buna icazə verilmir.

Məsələ 464. Mərcləşmənin olub-olmamasından asılı olmayaraq şahmat oynamaq haramdır. Həmçinin, hər iki tərəf (oyunçular) real oyunçular olduğu halda kompyuterlə də sözügedən oyunu oynamaq haram sayılır. Habelə, vacib ehtiyata əsasən, tərəflərdən biri real, digəri isə virtual oyunçu olduğu halda da oynamaq olmaz.

Məsələ 465. Bütün növ qumar alətləri, o cümlədən kartlarla oynanılan və mərcləşməyə əsaslanan oyunlar haramdır. Vacib ehtiyata əsasən isə, hətta mərcləşmə olmadığı halda da həmin oyunlardan uzaq durmaq lazımdır.

Məsələ 466. Futbol, basketbol, voleybol, həndbol kimi top oyunlarının oynanılmasına, həmçinin ehtiraslı baxış kimi haramlara (günahlara) sürükləməməsi və hansısa vacib bir əməlin icrasından saxlamaması, məsələn namazın qəzaya verilməsinə səbəb olmaması şərtilə həmin oyunlara idman meydançalarında canlı olaraq, yaxud ekran arxasında ödənişli (bilet almaq, yaxud ödənişli telekanallarda yayımına tamaşa etmək kimi) və ya ödənişsiz əsaslarla baxmağa şəriət tərəfindən icazə verilir.

Məsələ 467. Ciddi fiziki xəsarətləri ilə nəticələnməyəcəyi halda mərcləşmə olmadan güləş və boks oyunlarına və məşqlərinə də icazə verilir.

Məsələ 468. Vacib ehtiyata əsasən, kişi saqqalını qırxmamalıdır. Həmçinin, vacib ehtiyata əsasən, üzünün digər hisslərini tamamilə qırxaraq yalnız çənəsində tük saxlamasına da icazə verilmir.

Məsələ 469. Müalicə və digər profilaktik tədbirlər çərçivəsində zəruri olduğu halda, yaxud qırxmaqdan imtina etdiyi halda ciddi bir təhlükə ilə qarşılaşa biləcəyi təqdirdə və ya məsxərə obyektinə çevrilmək kimi müsəlman üçün normal vəziyyətlərdə dözülməz hesab edilən çətinliklərlə üzləşdikdə saqqalı qırxmağa icazə verilir.

**Sual-cavab:**

Məsələ 470. Bir ata övladının dostundan onun davranışına nəzarət etməsini istəyir, bir müddətdən sonra isə ondan övladının hərəkətləri bağlı rəyini bildirməyi xahiş edir. Dostu oğlunun başqalarının bilmək istəmədiyi cəhətlərindən də atasını xəbərdar edə bilərmi?

Cavab: Yalnız, qarşısının alınması vacib olan pis bir davranış (günah) olarsa və həmin günahın qarşısının alınması üçün başqa çıxış yolu olmazsa, onu incitmək hesabına başa gəlsə də, bu addımı atmaq olar. Əks təqdirdə isə yolverilməzdir.

Məsələ 471. Xalq arasında məşhur olan "birinci baxış sənin lehinə, ikinci isə əleyhinədir" ifadəsi nəyi ehtiva edir? Bəzilərinin iddia etdiyi kimi naməhrəmə ilk

baxışın haram olmadığını əldə əsas tutaraq həmin baxışı uzadaraq qadını diqqətlə nəzərdən keçirmək olarmı?

Cavab: Anlaşılan odur ki, sözügedən məsəl birinci və sonrakı baxışlar arasındakı fərqi açıqlayır. Belə ki, ilk baxış adətən təsadüfi və ötəri xarakter daşıyır və ehtiraslanma məqsədi güdülmədiyindən günahsız hesab edilir. İkinci baxış isə əksinə, məqsədyönlü şəkildə gerçəkləşir və bir növ ehtiraslanma ilə müşayiət edildiyindən zərərli hesab edilir. Bu mətləbin önəmini vurğulamaq üçün İmam Sadiq (ə) bir hədisində buyururdu: "İlk baxışdan sonrakı baxış qəlbdə ehtiras qığılcımlarını oyadır və naməhrəmə baxanın günaha düşməsini təmin edir".

Beləliklə, aydın olduğu kimi bu məsəl baxışlarının sıra ardıcıllığını nəzərdə tutmur. Başqa sözlə, birinci baxışın hətta başlanğıcdan məqsədyönlü şəkildə günah (naməhrəmə baxaraq ehtiraslanmaq) niyyəti ilə olsa da, yaxud sonradan - baxış əsnasında belə bir baxışa çevrilsə də, halal; ikinci baxışın isə ani və ehtiraslanmaq niyyəti güdmədən olsa da, haram olduğunu nəzərdə tutmur.

Məsələ 472. Naməhrəm qadına baxmağın haramlığı ilə bağlı danışrakən insanların əksəriyyəti üçün aydın olmayan bir sıra ifadələrdən istifadə olunur. Məsələn, ribə (şübhə, tərəddüd), həzzalma və şəhvət ifadələri hansı mənanı ifadə edir? Bu ifadələin hamısı bir mənanı ifadə edən sinonimlərdimi?

Cavab: Həzzalma və şəhvət deyərkən istənilən gözəlliyə, gözəl mənzərə baxdıqda alınan həzz (estetik zövq) deyil, cinsi, şəhvani həzzalma (ehtiraslanma) nəzərdə tutulur. Ribə deyərkən isə məftun olaraq günaha düşmək qorxusu nəzərdə tutulur.

Məsələ 473. Haram həzzin hüdudları nədən ibarətdir?

Cavab: Haram həzzin ən yüngül dərəcəsi ilkin cinsi istəklərdir (şəhvət duyğusunun hərəkətə keçməsidir).

Məsələ 474. Britaniya və eləcə də bir sıra digər qərb ölkələrində orta təhsil müəssisələrində şagirdlər "cinsi tərbiyə" adlı dərs çərçivəsində cinsiyyət orqanının təsviri və heykəl (maneken) modeli üzərində izahlara qulaq asırlar. Yeniyetmə müsəlman şagirdlərinə bu dərslərdə iştirak etməyə icazə verilirmi? Bəs onlar özləri bu bilik və məlumatların gələcəkdə onlar üçün faydalı olacağı düşüncəsi ilə həmin

dərslərdə iştirak etməyə rəğbət göstərdikləri halda valideynlərinin onlara qadağa qoyması vacibdirmi?

Cavab: Həmin dərsdə iştirak etmək şəhvətli baxış kimi hər hansı bir haramla nəticələnməzsə, yaxud şagirdlər əxlaqi sapıntılara sürüklənməzsə, iştirak sərbəstdir.

Məsələ 475. Qadınların hüzurunda aşiqanə qəzəllər oxumaq olarmı? Məqsəd onların sevgisini qazanmaq olduqda və olmadıqda şəriətin münasibəti nədən ibarətdir? Bəs məclisdə iştirak edən qadınlar evli olmadığı və onların həmin qəzəllərdən təsirləndiyi halda necə?

Cavab: Yolverilməz hesab ediliir.

Məsələ 476. Qadınlarla həzzalma niyyəti və günaha düşmək qorxusu olmadan, yaxud hər hansı bir harama sövq etmədən rəğbət qazandıran gözəl sözlərlə, aşiqanə ifadələrlə danışmaq olarmı?

Cavab: Ehtiyata əsasən, belə hərəkətlərdən çəkinmək lazımdır.

Məsələ 477. Hansısa bir qadına və ya ümumiyyətlə zərif cinsin nümayəndələrinə ithafən romantik mənzum (şeir) və ya mənsur əsərlər (roman və s.) yazmaq olarmı?

Cavab: Haram istək və təmənnalardan xali olduğu, habelə digər əxlaqa zidd nəticələr doğurmadığı təqdirdə əngəl yoxdur.

Məsələ 478. Aralarından biri ilə tanış olaraq daha sonra müvəqqəti evlilik təklif etmək məqsədilə qadınlarla ünsiyyət qormaq olarmı?

Cavab: Bu ünsiyyət naməhrəm qadınla normal sayılan ünsiyyət çərçivəsi daxilində olarsa, şəriət tərəfindən əngəl qoyulmur.

Məsələ 479. Avropada son dövrlərdə dəb halını alan adətlərdən biri də budur ki, kişilər də qadınlar kimi qulaqlarının birinə, yaxud hər ikisinə sırğa taxırlar. İslamda buna icazə verilirmi?

Cavab: Qızıldan olduğu halda icazə verilmir. Ehtiyata əsasən isə, ümumiyyətlə, icazə verilmir.

Məsələ 480. Bir şəxs haram iş görərək saqqalını ülgüclə qırxarsa, daha sonra yenə də üzünü ülgüclə təraş edə bilərmi?

Cavab: Vacib ehtiyata əsasən, saqqalı ülgüclə qırxmaqdan çəkinmək lazımdır.

Məsələ 481. Avropa ölkələrində bəzi müəssisələr işə düzəlmək istəyən namizədlərin saqqallı olub-olmamasına diqqət yetirərək saqqal saxlamayanları işə qəbul etməyi tərcih edirlər. Bu ayrıseçkilik və imtiyaz real olduğu halda həmin müəssisələrdə işə qəbul olunmaq üçün saqqalımızı qırxa bilərikmi?

Cavab: Saqqalı qırxmağın ehtiyata əsaslanan haramlığı nəzərə alınmaqla, həmin müəssisələrdə işə qəbul olmaq istəyi öz-özlüyündə (zərurət olmadan) buna əsas vermir.

Məsələ 482. Yanaqlardakı tükləri təraş edərək yalnız çənə nahiyəsində saqqal saxlamaq olarmı?

Cavab: Saqqalı qırxmağın ehtiyata əsaslanan haramlığı üzün hər iki tərəfində bitən tüklərin qırxılmasını əhatə edir. Yanaq nahiyələrindəki tüklərin təmizlənməsinin isə eybi yoxdur.

Məsələ 483. Mərcləşmə ilə və ya mərcləşmə olmadan kompyuter, yaxud qumar aparatları vasitəsilə qumar oynamaq olarmı?

Cavab: Şəriət buna icazə vermir və həmin oyunlara adi qumar alətləri ilə oynanılan qumar kimi haram hökmü şamil olunur.

Məsələ 484. Bəzi halal oyunları, o cümlədən zərlə oynanılan oyunları (nərd kimi) oynamaq olarmı?

Cavab: Zər məhz qumar oyunlarında istifadə olunan bir alət, oyun vasitəsi hesab olunmazsa, onunla qumar olmayan oyunları oynamaq olar.

Məsələ 485. Müsəlman olmayan qadınların bədənlərinin yay aylarında adətən açıq qoyduqları hissələrinə baxmaq olarmı?

Cavab: Şəhvani həzz almaq niyyəti, yaxud günaha düşmək qorxusu olmadan baxılarsa, eybi yoxdur.

Məsələ 486. Hicablı qadının hicabsız halda çəkdirdiyi şəklinə baxmaq olarmı?

Cavab: Ehtiyata əsasən, üz və əllər istisna olmaqla bədənlərinin digər hissələrinə baxmaqdan çəkinsinlər. Üz və əllərinə isə şəhvani həzz alma və günaha düşmək qorxusu olmadan baxmaq olar.

Məsələ 487. Tamaşaçı ehtiras hislərinin oyanacağına əmin olmadığı halda sadəcə informasiyaya olan ehtiyacını ödəmək məqsədilə televiziya ekranında, internetdə və s. çılpaq, yaxud yarıçılpaq hesab olunan görkəmdə olan qeyri-müsəlman qadınların görüntülərinə baxa bilərmi? Bəs müsəlman kişi küçələrdə, ictimai yerlərdə belə görkəmdə olan qadınlara qeyd olunan məqsədlə deyil, öz həyat yoldaşına qarşı ehtiras hissinin təhrik olunması məqsədilə baxa bilərmi?

Cavab: Çılpaq səhnələrə nə canlı, nə də ekran (yaxud monitor) arxasından tamaşa etək olmaz. Vacib ehtiyata əsasən, belə səhnələrə heç bir vəchlə baxmaq olmaz.

Məsələ 488. Tamaşaçı ehtiras hissinin oyanmayacağına arxayın olduğu halda təhrikedici kadrlara baxa bilərmi?

Cavab: Çılpaq kadr olarsa, ehtiyata əsasən, baxmamalıdır.

Məsələ 489. Həzz almaq niyyəti olmadan pornoqrafiya və erotika janrlarından olan film və videolara axmaq olarmı?

Cavab: Ehtiyata əsasən, heç bir vəchlə baxmaq olmaz.

Məsələ 490. Bəzi ödənişli telekanallar gündüz saatlarında əxlaq normalarına zidd olmayan verilişlər və filmlər yayımlasa da, gecə yarısından sonra 18+ film və verilişlər nümayiş etdirir. Həmin telekanallara ödənişli əsaslarla abunə olmaq olarmı?

Cavab: Abunəçinin özünün, yaxud başqalarının (həmin telekanalın yayımını izləmək imkanı olan şəxslərin, o cümlədən ailə üzvlərinin) həmin əxlaqsız proqramları izləməyəcəyinə arxayın olması istisna edilməklə, icazə verilmir.

Məsələ 491. Bəzi ölkələrdə adətə görə hər hansı yığıncağa, kollektivə, iş yerinə və s. gələn şəxs bütün şəxslərlə, o cümlədən qadınlarla da ehtiraslanmaq niyyəti olmadan əllə görüşür. Qadınlarla əllə görüşməkdən imtina etmək isə təəccüblə qarşılanmaqla qalmayaraq əksər hallarda onlara qarşı nəzakətsizlik və hətta təhqir kimi qəbul edilir və bundan imtina edən şəxsə qarşı mənfi reaksiyaların

təzahürünə səbəb olur. Beləliklə, belə bir vəziyyətdə qadınlarla əllə görüşmək olarmı?

Cavab: İcazə verilmir. Bu vəziyyətdən heç kəslə əllə görüşməmək, yaxud əlcəklə görüşmək kimi yollarla çıxmaq olar. Bu da mümkün olmadığı halda isə əllə görüşməkdən imtina etməyin onu əsasən dözülməz hesab edilən çətinliklərlə üz-üzə qoyacağını anlayarsa, yalnın bu halda müsəlmana naməhrəm qadınlarla əllə görüşməyə izin verilir. Eləcə də qeyd etmək lazımdır ki, bu hökm yalnız həmin yığıncaqda iştirak etməyin, yaxud kollektivə qoşulmağın zərurətdən irəli gəldiyi hallara şamil olunur. Əks təqdirdə (zərurət olmadığı hallarda) isə haram hərəkətlərdən imtina edə bilməyəcəyi yığıncaq və kollektivlərdə iştirak etməməlidir.

Məsələ 492. Qərb ölkələrində əl sıxmaq salamlaşma, görüşmə adətlərindən biri hesab edilir və bəzən əllə görüşməkdən imtina etmək işdən, yaxud təhsildən uzaqlaşdırılma və ya iş və təhsil imkanlarından məhrum olmaq kimi nəticələr də doğura bilir. Beləliklə, zərurət hallarında müsəlman kişi ona naməhrəm olan qadınla, müsəlman qadın da özünə naməhrəm olan kişi ilə əllə görüşə bilərmi?

Cavab: Əlcək, yaxud başqa bir vasitə ilə də bilavasitə əl təmasının qarşısını almaq mümkün olmazsa, əllə görüşməkdən imtinanın ciddi zərər, yaxud əsasən dözülməz hesab edilən problemlərlə nəticələnəcəyi hallarda görüşməyə icazə verilir.

Məsələ 493. Qərb ölkələrində yaşayan müsəlman kişi evlənmək üçün müsəlman qadın tapa bilmədiyi halda müsəlman olmayan bir qadınla evlənə bilərmi? Nəzərə almaq lazımdır ki, bu onların övladlarının gələcəyi baxımından üzərində düşünülməli olan bir məsələdir. Belə ki, valideynlər arasındakı dil, övlad tərbiyəsinə baxış, mənəvi dəyərlər və ictimai münasibətlərə yanaşma fərqlilikləri onlar üçün bir sıra psixoloji problemlər yarada bilər.

Cavab: Ehtiyata əsasən, müsəlman kişilər kitab əhli olan qadınlarla daimi ailə həyatı qura bilməz. Müvəqqəti evliliyə gəlincə, şəriət tərəfindən buna icazə verilsə də, həmin qadınlarla müvəqqəti evlilikdən övlad sahibi olmaq məsləhət görülmür. Həmçinin, qeyd etmək lazımdır ki, buna yalnız həmin şəxsin müsəlman

bir həyat yoldaşının olmadığı halda (onunla birgə qalıb-qalmamasından asılı olmayaraq) icazə verilir. Müsəlman həyat yoldaşı olduğu halda isə həmin qadınlarla müvəqqəti evliliyə yalnız onun razılığı əsasında izin verilir. Hərçənd, ehtiyata əsasən, hətta müsəlman həyat yoldaşı razı olsa belə, onlarla müvəqqəti evlilikdən də çəkinməlidir.

Məsələ 495. Bəzi pornoindustriya müəssisələri vaginaya (qadın cinsiyyət orqanına) bənzəyən oyuncaqlar istehsal edir və bəzi kişilər həmin oyuncağı cinsiyyət orqanına keçirirlər ki, yuxuda şəhvani həzz alaraq orqazm olsunlar. Bu haram istimna əməlinin bir növü hesab olunurmu?

Cavab: Sözügedən oyuncaqdan istifadə edənin məqsədi məni ifraz etmək olarsa və istifadə nəticəsində sperma ifraz olunarsa, yaxud adətən onun həmin oyuncaqdan istifa etməsi bununla nəticələnərsə, haramdır. Vacib ehtiyata əsasən isə hətta məninin ifraz olunmayacağına əmin olduğu hallarda da həmin oyuncaqların istifadəsindən çəkinməlidir.

Məsələ 495. Kişinin öz həmcinsini şəhvətlə qucaqlaması, oğlanların bir-birini cinsi həzz almaq niyyəti ilə öpməsi, yaxud da bir qədər də irəli gedərək anormal qəbul edilən hərəkətlərə yol verməsinə şəriətin münasibəti necədir?

Cavab: Günah dərəcəsinə görə fərqlənsə də, bu qəbildən olan bütün hərəkətlər haram hesab edilir.

## DOQQUZUNCU FƏSİL
## QADINLARI MARAQLANDIRAN MƏSƏLƏLƏR

İslam şəriətində qadınlarla bağlı fiqh ədəbiyyatında öz əksini tapan və müxtəlif mövzular zəminində müfəssəl surətdə şərh edilən bir sıra özünəməxsus hökmlər vardır. Onların da hal-hazırda Amerika və Avropa ölkələrində müşahidə edildiyi kimi İslam dəyərləri, adət-ənənələri ilə uzlaşmayan cəmiyyətlərdə yaşamasının nəticəsi olaraq qarşıya cavabını gözləyən yeni-yeni suallar, şəriətin münasibət bildirməsi gərəkən məqamlar çıxmaqdadır. Məhz həmin ehtiyacı nəzərə alaraq bu fəsildə əziz qadın oxucularımızın problemlərinin bir qismini həll etmək üçün onları maraqlandıran bir sıra şəriət hökmlərinə yer veririk:

**Hökmlər:**

Məsələ 496. Qadın naməhrəm kişilərin yanında harama düşmək qorxusu olmadığı halda, həmçinin onları haram (ehtiraslandıran, günaha sürükləyən) baxışlara sövq etmədiyi, yaxud bu və ya digər şəkildə əxlaqi fəsadlara səbəb olmadığı halda üzünü və əllərini örtməyə bilər. Əks təqdirdə isə hətta məhrəmlərinin belə yanında sözügedən üzvlərini də örtməlidir.

Məsələ 497. Qadın naməhrəm kişilərin yanında ayaqlarının üstünü açıq qoya bilməz. Lakin namazda ayaqlarının həm üst, həm də alt tərəflərini örtməyə bilər.

Məsələ 498. Kişiləri ehtiraslandırmaq niyyəti olmadan və harama düşməyəcəyinə əmin olması şərtilə qadın gözünə sürmə çəkə, barmaqlarına üzük taxa bilər. Əks təqdirdə isə hətta sözügedən bəzəklərini və zinət əşyalarını hətta öz məhrəmlərindən belə gizlətməlidirlər.

Məsələ 499. Naməhrəm kişilərin məftun olaraq günaha sürüklənməsinə səbəb olmadığı və məhz onları təhrik etmək niyyəti daşımadığı halda qadının bu və ya digər səbəblə evdən ətirlənib çıxmasına şəriət tərəfindən izin verilir.

Məsələ 500. Qadın harama (günaha, şərə) düşməyəcəyinə əmin olduğu halda naməhrəm kişinin idarə etdiyi avtomobilə (o cümlədən taksiyə) əyləşə bilər.

Məsələ 501. Qadın orqazm olmaqvə boşalmaq (eyakulyasiya) niyyəti ilə cinsiyyət orqanı ilə oynaya bilməz. Masturbasiya nəticəsində orqazma çataraq boşaldığı (mayenin çölə axdığı) halda isə qüsl almalıdır və bu qüsl dəstəmaz üçün də kifayət edir.

Məsələ 502. Sonsuzluq (repreduktiv fəaliyyətin zəifliyi) problemi ilə üzləşən qadın müalicə məqsədilə zərurət yarandığı halda həkim-ginekoloqun qarşısında cinsiyyət orqanını aça bilər. Eləcə də sonsuzluğun ona bu hökmü (cinsiyyət orqanını həyat yoldaşından başqasına göstərməyin haramlığını) qüvvədən düşürəcək ciddi problemlərlə qarşı-qarşıya qoyduğu hallarda (məsələn ailə həyatının alt-üst olması təhlükəsi *tərc.*) buna izin verilir.

Məsələ 503. Südəmər körpəlrin ana südü ilə qidalandırılması dinimizdə təqdirəlayiq bir hal hesab edilir. Hədislərdən birində oxuyuruq: “Körpə üçün ana südündən daha faydalı bir qida yoxdur”.

Daha yaxşı olar ki, körpə 21 ay müddətində yalnız ana südü ilə qidalansın. 21 ayı tamam olmazdan öncə süddən kəsilməsi məsləhət görülmür. Həmçinin, südəmərlik dövrünün iki ildən (24 aydan) artıq uzadılması da məsləhət görülmür və daha yaxşı olar ki, valideynlər 2 yaşdan gec olmayaraq onu süddən ayırmaq xüsusunda razılığa gəlsinlər.[1]

Məsələ 504. İntim həyatla bağlı olmayan ev işlərini görmək, o cümlədən yemək hazırlamaq, libasları yumaq və s. qadın üçün müstəhəb (təqdirəlayiq) hesab edilir və vacib sayılmır (əri bunu ondan tələb edə bilməz).

Məsələ 505. Şəhvani həzz və harama düşmək qorxusu olmadan naməhrəm qadının söhbətinə qulaq asa bilər və eləcə də qadının bu şərtlər çərçivəsində səsini naməhrəmlərin eşidəcəyi qədər ucadan danışa bilər. Qadının həmsöhbəti olan əks cinsin nümayəndələrində ehtiras hisslərini oyada biləcək şəkildə işvə və incə səslə danışmasına isə hətta öz məhrəmlərinin yanında belə icazə verilmir.[2]

Məsələ 506. Qadın səhhəti ilə bağlı bu və ya digər bir problemlə qarşılaşarsa və həmin xəstəliyi müalicə edə biləcək ən peşəkar həkim kişi mütəxəssis olarsa, həkim müalicə prosedurunun tələb etdiyi çərçivədə onun bədəninə baxa və toxuna bilər. Lakin bunlardan biri (baxmaq və ya toxunmaq) kifayət edərsə, digərinə şəriət tərəfindən icazə verilmir.[3]

Məsələ 507. Bəzi İslamşünas alimlərə görə İslam dini məhz həm qadın, həm kişi, həm də bütövlükdə ailənin mənafeyini təmin etmək üçün bütün növ cinsi həzzalmaları ailə həyatı çərçivəsində qurulan cinsi partnyorluq münasibətləri ilə məhdudlaşdırmaq məqsədilə qadının naməhrəm kişilərin yanında hicablı olmasını vacib etmişdir.[4]

Məsələ 508. Dünya şöhrətli kino rejissoru və prodüseri Alfred Hiçkok deyirdi: "Şərq (burada: müsəlman) qadını zatən olduqca cazibədardır və bu

---

[1] Minhac əs-salihin, əl-Muamilat, 2-ci cild, səh.120.

[2] Öncəki mənbə, səh.15.

[3] Öncəki mənbə, səh.13.

[4] Bax: Şeyx Mürtəza Mütəhhəri, "Məsəle-ye hecab".

cazibədarlıq onu daha da güclü qılır. Lakin onun qərbli həmcinslərinə bənzəmək üçün göstərdiyi əzimli səylər nəticəsində hicabdan get-gedə uzaqlaşmış və nəticədə hicabını itirdikcə də cinsi cazibədarlığı, möhtəşəmliyi də azalmışdır”.[1]

Məsələ 509. Məşhur araşdırmaçı Vil Durant qadının cinsi davranışları ilə bağlı görüşlərini qələmə alarkən yazır: “Qadın əvvəldən bilirdi ki, onun özünü ucuz tutması alçaldılmasına və xor görülməsinə (əks cinsin nümayəndələri tərəfindən), yəni dəyərsizləşməsinə gətirib çıxaracaqdır. O, bunu öz qızlarına da öyrədirdi. Beləliklə, o öz daxili meyli ilə iffət, həya və örtünmək vasitəsilə kişilərin nəzərində dəyərini qaldırdı və mövqeyini gücləndirdi”.[2]

**Sual-cavablar:**

Məsələ 510. Qadının şəhvət hissi ilə, cinsi həzz almaq məqsədilə başqa bir qadını qucaqlaması, öpməsi və onunla oynaşması (mazaqlaşması) ilə bağlı şəriətin hökmü nədir? Bəs bir qədər də irəli gedərək daha anormal davranışlara yol verilməsinə necə?

Cavab: Deyilən hərəkətlərin hamısı haramlıq dərəcəsinə (intim əxlaqa zidd olma səviyyəsindən asılı olaraq günahının böyüklüyünə) görə fərqlənsələr də, şəriət tərəfindən yasaq edilmişdir.

Məsələ 511. Çox zaman qadınlar onları maraqlandıran şəriət hökmləri ilə bağlı dinşünas alimlərə bəzi suallar ünvanlamalı olurlar. Bəzi şəriət məsələlərinin intim həyat kimi haqqında danışılması tabu (qeyri-etik) hesab edilən mövzuları əhatə etdiyi nəzərə alınmaqla onların suallarını həmin alimlərə bilavasitə və açıq şəkildə ünvanlamasına icazə verilirmi? Bəs müraciət edilən şəxslər həmin suallara eynilə açıq şəkildə cavab verə bilərlərmi?

Cavab: Bəli, hər iki tərəfə şəriət hökmlərini öyrənmək və öyrətmək məqsədilə açıq şəkildə danışmağa izin verilir. Lakin onların hər ikisi də öz növbəsində düzgün niyyətdə olmalı, əxlaq qaydalarına riayət etməli və açıq şəkildə

[1] Bax: öncəki mənbə.

[2] Bax: öncəki mənbə.

müzakirə olunması qəbahətli hesab edilən xüsusları gərəksiz yerə qabartmaqdan çəkinməlidirlər.

Məsələ 512. Qadın cinsiyyət orqanı ilə oynadıqda (masturbasiya və ya mazaqlaşma nəticəsində) vaginadan yapışqan halında olan maye ifraz olunur. Bu işə davam etdikdə isə qadın "orqazm" adlanan cinsi həzzin zirvəsinə çata və boşala bilər. Beləliklə, qüsl (cənabət qüslü) mayenin ifraz olduğu ilk ehtiraslanmadan sonra vacib olur, yoxsa yalnız orqazma çataraq boşaldıqdan (eyakulyasiyadan) sonra? Bəs bu qüsl dəstəmaz üçün də kifayət edirmi?

Cavab: Qadın orqazma çatmayınca qüsl alması vacib hesab olunmur. Orqazma çataraq boşaldıqdan sonra isə cənabətdən paklanmalı olduğu hallarda qüsl alması vacib olur və bu qüsl dəstəmaz üçün də kifayət edir.

Məsələ 513. Həcc mərasiminin icrası əsnasında bəzi qadınlar aybaşı (menstruasiya) adətini gecikdirmək məqsədilə müəyyən həblər qəbul edirlər. Lakin adət günləri çatdıqda onlardan yenə də arada bir qan ifraz olunur. Həmin qana heyz hökmləri şamil olunurmu?

Cavab: Əgər qanaxma arada bir az miqdarda baş verərsə və daxildə (ifraz olunmadan) da olsa üç gündən az davam edərsə, heyz hökmləri şamil olunmur.

Məsələ 514. Hicablı müsəlman qadınların bir qismi adətən, boğazlarını örtdükləri halda çənələrini və çənəaltı nahiyəsini açıq qoyurlar. Şəriətdə buna icazə verilirmi? Ümumiyyətlə, üzün örtülməsi vacib olmayan hissələri hansılardır? Qulaqlar da buna daxildirmi?

Cavab: Qulaqlar üz nahiyəsi hesab olunmur və onları ortmək vacibdir. Normal baş örtüklərindən çöldə qalan çənə və onun alt nahiyəsi isə üzdən hesab olunur.

Məsələ 515. Evlənmək ümidini itirən yaşlı naməhrəm qadınlarla əllə görüşmək olarmı? Şəriətdə bu xüsusda nəzərdə tutulan təqribi yaşı da açıqlamağınızı xahiş edirik.

Cavab: Zərurət halları istisna olmaqla, naməhrəm qadının bədəninə heç bir vəchlə toxunmaq olmaz. Şəriətdə sözügedən məsələ ilə bağlı olaraq təqribi bir yaş həddi müəyyən edilməmişdir və bu dövr müxtəlif qadınlarda fərqli yaşlardan

başlaya bilər. Sözügedən yaşlılıq meyarı isə ayədə də öz əksini tapdığı kimi qadının yaşının çox olması (ömrünün qocalıq, ahıllıq çağında olması) nəticəsində evlənməkdən ümidini üzməsidir.

Məsələ 516. Bu və ya digər bir ölkədə üzü niqabla örtmək insanlarda təəccüb doğurarsa və addımbaşı səbəbi soruşularsa, “şöhrət libası” (burada: diqqəti cəlb edən, məsələn insanın barmaqla göstərilməsinə səbəb olan geyim) hesab olunaraq niqab bağlamaqdan imtina etmək vacibdirmi?

Cavab: Göstərilən halda vacib deyil. Lakin yaşadığı ölkənin əhalisinin əksəriyyəti tərəfindən normal qəbul edilməyərək, bayağı, xoşagəlməz hesab edildiyi halda niqab həmin ölkədə “şöhrət libası” sayılır və onunla üzü bağlamaq olmaz.

Məsələ 517. Hicablı qadınlar naməhrəm təlimçilərin rəhbərlik etdiyi sürücülük kurslarında günaha yol vermək üçün zəmin olmadığı halda fərdi qaydada sürücülük təlimi ala bilərlərmi?

Cavab: Fəsaddan (günahdan) uzaq olduqları halda icazə verilir.

Məsələ 518. Qadın gözəllik salonları qadın işçi axtarırlar. İnanclı müsəlman qadını həmin salonlarda işləyərək naməhrəmlərin qarşısında gözəl görünmək istəyən qeyri-müsəlman və hicabsız müsəlman qadınlarına xidmət göstərə bilərmi?

Cavab: Bu iş onların şəriətin yasaqlarının (günahın) rəvac tapmasına, yayılmasına şərik olması sayılarsa, həmin salonlarda işləməməlidirlər. Lakin bu ehtimalın özünü doğrultması həqiqətdən kifayət qədər uzaq görünür.

Məsələ 519. Üzünü örtməyən (niqab və s. ilə) qadın üzündəki tükləri və qaşlarını ala, sadə təbii pudralarla makyaj edə bilərmi?

Cavab: Üzdəki tüklərin və qaşların alınması günaha düşmək təhlükəsinin mövcud olmaması və haram baxışlara sövq etmək niyyəti daşımaması şərti ilə üzün açıq qalmasına əngəl hesab olunmur. Makyaj edildiyi halda isə üz örtülməlidir.

Məsələ 520. Elçi tapmaq niyyəti ilə qadın məclislərində qızlar saçını tamamilə və ya bir hissəsini boyayaraq iştirak edə bilərmi?

Cavab: Bu və ya digər bir eybi gizlətmək, yaxud yaşını olduğundan az göstərmək kimi fırıldaqçılıq hallarına yol vermədən sadəcə bəzənmək, gözəl görünmək niyyəti daşıyarsa, eybi yoxdur.

Məsələ 521. Qadınlar süni saçlardan (pariklərdən) istifadə edərkən təbii saçlarını gizlətmiş olurlar. Bəs onlar həm örtünmək, həm də gözəl görünmək məqsədilə özlərini fərqli imicdə göstərə bilərlərmi?

Cavab: Süni saçlardan istifadə etmək olar, lakin süni saç naməhrəm kişilərin yanında örtlülməsi vacib olan zinətlərdəndir.

Məsələ 522. Gənc qadınlar ayaqlarının baldır hissəsini gözəl göstərən dəri rəngli neylon corablar geyinə bilərmi?

Cavab: Geyinə bilərlər, lakin həmin corablar geyimdə zinət hesab olunduğu halda naməhrəmlərin yanında onları gizlətməlidirlər.

Məsələ 523. Ayaqların formasını göstərən corabları geyinmək olarmı?

Cavab: Geyinmək olar.

Məsələ 524. Bu və ya digər tibb müəssisəsində çalışan müsəlman tibb bacısı peşə fəaliyyəti çərçivəsində müsəlman və ya qeyri-müsəlman işilərin bədəninə toxunmalı olur. İş tapmaq şansı az olduğundan bu işdən ayrılması onu ciddi çətinliklərl üzləşdirəcəyi halda işinə davam edə bilərmi? Digər tərəfdən, bu xüsusda müsəlman kişi ilə müsəlman olmayanın bədəninə toxunmaq arasında bir fərq qoyulurmu?

Cavab: Müsəlman qadına müsəlman olub-olmamasından asılı olmayaraq naməhrəm kişinin bədəninə toxunmağa icazə verilmir. Yalnız haram hökmünü qüvvədən düşürən zərurət halları istisna təşkil edir.

Məsələ 525. Müsəlman qadın yerə toxunduqda diqqəti cəlb edən səslər çıxaran hündürdaban ayaqqabı geyinə bilərmi?

Cavab: Naməhrəm kişilərin diqqətini özünə cəlb etmək niyyəti daşıdığı, yaxud bir növ əxlaqi fəsada səbəb olduğu halda geyinə bilməz.

Məsələ 526. Qadının gözəl görünmək məqsədilə üzük, qolbaq və boyunbağı kimi zinət əşyalarından istifadə etməsi halaldır, yoxsa haram?

Cavab: Hala hesab olunur, lakin boyunbağını mütləq naməhrəmlərin yanında gizlətmək lazımdır. Üzük və qolbaqlar isə harama düşmək təhlükəsi olmadığı və haram baxışları cəlb etmək məqsədi daşımadığı hallarda istisna təşkil edir.

Məsələ 527. Qərb ölkələrində müxtəlif rəngli kontakt linzalarının istifadəsi illərdir ki, dəbdədir. Müsəlman qadın estetik məqsədlərlə həmin linzalardan istifadə edərək naməhrəm kişilərin qarşısına çıxa bilərmi?

Cavab: Zinət hesab olunduğu hallarda icazə verilmir.

Məsələ 528. Qadın yumurta hüceyrəsi donorluğuna, yumurta hüceyrələrinin alqı-satqısına şəriətin münasibəti necədir?

Cavab: İcazə verilir.

Məsələ 529. Bəzi qadınlar müəyyən xəstəliklərlə əlaqədar olaraq saç tökülməsi problemi ilə qarşılaşırlar. Saç tökülməsinin onlar üçün ciddi problemlər doğurduğu hallarda müalicə məqsədilə, yaxud sadəcə estetik məqsədlərlə saçlarını kişi həkim-kosmetoloqa göstərə bilərlərmi?

Cavab: Yalnız dözülməz dərəcədə ciddi bir problem yarandıqda icazə verilir.

Məsələ 530. Müsəlman qızlar qərb ölkələrində fəaliyyət göstərən və tələbə qız və oğlanların qaynayıb-qarışdığı, səmimi ünsiyyətdə olduğu ali təhsil müəssisələrində təhsil ala bilərmi?

Cavab: İmanını qoruya biləcəyinə, dini vəzifələrini yerinə yetirə biləcəyinə, o cümlədən hicab geyinə biləcəyinə və haram baxış və toxunuşlardan qoruna biləcəyinə, habelə həmin "səmimi münasibətlər" və haqq yoldan sapma mühitinin təsiri altına düşməyəcəyinə arxayın olarsa, orada təhsil almasına məhdudiyyət qoyulmur. Əks təqdirdə isə, icazə verilmir.

Məsələ 531. Bəzi qərb ölkələrində bir sıra rəssamlar küçələrdə, meydanlarda müəyyən məbləğdə ödəniş müqabilində şəklini çəkdirmək istəyən şəxsləri üzlərini təsvir etmək üçün qarşılarında oturdaraq diqqətlə izləyirlər. Müsəlman qadın həmin rəssamlardan şəklinin çəkilməsini xahiş edə bilərmi?

Cavab: Müsəlman qadına yaraşmaz.

Məsələ 532. Qadınların güləşin müxtəlif növləri ilə məşğul olmasına şəriət tərəfindən icazə verilirmi? Bəs onların şəhvət hissi olmadan kişi güləşçilərin

yarıçılpaq bədənlərinə canlı surətdə (idman meydançalarında), yaxud ekran arxasında baxmasına necə?

Cavab: İnsanın özünə və ya başqasına haram hesab olunan dərəcədə zərər (burada: fiziki xəsarət) yetirməsi şəriət tərəfindən yolverilməz hesab olunur. Vacib ehtiyata əsasən, qadınlar kişilərin baş, əl, ayaq və adətən örtülməyən (qollar kimi) digər bədən üzvləri istisna olmaqla, onların bədənlərinin digər hissələrinə şəhvət hissi olmadan belə, hətta ekran arxasından da tamaşa etməməlidirlər.

Məsələ 533. Qadınlar əzadarlıq, sinəzənlik məclislərində köynəklərini çıxaran kişilərin bədəninə baxa bilərlərmi?

Cavab: Vacib ehtiyata əsasən, baxmamalıdırlar.

Məsələ 534. Övladlığa götürülən, yaxud Allah rızası üçün böyüdülən qız uşağı həddi-buluğa çatdıqda onu böyüdən şəxsin (kişinin) yanında hicab bağlamalıdırmı? Həmçinin, həmin şəxsin öz övladı kimi böyütdüyü qızın saçına baxmaqdan, ona toxunmaqdan çəkinməsi vacibdirmi?

Cavab: Bəli, hər iki halda vacibdir və onlar arasında münasibətlərə digər bütün naməhrəmlər üçün qüvvədə olan hökmlər şamil olunur.

Məsələ 535. Nikahdankənar cinsi əlaqənin nəticəsi olan hamiləlik qadın üçün ciddi problemlər yaradarsa və ailəsinin heysiyyətinə xələl gətirərsə, kurtaj (abort) etdirə bilərmi?

Cavab: Normal hallarda dözülməz hesab edilən ciddi problemlərlə üzləşdiyi və kurtajdan başqa çıxış yolu olmadığı halda ana bətnindəki rüşeymə ruhun daxil olmasından öncə bu əməliyyatı həyata keçirə bilər.

Məsələ 536. Qadının şalvar geyinərək bu halda küçəyə çıxmasına, alış-veriş mərkəzlərinə getməsinə şəriətin münasibəti necədir?

Cavab: Şalvar onun bədən quruluşunu, cəzbediciliyini gözlər önünə sərərsə, yaxud bir qayda olaraq bu cür geyimlər əxlaqdankənar hisslərin, günaha meylin yaranmasına səbəb olarsa, geyinə bilməz.

Məsələ 537. Qadın məclislərində diqqət cəlb etmək və daha gözəl görünmək məqsədilə süni saç (parik) taxmağa icazə verilirmi və bu nöqsanları gizlətmək hesab olunurmu?

Cavab: Elçilərdən eyiblərini gizlətmək kimi fırıldaqçılıq hallarına yol vermədən sadəcə gözəl görünmək məqsədi daşıyarsa, heç bir məhdudiyyət qoyulmur.

Məsələ 538. Heyzli (aybaşı, menstruasiya günlərini keçirən) qadın Qurani-Kərimdən yeddi ayədən artıq oxuya bilərmi (səcdə ayələri istisna olmaqla)? Bəs icazə verildiyi halda məkruh (bəyənilməz) hesab olunurmu? Məkruh hesab olunduğu halda bu kərahət (bəyənilməzlik) qadının qiraətinə görə daha az savab qazanması anlamını daşıyır?

Cavab: Həmin günlərdə qadın vacib səcdə ayələri istisna olmaqla Qurani-Kərimin bütün ayələrini oxuya bilər. Yeddi ayədən artıq oxumağın məkruhluğuna gəlincə, bu sualda da deyildiyi kimi başqa günlərlə müqayisədə daha az savab qazanılması deməkdir.

## ONUNCU FƏSİL
## MUSİQİ, MÜĞƏNNİLİK VƏ RƏQS

Qeyri-müsəlman, eləcə də bəzi müsəlman ölkələrində yaşayanlar küçələrdə, təhsil müəssisələrində, qonşularının evində, yaxud hərəkət halında olan nəqliyyat vasitələrində musiqi alətlərinin sədasına, müğənnilərin ifasına, rəqqasların ritmik ayaq səslərinə tez-tez qulaq müsafiri olurlar. Bəzən bu səslər kifayət qədər yüksək, qulaqbatırıcı olduğundan, başqa sözlə onları dinləmək məcburiyyəti qarşısında qaldıqlarından qarşıya bir sıra suallar çıxır. Görəsən, həmin musiqi alətləri və müğənnilərin ifasını dinləyə bilərəmmi? Görəsən, müsəlman rəqs edə bilərmi?

Aşağıdakı şəriət hökmləri bu və digər əlaqədar suallara aydınlıq gətirəcəkdir:

Məsələ 539. Musiqi son dövrlərdə geniş miqyasda rəvac tapan incəsənət sahələrindən biridir və onun bəzi növləri İslam şəriətində halal, bəzi növləri isə haram hesab edilir. Halal hesab edilən musiqilərin dinlənilməsinə şəriətimiz tərəfindən icazə verilmiş, haram sayılanlara qulaq asmaq isə yasaq edilmişdir.

Məsələ 540. Halal musiqi eyş-işrət məclislərinə uyğun (həmahəng) olmayan musiqidir. Haram musiqi isə eyş-işrət məclislərinə xass tərzdə ifa olunan musiqi sayılır.

Məsələ 541. “Musiqi və ya mahnının eyş-işrət məclislərinə uyğunluğu” ifadəsi onun insanı ruhlandırması (yaxud dincəltməsi), əhval-ruhiyyəsini dəyişdirməsi anlamını daşımır. Bu öz-özlüyündə müsbət bir haldır və bəzən hətta halal musiqilər də məhz bu məqsədə xidmət edir. Sözügedən ifadə dinləyicinin özünün – xüsusilə də, musiqi sənətindən anlayışı olduğu təqdirdə – eşitdiyi musiqi və ya mahnının eyş-işrət məclislərində dinlənilən, yaxud onlara bənzər ifalardan olduğunu ayırd etməsini nəzərdə tutur.

Məsələ 542. Halal musiqilərin ifa olunduğu məkanlara baş çəkmək, hətta halallıq çərçivəsindən çıxmadıqca uzun müddət həmin ifaları dinləmək də sərbəstdir.

Məsələ 543. Eyş-işrət məclislərinə münasib tərzdə musiqilərin ifa edildiyi, yaxud səsucaldıcılar vasitəsilə yayımlandığı qonaq qarşılama salonlarına (limanlarda, vağzallarda, hotellərdə və s.), ümumi parklara, restoranlara, kafelərə və s. ictimai yerlərə də məqsədli şəkildə həmin musiqiləri dinləməmək şərtilə getmək olar. Çünki, haram musiqini eşitmək deyil, dinləmək, ona məqsədli şəkildə qulaq asmaq qadağan edilmişdir.

Məsələ 544. Yaşından asılı olmayaraq hər bir müsəlmana ixtisaslaşmış musiqi məktəblərində, eləcə də digər kurslarda musiqi sənətinin halal qismini öyrənməyə icazə verilir, lakin bu şərtlə ki, həmin kurslarda iştirak etmək onların dini dəyərlərlə böyüyüb tərbiyə almasına əngəl törətməsin.

Məsələ 545. “Ğina” hesab edilən mahnıların ifası, dinlənilməsi və bu ifaçılığın gəlir vasitəsinə çevrilməsi haramdır. “Ğina” deyərkən eyş-işrət əhlinə (yüngül həyat tərzi keçirən insanlara) xass tərzdə bayağı ahənglərlə ifa olunan mahnılar, nəğmələr nəzərdə tutulur.

Məsələ 546. Qurani-Kərim, dua və zikrlərin eyş-işrət əhlinə xass ahənglərlə oxunması doğru deyil. Vacib ehtiyata əsasən, eyş-işrət məzmunu daşımayan digər

bədii qiraət mətnlərini, o cümlədən mənzum (şeir) və ya mənsur (nəsr) bədii ədəbiyyat nümunələrini də belə ahənglərlə oxumaqdan çəkinmək lazımdır.

Məsələ 547. Ğina və haram musiqilərə qulaq asmağın yasaq edilməsi faktı sünnədə də öz əksini tapmışdır.

O cümlədən, Allahın elçisinin (s) bir hədisi-şərifində oxuyuruq: “Ğina oxuyan müğənnilər, zinakarlar, haram musiqiləri mizmar (nəfəsli musiqi aləti *tərc.*) və ya dəfdə (və ya hər hansı zərb alətində *tərc.*) ifa edənlər qəbirlərindən kar, kor və lal olaraq qaldırılacaqlar”.[1]

Başqa bir kəlamında isə sevimli Peyğəmbərimiz (s) belə buyurur: “Mənasız (eyş-işrət, əyləncə xarakteri daşıyan) sədalara qulaq asanların qulağına qiyamət günü qurğuşun töküləcəkdir”.[2]

Daha bir dəyərli hədisində isə buyurur: “Ğina zinanın ovsunudur, başqa sözlə ona doğru aparan yol, onun gerçəkləşməsinə rəvac verən amildir”.[3]

Məsələ 548. Qadın ərinin qarşısında onu sevindirmək, ehtiraslandırmaq məqsədilə və ya başqa bir niyyətlə rəqs edə bilər. Lakin başqa kişilərin qarşısında rəqs etməsi yolverilməzdir. Həmçinin, vacib ehtiyata əsasən, qadınların da yanında rəqs etməməlidir.

Məsələ 549. Dini münasibətlərlə əlaqədar əlamətdar günlərdə, bayramlarda, toy məclislərində, festivallarda və digər şənliklərdə həm kişilərə, həm də qadınlara əl çalmağa icazə verilir.

İndi isə gəlin, mövzu ilə bağlı bir sıra aktual suallar və Həzrət Ayətullah əl-üzmanın həmin suallara cavabları ilə tanış olaq:

Məsələ 550. Haram və halal musiqi anlayışları ilə bağlı bizə tez-tez suallar ünvanlanır. Həmin suallara aşıdakı qaydada cavab verə bilərikmi:

- ehtiras hislərini coşduran, bayağılığa sövq edən musiqi – haram musiqi;

---

[1] əl-Məsail əş-şəriyyə, Ayətullah əl-üzma Xoyi, c.2, səh. 22.

[2] Öncəki mənbə.

[3] Öncəki mənbə, c.2, səh.23.

- əsəbləri sakitləşdirən, mənəvi rahatlıq gətirən, filmlərdə səhnələrin təsiredicilik qabiliyyətini, yaxud idman hazırlığı və bədən tərbiyəsi məşqlərində əhval-ruhiyyəni gücləndirmək məqsədilə istifadə olunan, habelə müəyyən mənzərəni təsvir edən, vətənpərvərlik və döyüş əhval-ruhiyyəsini yüksəldən musiqi isə haram musiqidir?

Cavab: Haram musiqi – cinsi istəkləri hərəkətə gətirməsə belə eyş-işrət məclislərinə münasib tərzdə ifa olunan musiqidir.

Halal musiqi – sözügedən məclislərə uyğun tərzdə ifa olunmayan musiqidir və əsəbləri sakitləşdirmək (dincəltmək) xüsusiyyəti olmayan hərbi-vətənpərvərlik və matəm marşları də bu qismə aiddir.

Məsələ 551. Haram və halal musiqilərlə bağlı olduğu kimi haram və halal mahnılarla da bağlı suallarla tez-tez qarşılaşırıq. Həmin suallara da aşağıdakı qaydada cavab verə bilərikmi:

- ehtiras hislərini coşduran, bayağılığa sövq edən musiqi – haram musiqi;

- zəifləyən müsbət, sağlam hissləri oyatmağa, mənəviyyat və düşüncələri inkişaf etdirməyə xidmət edən, Həzrət Məhəmməd Peyğəmbərin (s) həyat yolu, yaxud Əhli-beyt imamlarının (ə) mədhiyyələri kimi dini motivləri özündə ehtiva edən musiqili əsərlər və ya vətənpərvərlik mövzusunda hazırlanan marşlar isə halal musiqi hesab edilir?

Cavab: "Ğina" bütünlüklə haramdır. Bizim nəzərimizə əsasən, "ğina" – eyş-işrət əhlinə xass ahəngdə ifa olunan mənasız, məzmunsuz sözlərdir. Qurani-Kərimi, duaları, Əhli-beytin (ə) mədhiyyələrini bu qəbildən olan ahənglərlə oxumaq da ğina sayılır. Digər ləhv (mənasız, məzmunsuz) hesab olunmayan sözlərin, əsərlərin, o cümlədən vətənpərvərlik mövzusunda olan nəğmə və marşların ğina ahəngi ilə oxunmasının haramlığı isə vacib ehtiyata əsaslanır. Ğinanın qeyd edilən tərifinə uyğun gəlməyən ahənglərə gəlincə isə, onlar öz-özlüyündə haram hesab edilmir.

Məsələ 552. Əhli-beytin mədhi məzmununu özündə ehtiva edən və musiqi ilə müşayiət olunan dini nəğmələrə qulaq asmaq olarmı?

Cavab: “Ğina” mütləq surətdə haramdır. Könüloxşayan ahənglə oxunan mədhiyyələr isə “ğina”nın tərifində öz əksini tapan çərçivədə olmadığından dinlənilməsinə heç bir əngəl yoxdur. Musiqiyə gəlincə, eyş-işrət məclislərinə münasib tərzdə ifa olunmadığı halda qulaq asmaq olar.

Məsələ 553. Qiraət əsnasında boğaz qaynatmalarına (zəngulələrə) yer verən qiraətçinin ifasında Qurani-Kərimin qiraətindən həzz almaq olarmı?

Cavab: Qiraətdə istifadə olunan ahəng ğina ahənglərindən olmazsa, qulaq asmağın eybi yoxdur.

Məsələ 554. Bəzi qiraətçilər, solistlər və müğənnilər eyş-işrət musiqiçilərinin oxuduğu ahəngləri təqlid edərək həmin ahənglərlə Əhli-beyti (ə) mədh edən musiqili əsərlər ifa edirlər. Beləliklə, əsərin məzmunu (sözləri) eyş-işrət əhlinə xass tərzə zidd, ahəng, musiqi isə uyğun olur. Bəs bu tərzdə ifaya və həmin ifaya qulaq asmağa icazə verilirmi?

Cavab: Ehtiyata əsasən, haram hesab edilir.

Məsələ 555. Qadınlara zifaf (toy) gecəsi istənilən ahənglə, hətta eyş-işrət məclislərinə xass tərzdə olsa belə mahnı oxumağa icazə verilirmi? Bəs mahnı ilə yanaşı musiqi alətlərində ifa etməyə necə? Bu icazə yalnız zifaf gecəsinəmi aiddir, yoxsa toy, xınayaxdı və s. mərasimlərində də qadınlara oxumağa icazə verilirmi?

Cavab: Vacib ehtiyata əsasən, nəinki digər mərasimlərdə, hətta toy gecəsi belə sözügedən ifalardan uzaq durmaq lazımdır. Musiqi ilə bağlı hökm isə öncəki məsələlərdə öz əksini tapmışdır.

Məsələ 556. Pianino, ud, təbil (baraban), mizmar (nəfəsli musiqi aləti *tərc.*) və sintezator kimi musiqi alətlərinin istifadə olunduğu inqilabi marşlara qulaq asmaq olarmı?

Cavab: Musiqi əsəri eyş-işrət məclislərinə munasib hesab edilən musiqilərdən olarsa, dinləmək olmaz.

Məsələ 557. “Əxlaqsız (mənəviyyatsız) insanlara xass tərz” deyərkən nə nəzərdə tutulur?

Cavab: Bizim fətvalarımızda belə bir ifadə öz əksini tapmamışdır. Biz "ğina"nın tərifində "eyş-işrət əhlinə tanış olan ahənglər" ifadəsini işlətmişik və bu ifadənin mənası da kifayət qədər aydındır.

Məsələ 558. Əvvəllər dinin göstərişlərinə qarşı laqeyd olan bir müsəlman həmin göstərişlərə riayət etməyə başladıqdan sonra təkbaşına qaldıqda, yaxud dostları ilə olduqda bi vaxtlar qulaq asdığı mahnıları dinləyə və zümzümə edə bilərmi?

Cavab: "Ğina" hesab olunduğu halda icazə verilmir.

Məsələ 559. Xarici dilləri tədris edən müəllimlər danışıq dilinin mənimsənilməsi üçün həmin dillərdə olan bir sıra məşhur mahnılara qulaq asmağı tövsiyə edirlər. Deyilən məqsədlə həmin mahnılara qulaq asmaq olarmı?

Cavab: Həmin mahnıları öncəki məsələlərdə öz əksini tapan tərif əsasında "ğina" adlandırmaq olarsa, icazə verilmir.

Məsələ 560. Musiqi alətləri növbənövdür və həmin alətlərdə həm musiqi məclislərində, həm də sadəcə mənəvi rahatlıq məqsədilə ifa etmək mümkündür. Bbeləliklə, musiqi alətlərinin istehsalına, alqı-satqısına, sadəcə istirahət məqsədilə həmin alətlərdə ifa etməyə və ya başqasının ifasına qulaq asmağa şəriətin münasibəti necədir?

Cavab: Haram ləhv (musiqi) alətlərinin istehsalı, alqı-satqısı və bu işlərdən qazanc əldə etmək yolverilməz sayılır. Haram ləhv aləti deyərkən belə bir iş üçün istehsal edilən, təyinatı üzrə (haram əyləncədə, eyş-işrtdə) istifadəsinə görə dəyər kəsb edən (alqı-satqısından qazanc əldə edilən) və yalnız haram əyləncələrdə (haram musiqilərin ifasında) istifadə olunan alətlər nəzərdə tutulur.

Məsələ 561. Uşaqları əyləndirmək, şənləndirmək üçün istifadə olunan musiqi alətlərinin, oyuncaqlarının istehsalına, alqı-satqısına icazə verilirmi? Bəs böyüklərin də həmin alətlərlə oynamasına necə?

Cavab: Həmin alətlərdən çıxan musiqi eyş-işrət məclislərinə xass tərzdə ifa olunan musiqiyə bənzəyərsə, onların alqı-satqısına və mükəlləflər tərəfindən istifadəsinə icazə verilmir.

Məsələ 562. Britaniyanın və ya bəzi digər ölkələrin dövlət və ya özəl məktəblərində şagirdlərə diqqətlərini rəqsə yönəltmək məqsədilə müəyyən musiqilərin müşayiəti ilə rəqs dərsi keçirilir.

1) Həmin dərslərdə iştirak etmək olarmı?

2) Yeniyetmə övladları belə dərslərə rəğbət göstərdiyi halda valideynlərin onlara qadağa qoyması vacibdirmi?

Cavab: 1) Onların dini dəyərlər əsasında böyüməsinə, tərbiyə almasına mənfi təsir göstərdiyi halda - əksər hallarda bu vəziyyət özünü doğruldur – həmin dərslərdə iştirak edə bilməzlər. Hətta ehtiyata əsasən, istənilən halda həmin dərslərdə iştirak etməməlidirlər.

2) Bəli vacibdir.

Məsələ 563. Rəqs sənətini öyrənmək (rəqqaslıq dərsləri almaq) olarmı?

Cavab: Ehtiyata əsasən, heç bir vəchlə icazə verilmir.

Məsələ 564. Yalnız evli cütlüklərin iştirak etdiyi, hər kəsin öz həyat yoldaşı ilə bayağı olmayan libaslarda və həzin musiqi sədaları altında rəqs etdiyi ballar, rəqs məclisləri təşkil etmək olarmı?

Cavab: İcazə verilmir.

Məsələ 565. Qadınların və kişilərin iştirakçıları yalnız öz həmcinslərindən ibarət olan məclislərdə, musiqinin müşayiəti ilə və ya musiqisiz rəqs etməsinə icazə verilirmi?

Cavab: Qadının yalnız qadınların və ya kişinin yalnız kişilərin yanında rəqs etməsinə şəriətin icazə verməsi şübhə doğuran bir məqamdır və ehtiyata əsasən, bu halda da rəqsdən imtina etmək lazımdır. Musiqi ilə bağlı hökm isə öncəki məsələlərdə öz əksini tapmışdır.

Məsələ 566. Qadın öz həyat yoldaşı üçün musiqinin müşayiəti ilə və ya musiqisiz rəqs edə bilərmi?

Cavab: Haram musiqi ilə müşayiət edilmədiyi halda rəqs edə bilər.

Məsələ 567. Bəzi qərb dövlətlərində orta təhsil müəssisələri şagirdlərini rəqs sənətinin əsaslarını öyrənməyə məcbur edir. Bu rəqs dərsləri ənənəvi musiqilərin müşayiəti ilə keçirilmir (özünəməxsus ritmik rəqs musiqisinin müşayiəti ilə

keçirilir), ləhv (haram və məzmunsuz əyləncə) məqsədi daşımır və sadəcə bir ədris fənni hesab olunur. Valideynlərin övladlarına sözügedən dərslərdə iştirak etməyə izin verməsi haram hesab edilirmi?

Cavab: Həmin dərslərdə iştirak etmək onların dini dəyərlər əsasında tərbiyəsi ilə ziddiyyət təşkil edərsə, ehtiyata əsasən isə, övladlar həddi-buluğa çatdığı təqdirdə istənilən halda onlara həmin dərslərdə iştirak etməyə icazə vermək haramdır. Yalnız həmin dərslərdə iştirak etmək üçün şəriət tərəfindən məqbul hesab edilən bir səbəb olduğu halda, məsələn təqlid etdikləri müctəhid iştirak etməyə icazə verdiyi təqdirdə valideynlərin də onların həmin dərslərə getməsinə izin verməsinə heç bir əngəl qalmır.

## ON BİRİNCİ FƏSİL
## MÜXTƏLİF MÖVZULAR

Əziz oxucular! Bu fəsildə siz öncəki fəsillərin əhatə etdiyi mövzularla birbaşa bağlılığı olmayan, lakin müxtəlif aktual məsələlərlə əlaqədar olan bir sıra şəriət hökmləri və eləcə də həmin məsələlər ətrafında verilən sualların cavabları ilə tanış olacaqsınız.

Məsələ 568. Yeni doğulan körpələri Allaha (c.c.) bəndəlik məzmunu ifadə edən adlarla adlandırmaq müstəhəbdir. Həmçinin, övladlarımıza peyğəmbərimiz Həzrət Məhəmmədin (s) və digər peyğəmbərlərin adlarını, eləcə də Əli, Həsən, Hüseyn, Cəfər, Talib, Həmzə, Fatimə adlarını vermək bəyənilən, onları İslam və Əhli-beytə (ə) düşmən mövqeyi ilə tanınan şəxslərin adları ilə adlandırmaq isə bəyənilməyən bir haldır.

Məsələ 569. Oğlan və ya qız olmasından asılı olmayaraq iki yaşınadək (hicri-qəməri təqvimi ilə) övladı böyütmək, onun təlim-tərbiyəsi ilə məşğul olmaq ata və ananın bərabər hüquqlarındandır və atanın bu iki il ərzində uşağı anasından ayırmağa haqqı yoxdur. İki yaşından sonra isə bu haqq ataya məxsusdur, lakin istihbabi (müstəhəb) ehtiyata əsasən, o yeddi yaşınadək övladını onu dünyaya gətirən anasından ayırmamalıdır.

Məsələ 570. Uşağın (oğlan və ya qız olmasından asılı olmayaraq) iki yaşı tamam olmadan valideynləri nikah müqaviləsinin pozulması (ləğv edilməsi və ya etibarsız hesab edilməsi), yaxud boşanma nəticəsində ayrılarsa, ana başqa bir şəxslə evlənmədikcə övladının yetişdirilməsi və tərbiyəsində iştirak etmək hüququnu itirmir və ata ilə ana bu bərabər hüquq və vəzifələrini razılıq əsasında növbə ilə, yaxud hər hansı bir şəkildə birgə icra etməlidirlər.

Məsələ 571. Ana həyat yoldaşından ayrılaraq başqa bir şəxslə evləndiyi halda isə uşağın böyüdülməsində və tərbiyəsində iştirak hüququnu itirir və sözügedən hüquq və vəzifələr atanın üzərinə düşür.

Məsələ 572. Uşağı böyütmək (qəyyumluq) hüquqları uşağın həddi-buluğa çatması, yetişkinləşməsi ilə sona çatır və bu dövrdən etibarən heç kəsin, hətta valideynlərinin də onun üzərində qəyyumluq hüququ yoxdur. O, oğlan və ya qız olmasından asılı olmayaraq müstəqil (qərarlar qəbul edə və onları icra edə bilən) şəxs hesab edilir. Həddi-buluğa çatmış, yetişkin övlad valideynlərindən hər hansı biri və ya üçüncü bir şəxslə yaşamaq hüququna malikdir. Lakin valideynlərin qayğıkeşlikləri səbəbindən ondan ayrı yaşamaqdan narahat olduqları halda şəriətimiz (dini dəyərlərimiz) ona valideynlərindən ayrı yaşamağa icazə vermir. Valideynləri arasında seçim etmək qarşısında qaldığı halda isə ana ilə yaşamaq daha doğru hesab edilir.

Məsələ 573. Ata dünyasını dəyişdikdə həddi-buluğa çatanadək övladın qəyyumluq hüququ anaya məxsusdur.

Məsələ 574. Ana övladının üzərində qəyyumluq hüququna sahib olduğu dövrdə vəfat edərsə, bu hüquq yalnız ataya məxsus olur.

Məsələ 575. Valideynlərin uşaqlarını böyütmək hüquqları olduğu kimi uşaqların da tərbiyə almaq hüququ vardır və valideynlər bu vəzifədən imtina etdikləri halda icbari şəkildə sözügedən vəzifənin icrasına məcbur edilməlidirlər.

Məsələ 576. Valideynlərinin hər ikisini itirdiyi (ata-anası vəfat etdiyi, yaxud itkin düşdüyü) halda uşağı böyütmək (ona qəyyumluq) hüququ ata tərəfdən olan babasına verilir.

Məsələ 577. Valideynlər, yaxud qəyyumluq hüququ olan başqa şəxslər övladı böyütmək və tərbiyə etmək vəzifəsini şəriət tərəfindən məqbul hesab ediləcək qaydada icra edəcəyinə əmin olduqları üçüncü bir şəxsə həvalə edə bilərlər.

Məsələ 578. Uşağı böyütmək (qəyyumluq) hüququna sahib olan valideylərin, yaxud başqa şəxslərin əqli sağlamlığının yerində olması, uşağın sağlamlığı üçün təhlükə törətməməsi (keçici xəstəliklər kimi halların mövcud olmaması) və müsəlman olması şərt hesab edilir. Buna əsasən, ata kafir, ana isə müsəlman olduğu halda uşağın qəyyumluq hüququ yalnız anaya, ana kafir, ata müsəlman olduğu halda isə ataya məxsusdur.

Məsələ 579. Valideynlərin nəfəqə təminatı (zəruri yaşayış ehtiyaclarının təmin edilməsi) oğlan övladının borcudur.

Məsələ 580. Oğlan və ya qız olmasından asılı olmayaraq övladların nəfəqə təminatı atanın vəzifəsidir.

Məsələ 581. Yaxın qohumların yaşayış ehtiyaclarının təminatının vacib hesab edilməsi üçün onların yoxsul olması, yəni qida, geyim, məişət əşyaları və avadanlıqları, eləcə də yaşayış yeri kimi ehtiyaclarını ödəyə bilməməsi şərtdir.

Məsələ 582. Şəriət təəfindən yaxın qohumların nəfəqə təminatı üçün müəyyən çərçivə təyin edilməmişdir. Vacib buyurulan nəfəqə təminatı zaman və məkan şəraiti çərçivəsində onların mövcud durumunu nəzərə almaqla qida, geyim, məişət əşyaları və yaşayış yeri kimi zəruri yaşayış ehtiyaclarını ödəməkdir.

Məsələ 583. Nəfəqə təminatını ödəməli olan şəxs bundan imtina edərsə, təminat haqqı olan şəxs hətta zalım hakimə (yəni ədalət və hüququn aliliyinin qorunmadığı cəmiyyətlərdə hüquq-mühafizə orqanlarına) müraciət etmək bahasına olsa belə onu öz vəzifəsinin icrasına məcbur edə bilər. Məcburiyyətlə də öz haqqını əldə edə bilmədikdə isə şəriət hakiminin icazəsi ilə onun əmlakından nəfəqə həcmində mənimsəyə bilər. Bu da mümkün olmadığı halda isə hakimə müraciət etməklə onun adına borc götürə bilər və həmin borcu ödəmək nəfəqə ödəməli olan şəxsin vəzifəsidir. Hakimə müraciət etmək mümkün olmadığı halda isə hər hansı

bir ədalətli möminə müraciət edərək nəfəqə ödəməli olduğu şəxsin adına borc götürə bilər və həmin şəxsin bu borcu ödəməsi vacibdir.

Məsələ 584. Əgər haqq dinin və onun müqəddəs hökmlərinin (şəriətinin) qorunması (bərpası) və ya müsəlmanların heysiyyətinin, yaxud torpaqlarının qorunması bir və ya dəstə insanın öz sərvətlərinin bir qismini bu uğurda xərcləməsinə bağlıdırsa, onların bu yolda öz imkanlarını səfərbər etməsi vacibdir və bu yolda xərclədiklərinin qarşılığını gözləməyə haqları çatmır və kimdənsə mükafat tələb edə bilməzlər.

İndi isə gəlin Ayətullah əl-üzma Sistaniyə ünvanlanan bir sıra suallar və onların cavabları ilə tanış olaq:

Məsələ 585. Həzrət Məhəmmədin (s), keçmiş peyğəmbərlərin və Əhli-beyt imamlarının həyatına, yaxud tarixin müqəddəs sirlərinə dair filmlərin hazırlanmasına və telekanallarda və kinoteatrlarda göstərilməsinə şəriətin münasibəti necədir?

Cavab: Onların şəxsiyyətinə qarşı dərin ehtiram prinsipinin qorunduğu və insanlarda həmin müqəddəs şəxsiyyətlərə qarşı mənfi düşüncələr yarada biləcək məqamlara yer verilmədiyi halda heç bir əngəl yoxdur.

Məsələ 586. Qurani-Kərimin nüsxəsini, ruzi-bərəkət, sağlamlıq və əmin-amanlıqla bağlı müxtəlif zikr və duaların yazıldığı müxtəlif əşyaları kafirlərə bağışlamaq olarmı?

Cavab: Həmin nüsxə və əşyaların hörmətsizliyə məruz qalmayacağı, əksinə dəyər verilərək ehtiramının lazımı şəkildə qorunacağı halda heç bir əngəl yoxdur.

Məsələ 587. Əlimizdə artıq lazım olmayan və üzərində Allahın müqəddəs adlarının, yaxud məsumların adlarının və ya Quran ayələrinin öz əksini tapdığı bir sıra vərəqlər, dəftərlər vardır. Onları şəriətdə tələb olunduğu kimi dənizə, yaxud çaya atmaq imkanımız isə yoxdur. Yaşayış və iş yerlərindəki zibil qutularındakı zibillərin də hara aparıldığı haqqında məlumatımız yoxdur. Bu halda nə etməliyik?

Cavab: Onları zibil qutularına atmaq olmaz. Çünki bu istənilən halda hörmətsizlik anlamı daşıyır. Lakin həmin yazıları kimyəvi maddələrlə də olsa

təmizləmək, yaxud təmiz bir yerə basdırmaq və ya cıraraq torpaqdan seçilməyəcək dərəcədə kiçik parçalara ayırmaq olar.

Məsələ 588. Hal-hazırda cəmiyyətimizdə geniş yayılan surətilə istixarə etmək şəriətin buyurduğu, bəyəndiyi bir əməldirmi və sədəqə verdikdən sonra istixarənin nəticəsinin istixarə edənin (yaxud etdirənin) istəyi ilə üst-üstə düşməsi üçün onun təkrarlanmasının bir zərəri varmı?

Cavab: İstixarə çaşqınlıqla üzləşdikdə hətta dərindən düşündükdən və başqaları məsləhətləşdikdən sonra da seçim edə, yaxud bir qərara gələ bilmədikdə ümid işığı görmək niyyəti ilə atılan bir addımdır və yalnız vəziyyət dəyişdikdə, yaxud sədəqə verdikdən sonra yenidən istixarə edilə bilər.

Məsələ 589. Müvəkkillərinizə dini rüsumlardan hansı məbləğ çərçivəsində xərcləməyə icazə vermişsiniz?

Cavab: İcazətnamələrimizdə onların yığdıqları dini rüsumların üçdə bir hissəsini, yaxud yarısını şəriət tərəfindən müəyyən edilmiş istiqamələrdə xərcləmələrinə icazə verildiyi öz əksini tapmışdır. Lakin bu o demək deyildir ki, dini rüsumları yığmağa icazə verdiyimiz şəxs (müvəkkil) həmin məbləği şəxsi əmlakı kimi mənimsəyərək istədiyi kimi xərcləyə bilər. Hətta bəzən müvəkkillərimizə yığdıqları rüsumlardan özlərinə ümumiyyətlə heç nə götürməyə icazə verilmir. Məsələn, müvəkkil seyid olarsa və yığdığı zəkatlar seyid olmayanlar tərəfindən verilərsə, ona həmin zəkatdan özü üçün götürməyə, yaxud xərcləməyə icazə verilmir.

Beləliklə, əgər müvəkkil vicdanının və Allahın qarşısında özünün əməliyyə risaləsində də öz əksini tapan qaydalar çərçivəsində həmin dini rüsumlardan yararlanmaq haqqına sahib olduğunu görərsə, o cümlədən, şəriətin qəbul etdiyi anlayış çərçivəsində yoxsul və zəkatın, yaxud xümsün seyidlərə aid hissəsinin (yalnız seyid olduğu halda), yaxud da rəddi-məzalimin [1] verilməli olduğu

[1] "Rəddi-məzalim" qul haqqının qaytarılması deməkdir. İnsan borc, yaxud qəsb yolu ilə alaraq mənimsədiyi və sonralar haqq sahibinin ölməsi, yaxud tapılmaması səbəbilə ona qaytara bilmədiyi pul və ya əmlakı, yaxud xərclədiyi halda onun mislini (məbləğini dəqiq xatırlamadığı halda isə təqribi hesabla) təqlid etdiyi müctəhidin icazə ilə onun adından yoxsullara sədəqə verməlidir.

şəxslərdən olarsa, həmin rüsumlardan yalnız ehtiyacı olan qədər və məişət durumuna müvafiq həcmdə özünə götürə və ya xərcləyə bilər.

Həmçinin, o, şəriətin ictimai cəhətdən faydalı hesab etdiyi bir işlə məşğul olaraq haqq dinin ucalması istiqamətində fəaliyyət göstərərsə, bu baxımdan da xümsün İmama aid hissəsindən dinə göstərdiyi xidmətinə müvafiq həcmdə zəhmət haqqı ala bilər.

Heç bir vəchlə yığdığı dini rüsumlardan özünə müəyyən məbləğdə götürmək haqğina sahib olmadıqda isə həmin vergilərin icazətnamədə göstərilən məbləğini şəriət tərəfindən müəyyən edilən istiqamətlərdə xərcləməlidir.

Məsələ 590. Əgər mükəlləfin təqlid etdiyi müctəhidin nümayəndəsinə barəsində dini rüsumları düzgün istiqamətdə məsrəf etdiyinə dair xəbərlər nəticəsində güvəni sarsılarsa:

a) Həmin xəbərlərin doğruluğuna əmin olmadığı halda insanlar arasında bu haqda danışa biləmi? Bəs əmin olduğu halda necə?

b) onun etibarlı bir adam olmadığına əmin olanadək dini rüsumlarını ona verməlidirmi?

Cavab: Hər iki halda həmin xəbərləri insanlara arasında yaymasına icazə verilmir. Lakin ikinci halda təqlid etdiyi müctəhidi lazımı tədbirləri görməsi üçün tam gizlilik çərçivəsində məsələdən xəbərdar edə bilər.

b) dini vergilərinə gəlincə, onları icazətnamə əsasında dürüstlüyünə, rüsumların bir qismini nəzərdə tutulan istiqamətdə xərcləyərək, qalan hissəsini isə təqlid etdiyi müctəhidə gödərdiyinə əmin olduğu şəxsə ödəməlidir.

Məsələ 591. Mərcəi-təqliddən icazə almadan xümsün səhmi-imam (İmamın haqqı) adlanan yarı hissəsini onu razı salacaq işlərdə sərf emək olarmı?

Cavab: Bu yolverilməz hesab olunur və imamın razılığı üçün ələm müctəhidin də icazə verməli olduğu nəzərə alındıqda ondan icazə almadan xümsün İmamın haqqı olan hissəsini xərcləmək İmamın (ə.f.) razılığını qazandırmaz.

Məsələ 592. On minlərlə mömінin bir tikə çörəyə və bir dəst geyimə möhtac olduğunu nəzərə alaraq xümsün imamın haqqı olan hissəsini xeyriyyəçilik fəaliyyətlərinə sərf etmək olarmı?

Cavab: Xümsün imamın haqqı olan hissəsini şəriətdə müəyyən olunan istiqamətlərdə önəm prinsipini (prioritetləri) nəzərə almaqla istifadə etmək lazımdır və bu prioritetlərin müəyyən edilməsi məsələyə hər bir cəhətdən vaqif olan ələm fəqihin səlahiyyətlərinə daxildir.

Məsələ 593. Bəzən yeməkdən sonra qabları yuyarkən düyü dənələri suya qarışaraq kanalizasiya borusuna axır. Miqdarından asılı olmayaraq yemək qalıqlarının kanalizasiya borusuna axıdılmasının qarşısını almaq vacibdirmi? Nəzərə almaq lazımdır ki, hər dəfə buna riayət etmək çox çətindir.

Cavab: Boşqab və ya digər qablarda qalan qida qalıqları heç olmazsa, heyvanların qidalanmasında belə istifadə edilə bilərsə, onları bu şəkildə israf etməyə icazə verilmir. Lakin olduqca az miqdardadırsa və ya qida kimi qəbulu sağlamlığa zərərli hesab edilərsə, insanların nəzərində Allahın nemətlərinə qarşı hörmətsizlik hesab edilmədiyi halda zibil qutusuna tökmək olar.

Məsələ 594. Bir şair poeziya gecəsi təşkil edərək istədiyi şəxsləri həmin məclisə dəvət edə bilərmi? Nəzərə almaq lazımdır ki, həmin yığıncağa gələnlər arasında hicabsız qadınlar da olacaqdır.

Cavab: Bunun üçün öz-özlüyündə heç bir əngəl yoxdur. Lakin o öz növbəsində şərtləri çərçivəsində əmr be və nəhy əz münkər vəzifəsini icra etməlidir.

Məsələ 595. Məktəblərdə şagirdlərdən insan və ya heyvan rəsmləri çəkmək tələb olunur. Şagirdlər bu tələbdən imtina etdikdə çətinliklə üzləşdikləri halda onların sözügedən rəsm tapşırıqlarını yerinə yetirmələrinə icazə verilirmi? Bəs tapşırıq rəsm deyil, heykəltaraşlıq işindən ibarət olsa necə?

Cavab: Təsviri incəsənət, yəni rəsm tamamilə sərbəstdir. Lakin vacib ehtiyata əsasən, canlıların heykəlini hazırlamaq olmaz. Sözügedən tapşırığın tədris proqramının tərkib hissəsi olması vacib ehtiyat hökmünü pozmağa bəraət qazandırmır. Zərurət halları, o cümlədən məktəbdən uzaqlaşdırılma kimi normal durumlarda ciddi sıxıntı hesab edilən arzuolunmaz nəticələrin qarşısının alınması halları isə istisna təşkil edir.

Məsələ 596. Tamamilə çılpaq qadın və ya kişini təcəssüm etdirən heykəlləri almaq olarmı? Həmçinin, heyvan fiqurunu təsvir edən heykəlləri alaraq dekorasiya kimi istifadə etmək olarmı?

Cavab: İkinci halla bağlı məhdudiyət yoxdur. Birinci sualda göstərilən halda isə fəsada (əxlaqi-mənəvi pozğunluğa) rəvac verəcəyi təqdirdə şəriət buna icazə vermir.

Məsələ 597. Əl və ya fincan falına baxanlar insanın hazırkı durumu və gələcəyi haqqında bəzi öncəgörmə iddiaları ilə çıxış edirlər. Xüsusilə, falına baxılan şəxsin bu öncəgörmələrə inanaraq addım atdığı hallarda şəriət buna icazə verirmi?

Cavab: Sözügedən öncəgörmələr əsassız hesab edildiyindən öncəgörmə iddiasında olan şəxslərə qətiyyət və əminliklə gələcəkdən xəbər verməyə, eləcə də falına baxılan şəxslərə də şəri, yaxud əqli dəlil əsasında hərəkət etməli olduqları məqamlarda onların öncəgörmələrinə əsaslanaraq hərəkət etməyə icazə verilmir.

Məsələ 598. Maqnetik yuxu (hipnoz seansı) və ruh çağırmağa şəriətimiz icazə verirmi?

Cavab: Şəriətin zərərə (fiziki, psixoloji, maddi və s.) uğradılmasını qadağan etdiyi (toxunulmazlıq hüququ olan) şəxslərə zərər yetirdiyi hallarda haram hesab edilir.

Məsələ 599. Möminlərin problemlərini həll etmək üçün cindarlıq etməyə icazə verilirmi?

Cavab: Bu xüsusa da öncəki məsələyə aid olan şəriət hökmü şamil olunur.

Məsələ 600. Sahiblərinin icazəsi ilə xoruz, yaxud buğa kimi heyvanları döyüşdürmək, onların yarışını təşkil etmək olarmı?

Cavab: Maddi zərərçəkməyə səbəb olmadıqca icazə verilir, lakin məkruh (bəyənilməz) hesab edilir.

Məsələ 601. Bəzi hallarda haramlıq hökmünün qüvvədən düşməsinə səbəb olan "çətin vəziyyət" anlayışı üçün bir çərçivə mövcuddurmu? Məsələn, qiymət artışı haram hökmü verilən bir işin icrasını "çətin vəziyyət" adı altında şəriət

tərəindən icazəli hesab etməyə əsas verirmi? Nəzərə almaq lazımdır ki, qiymət artışı problemini çətinliklə, yaxud borc bahasına da olsa həll etmək mümkündür.

Cavab: Bu xüsusda müxtəlif vəziyyətlərlə qarşılaşmaq mümkündür və meyar normal durumlarda dözülməz hesab edilən şiddətli məşəqqət (çətinlik) anlayışının özünü doğrultmasıdır.

Məsələ 602. Fiqhi ədəbiyyatda öz əksini tapan "qızıl noxud" anlayışı qızılı ölçmək üçün istifadə olunan misqal və qram kimi müasir çəki vahidləri ilə hansı miqdarı ifadə edir?

Cavab: "Noxud" zərgər misqalının 24-də bir hissəsinə bərabərdir və çəkisi (müasir ölçü vahidləri ilə) də məlumdur.[1]

## SON SÖZ

Əsərin sonunda onu da qeyd eməyi məqsədəuyğun hesab edirik ki, əsasən qərb ölkələrində məskunlaşan müsəlmanlar üçün qələmə alınmış ilk əsər olan bu kitab gələcəkdə onların fiqhi biliklərə ehtiyaclarını daha mükəmməl şəkildə ödəyə biləcək, həyatlarının müxtəlif sahələrini əhatə edərək müqəddəs İslam şəriətinin qayda-qanunları əsasında tənzimlənməsinə yardım edəcək müfəssəl bir əsərin hazırlanması üçün ciddi elmi tənqidə ehtiyac duyur.

Qeyri-müsəlman ölkələrində, xüsusilə də ABŞ və Avropa ölkələrində yaşayan müsəlman vətəndaşların, yaxud emiqrantların, eləcə də onların gələcək nəsillərinin sayında ciddi demoqrafik artım müşahidə edilməkdədir. Digər tərəfdən isə həmin cəmiyyətlərdəki inkişafın sürəti ilə paralel olaraq qarşıya çıxan aktual mövzular artdıqca şəriətin onlara münasibətini öyrənmək zərurəti də artır. Başqa sözlə gec qalmadan hərəkətə keçmək, qarşıya çıxa biləcək problemlərin öncədən qarşısının alınması üçün çalışmaq lazımdır.

Həmçinin, qeyd etmək lazımdır ki, xüsusən, maddi dəyərlərin hakim olduğu cəmiyyətlərdə oxuculara təqdim olunan əsərlərin İslami əxlaq elmi, özəlliklə də

[1] Hal-hazırda da bəzi müsəlman ölkələrində yerli zərgərlər tərəfindən çəki vahidi kimi istifadə edilən "noxud" çəki vahidi 4,608 qrama (təqribən bir karata) bərabərdir.

onun əməli aspektləri işığında insan ruhunun tərbiyə və mənəvi paklanması prinsipləri nəzərə alınaraq hazırlanması olduqca önəmlidir.

Biz də bu prinsipi əsas tutaraq əlinizdəki əsərin hər bir fəslində, bu və ya digər bir məsələdə üstün mənəvi dəyərlərin bir qisminə, İslamın təklif etdiyi təqdirəlayiq həyat yoluna aydınlıq gətirməyə çalışmış, bu məqsədlə bizi onlara doğru çağıran Qurani-Kərimin ayələrindən ilham alaraq, bu dəyərlərə və həyat yoluna sarı təşviq edən hədisi-şəriflərə istinad etmişik ki, bununla iki elm - əxlaq və fiqh arasında uzlaşmaya nail ola bilək. Bundan öncə də, *"əl-Fətava əl-müyəssərə"* (Sadələşdirilmiş fətvalar) əsərinin qələmə alınmasında sözügedən iki elm (əxlaq və fiqh) arasında düşüncə və əməl mərhələsində uzlaşmanın reallığını dərk edərək, həmçinin bu uzlaşmanın müsəlmanların (xüsusilə də qürbət ölkələrdə qeyri-müsəlmanlar xalqların nümayəndələrinin arasında yaşadıqları halda) gündəlik həyatlarında öz əksini tapmasına çalışaraq bu məqsədi sınaqdan keçirmişik. Ümidvarıq, məqsədimizə bir qədər də olsa, nail ola bilmişik.

Sonda Rəbbimizin yardımına ümid bağlayaraq ondan səylərimizi qəbul etməsini diləyirik. O, mərhəmətlilərin ən mərhəmətlisidir. Həmd olsun Aləmlərin Rəbbi olan Allaha! Allahın salamı olsun sərvərimiz Həzrət Məhəmmədə və onun pak soyuna!

# ƏLAVƏLƏR

## I ƏLAVƏ

## YEYİNTİ SƏNAYESİNDƏ İSTİFADƏ OLUNAN BAŞLICA HARAM QİDA MADDƏLƏRİ

İslam şəriəti müsəlmana qidalanmasında bir sıra yemək və içkilərdən istifadə etməyi haram (yasaq) etmişdir. Yeyinti sənayesi məhsullarının istehsalı ilə məşğul olan qeyri-müsəlman müəssisələri bu yasaqları nəzərə almadığından müsəlmanlar da öz növbəsində onların istehsal etdikləri qida, o cümlədən konserv məhsullarından istifadə edərkən şəriətin tələb etdiyi çərçivədə ehtiyatlı davranmalıdırlar.

Bu əlavədə qida məhsulların tərkibindəki haram qida maddələri ilə bağlı əldə etdiyimiz bəzi məlumatları sizinlə bölüşəcəyik. Qürbətdə yaşayışın problemləri ilə qarşılaşan müsəlmanları daha artıq çaşqınlıqla üzləşdirməmək üçün bu mövzuda təfsilata varmamağa çalışacağıq. Çünki İslam şəriəti bütün dəqiqliyinə və tələbkarlığına rəğmən, qanun və qaydalarının icrası asan olan bir şəriətdir. Bunu nəzərə alaraq, mövzunun başlanğıcında iki mühüm məqamı diqqətinizə çatdırmağı məqsədəuyğun hesab edirik:

1) Yeyinti sənayesi məhsullarının (yemək və içkilərin) istehsalında xammal kimi istifadə olunan məhsul və materialların bir qismi kimyəvi proseslər nəticəsində ürfən (insanların nəzərində) başqa bir maddə hesab olunacaq şəkildə dəyişərək ilkin xüsusiyyətlərini itirirlər. İstehsal prosesindən öncə xammal haram olsa belə, bu dəyişiklik həmin xammalın haram hökmünü ləğv edir. Fiqh ədəbiyyatında və eləcə də əməliyyə risalələrində haqqında danışılan “istihalə” məhz bundan ibarətdir və bu haldəyişmə şəriətdə paklayıcılardan biri hesab olunur. Məsələn, yeyilməsi haram olan heyvan mənşəli qida xammalı istihalə nəticəsində başqa bir qida maddəsinə çevrilərsə, yeyilməsi halallaşır.

2) Qida sənayesində xammal kimi istifadə olunan bəzi maddə və materialların mənşəyi dəqiq məlum olmayıb tərkibində həm halal, həm də haram mənşəli qida xammalı olduğu ehtimal olunur. Bu halda araşdırma aparmaq vacib deyil və tərkibi şübhəli olan həmin qidanın qəbuluna icazə verilir. Təbii ki, bu hökm təzkiyə olunub-olunmaması xüsusunda şübhələndiyimiz ət və ət məhsullarına şamil olunmur.

Məsələn, hər hansı konserv məhsulunun tərkibində həm heyvan mənşəli, həm də bitki mənşəli yağlardan istifadə etməklə alına bilən “Mono et diglycerides” (monoqliserid və ya diqliserid) maddəsinə rast gəlsəniz, bu qatqı maddəsinin heyvan mənşəli olması dəqiq məlum olmadığı halda araşdırmaq vacib deyil və qida məhsulu halal hesab edilir.

İndi isə yeyilməsi haram olan qida qatqı maddələri ilə bağlı bəzi məlumatları sizə təqdim edirik.

a) bitki və heyvan mənşəli yağlar:

İngiliscə “fat” və “shortening”, fransızca isə “matieres grasses” heyvan mənşəli yağ (və ya piy) deməkdir və adətən, bu ad altında təqdim olunan yağ məhsulları müxtəlif heyvan mənşəli yağlardan alınır və tərkibinə müəyyən miqdarda bitki mənşəli yağ inqredientləri də əlavə edilir.

Donuz mənşəli yağa isə ingiliscə “lard” və fransızca da “saindoux” deyilir.

ABŞ-da istehsal olunan bir sıra məhsulların üzərində isə “vegetable shortening” (bitki yağı) ifadəsinə rast gəlirik.[1] Lakin bu ifadəyə əsaslanmaq olmaz. Çünki yerli qanunvericiliyə görə, yeyinti sənayesi müəssisələrinə istehsal etdikləri məhsulun üzərinə bu etiketi vurmaq üçün onun tərkibinin 85-90%-nin bitki mənşəli yağlardan ibarət olması ilə kifayətlənməyə (beləliklə, 10-15% heyvan mənşəli yağlardan istifadə etməyə) icazə verilir.Məhsulun bitki mənşəli olduğuna dair arxayınlıq hasil edən ifadə isə “pure vegetable ghee” (əridilmiş xalis bitki yağı) və ya “pure vegetable shortening”dir. Xalis duru bitki yağı isə ingiliscə “pure vegetable oil” etiketi ilə ifadə olunur. Həmçinin, qeyd etmək lazımdır ki, qatı (dondurulmuş) bitki yağları da maye bitki yağlarının (molyekullarının) hidrogenlə zənginləşdirilməsi nəticəsində alınır.

Süddən alınan kərə yağı isə ingiliscə “butter”, fransızca “beurre” sözləri ilə ifadə olunur. Hal-hazırda satışda olan kərə yağları yalnız süddən alınan bitki yağlarıdır və onlarla qidalanmağa heç bir məhdudiyyət qoyulmur.

b) pendir məhsulları:

Pendir məhsullarının istehsalında bəzi insanların düşündüyü kimi donuz yağından istifadə olunmur. Lakin pendir istehsalalında inək, dana, donuz kimi heyvanların mədə şirəsi fermentindən (pepsin) alınan, ingiliscə “renin”, “rennet”, “pepsin”, fransızca isə “presure” adlanan qursaq mayasından istifadə edilir.

Donuzun mədə şirəsi fermentindən alınan qursaq mayasının istifadəsi haramdır. Şəriət qaydalarına müvafiq surətdə kəsilməyən inək və dananın mədə şirəsi fermentindən alınan qursaq mayası isə öz-özlüyündə pak və istifadəsi halal olsa da, alındığı qursaq, yaxud mədə divarları heyvanın digər orqanlarına rütubətli

---

[1] Haramlıq hökmü yalnız düzgün qaydada kəsilməyən və yeyilməsi halal olmayan heyvanların piyindən alınan yağlara şamil olunur, süddən alınan kərə yağına isə şamil olunmur.

halda toxunduğuna görə nəcis olur. Beləliklə, istehlakçı qursaqın özünün də mayanın hazırlanmasında istifadə edildiyinə əmin olmazsa, həmin pendir məhsulunu yeyə bilər.

Bununla yanaşı pendir istehsalında istifadə olunan digər növ qatqı maddələrinin də mənşəyinə diqqət yetirmək lazımdır. Onlardan bir qismi bitki mənşəlidir, digər qismi isə kimyəvi qatqılardan ibarətdir. Şəriət etibarilə, hər iki növ qatqı maddələrinin halallığına şübhə yoxdur. Müxtəlif növ pendir məhsullarının istehsalında istifadə olunan qida qatqı maddələri ilə bağlı (o cümlədən, pendir mayasının pak sayılmayan və istifadəsi haram edilən qursaq mayası olub-olmaması xüsusunda) şübhəyə düşdükdə isə həmin məhsulların halal olması qənaətinə gəlməliyik.

c) jele:

Jelatin istehsalında istifadə olunan jele isə heyvan mənşəli (sümük və ya başqa heyvan maddələrinin uzun müddət qaynadılmasından hasil olan) qəliz həlməşikdir. Lakin yeyinti sənayesi istehsalında bitki (o cümlədən, meyvə və yosun) mənşəli jele məhsullarından da istifadə edilir.

"Coca-cola", "Pepsi", "Seven up", "Canada dry" kimi spirtsiz qazlı içkilərə gəlincə, onların tərkibində heç bir heyvan mənşəli maddə və spirtə rast gəlinməmişdir.

Sonda qeyd etmək istəyirik ki, verilən məlumatlar əsasən, Çikaqo Şərq-Qərb Universitetinin rektoru Ph.D. Əhməd Hüseyn Səqrin bizə təqdim etdiyi məlumatlara əsaslanır. Bununla yanaşı, aşağıdakı mənbələrdən də istifadə olunmuşdur:

1) əl-Mausuə fi ulum ət-təbiə (1-2 cildlər), Eduard Qalib, Beyrut, 1965-1966.

2) Le Guide maraboutde la peche en mer Michel van Haver, Fransa, 1982.

3) Les poissons D'eau Douce – Jiri Cihar, Fransa, 1976.

4) Guide des Poissons D'eau Douce et peche Bent J. Muvs et preben Dahistrom, İsveçrə, 1981.

5) Encyclopedie İllustree des poissons Stansilav Frank, Paris.

6) Encyclopedie du Monde Mnimal Tome 4 (Les Poissons et Les reptiles) Maurice Burton, Bibliotheque Marabout, Paris.

## II ƏLAVƏ

## YEYİLMƏSİ HALAL OLAN BƏZİ PULCUQLU BALIQLAR

| | azər.0703717670 | rus. | ing. |
|---|---|---|---|
| 1 | sardina | сардина | sardine (pilchard) |
| 2 | sayda | сайда | coal fish (pollock) |
| 3 | karp (sazan) | карп | carp |

| | | | |
|---|---|---|---|
| **4** | **kefallar** | **кефалевые** | **mugil (mullets)** |
| **5** | **tunes** | **тунцы** | **tunny (tuna)** |
| **6** | **uzunüzgəc tunes** | **длиннопёрый тунец** | **white tunny** |
| **7** | **qızılbalıq** | **лосось** | **salmon** |
| **8** | **alabalıq** | **форель** | **trout** |
| **9** | **dəniz dili** | **морской язык** | **sole** |
| **10** | **siyənək** | **сельдь** | **herring** |
| **11** | **xanı balığı** | **окунь** | **perch** |
| **12** | **treska** | **треска** | **cod (codfish)** |
| **14** | **lavrak** | **лаврак** | **sea bass** |
| **15** | **çöprə balığı** | **вьюн** | **pond loach** |
| **16** | **durna balığı** | **щука** | **pike (esox)** |
| **17** | **koryuşka** | **европейская корюшка (снеток)** | **smelt** |
| **28** | **xarius** | **хариус** | **grayling** |
| **21** | **alosa** | **алозы** | **allice shad** |
| **22** | | **бычеглазы** | **catalufa (bigeye)** |
| **23** | **lilbalıq (tinqa)** | **линь** | **tench** |
| **24** | **şirbit** | **усач** | **barbel (barbus)** |
| **25** | **qızılüzgəclər** | **краснопёрки** | **rudd** |
| **26** | | **горчаки** | **bitterling** |
| **27** | | **верховка** | **blinca** |
| **28** | | **быстрянка** | **spirlin** |
| **29** | | **уклейка** | **bleak** |
| **30** | | **альпийская плотва** | **danube roach** |
| **31** | | **чехонь** | **sabre carp (sabrefish)** |
| **32** | **göy balıq** | **синец** | **zope** |
| **33** | | **золотистый спар** | **gilthead** |

| | | | |
|---|---|---|---|
| **34** | **qalxan balığı** | **камбала** | **flounder** |
| **35** | | **гладкий ромб** | **brill** |
| **36** | **xəşəm** | **жерех** | **asp** |
| **37** | **xanı balığı** | **обыкновенный ёрш** | **ruffe (pope)** |
| **38** | | **обыкновенный подуст** | **common nase** |
| **39** | **qara xanı balığı** | **чёрные окуни** | **black bass** |
| **40** | **qolavl balığı** | **елец** | **dace** |
| **41** | | **пагры** | **porgy** |
| **42** | **çömçə balığı** | **обыкновенная плотва** | **roach** |
| **43** | **qarasol balığı** | **рыбец, сырть** | **vimba** |
| **44** | **enlibaş balıq** | **язь** | **ide** |
| **45** | **qolyan** | **обыкновенный гольян** | **minnow** |
| **46** | **qolavl balığı** | **голавль** | **chub** |
| **47** | **skumbriya** | **скумбрия** | **mackerel** |
| **48** | **çapaq** | **лещ** | **(common) bream, (abramis brama)** |
| **49** | | **пагели, бесуги** | **red porgy** |
| **50** | **dabanbalığı** | **белый саргус, полосатый карась** | **sargo** |

## İSTİFADƏ OLUNAN ƏDƏBİYYAT


1) ***Qurani-Kərim.***

2) Məhəməd ibn Yəqub Kuleyni, ***Usul əl-Kafi,*** Dar əl-əzva, Beyrut, 1985 m.

3) Məhəmməd ibn Həsən Tusi, ***əl-Əmali,*** Müəssisətəl-vəfa, Beyrut, 1981 m.

4) Seyid İzzəddin Bəhrulülum, ***əl-İnfaq fi səbilillah,*** Dar əz-Zəhra, Beyrut, 1989 m.

5) Məhəmmədbaqir Məclisi, ***Bihar əl-ənvar,*** Müəssisətəl-vəfa, Beyrut, 1989 m.

6) Məhəmməd ibn Həsən Hürr Amili, ***Təfsili Vəsail əş-şiə,*** Alül-beyt li ihyaut-turas, Qum, 1409 h.q.

7) Məhəmməd ibn Həsən Tusi, ***Təhzib əl-əhkam,*** Dar əl-əzva, Beyrut, 1985 m.

8) Məhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyhi Qumi, ***Səvab əl-əmal və iqab əl-əmal,*** Müəssitəl-ələmi, Beyrut, 1983 m.

9) Məhəmmədmehdi Nəraqi, ***Cami əs-səadat,*** Müəssisətəl-ələmi lil-mətbuat, Beyrut, 1988 m.

10) Məhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyhi Qumi, ***əl-Xisal,*** Məktəbətəs-Səduq, Tehran, 1389 h.q.

11) Nəcib Yusif və Muhsin Ətəvi, ***Dəlil əl-muslim fi bilad əl-ğurbə,*** Dar ət-təaruf lil-mətbuat, Beyrut, 1988 m.

12) Seyid Əbdülhüseyn Dəstğeyb, ***əz-Zunub əl-kəbirə,*** əd-Dar əl-islamiyyə, Beyrut, 1988 m.

13) Seyid İzzəddin Bəhrulülum, ***əz-Zəvac fil-Quran vəs-sünnə,*** Dar əz-zəhra, Beyrut, 1984 m.

14) Seyid Məhəmmədtəqi Həkim, ***əz-Zəvac əl-muəqqət və davruhu fi həlli muşkilat əl-cins,*** Dar əl-əndəlus, Beyrut, 1963 m.

15) Əbdülhadi Məhəmmədtəqi Həkim, ***əl-Fətava əl-muyəssərə,*** Dar əl-muərrix əl-ərəbi, Beyrut, 1996 m.

16) Seyid Məhəmmədhadi Hüseyni Milani, ***Qadətuna kəyfə nərifuhum?,*** Müəssisətəl-vəfa, Beyrut, 1407 h.q.

17) Abdullah Himyəri, ***Qurb əl-isnad,*** Alül-beyt li ihyaut-turas, Beyrut, 1987 m.

18) əl-Məcmə əl-aləmi li Əhlil-beyt, ***əl-Kövsər (sınaq sayı),*** Qum, 1994 m.

19) Seyid Əbulqasim Musəvi Xoyi, ***əl-Məsail əş-şəriyyə,*** Məhəmmədrəfi Muərrifi müəssisəsi, Küveyt, 1996 m.

20) Seyid Əli Hüseyni Sistani, ***əl-Məsail əl-muntəxəbə,*** Dar əl-muərrix əl-ərəbi, Beyrut, 1994 m.

21) Mirzə Hüseyn Nuri, ***Müstədrək əl-vəsail,*** Alül-beyt li ihyaut-turas, 1987 m.

22) Hacı Şeyx Abbas Qumi, ***Məfatih əl-cinan,*** Müəssisətəl-ələmi lil-mətbuat, Beyrut, 1992 m.

23) Həsən ibn Fəzl Təbərsi, ***Məkarim əl-əxlaq,*** Dar əş-Şərif Rəzi, Qum, 1371 h.ş.

24) Seyid Əli Hüseyni Sistani, ***Mənasik əl-həcc,*** Dar əl-muərrix əl-ərəbi, Beyrut, 1994 m.

25) Məhəmməd ibn Əli ibn Hüseyn ibn Babəveyhi Qumi, ***Mən la yəhzuruhul-fəqih,*** Dar əl-əzva, Beyrut, 1985 m.

26) Seyid Əli Sistani, ***Minhac əs-salihin,*** Məhəmmədrəfi Muərrifi müəssisəsi, Küveyt, 1996 m.

27) Seyid Şərif Rəzi, ***Nəhcül-bəlağə,*** Sübhi Salehin redaktəsi ilə, Dar əl-kutub əl-Lubnani və məktəbətəl-mədrəsə, Beyrut, 1982 m.